


# ƏDƏBİYYAT

# 7

## METODİK VƏSAİT

layihə

Aynur Cəfərqızı, Soltan Hüseynoğlu

# ƏDƏBİYYAT 7

Ümumi təhsil müəssisələrinin
7-ci sinifləri üçün ədəbiyyat
fənni üzrə dərsliyin
metodik vəsaiti

Layihə

Bu nəşrlə bağlı irad və
təkliflərinizi bn@bakineshr.az və
derslik@edu.gov.az
elektron ünvanlarına
göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən
təşəkkür edirik!

BAKI NƏŞR

# B A Ş L I Q L A R

Dərslik komplekti haqqında ................................................ 4
Dərsliyin quruluşu və təlim konsepsiyası ............................ 4
Bədii əsərlərin öyrənilməsi dərslərinin təşkili ..................... 6
Layihələr üzrə işin təşkili.................................................. 11
Ədəbiyyat təlimində inteqrasiya ....................................... 11
Müasir pedaqoji texnologiyalar və ədəbiyyat təlimi.......... 12
Ədəbiyyat fənn kurikulumu .............................................. 15
Planlaşdırma...................................................................... 22
Şagird nailiyyətlərinin qiymətləndirilməsi......................... 42

**TƏLİM MATERİALLARI ÜZRƏ İŞİN TƏŞKİLİ**

Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir ........... 45

**ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN SEÇMƏLƏR**

Çahargah əfsanəsi ............................................................. 47
Yoxsul qocaynan vəzir ..................................................... 51
Koroğlu ilə Dəli Həsən ..................................................... 56
Nəsirəddin Tusi ilə bostançı...............................................62
*Kiçik summativ qiymətləndirmə vasitələri* . ...................... 65
Ədəbi mövzuda esseni necə yazmalı ................................ 69
Ədəbi mövzuda essenin yazılması ................................... 71

**YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏSİ**

Səməd Vurğun. Azərbaycan .............................................. 74
Mirzə İbrahimov. Azad...................................................... 82
*Kiçik summativ qiymətləndirmə vasitələri* ......................... 91
Mühakimə xarakterli esseni necə yazmalı ......................... 92
Mühakimə xarakterli essenin yazılması ............................. 94
Rahil Məmməd. Qələbə müjdəsi........................................ 96
Ramiz Qusarçaylı. Yurd sevgisi...................................... 102
*Kiçik summativ qiymətləndirmə vasitələri* ...................... 105
Ədəbi mövzuda məktubu necə yazmalı ........................... 107
Ədəbi mövzuda məktubun yazılması...............................109

Layihə

## MƏNƏVİ DƏYƏRLƏR. YAŞAYAN HİKMƏTLƏR

Abbasqulu ağa Bakıxanov. Ümidin boşa çıxması ...........112
Layihələr üzrə təqdimatlar ..............................................117
Layihələr üzrə təqdimatlar ..............................................118
Layihələr üzrə təqdimatların müzakirəsi..........................118
*Kiçik summativ qiymətləndirmə vasitələri* .......................119
Mehdi Hüseyn. Kərəm əfsanəsi ......................................119
Rəsul Rza. Açın qapıları, insan gəlir...............................125
Gi de Mopassan. Balaca çəllək........................................130
*Kiçik summativ qiymətləndirmə vasitələri* .......................138
Süleyman Rüstəm. Duz-çörək..........................................142

## UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ

Ənvər Məmmədxanlı. Qızıl qönçələr...............................146
Narıngül Nadir. Peşmanlıq...............................................154
*Kiçik summativ qiymətləndirmə vasitələri* .......................159
Elçin Hüseynbəyli. Nəvə..................................................162
Südabə Sərvi. Məktəb yolları...........................................170

## TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI

Zahid Xəlil. Torpağın məhəbbəti ....................................173
Bayram Həsənov. İki bala................................................179
*Kiçik summativ qiymətləndirmə vasitələri* .......................186
Əli Səbri. Sədaqət ...........................................................191
Tofiq Nurəli. Payız nəğməsi ............................................199
Layihələr üzrə təqdimatlar ..............................................203
Layihələr üzrə təqdimatlar ..............................................205
Layihələr üzrə təqdimatların müzakirəsi..........................206
*Kiçik summativ qiymətləndirmə vasitələri* .......................207

Layihə

## DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Yeddinci sinif üçün ədəbiyyat dərslik komplekti aşağıdakı komponentlərdən ibarətdir:

- Dərslik
- Metodik vəsait

*Dərslik* ədəbiyyat fənn kurikulumunun tələbləri əsasında hazırlanmışdır. Onda ilk növbədə təhsil proqramında əsaslandırılmış məzmun standartlarının reallaşdırılması vəzifəsi diqqət mərkəzində saxlanmışdır. Bu məqsədlə müvafiq tədris materialları müəyyənləşdirilmiş və dərsliyə daxil edilmişdir.

Beş bölməni əhatə edən dərslikdə mövzular problem-mövzu üzrə qruplaşdırılmışdır. Onlar söz sənətinin daha çox müraciət etdiyi həyati məsələ və problemlərlə bağlıdır. Bölmələr üçün yazılmış yığcam icmallarda mövzu-problem barədə təsəvvür yaradılmış, mənimsəniləcək bilik və bacarıqlar barədə yığcam məlumat verilmişdir. Konkret əsərin öyrənilməsinə ayrılmış dərslər diqqətə çatdırılmış, hər birinə aid olan sual və tapşırıqlar başlıqlarla və rəqəmlərlə fərqləndirilmişdir.

*Metodik vəsaiti* şərti olaraq iki hissəyə ayırmaq olar. Birincidə – məlumat xarakterli ümumi hissədə dərsliyin məzmun və struktur xüsusiyyətləri və metodoloji konsepsiyası əhatə edilmişdir:

- VII sinifdə ədəbi təhsilin əsas prinsipləri
- Ədəbiyyat təlimində tətbiq olunan başlıca strategiyalar
- Bədii əsərlərin öyrənilməsi üzrə dərslərin təşkili
- İllik planlaşdırma
- Altstandartların təlim nəticələri üzrə mənzərəsi

İkinci hissədə – ayrı-ayrı dərslərin şərhində aşağıdakılara diqqət yetirilmişdir:

- Standartlar üzrə təlim nəticələri
- Motivasiya üzrə tövsiyələr
- Təlim texnologiyaları üzrə tövsiyələr
- Əsərin öyrənilməsinin müxtəlif mərhələləri üzrə istiqamətləndirici tövsiyələr
- Yazı bacarığının inkişaf etdirilməsi üzrə tövsiyələr
- Dərslərin fərqli variantlarda təşkili üzrə tövsiyələr
- Formativ qiymətləndirmə meyarları, üsul və vasitələri

## DƏRSLİYİN QURULUŞU VƏ TƏLİM KONSEPSİYASI

Bədii əsərlər dərslikdə beş bölmədə qruplaşdırılmışdır. Bölmələrin adlandırılması aşağıdakı kimidir:

1. Şifahi xalq ədəbiyyatından seçmələr
2. Yurd sevgisi, qəhrəmanlıq səhifələri
3. Mənəvi dəyərlər, yaşayan hikmətlər
4. Uşaq düşüncəsi, uşaq taleyi
5. Təbiətin gözəlliyi, təbiətə qayğı

Dərslikdə əhatə olunmuş digər məsələlər aşağıdakı başlıqlarla əks etdirilmişdir:

- Esseni necə yazmalı
- Ədəbi məktubu necə yazmalı
- Layihələr üzrə iş
- İfadəli oxuda istifadə edilən şərti işarələr
- Lüğət
- Ədəbiyyatşünaslıq terminlərinin izahı
- Oxumağı məsləhət görürük

layihə

Dərsliyə bölmələrin adlarına uyğun əsərlər daxil edilmişdir. Birinci bölmədə şifahi xalq ədəbiyyatından nümunələr, digər bölmələrdə isə klassik və müasir ədəbiyyatımızdan seçmələr əhatə edilmişdir. Nümunələr müəyyənləşdirilərkən onların ideya-bədii dəyəri, mənəvi-estetik tərbiyədə rolu, növ və janr müxtəlifliyi, şagirdlərin yaş və qavrama səviyyəsinə, maraq dairəsinə uyğunluğu mühüm meyarlar kimi diqqət mərkəzində saxlanmışdır.

Ədəbi-nəzəri anlayışların mahiyyəti sinfin səviyyəsinə uyğun şərh edilmiş, əvvəllər qazanılmış biliklərlə əlaqələndirilmişdir. Fənn kurikulumunun tələbinə əsasən *təkrir, mənzum hekayə, novella* və s. anlayışlar haqqında məlumat verilmiş, mənimsənilənlərin möhkəmləndirilməsi və tətbiqi üzrə sistemli iş aparılmışdır.

Bədii əsərlərin təlim modeli belə müəyyənləşdirilmişdir:

*oxu-anlama → möhkəmləndirmə-zənginləşdirmə → araşdırma-təhlil → tətbiq-ümumiləşdirmə.*

**Oxu-anlama –** bədii əsərin oxusu, ilkin qavranılmasıdır.

**Möhkəmləndirmə-zənginləşdirmə –** oxu prosesində bədii əsərlə bağlı mənimsənilmiş bilik və bacarıqların tapşırıqların tətbiqi ilə möhkəmləndirilməsi və zənginləşdirilməsidir.

**Araşdırma-təhlil** – mənimsənilənlərin tədqiqat əsasında dərinləşdirilməsi, təhlillə bağlı bilik və bacarıqların inkişaf etdirilməsidir.

**Tətbiq-ümumiləşdirmə** – qazanılmış bilik və bacarıqların yeni təlim materialı üzrə tətbiq edilməsi, dərinləşdirilməsi və ümumiləşdirilməsidir.

Təklif edilmiş təlim modeli aralıq tapşırıqları da (öyrəndiklərinizi yoxlayın, nitqin, düşüncənin inkişafı və s.) əhatə edir.

Tətbiq-ümumiləşdirmə dərslərində mövzular göstərilən mərhələlərin qarşılıqlı əlaqədə tətbiqi ilə mənimsənilir və təhsilalanların maksimum fəallığı, müstəqilliyi təmin edilir.

Aşağıdakı izahlar dərslikdəki rubrikaların mahiyyəti barədə təsəvvür yaradır.

**Yadasalma.** Şagirdlərin mövzu ilə bağlı əvvəlki siniflərdə mənimsədikləri bilik və bacarıqlarına istinad edilməsinə imkan yaradır. Bu qəbildən suallardan motivasiya yaratmaq üçün də istifadə etmək mümkündür.

**Oxu. Anlama.** Bədii əsərin ilkin oxusunun həyata keçirilməsi məqsədini daşıyır. Bu oxu əsər haqqında ilkin təəssüratın yaranmasına, deməli, ilkin qavramaya imkan yaradır. İlkin qavramanın səviyyəsi təəssüratların bölüşülməsi məqsədilə təklif edilmiş sualların əsasında aşkara çıxarılır. Bu, növbəti addımda həyata keçirilməli olan işin məzmununa təsir edir. Hansı məsələlərə diqqət etməyin lazım olduğu müəyyənləşdirildiyindən sualların tərtibi çətinlik törətmir. Beləliklə, əsərin ideya məzmununun daha dərindən öyrənilməsi üçün dərslikdə təklif edilmiş suallar üzrə işin təşkili vacib olur. Sualların əksəriyyəti açıq tipli, bir qismi qapalıdır. Bu suallara sinfin səviyyəsindən, ilkin qavramanın nəticəsindən asılı olaraq əlavələrin edilməsi məqsədəuyğundur.

İşin bu ardıcıllıqla təşkili şagirdlərdə mətni anlayaraq oxumaq bacarığının inkişafına əhəmiyyətli təsir edir.

**Öyrəndiklərinizi yoxlayın.** Əsərin bütövlükdə qavranılma səviyyəsinin yoxlanılması məqsədilə test tapşırıqları təklif edilmişdir. Cavab variantlarında əsərin ideya məzmununun əhatə edilməsinə səy göstərilmişdir. Bu, mənimsəmənin səviyyəsi ilə bağlı şagirdlərin özlərində aydın qənaətin yaranmasına səbəb olur.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Tapşırıqlar fərqli məqsədlər üçün nəzərdə tutulmuşdur: oxunmuş əsərin ideya məzmunu üzrə öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi; ədəbi-nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqi və s.

**Xatırlatma. Dərinləşdirmə.** Mənimsənilmiş ədəbi-nəzəri anlayışların dərinləşdirilməsini, yeni bilik və məlumatların izahını özündə əks etdirir.

**Nitqinizi və düşüncənizi zənginləşdirin**. Rəngarəng tapşırıqların əsasında əsərin ideya məzmununun dərindən mənimsənilməsinə, müstəqil yanaşmanın, nitq inkişafı üzrə bacarıqların formalaşmasına xidmət edir.

Layihə

**Yaradıcı iş.** Yaradıcılıq qabiliyyətlərinin inkişafına imkan yaradan tapşırıqları əhatə edir. Bədii mətn (hekayə), elmi-publisistik üslubda yazı (ədəbi məktub), əsərin məzmununa uyğun əlavələrin yazılması və s. bu qəbildəndir.

**Müzakirə.** Əsərin öyrənilməsinin müxtəlif mərhələlərində tətbiq edilir. Müzakirənin müxtəlif formalarından (debat və s.) istifadə etməklə fərqli suallara cavabların tapılmasına və problemlərin əməkdaşlıq şəraitində həllinə imkan yaradır.

**Araşdırma. Təhlil.** Şagirdləri araşdırma aparmağa, Blum taksonomiyasının ən yüksək səviyyələrinə uyğun müstəqil işləri icra etməyə istiqamətləndirir. Bədii əsərin öyrənilməsinə həsr edilmiş ilk dərslərdə mənimsənilmiş bilik və bacarıqlara, eləcə də qazanılmış təcrübəyə istinad edilir.

**İfadəli oxuya hazırlaşın.** Bədii əsərin öyrənilməsinin yekunu kimi dəyərləndirilir. Əsəri duyan, ondakı hiss və düşüncələrə ortaq olan şagird ideya məzmunu emosional-obrazlı çatdırmaqda çətinlik çəkmir. Bu, əsərin qavranılması və dəyərləndirilməsinin göstəricisi kimi qiymətləndirilir.

**Növbəti dərsə qədər.** Şagirdlərə növbəti dərsdə öyrənəcəkləri əsəri asudə vaxtlarında mütaliə etmələri tövsiyə olunur. Dərsliyə daxil edilmiş nisbətən irihəcmli hekayələrin dərsə qədər mütaliə edilməsi sinifdə təşkil olunan işin səmərəliliyinə əhəmiyyətli təsir göstərir. Belə ki, artıq oxunmuş əsərin məzmununun necə mənimsənildiyini – ilkin qavrama səviyyəsini qısa vaxtda aşkara çıxaran müəllim dərsdə digər tapşırıqların yerinə yetirilməsinə kifayət qədər vaxt ayıra bilir.

## BƏDİİ ƏSƏRLƏRİN ÖYRƏNİLMƏSİ DƏRSLƏRİNİN TƏŞKİLİ

Məktəbdə bədii əsərin öyrənilməsi, əsasən, aşağıdakı mərhələlər üzrə həyata keçirilir:
– əsərin oxusu;
– məzmunun mənimsənilməsi;
– əsərin təhlili.

Oxu üzrə işin təşkili, bu prosesdə ədəbi növ və janrların özünəməxsusluğunun nəzərə alınması və s. barədə elmi-metodik ədəbiyyatda az danışılmamışdır. Bu işin səmərəliliyi üçün maraqlı iş növləri təklif edilmiş və fərqli strategiyaların tətbiqi yollarına aydınlıq gətirilmişdir. Bütün bunlar təsadüfi deyildir: oxunun səmərəli təşkili əsərin öyrənilməsinin sonrakı mərhələlərində uğurlu nəticələrin əldə edilməsinə əhəmiyyətli dərəcədə təsir edir. Xarici ölkələrin təcrübəsindən aydınlaşır ki, onlarda bədii əsərin oxusuna daha çox vaxt və diqqət ayırlmaqla məzmunun bütövlükdə mənimsənilməsi həyata keçirilir. Bu mərhələdə həmçinin təhlil xarakterli suallardan, tapşırıqlardan geniş istifadəyə yer verilir. Metodik ədəbiyyatımızda, məktəb təcrübəsində geniş işlənilən "məzmun üzrə iş" anlayışına xarici ədəbiyyatda rast gəlinmir. Dərsliyin konsepsiyasına uyğun olaraq, oxunun funksiyası genişləndirilmişdir.

Əsərin sinifdə ilkin oxusu müdaxilə olmadan reallaşdırılır. Bu oxunun hansı səviyyədə olması, başqa sözlə, ilkin qavramanın keyfiyyəti dərslikdə təklif edilmiş sualların əsasında aşkara çıxarılır. Bu məqsədlə dərslikdə "Əsərdə sizi daha çox maraqlandıran nə oldu?", "Hansı epizodu daha maraqla oxudunuz?", "Murad haqqında ilkin təəssüratınız nə oldu?", "Səlimə xanımın övladına münasibətində sizin üçün yeni, fərqli olan nədir?" səciyyəli suallar əks etdirilmişdir.

Təcrübədən məlumdur ki, ilkin oxuda sezilməyən məsələlər az olmur. Məsələn, hadisələrin səbəb-nəticə əlaqələri, əsərdəki "gizli mətləblər", müəllifin qəhrəmanlara münasibəti və s. bu qəbildəndir. Oxudan əvvəl şagirdlərə təqdim edilən suallar da bu çatışmazlığı aradan qaldırmır; oxuda əndişə içində bu suallara cavab axtaran şagirdlər digər mühüm məsələlərə diqqət yetirmirlər.

Deməli, bütün hallarda mətnə yenidən müraciət etməyə ehtiyac yaranır. İlkin oxunun nəticələri nəzərə alınmaqla hazırlanmış suallar ikinci – dərinləşdirilmiş oxudan əvvəl şagirdlərə təqdim olunur. İlkin oxuda diqqətli olan şagirdlər dərinləşdirilmiş oxuya az vaxt sərf edirlər. Başqa sözlə, onlar ikinci mütaliədə *sürətli oxudan* istifadə edir, mətndə özlərinə lazım olan məlumatları aydınlaşdırırlar. Bu



Layihə

mərhələdə şagirdlərin *seçmə oxu, qeydlər aparmaqla oxu, qeyri-ardıcıl oxudan* istifadə etmələri məqsədəuyğundur.

Dərslikdə dərinləşdirilmiş oxudan əvvəl təklif edilən suallar, əsasən, düşündürücü olub ideya məzmuna daha dərindən nüfuz edilməsi məqsədini güdür. Nümunə olaraq aşağıdakıları göstərmək olar:

– Dəli Həsənin Koroğluda yaratdığı ilk təəssürat necə olur?
– Dəli Həsənin kobud davranışına Koroğlunun təmkinli yanaşmasının səbəbi nə idi?
– Bu münaqişə olmaya bilərdimi?
– Koroğlu münaqişədən yayınmaq üçün bütün imkanlardan istifadə etdimi?
– Koroğlunun son məqama qədər ehtiyatlı davranmasına səbəb nə idi?

Dərinləşdirilmiş oxunun səviyyəsi ilk növbədə test tapşırıqlarından istifadə ilə yoxlanılır. Bu tapşırıqlarda əsərin ideya məzmunu ilə bağlı mənimsənilənlərin əhatə edilməsinə səy göstərilmişdir. Tapşırıqların forma rəngarəngliyinə xüsusi diqqət yetirilmişdir. Bunu nümunələrdən müşahidə etmək olar.

**ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

**1. Fikirlərdən biri səhvdir.**

A) Ehtiyac içində yaşayan uşaqlar ağır işdə çalışmağa məcbur idilər.
B) Firuz baba yoxsul olsa da, daxilən zəngin insandır.
C) Yoldaşları Sürəyyaya qayğı ilə yanaşırlar.
D) Ağır işdə çalışan Firuz baba çox vaxt yorulur, işləyə bilmir və onlar Sürəyyanın qazancına möhtac qalırdılar.
E) Uşaqlar karxanada gündəlik muzd qarşılığında işləyirdilər.

**2. Boş xanaları uyğun fikirlərlə tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. | Sürəyya şikəst olmuş, ayaqları hərəkətdən düşmüşdü. |
| 2. | Qoca Firuzun Sürəyyadan başqa, dünyada heç kəsi qalmamışdı. |
| 3. Sürəyyanın toxuduğu qönçələr bütün karxanada məşhur idi. | |
| 4. Firuz baba odun üçün pul qazanmağı qarşısına məqsəd qoymuşdu. | |

**MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

Fərqli şəkildə hazırlanan tapşırıqlar əsərin məzmununun daha dərindən mənimsənilməsi, eləcə də ədəbi-nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi və zənginləşdirilməsi məqsədini güdür. Tapşırıqlara əsərdəki mətləblərin müəyyənləşdirilməsi, eləcə də aydınlaşdırılmış bədii təsvir və ifadə vasitələrinin mətndən seçilmiş cümlələrə artırılması kimi tələblər daxil edilmişdir. Dərslikdəki tapşırıqlara aid nümunələr:

1. Mətndə rast gəldiyiniz bədii təsvir və ifadə vasitələrinin növünü müəyyənləşdirin.
2. Daha maraqlı hesab etdiklərinizdən ikisini cümlələrdə işlədin.
3. Oxunan nümunələrə münasibət bildirin.

Yaxud:

1. Əsərdə ifadə olunmuş başlıca mətləbləri müəyyənləşdirib qısaca qeyd edin.



Layihə

2. Əsərdə bədii təsvir və ifadə vasitələri işlənmişdirmi? Nümunələr göstərin.
3. Bağbanın xarakterinə, yaxud davranışına uyğun epitet işlətməklə bir cümlə yazın.
4. Hökmdarın xarakterinə, yaxud davranışına uyğun bənzətmə işlətməklə bir cümlə yazın.
5. İşinizin nəticəsini müzakirə edin.

## Nitqin, düşüncənin inkişafı

Bədii əsərin öyrədilməsinə həsr olunan ilk dərslərdən nitq inkişafı üzrə işin təşkilinə ayrıca diqqət yetirilir. Tapşırıqlar mətn üzərində düşünməyi mühüm tələb kimi qarşıya qoyur. Nağıletmənin hər üç forması (yığcam, geniş, yaradıcı) mətnə fərqli yanaşmanı zəruri edir. Onlardan biri (yığcam) əhəmiyyətli ümumiləşdirmə aparmağı, digəri (geniş) mətnin özünəməxsusluğunu nəzərə almaqla yanaşı, öz mövqeyini də ortaya qoymağı, üçüncüsü (yaradıcı) məzmuna uyğun geniş təsvirlər əlavə etməklə nağıletməni nəzərdə tutur.

Bu başlıq altında şifahi və yazılı təqdimatlardan istifadə tələbinə geniş yer verilmişdir.

Tapşırıq nümunləri:

1. Mənasını yeni öyrəndiyiniz sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edin. Fikrinizi nümunələrlə əsaslandırın.
2. Mətndən seçdiyiniz parçanın məzmununu yaradıcı danışmağa hazırlaşın.
3. Çıxışlara münasibət bildirin.

Yaxud:

**1. Mövzulardan birini seçib təqdimata hazırlaşın.**

a) Hekayə mənə oxuduğum hansı əsəri xatırlatdı.

b) Əsərdən seçdiyiniz parçanın məzmununu geniş danışın.

**2. Çıxışlara münasibət bildirin.**

**XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ**

Əvvəlcədən mənimsənilmiş nəzəri anlayışların dərinləşdirilməsini, yeni bilik və məlumatların izahını özündə əks etdirir. Yeni ədəbi-nəzəri anlayışların tətbiqi üzrə iş ardıcıl olaraq həyata keçirilir. Nümunəyə nəzər salaq:

*Bilirsiniz ki, hekayə kiçik həcmli nəsr əsəridir. Unutmayın ki, hekayə həm nəsr, həm də nəzm formasında olur. Nəsrlə yazılan hekayəyə mənsur hekayə də deyilir. Mənzum hekayə isə nəzmlə yazılır, şeir şəklində olur. Mənzum hekayələr mövzuca zəngindir. Belə əsərlərin mərkəzində əsas qəhrəmanın həyatının bir səhnəsi, başına gələn mühüm bir hadisə yığcam şəkildə təsvir olunur. Bu əsərlərdə müəllif, həmçinin bir və ya bir neçə adamla bağlı əhvalatı, onların qarşılıqlı əlaqəsini əks etdirir.*

*Mənzum hekayənin digər nəzm əsərləri, eləcə də lirik şeirlərlə oxşar və fərqli cəhətləri var. Həm mənzum hekayə, həm də şeir nəzm əsəri olduğu üçün onlarda müəyyən ölçülər gözlənilir, qafiyə sistemi olur. Lakin şeirdə sənətkarın hiss və duyğularına geniş yer verilirsə, mənzum hekayədə, artıq deyildiyi kimi, müəyyən hadisənin təsviri, eləcə də təhkiyə əhəmiyyətli yer tutur. Mənzum hekayədə təsvir olunanlardan ibrətli nəticənin çıxarılmasına önəm verilir.*

Leylinə

**MÜZAKİRƏ**

Bədii əsərin öyrənilməsinin müxtəlif mərhələlərində tətbiq edilən müzakirə fərqli mövzularda olur. Müzakirə birbaşa əsərlə əlaqədar olduğu kimi, onda qaldırılan həyati problemə uyğun mözu üzrə də təşkil edilə bilər. Bunu aşğıdakı nümunələrdə müşahidə etmək mümkündür.

**1. Aşağıdakı mövzular üzrə müzakirəyə hazırlaşın.**

a) Hekayə hansı mövzuda yazılmışdır.

b) Əsərdə əsas konflikt nədir.

**2. Müzakirədə fəal iştirak edin.**

Yaxud:

1. "Təbiətin və heyvanlar aləminin etibarlı qorunması üçün ən sərt qərar qəbul edilməldir" mövzusunda debata hazırlaşın.
2. Lehinə, yaxud əleyhinə olmaqla əsaslandırılmış dəlillər hazırlayın.
3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

**YARADICI İŞ**

Şagirdlərdə problemə, məsələyə yeni yanaşma, eləcə də fərdi yaradıcılıq bacarığının inkişafı üçün nəzərdə tutulmuşdur. Məsələn, tapşırıq bədii mətnə müvafiq yazılı əlavələrin edilməsi üzrə müstəqil işin təşkili şəklində reallaşdırılır.

Tapşırıq nümunəsi:

1. Əfsanənin davamını yığcam yazmaqla alimin sonrakı taleyi barədə düşüncələrinzi ifadə edin.
2. Nəticəni müzakirə edin.

Müstəqil yazılan hekayə ilə bağlı tapşırıqlar təklif edilir.

Tapşırıq nümunəsi:

**1. Sadə süjetli, kiçik həcmli hekayə yazmağa hazırlaşın. Kiçik qruplarda birləşərək aşağıdakı işləri ardıcıllıqla yerinə yetirməyə çalışın:**

– hekayənin mövzusunu müəyyənləşdirin (bunun üçün oxucuların diqqətini hansı mühüm həyati məsələyə yönəltmək istədiyinizi aydınlaşdırın);

– əsas süjet xətti barədə fikir mübadiləsi aparın (təsvir olunacaq əhvalat və hadisələr barədə ilkin qənaətlərinizi bölüşün);

– düşündüyünüz ideyanın konfliktin yaranmasına səbəb olub-olmayacağını müəyyən edin;

– hekayənin necə bitəcəyi ilə bağlı düşüncələrinizi müzakirə edin.

**2. Qrup sözçülərinin təqdimatlarını dinləyib münasibət bildirin.**

**3. Bəyəndiyiniz təqdimat əsasında sonrakı fəaliyyətinizi planlaşdırıb işinizi davam etdirin.**

**İFADƏLİ OXUYA HAZIRLAŞIN**

Bədii əsərin öyrənilməsi və dəyərləndirilməsi vasitəsi kimi qiymətləndirilən ifadəli oxu müxtəlif ədəbi növdə olan əsərlərinin tədrisində tətbiq olunur.

Bu oxunun həyata keçirilməsi üçün əvvəlki siniflərdə mənmsənilmiş bilik və bacarıqlardan geniş istifadə olunur, işin səmərəli təşkili məqsədilə təlimatlar əks etdirilir.

Dərslikdən nümunəyə nəzər salaq.

**I. Hekayədən seçilmiş parçanın ifadəli oxusuna hazırlaşın. Aşağıdakı tələbləri ardıcıl olaraq yerinə yetirin.**

1. Əsərdən parçanı bir daha oxuyun.
2. İfaçılıq vəzifəsini – dinləyicilərə nəyi çatdıracağınızı müəyyənləşdirib mətnin sağ kənarında yazın.

3. Cümlələrin oxusunda səsinizin aldığı çalarları (kədər, hüzn və s.) ifaçılıq vəzifəsinin altında qeyd edin.
4. Fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyən edib şərti işarələrlə göstərin.
5. Tənəffüs məqamlarını (dərindən nəfəsalma: Dn, əlavə nəfəsalma: Ən) müəyyən edib mətnin üzərində qeyd edin.
6. Sait və samit səslərin müxtəlif məqamlarda tələffüzünə diqqət yetirin.

| **İfadəli oxunacaq parça** | **İfaçılıq vəzifəsi** |
|---|---|
| Dəstə Arazın bəri tayına keçib yenə yaylaqlara üz tutdu. Kərəm bulud kimi tutulmuşdu, ömründə bu qədər qəmgin və ümidsiz olmamışdı. Obalar arana köçürdülər. Dağların döşü ilə uzanan dar, əyri-üyrü yolları qoyun sürüləri tutmuşdu. Hər tərəfdə hay-haray qalxmışdı.Yanıqlı mahnı səsləri yamaclarda əks-səda verir, ürəkləri dağlayırdı. Kərəm də, yoldaşları da bədbin idilər. Qürbət diyarlarda sərgərdan gəzməkdən artıq cana doymuşdular. | ................................<br>**Səsin aldığı çalarlar**<br>................................ |

**II. İşinizin nəticəsini aşağıdakı qaydalara uyğun yoxlayın.**
1. İcra etdiklərinizi nəzərdən keçirib dəqiqləşdirmələr aparın.
2. Gəldiyiniz nəticələri cütlük şəklində, yaxud kiçik qruplarda müzakirə edin.
3. İfaları dinləyib münasibət bildirin.

Dərsliyə daxil edilmiş bir sıra tapşırıqlar təkmilləşdirilmiş təhsil proqramının tələbinə əsasən fərqli yanaşma tələb edir. Məsələn, əsərin mövzusunun müəyyənləşdirilməsi və şərhi, adətən, təhlil dərslərində həyata keçirilirdi. Dərslikdə, kurikulumun tələbinə uyğun olaraq, əsərin mövzusunun müəyyənləşdirilməsi ilk dərsdə – oxu və məzmunun öyrənilməsində həyata keçirilir. Bu, şagirdlərin ilkin qənaətləri şəklində olur. Müəllim məsələnin həllini öz üzərinə götürmür və şagirdləri araşdırmalarını növbəti dərsdə dərinləşdirməyə istiqamətləndirir. Beləliklə, mövzu ilə bağlı qənaətin dəqiqləşdirilməsi təhlilə həsr olunmuş dərsdə gerçəkləşdirilir.

Təkmilləşdirilmiş təhsil proqramının (kurikulumun) tələbinə əsasən VII sinifdə bədii yaradıcılıq nümunəsi olaraq *hekayənin* yazılması üzrə işin təşkili həyata keçirilir. Bunun yerinə yetirilməsi bir neçə həftə çəkir. Şagirdlər hər dəfə aldıqları konkret tapşırıq-tövsiyə əsasında işləyir, vaxtaşırı müzakirə, fikir mübadiləsi aparır və işi başa çatdırırlar.

Bədii əsərlərin öyrənilməsinə həsr olunmuş dərslərdə tapşırıqlar reallaşdırılması nəzərdə tutulmuş standartlar üzrə tətbiq edilir. Bir dərs saatı üçün dərslikdə təklif edilmiş tapşırıqların hamısından istifadə məsələsi sinfin səviyyəsindən asılıdır. Dərslikdəki nisbətən irihəcmli əsərlərlə bağlı 18, 20 və 31 saylı məktəblərdə aparılan yoxlama-sınaq dərslərində bir daha aydınlaşdı ki, oxu texnikasına və sürətli oxuya yiyələnmiş sinifdə nəzərdə tutulmuş tapşırıqların bütünlüklə yerinə yetirilməsi çətinlik törətmir. Tapşırıqların hamısının dərsdə icra etdirilməsi, sinfin səviyyəsindən asılı olaraq, mümkün olmaya bilər. Belə məqamlarda yerinə yetirilməyən tapşırığın hansı standartla bağlı olduğunu nəzərdə saxlamaq və növbəti dərslərdə həmin standarta diqqət yetirmək lazım gəlir.

Layihə

Dərsliyə daxil edilmiş irihəcmli hekayələrin dərsə qədər müstəqil mütaliə edilməsi səmərəli nəticə verir. Əslində, bu, metodikada çoxdan əsaslandırılmış ciddi tələbdir: həcmi nisbətən böyük olan əsərlər sinifdən asılı olmayaraq dərsə qədər mütaliə edilməlidir.

Dərslikdə verilmiş epiqraf şagirdlərin yazıçı ilə ilk görüşüdür. Onunla bağlı işi elə təşkil etmək lazımdır ki, yazıçının şəxsiyyətinə və yaradıcılığına maraq oyansın. Bu iş fərqli formalarda ola bilər. Məsələn, epiqrafın müstəqil oxusu təşkil olunduqdan sonra yığcam müsahibə aparmaqla qazanılmış təsəvvürün dərinləşdirilməsi və zənginləşdirilməsi həyata keçrilə bilər. Yaxud müstəqil oxudan sonra şagirdlərdə yaranmış sualların əsasında müzakirə təşkil etmək mümkündür.

Bədii əsərlərin məzmununun öyrənilməsində nağıletmənin hər üç növündən (yığcam, geniş, yaradıcı) istifadə edilmişdir. Nağıletmə üçün seçilmiş parçanın həcmindən asılı olmayaraq, onların *plan* əsasında danışılmasına diqqət yetirilməlidir. Dərslikdə bunun hər dəfə təkrarlanması məqsədəuyğun sayılmamışdır.

## LAYİHƏLƏR ÜZRƏ İŞİN TƏŞKİLİ

Layihələr üzrə iş üçün I yarımildə 3 saat və II yarımildə 3 saat olmaqla cəmi 6 saat nəzərdə tutulmuşdur. İlk iki saatın layihələrin təqdimatına, sonuncu saatın isə müzakirəyə həsr edilməsi təcrübədə özünü doğrultmuşdur. Müəllim məqsədindən asılı olaraq fərqli yol seçməkdə sərbəstdir. Dərslikdə verilmiş layihə nümunələrinə yaradıcı yanaşılması məqsədəuyğundur. Müəllim məqsədindən, sinfin səviyyəsindən, şagirdlərin arzu və istəklərindən çıxış etməklə qərar qəbul edə bilər.

Şagirdlərdə fəallığın və müstəqilliyin inkişafında əhəmiyyətli rolu olan layihələrin səmərəliliyi onun necə təşkil edilməsindən asılıdır. Layihələrin hazırlığı üzrə işə yarımillərin əvvəlindən başlanır. İlk növbədə planlaşdırma işinin reallaşdırılması vacibdir. Buna mövzunun müəyyənləşdirilməsi ilə başlanılır. Şagirdlərin fəal iştirakı ilə layihələrin proqramı hazırlanır. Onlar proqramın tələblərinə uyğun olaraq fəaliyyətə başlayır, müəllimin tövsiyələri əsasında işi davam etdirirlər. Layihələrin icrası üçün müəyyənləşdirilmiş əsərlərin oxusu diqqət mərkəzinə çəkilir. Əsərlərin müstəqil oxusuna nəzarət, oxunun nəticələrinin vaxtaşırı müzakirə edilməsi həyata keçirilir.

Layihələrin məzmunu, yerinə yetirilməsi və müzakirənin təşkili dərslikdə konkret nümunələrin timsalında şərh edilmişdir.

## ƏDƏBİYYAT TƏLİMİNDƏ İNTEQRASİYA

Ədəbiyyatın tədrisi prosesində inteqrasiya imkanları genişdir. Bu, fənnin mahiyyətindən irəli gəlir. Məlumdur ki, fənnin əsasında bədii əsərlərin öyrənilməsi dayanır. Əsərin öyrənilməsinin bütün mərhələləri qarşılıqlı əlaqədə olduğu kimi, əvvəlki mövzular üzrə mənimsənilmiş bilik və bacarıqların ardıcıl tətbiqi də zəruri olur. Eləcə də əvvəlki siniflərdə öyrənilmiş ədəbi-nəzəri anlayışlardan müntəzəm istifadəyə ehtiyac yaranır. Təsadüfi deyildir ki, ədəbiyyat fənn kurikulumunda fəndaxili və fənlərarası inteqrasiya prinsip səviyyəsində dəyərləndirilmişdir.

Təkmilləşdirilmiş təhsil proqramında məzmun xətti daxilində inteqrasiya imkanları diqqət mərkəzində saxlanmışdır. Bunu aşağıdakı nümunədə görmək mümkündür.

| | |
|---|---|
| 7-1.1.3. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | 7-1.2.1. Əsərdə bədii təsvir və ifadə vasitələrini rolunu izah edir. |
| 7-1.1.7. Şeirdəki mətləbləri müəyyən edir. | 7-1.2.2. Əsərin əsas ideyasını şərh edir. |
| 7-1.3.2. Epik əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | 7-1.4.3. Epik əsərdə bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir. |
| 7-1.3.6. Epik əsərdəki əsas konflikti müəyyənləşdirir. | 7-1.4.5. Əsərin ideyasının müəyyənləşdirilməsin-də əsas konfliktin rolunu izah edir. |

Proqramda inteqrasiya imkanı məzmun xətləri arasındakı əlaqələri də əhatə etdiyindən müxtəlif məzmun xəttinə aid standartlara müraciət edilməklə təlimdə uğur qazanmaq mümkündür. Aşağıdakı nümunədən göründüyü kimi, proqramın məzmun xətləri üzrə bir-birini tamamlayan altstandartalarının inteqrativ reallaşdırılması imkanları az deyildir.

| Məzmun xətti: 1. Oxuma, anlama və təhlil | Məzmun xətti: 2. Nitq və ünsiyyət |
|---|---|
| 7-1.1.1. Bədii nümunələrdə tanış olmayan Sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır. | 7-2.2.4. Mənasını yeni öyrəndiyi sözlərdən cümlədə üslubi məqamda uyğun istifadə edir. |
| 7-1.4.1. Obrazları müqayisəli səciyyələndirir. | 7-2.2.6. Ədəbi mövzuda essedə obrazlara müqayisə əsasında münasibət bildirir. |
| 7-1.1.4. Əsərin mətnini anlayaraq oxuyur. | 7-2.1.2. Çıxışının məzmununu məntiqli ifadə edən təqdimat hazırlayır. |

Fənlərarası inteqrasiyanın reallaşdırılması ədəbiyyatın tədrisində fərqli formalarda özünü göstərir. Bu, bəzən epizodik xarakterdə olur. Əksər hallarda isə dərsə hazırlıq zamanı planlaşdırılır. Belə məqamlarda o, vaxt baxımından dərsdə əhəmiyyətli yer tutur. Bu da məlumdur ki, yeni təlim materialının öyrənilməsində, möhkəmləndirilməsində, eləcə də tətbiqində digər fənlər üzrə mənimsənilmiş bilik və bacarıqlara müraciət olunur. Məsələn, Azərbaycan dili, tarix fənləri ilə bağlı öyrənilənlərdən ədəbiyyat dərslərinin, demək olar, hamısında istifadə etmək üçün əlverişli imkan yaranır.

Ədəbiyyat dərslərində dilçiliyin bütün şöbələri ilə bağlı mənimsənilmiş biliklərlə əlaqənin yaradılması mümkün və faydalıdır.

Dərsə hazırlıq mərhələsində müəllim digər fənlər üzrə hansı məlumatlara müraciət edəcəyi üzərində düşünür. Bu məqsədlə hansı suallardan, tapşırıqlardan istifadə edəcəyini aydınlaşdırıb qeydlər edir. Təbiidir ki, bu əlaqələrin yaradılması yeni təlim materialının asan və dərindən mənimsənilməsinə imkan yaratmaqla məhdudlaşmır. O həmçinin cəlb olunanların yeni şəraitdə nəzərdən keçirilməsinə, incəliklərinin başa düşülməsinə səbəb olur.

Təcrübə göstərir ki, təlimdə inteqrasiyanın təmin edilməsi təhsilalanlarda fəallığın artmasına, müstəqil fəaliyyətə meyilin güclənməsinə səbəb olur. Bu istiqamətdə işin müntəzəm təşkili şagirdlərdə yeni bacarığın formalaşmasına imkan yaradır; məktəblilər ədəbi fakt və hadisələrlə səsləşən digər fənn üzrə biliklərini müstəqil olaraq xatırladır, onlara əsaslanmağa səy edirlər.

Layihə

## MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR VƏ ƏDƏBİYYAT TƏLİMİ

Elmi-texniki tərəqqi pedaqoji sahədən yan keçmir, onda daim yeniliklərin yaranmasına səbəb olur. Hazırda yeni təlim texnologiyaları, onların mahiyyəti, əhəmiyyəti və tətbiqi yolları ilə bağlı pedaqoji ədəbiyyatda geniş fikir mübadiləsi aparılır. Bu texnologiyalar fərqli şəkildə (inkişafetdirici təlim, problemli təlim, interaktiv təlim və s.) adlandırılsa da, şagird fəallığının, müstəqilliyinin ön plana çəkilməsi baxımından mahiyyətcə oxşardırlar. Başqa sözlə, yeni təlim texnologiyaları təhsilalanların tədqiqatçı mövqeyində olmasını, biliklərin qazanılmasında fəal iştirakçı kimi çıxış etməsini əsas götürür.

Bu və ya digər texnologiyanı əvəzedilməz hesab etmək yanlış yanaşmadır. Deməli, təlim texnologiyalarını bir-birinə qarşı qoymaq, onlardan birini digərinin hesabına üstün saymaq doğru sayıla bilməz. Müasir dərsin uğurlu olması müxtəlif təlim texnologiyalarının qarşılıqlı əlaqədə tətbiqindən asılıdır.

1990-cı illərin sonlarında məktəblərimizdə böyük maraq göstərilən və *fəal/interaktiv təlim* adlandırılan yeni yanaşma ilə bağlı xeyli təcrübə qazanılmışdır. Ədəbiyyat dərslərində Venn diaqramı, BİBÖ, müzakirə, şaxələndirmə və s. metodlardan istifadə olunur.

Ədəbiyyatın tədrisi metodikası üzrə araşdırmalarda, dərsliklər üzrə metodik vəsaitlərdə bu qəbildən metodların mahiyyətindən, tətbiqi yollarından əhatəli danışılmışdır.

Pedaqoji ədəbiyyatda *keys-metod*, eləcə də dünyada maraqla qarşılanan və tətbiqi gündən-günə genişlənən layihə – TTİMY (tənqidi təfəkkürün inkişafında mütaliə və yazı) barədə geniş məlumat verilmiş, müxtəlif fənlər üzrə dərs nümunələri üzərində dayanılmışdır.

Müxtəlif texnologiyaların eyni təlim vasitələrindən yararlanma halları çoxdur. Bunların sırasında təlim metodları və priyomlar (texnikalar) da yer alır. Lakin dərsin məzmunu, strukturu baxımından texnologiyaların arasında fərq az deyildir. Son illərin araşdırmaları təsdiq edir ki, dərsin mərhələlərini süni şəkildə artırmaq və tələblərini genişləndirmək xeyirdən çox zərər verir. Elə buna görə də inkişaf etmiş ölkələrin təcrübəsində dərsin sərt reqlamentinin aradan qaldırılması baş verməkdədir. Bizdə geniş yayılmış fəal/interaktiv təlimə məxsus dərsin ən zəif cəhəti onda vaxt qıtlığının yaranmasıdır. Bu təkcə mərhələlərin çoxluğu ilə yox, həm də onlarda yerinə yetirilən işlərin mürəkkəbliyi və xeyli vaxt tələb etməsi ilə izah olunur. Yeni biliyi tədqiqatçı qismində mənimsəyən şagirdin dərsdə təlimi tapşırıqların öhdəsindən gəlməsi üçün düşünmək imkanı xeyli məhdud olur. Təsadüfi deyildir ki, xaricdə son illər *sərbəst dərs, qeyri-standart dərs* anlayışlarının əsaslandırılması və tətbiqi daha geniş vüsət almışdır. Təəssüf ki, bizdə yeni dərs tiplərinin, növlərinin müəyyənləşdirilməsi, eksperiment yolu ilə sınaqdan keçirilməsi və dəyərləndirilməsi istiqamətində tədqiqatlar ya aparılmır, ya da çox ləng həyata keçirilir.

Dərs ilk növbədə çevikliyi ilə diqqəti çəkməlidir. Çoxlu sayda mərhələləri özünə daxil edən dərs praktikada özünü doğrultmur və o, gec-tez ömrünü başa vurur. Görünür, pedaqoji tədqiqatlarda müxtəlif təlim texnologiyalarına məxsus dərsin uğurlu cəhətlərinin əlaqələndirilməsi əsasında yeni dərs tipi və növlərinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanmalıdır. Unudulmamalıdır ki, fərqli təlim texnologiyalarına məxsus dərsin yaxşı cəhətlərinin seçilərək əlaqələndirilməsi və tətbiqi bu günün ən mühüm tələblərindən sayılır. Metodik vəsaitdə təklif edilmiş dərs nümunələrində bu tələbin gözlənilməsinə səy göstərilmişdir. Dərslərin hamısında şagirdlərin araşdırmaya cəlb olunması, biliklərin qazanılmasında subyekt mövqeyində dayanması, əməkdaşlığın təmin edilməsi, qiymətləndirmənin obyektivliyinə nail olunması diqqət mərkəzində saxlanmışdır. Bunu son vaxtlar populyarlıq qazanmış və tətbiqinə yer verilmiş aşağıdakı dərs modelində də (beş mərhələsi vardır) müşahidə etmək olar.

- Maraqoyatma (motivasiya, cəlbetmə)
- Araşdırma
- İzahetmə
- Möhkəmləndirmə
- Qiymətləndirmə

**Maraqoyatma.** Bu, araşdırılacaq problemə (öyrəniləcək mövzuya) maraq oyatmaq, şagirdlərin diqqətini cəlb etmək məqsədi daşıyır. O, şagirdlərin mövcud biliklərinə əsaslanmaqla suallar və digər

Layihə

vasitələr (rəmzi materiallar) əsasında reallaşdırılır. Bu mərhələdə şagirdlərin ilkin (mövcud) bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqələrin yaradılması, növbəti mərhələlərdəki fəaliyyətin səmərəli təşkili məqsədi diqqət mərkəzində saxlanılır.

Göründüyü kimi, bu, "motivasiya, problemin qoyuluşu" mərhələsi ilə xeyli dərəcədə səsləşir və burada da bir sıra hallarda tədqiqat sualının formalaşdırılması gerçəkləşdirilir.

**Araşdırma.** Bu mərhələdə şagirdlərin müstəqil fəaliyyəti aparıcı yer tutur. Həlli tələb olunan problemin mahiyyətinin aydınlaşdırılması, çıxarılmış nəticənin əsaslandırılması diqqət mərkəzində saxlanılır. Bu mərhələdə kiçik qruplarda iş aparıcı mövqedə olmur. Araşdırmanın aparılmasında fərqli iş formalarının (fərdi, cütlük şəklində, kiçik qruplarda, eləcə də bütün siniflə birgə iş) tətbiqi məqsədəuyğun hesab edilir. Əldə edilmiş məlumatın müzakirəsində də rəngarəngliyə diqqət yetirilir: yığcam şifahi və yazılı təqdimatların səsləndirilməsi, qısa məruzələrin dinlənilməsi və s. bu qəbildəndir. Müzakirənin dialoq əsasında təşkili daha çox şagirdin əhatə olunmasına imkan yaradır.

**İzahetmə.** Bu mərhələnin başlıca vəzifəsi mənimsənilmiş biliklərin əlaqələndirilməsi, sistemə salınması, ümumiləşdirilməsi və nəticənin çıxarılmasıdır. Bütün bunların uğurla həyata keçirilməsi müəllimdən yüksək səriştə, çevik fəaliyyət, istiqamətləndirici suallardan məqamındaca istifadə bacarığı tələb edir. Müəllimin bu mərhələdə digər və daha mühüm işi yeni anlayışların, qanunauyğunluqların əsaslı şəkildə qavranılması məqsədilə izah və şərhlərdən istifadə etməsidir.

**Möhkəmləndirmə.** Mənimsənilmiş bilik və bacarıqların möhkəmləndirilməsi, dərinləşdirilməsi və zənginləşdirilməsi məqsədilə təklif edilən tapşırıqlarda həm də tətbiqlə bağlı tələblər yer alır.

**Qiymətləndirmə.** Bu mərhələ dərsin məqsədləri üzrə mənimsənilənlərin səviyyəsini aşkara çıxarmağa xidmət edir. Qiymətləndirmə altstandartların əsasında müəyyənləşdirilmiş təlim nəticələri tətbiq edilməklə həyata keçirilir.

Təlim texnologiyasının, dərs tipi və növünün tətbiqi şərtləri çoxdur. Reallaşdırılması nəzərdə tutulan məzmun standartları, təlim materialının xarakteri, tətbiq edilənlərlə bağlı müəllimin nə dərəcədə məlumatlı olması, sinfin səviyyəsi bu qəbildəndir. Buradan həm də aydınlaşır ki, çoxvariantlılıq ədəbiyyat dərsləri üçün səciyyəvidir. Bu və ya digər təlim materialının (mövzunun) öyrənilməsi üçün variantlardan hansının daha optimal olduğunu müəllim təcrübəyə əsaslanmaqla müəyyənləşdirir.

Layihə

## ƏDƏBİYYAT FƏNN KURİKULUMU

Ədəbi təhsilin əsas məqsədi təhsilalanları Azərbaycan, qismən də dünya klassiklərinin ideya-bədii cəhətdən seçilmiş əsərləri ilə tanış etmək, onlarda müstəqil düşüncə, mütaliə mədəniyyəti, bu zəmində zəngin mənəviyyat, bədii-estetik zövq, nitq bacarıqları tərbiyə etməkdir. Buna uyğun olaraq ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) ümumi orta təhsil səviyyəsində aşağıdakı vəzifələrin həyata keçirilməsini təmin edir:

– söz sənətinin – şifahi və yazılı ədəbiyyatın xalqın mənəvi sərvəti olması, həyatı, taleyüklü məsələləri özünəməxsus bədii vasitələrlə əks etdirməsi barədə şagirdlərdə dolğun təsəvvür yaratmaq;
– milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırmaq, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığını inkişaf etdirmək;
– ədəbiyyat nəzəriyyəsi üzrə zəruri biliklərə və mütaliə mədəniyyətinə yiyələnən şagirdlərdə konfliktlərə, problemlərə, ədəbi nailiyyətlərə əsaslandırılmış münasibət formalaşdırmağı təmin etmək.

Müəyyənləşdirilmiş məzmun xətlərinin əsas məqsədi məhz budur. Məzmun xətləri aşağıdakılardır:

– oxuma, anlama və təhlil;
– nitq və ünsiyyət.

Kurikulum sənədinin konsepsiyasına uyğun olaraq əvvəlki siniflərdə mənimsənilmiş bilik və bacarıqlar 7-ci sinifdə dərinləşdiriləcək və zənginləşdiriləcəkdir. Bu sinifdə ədəbiyyat fənninin qarşısında duran vəzifələrin reallaşdırılmasına hər iki məzmun xətti öz töhfəsini verir.

Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə aşağıdakı təlim nəticələrinə 7-ci sinif üçün müəyynləşdirilmiş məzmun standartları əsasında töhfə verilir:

– bədii mətnləri obrazlı-emosional xüsusiyyətlərinə görə ifadəli oxuyur;
– oxuduğu ədəbi nümunələri təhlil edir;
– şifahi və yazılı ədəbiyyatın, ədəbi janrların səciyyəvi cəhətlərini izah edir;
– bədii mətnlərdəki ideyanı milli-mənəvi və ümumbəşəri dəyərlərlə əlaqələndirir;
– yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir;
– görkəmli ədəbi simalar və əsərlər haqqında məlumatlı olduğunu nümayiş etdirir.

Layihə

## VII SİNİFDƏ STANDARTLAR ÜZRƏ REALLAŞDIRILACAQ BACARIQLAR

### 1. Oxuma, anlama və təhlil

Şagird:

**7-1.1. Lirik əsərləri, mənzum hekayələri oxuyur və anlayır.**

7-1.1.1. Bədii nümunələrdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə etməklə aydınlaşdırır.

- Heca vəznli şeirlərdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır.
- Sərbəst şeirlərdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır.
- Süjetli bədii nümunələrdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir.

7-1.1.2. Əsərdə ahəng yaradan vasitələri (misra, qafiyə, rədif, misradaxili bölgü) müəyyənləşdirir.

- Heca vəznli şeirlərdə ahəng yaradan vasitələri (misra, qafiyə) müəyyənləşdirir.
- Heca vəznli şeirlərdə ahəng yaradan vasitələri (misra, qafiyə, rədif, misradaxili bölgü) müəyyənləşdirir.
- Heca vəznli şeirlərdə ahəng yaradan vasitələri (misra, bənd, rədif, misradaxili bölgü, məntiqi fasilə) müəyyənləşdirir.
- Heca vəznli şeirlərdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) müəyyənləşdirilir.
- Sərbəst şeirlərdə ahəng yaradan vasitələri (misra, qafiyə) müəyyənləşdirir.
- Mənzum hekayələrdə ahəng yaradan vasitələri (misra, qafiyə) müəyyənləşdirir.
- Əsərdə ahəng yaradan vasitənin (qafiyənin) uğurlu olduğunu müəyyələşdirir.

7-1.1.3. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.

- Heca vəznli şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
- Sərbəst şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
- Heca vəznli və sərbəst şeirlərdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir.
- Süjetli bədii nümunələrdə təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
- Süjetli bədii nümunələrdə təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi nitqində istifadə edir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir.

7-1.1.4. Əsərin mətnini anlayaraq oxuyur.

- Əsərin ilkin oxusunda yaranan təəssüratını izah edir.
- Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını izah edir.
- Əsərin ilkin oxusunda başlıca mətləblərin əlaqələri haqqında yaranan təəssüratını izah edir.

7-1.1.5. Əsərin janrını müəyyənləşdirir.

- Heca vəznli şeirlərin janr xüsusiyyətlərini müəyyənləşdirir.
- Sərbəst şeirlərin janr xüsusiyyətlərini müəyyənləşdirir.
- Süjetli nəzm əsərlərinin janr xüsusiyyətlərini müəyyənləşdirir.

7-1.1.6. Əsərin vəznini müəyyənləşdirir.

- Heca vəznli şeirlərin vəzn xüsusiyyətlərini müəyyənləşdirir.
- Sərbəst şeirlərin vəzn xüsusiyyətlərini müəyyənləşdirir.
- Süjetli nəzm əsərlərinin vəzn xüsusiyyətlərini müəyyənləşdirir.

7-1.1.7. Şeirdəki mətləbləri müəyyən edir.
- Heca vəznli şeirlərdə mətləbləri müəyyən edir.
- Sərbəst şeirlərdə mətləbləri müəyyənləşdirir.
- Süjetli nəzm əsərlərində mətləbləri müəyyənləşdirir.
- Heca vəznli və sərbəst şeirlərdə mətləblərin əlaqələrini müəyyənləşdirir.
- Süjetli nəzm əsərlərində mətləblərin əlaqələrini müəyyənləşdirir.

7- 1.1.8. Əsərin mövzusunu müəyyən edir.
- Heca vəznli şeirlərin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir.
- Sərbəst şeirlərin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir.
- Süjetli nəzm əsərlərinin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir.

**7.1.2. Şeir və mənzum hekayə nümunələrinin təhlili üzrə bacarıqlar nümayiş etdirir.**

7-1.2.1**.** Əsərdə bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir.
- Heca vəznli şeirlərdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir.
- Sərbəst şeirlərdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir.
- Süjetli nəzm əsərlərində təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir.

7-1.2.2. Əsərin əsas ideyasını şərh edir.
- Əsərin əsas ideyasını şərh edir.
- Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu şərh edir.
- Əsərin əsas ideyasını dəyərləndirir.

7-1.2.3. Şeiri, mənzum hekayədən bitkin parçanı məntiqi oxunun ifadəlilik vasitələrinin tələblərinə və əsərin ideyasına uyğun oxuyur.
- Heca vəznli və sərbəst şeirləri məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyalarına uyğun ifadəli oxuyur.
- Süjetli nəzm əsərindən bitkin parçanı məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyalarına uyğun ifadəli oxuyur.

**7-1.3. Epik əsərləri oxuyur və anlayır.**

7-1.3.1. Epik əsərlərdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır.
- Epik əsərlərdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir.

7-1.3.2. Epik əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
- Epik əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
- Epik əsərdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi nitqində istifadə edir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir.

- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir.

7-1.3.3. Epik mətni anlayaraq oxuyur.

- Əsərin ilkin oxusunun yaratdığı təəssüratı izah edir.
- Əsərin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı izah edir.
- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir.
- Əsərin ilkin oxusunun başlıca mətləblərin əlaqələri haqqında yaratdığı təəssüratı izah edir.

7-1.3.4. Epik əsərin mövzusunu müəyyənləşdirir.

- Epik əsərin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir.
- Epik əsərin mövzusu ilə bağlı ilkin qənaətlərini əsərdəki başlıca mətləblərə əsaslanmaqla izah edir.

7-1.3.5. Epik əsərdə hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.

- Epik əsərdə hadisələrin əlaqələrini müəyyənləşdirir.
- Epik əsərdə hadisələrin səbəb-nəticə əlaqələrini izah edir.
- Epik əsərdə hadisələrin obrazlara təsirini izah edir.

7-1.3.6. Epik əsərdəki əsas konflikti müəyyənləşdirir.

- Epik əsərdəki əsas konflikti müəyyənləşdirir.
- Epik əsərdə konfliktdə olan tərəflərin mövqeyini izah edir.

7-1.3.7. Bədii nümunələri janrlarına görə fərqləndirir.

- Bədii nümunələri janrlarına görə fərqləndirir.
- Bədii nümunələrin janr xüsusiyyətlərini müəyyənləşdirir.
- Bədii nümunələrin janr baxımından oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirir.

7-1.3.8. Müəllifin obrazlara münasibətini müəyyənləşdirir.

- Müəllifin obrazlara münasibətini müəyyənləşdirir.
- Müəllifin obrazlara münasibətini müqayisə əsasında izah edir.

7-1.3.9. Epik əsərdən bitkin parçanın məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir.

- Epik əsərdən bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun danışır.
- Epik əsərdən bitkin parçanın məzmununu geniş nağıletmənin tələblərinə uyğun danışır.
- Epik əsərdən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır.

**7-1.4. Epik nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.**

7-1.4.1. Obrazları müqayisəli səciyyələndirir.

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir.
- Obrazları xarakter, nitq, əməl və davranışlarına görə müqayisə edir.
- Obrazları xarakter, həyata baxış, davranış və nitqlərinə görə müqayisə edir.
- Obrazları xarakterlərinə görə müqayisə edir.
- Obrazları xarakter, davranış və əməllərinə görə müqayisə edir.
- Obrazları talelərinə görə müqayisə edir.
- Obrazları nitqlərinə görə müqayisə edir.
- Obrazları portretlərinə görə müqayisə edir.

7-1.4.2. Əsas və əlavə süjet xətlərinin əlaqələrini izah edir.

- Əsas və əlavə süjet xətlərini izah edir.
- Əsas süjet xəttinin mərhələlərini izah edir.
- Əsas və əlavə süjet xətlərinin əlaqələrini izah edir.
- Əsas və əlavə süjet xətlərini nümunələr əsasında izah edir.



Layihə

7-1.4.3. Epik əsərlərdə bədii təsvir və ifadə vasitələrinin rolunu izah edir.

- Epik əsərlərdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir.
- Epik əsərlərdə müəyyənləşdirdiyi təsvir və ifadə vasitələrindən şifahi nitqində istifadə edir.
- Epik əsərlərdə müəyyənləşdirdiyi təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir.
- Epik əsərlərdə müəyyənləşdirdiyi təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir.

7-1.4.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini məzmunlarına görə müqayisə edir.

- Nağıl və hekayə nümunələrini məzmunlarına görə müqayisə edir.
- Əfsanə və hekayə janrında olan əsərlərin məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirir.
- Rəvayət və hekayə nümunələrini məzmunlarına görə müqayisə edir.
- Nağılla mənzum hekayənin məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirir.

7-1.4.5. Əsərin ideyasının müəyyənləşdirilməsində əsas konfliktin rolunu izah edir.

- Epik əsərin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla izah edir.

7-1.4.6. Epik əsərin əsas ideyasını şərh edir.

- Epik əsərin əsas ideyasını şərh edir.
- Epik əsərin əsas ideyasını yozum əsasında şərh edir.
- Epik əsərin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir.

7-1.4.7. Epik əsərdən bitkin parçanı ifadəlilik vasitələrinin tələblərinə və əsərin ideyasına uyğun oxuyur.

- Epik əsərdən bitkin parçanı məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur.
- Epik əsərdən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur.
- Epik əsərdəki bitkin parçanı ideyasına uyğun emosionallıqla ifadəli oxuyur.

7-1.4.8. Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələri dəyərləndirir.

- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir.
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əlaqələrini dəyərləndirir.

**7.1.5. Publisistik və məlumatlandırıcı mətnləri oxuyur və anlayır.**

7-1.5.1. Publisistik və məlumatlandırıcı mətnlərdə tanış olmayan sözlərin mənasını müxtəlif mənbələrdən (lüğət, sorğu kitabları) istifadə ilə aydınlaşdırır.

- Publisistik və məlumatlandırıcı mətnlərdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir.

7-1.5.2. Publisistik mətnin mövzusunu müəyyənləşdirir.

- Publisistik mətnin mövzusunu nümunələr əsasında müəyyənləşdirir.
- Publisistik mətnin mövzusunu ondakı başlıca mətləblərə əsaslanmaqla müəyyən edir.

7-1.5.3. Ədəbi məktubda əsas və yardımçı fikirləri müəyyənləşdirir.

- Ədəbi məktubda əsas fikirləri müəyyənləşdirir.
- Ədəbi məktubda yardımçı fikirləri müəyyənləşdirir.
- Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini müəyyənləşdirir.

Layihə

**7-1.6. Publisistik və məlumatlandırıcı mətnlərin təhlili üzrə bacarıqlar nümayiş etdirir.**

7-1.6.1. Publisistik və məlumatlandırıcı mətnlərdəki əsas və yardımçı fikirlərin əlaqələrini dəyərləndirir.

- Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini dəyərləndirir.
- Ədəbi məktubda əsas və yardımçı fikirlərin qarşılıqlı əlaqələrini nümunələr əsasında dəyərləndirir.
- Ədəbi məktubdakı fakt və məlumatlarla bağlı şəxsi mövqeyi baxımından yozumlar edir.
- Ədəbi məktubdakı fakt və məlumatlarla bağlı müqayisə əsasında yozumlar edir.

7-1.6.2. Publisistik və məlumalandırıcı mətnlərdəki başlıca fikri (ideyanı) dəyərləndirir.

- Ədəbi məktubdakı başlıca fikri (ideyanı) dəyərləndirir.
- Ədəbi məktubdakı başlıca fikri (ideyanı) nümunələr əsasında dəyərləndirir.

**2. Nitq və ünsiyyət**

**7-2.1. Şifahi nitq və ünsiyyət bacarıqları nümayiş etdirir.**

7-2.1.1. Çıxışın məzmununa uyğun plan hazırlayır.

- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır.

7-2.1.2. Çıxışının məzmununu məntiqli ifadə edən təqdimat hazırlayır.

- Əlaqələndirilmiş fikirlərin əks olunduğu təqdimat hazırlayır.
- Dəlillərlə əsaslandırılmış təqdimat hazırlayır.

7-2.1.3. Çıxışında bədən dilindən istifadə edir.

- Çıxışında mimika və jestlərdən istifadə edir.
- Çıxışında bədən hərəkətlərindən yerində istifadə edir.
- Çıxışında mimika, jest və bədən hərəkətlərindən yerində istifadə edir.

7-2.1.4. Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki mövqeyinə və digər sözlərlə əlaqəsinə çıxışında diqqət edir.

- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir.
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir.
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məqamına və digər sözlərlə əlaqəsinə çıxışında diqqət edir.

7-2.1.5. Təqdimatında ünsiyyətin davamlılığına nail olmaq üçün əyani vasitələrdən istifadə edir.

- Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən istifadə edir.
- Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən müqayisə əsasında istifadə edir.
- Ünsiyyətin davamlılığına nail olmaq üçün cədvəl, sxem, qrafik göstəricilərdən istifadə edir.

7-2.1.6. Dialoji nitq şəraitində müsbət dil ifadələrindən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir.

- Dialoji nitq şəraitində ritorik suallardan istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir.
- Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir.

**7-2.2. Yazılı nitq və ünsiyyət bacarıqları nümayiş etdirir.**

7-2.2.1. Müxtəlif növlərdə (publisistik və bədii yaradıcılıq üzrə) yazılar icra edir.

- Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmalar icra edir.
- Hekayə janrında mətnin yazılması üzrə işi davam etdirir.
- Hekayə janrında sadə süjetli mətni icra edir.

- Ədəbi mövzuda məktubun yazılmasına hazırlıq üzrə çalışmalar icra edir.
- Ədəbi mövzuda məktub icra edir.

7-2.2.2. Yazı üçün sadə plan tərtib edir.

- Yazı üçün sadə plan tərtibi üzrə çalışmalar icra edir.
- Yazı üçün azbəndli plan tərtib edir.
- Müxtəlif fənlər üzrə mənimsədiyi bilik və məlumatlardan istifadə etməklə sadə plan tərtib edir.

7-2.2.3. Yazını növünə uyğun dil və üslub xüsusiyyətləri əsasında icra edir.

- Ədəbi mövzu üzrə esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir.
- Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir.
- Publisistik, məlumatlandırıcı yazıları termin, nəzəri anlayışlardan istifadə ilə icra edir.

7-2.2.4. Mənasını yeni öyrəndiyi sözlərdən cümlədə üslubi məqama uyğun istifadə edir.

- Mənasını yeni öyrəndiyi sözlədən fərqli üslubi məqama uyğun istifadə edir.
- Mənasını yeni öyrəndiyi sözlərdən fərqli üslub xüsusiyyətlərinə uyğun cümlələrdə məqamına görə istifadə edir.

7-2.2.5. Yazının növünə uyğun dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir.

- Ədəbi mövzu üzrə essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir.
- Mühakimə xarakterli essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir.
- Publisistik və məlumatlandırıcı yazının müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir.

7-2.2.6. Ədəbi mövzuda essedə obrazlara müqayisə əsasında münasibət bildirir.

- Ədəbi mövzuda essedə obrazlara oxşar və fərqli xüsusiyyətlərinə əsaslanmaqla münasibət bildirir.
- Ədəbi mövzuda essedə hiss və düşüncələrini ifadə edən qənaətlərini əsaslandırmağa diqqət edir.
- Ədəbi mövzuda essedə obrazların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirməklə əsaslandırılmış nəticə çıxarır.

7-2.2.7. Mühakimə xarakterli essedə mövzu ilə bağlı şəxsi hiss və düşüncələrinə geniş yer verir.

- Mühakimə xarakterli essedə şəxsi hiss və düşüncələrinin əhatəli ifadəsinə diqqət edir.
- Mühakimə xarakterli essedə hiss və düşüncələrini ifadə edən qənaətlərini əsaslandırmağa diqqət edir.

Layihə

## PLANLAŞDIRMA

Dərslik komplekti VII sinif üçün müəyyənləşdirilmiş altstandartların reallaşdırılmasına imkan yaradır. Bu sinifdə dərs deyən müəllim təlim prosesində qarşıya çıxan suallara komplektdə əhatəli cavab tapa biləcəkdir. Bu baxımdan illik və gündəlik planların işlənib hazırlanması vacib hesab edilmişdir. Bunlar müəllimin pedaqoji fəaliyyətinə səmərəli istiqamət verəcəkdir. Təsadüfi deyildir ki, vəsaitin əsasında **gündəlik planlaşdırma** dayanır. Onlar dərslikdəki mövzuları əhatə edir. Bədii əsərin öyrənilməsinin bütün mərhələlərində həyata keçirilməli olan işlərin şərhi diqqət mərkəzində saxlanmışdır. Nəzəri anlayışların öyrənilməsi, nitq inkişafı üzrə işlərin təşkili, müxtəlifyönümlü inteqrasiya imkanlarının reallaşdırılması səmərəli strategiyaların tətbiqi zəminində işıqlandırılmışdır. Bədii əsərin oxusu, məzmunla bağlı qazanılmış məlumatın dərinləşdirilməsi, araşdırma və təhlil üzrə işlərin aparılması fərqli variantların tətbiqi ilə həyata keçirilmiş, konkret nümunələr təklif edilmişdir.

Vəsaitdə təqdim edilmiş **illik planlaşdırma** tövsiyə xarakterlidir, ona müəllimin yaradıcı münasibəti arzuolunandır. Başqa sözlə, müəllim məqsədindən, sinfin səviyyəsindən, məktəbin imkanlarından asılı olaraq onda dəyişiklik edə bilər. İllik planlaşdırmada mövzuların tədrisi ilə bağlı əlavə resurslar, inteqrasiya imkanları, metod və iş formaları, qiymətləndirmənin üsul və vasitələri diqqətə çatdırılmışdır. Plan həftədə iki saat olmaqla 34 həftə üçün nəzərdə tutulmuşdur.

Məktəbdə **tətbiq, ümumiləşdirmə** dərslərinin təşkili ilə bağlı kifayət qədər təcrübə toplanmışdır. Belə dərslərin mahiyyəti, əhəmiyyəti, tədrisi barədə metodik ədəbiyyatda geniş danışılmışdır.

Metodik vəsaitdə qeyd olunduğu kimi, belə dərslərin əhəmiyyəti böyükdür və bütövlükdə təlim prosesinin müxtəlif mərhələlərində tətbiq olunur. Bölmələrin, yarımillərin sonunda reallaşdırılmaqla yanaşı, oxşar mövzu və problemlərin öyrənilməsi də bu cür dərslərin tətbiqi ilə sonuclanır. Bütün hallarda həmin dərslərin qarşısında duran vəzifələr çox olur. Belə ki, tədrisinə bir neçə saat ayrılmış mövzunun (əsərin) mükəmməl öyrənilməsindən sonra mənimsənilmiş bilik və bacarıqlar oxşar bədii nümunə üzrə tətbiq edilir. Başqa sözlə, yeni öyrənilən əsərin mövzu, məzmun, ideyasının və s. maksimum müstəqillik nümayiş etdirilməklə mənimsənilməsi, araşdırma və təhlil üzrə bacarıqların inkişaf etdirilməsi, ümumiləşdirilməsi həyata keçirilmiş olur.

### İllik planlaşdırma nümunəsi

Aşağıda tövsiyə xarakterli illik iş planı verilmişdir. İş planı, qeyd edildiyi kimi, həftədə 2 saat olmaqla 34 həftə və ya 68 saat üçün nəzərdə tutulmuşdur. Müəllim, qeyd olunduğu kimi, mövzuların tədrisi zamanı qarşıya qoyduğu təlim məqsədlərindən və şəraitdən asılı olaraq tövsiyə olunan illik planlaşdırma nümunəsində dəyişiklik edə bilər.

| Həftələr | Mövzular | Reallaşdırılan standartlar | Fənlərarası inteqrasiya | Strategiyalar: metodlar, iş formaları | Resurslar | Qiymətləndirmə üsul və vasitələri |
|---|---|---|---|---|---|---|
| 1 | Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir. | 7 – 2.1.1<br>7 – 2.1.5 | Az.d<br>7 – 2.1.1<br>7 – 1.1.2<br>7 – 1.3.1 | Əqli hücum, səssiz oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, ikihissəli gündəlik, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, görkəmli sənətkarların portretləri, bədii ədəbiyyatın rolu haqqında fikirlərin əks olunduğu | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | mətnlər, slaydlar | yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə |
| | **1. ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN SEÇMƏLƏR** | | | | | |
| | "Çahargah əfsanəsi" Oxu. Anlama | 7 – 1.3.1<br>7 – 2.1.4<br>7 – 1.3.5<br>7 – 1.3.6<br>7 – 1.3.4<br>7 – 1.3.9 | Az.d<br>7 – 2.1.2<br>7 – 1.4.2 | Beyin həmləsi, proqnozlaşdırmaqla oxu, sual verərək oxu, qeyd götürərək oxu, beş dəqiqəlik ümumiləşdirmə (yazı), nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, Azərbaycan nağıl və əfsanələri, illüstrasiyalar, iş vərəqləri *https://www.youtube.com/watch?v=C0GWz3r8NsQ* | Müşahidə, rəyvermə, tapşırıq, şifahi sual-cavab, müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə |
| 2 | "Çahargah əfsanəsi" Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.8<br>7 – 1.4.7<br>7 – 1.4.6 | Mus 2.2.2<br>Az.d<br>7 – 2.3.1<br>7 – 2.2.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, Azərbaycan nağıl və əfsanələri, illüstrasiyalar *https://www.youtube.com/watch?v=C0GWz3r8NsQ* | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), sual-cavab (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə |
| | "Yoxsul qocaynan vəzir" Oxu. Anlama | 7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.6<br>7 – 1.3.9<br>7 – 2.1.4 | Az.d<br>7 – 4.4.3<br>7 – 2.3.2 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, nağıletmə, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, Azərbaycan nağılları, illüstrasiyalar, nağılın məzmununa uyğun şəkillərin əks olunduğu slaydlar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə (meyar cədvəli) |

Layihə

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3 | “Yoxsul qocaynan vəzir”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.3<br>7 – 1.4.6<br>7 – 1.4.5 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>X.d<br>7 – 3.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə karusel, ziqzaq, test, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, Azərbaycan nağılları, nağılın məzmununa uyğun şəkilləri əks etdirən slaydlar | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətlən-dirmə (meyar cədvəli) yoldaş qiymətləndirməsi (meyar cədvəli) |
| | “Koroğlu ilə Dəli Həsən”<br>Oxu. Anlama | 7 – 1.3.3<br>7 – 1.3.5<br>7 – 1.3.4<br>7 – 1.3.6<br>7 – 1.3.9 | Az.d<br>7 – 2.1.1<br>7 – 4.1,2<br>Mus<br>2.1.1<br>Az.t<br>8 – 2.1.1 | Əqli hücum, səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, BİBÖ, proqnozlaşdırmaqla oxu, müzakirə, auksion, nağıletmə, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, “Koroğlu dastanı” kitabı, dastanla bağlı illüstrasiyalar, “Koroğlu” filmindən fraqment *https://www.youtube.com/watch?v=wuRVEu9TvrA* Koroğlu uvertürası *https://www.youtube.com/watch?v=ccTjJBzy2lQ* | Müşahidə (müşahidə vərəqi), müəllimin effektiv-konstruktiv rəyi, doğru-yanlış fikirlər, qısa ümumiləşdirmə, çıxış bileti |
| 4 | “Koroğlu ilə Dəli Həsən”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.6<br>7 – 1.4.2<br>7 – 1.4.7 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 1.4.2<br>Mus<br>1.1.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, “Koroğlu dastanı” kitabı, dastanla bağlı illüstrasiyalar, “Koroğlu” filmindən fraqment (1960) *https://www.youtube.com/watch?v=wuRVEu9TvrA* Koroğlu uvertürası *https://www.youtube.com/watch?v=ccTjJBzy2lQ* | Müşahidə (müşahidə vərəqləri), müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə, çıxış bileti, 3-2-1 üsulu, yoldaş qiymətləndirməsi (meyar cədvəli), rubriklər |
| | “Nəsirəddin Tusi və bostançı”<br>Tətbiq. Ümumiləşdirmə | 7 – 1.3.3<br>7 – 2.1.3<br>7 – 1.3.9<br>7 – 1.3.4<br>7 – 1.4.1<br>7 – 1.3.5 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 1.4.2<br>Az.t<br>5 – 4.1.1 | Əqli hücum, səssiz oxu, tədqiqat, təqdimat, müzakirə, , düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, sinkveyn, rollu oyun və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, Nəsirəddin Tusinin portreti, onun haqqında yığcam məlumatı və nağılın məzmununa uyğun şəkilləri əks etdirən slaydlar | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə (özünüqiymətləndirmə vərəqi), çıxış bileti, 3-2-1 üsulu, yoldaş qiymətləndirməsi (meyar cədvəli), rubriklər BİBÖ |
| 5 | *Kiçik summativ qiymətləndirmə* | | | | | | |



Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ədəbi mövzuda esseni necə yazmalı | 7 – 2.2.2<br>7 – 2.2.4 | Az.d<br>3 –<br>3.2.2<br>7 –<br>3.1.1<br>7 –<br>3.2.1 | Müzakirə, tədqiqat, fərdi iş, böyük qruplarda iş | Dərslik, mövzu ilə bağlı esse nümunələri, qəzet-jurnal materialları | Müşahidə (müşahidə vərəqi), sual-cavab, rəyvermə |
| | Ədəbi mövzuda essenin yazılması | 7 – 2.2.3<br>7 – 2.2.6<br>7 – 2.2.5 | Az.d<br>7 –<br>3.2.2<br>7 –<br>3.1.2<br>7 –<br>4.1.3 | Tədqiqat, fərdi iş | Dərslik, mövzu ilə bağlı esse nümunələri, qəzet-jurnal materialları | Rubrik (mövzu və məzmun; həcm və hissələr; fakt və sitatlardan istifadə; orfoqrafiya) |
| | **2. YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏSİ** | | | | | |
| 6 | S.Vurğun. “Azərbaycan” Oxu. Anlama | 7 – 1.1.4<br>7 – 1.1.3<br>7 – 2.1.4<br>7 – 2.2.3<br>7 – 2.2.4 | Az.d<br>7 –<br>4.4.3<br>7 –<br>3.2.2.<br>7 –<br>4.3.3<br>Təs.i<br>3.1.1<br>Az. t<br>7 –<br>4.1.1<br>7 –<br>4.1.2 | Əqli hücum, səssiz oxu, səsli oxu, ikihissəli gündəlik, təqdimat, müzakirə, düşün-paylaş-bölüş, auksion, parafraz, interpretasiya, müəllif kreslosu, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, xəritə, tanınmış şəxsiyyətlərin portretlərini, maddi və mənəvi dəyərlərimizi əks etdirən slaydlar, vətən mövzusunda musiqi və rəssamlıq əsərlərindən nümunələr | Müşahidə (müşahidə vərəqləri), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə, rubriklər, 3-2-1 |
| | S.Vurğun. “Azərbaycan” Oxu. Anlama | 7 – 1.1.1<br>7 – 1.1.2<br>7 – 1.1.3<br>7 – 1.1.4<br>7 – 1.1.7<br>7 – 1.1.8 | Az.d<br>7 –<br>4.4.3<br>7 –<br>2.3.2<br>Mus<br>2.3.1 | Səssiz oxu, səsli oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, BİBÖ, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, tədqiqat, təqdimat, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, xəritə, tanınmış şəxsiyyətlərin portretlərini, maddi və mənəvi dəyərlərimizi əks etdirən slaydlar, vətən mövzusunda musiqi və rəssamlıq əsərlərindən nümunələr | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti, rubriklər, BİBÖ qrafiki |
| 7 | S.Vurğun. “Azərbaycan” Araşdırma. Təhlil | 7 – 1.2.1<br>7 – 1.2.2<br>7 – 2.1.6 | Az.d<br>7 –<br>2.3.2<br>7 –<br>2.3.4<br>7 –<br>1.4.1<br>Az.t<br>7 –<br>4.1.1<br>7 –<br>4.1.2 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, parafraz, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, xəritə, tanınmış şəxsiyyətlərin portretlərini, maddi və mənəvi dəyərlərimizi əks etdirən slaydlar, vətən mövzusunda musiqi və rəssamlıq əsərlərindən nümunələr | Müəllimin effektiv rəyverməsi, yoldaş qiymətləndirməsi və özünüqiymətlən-dirmə (meyarlar cədvəli), çıxış bileti, rubriklər |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 8 | M.İbrahimov. “Azad”<br>Oxu. Anlama | 7 – 1.3.1<br>7 – 1.3.3<br>7 – 1.3.5<br>7 – 2.1.2<br>7 – 2.2.1 | Az.d<br>7 – 2.1.2<br>7 – 2.3.2.<br>7 – 3.1.2<br>7 – 3.2.2<br>Az.t<br>5 – 3.1.1<br>7 – 4.1.2 | Əqli hücum, səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, nağıletmə, parafraz, interpretasiya, rollu oyun və simulyasiya, karusel, ziqzaq, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, Cənubi Azərbaycan mövzusunda digər yazıçıların əsərlərindən nümunələr, məqalələr, xəritə və video-görüntülər, milli azadlıq hərəkatı qəhrəmanları haqqında məlumat, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli) |
| | M.İbrahimov. “Azad”<br>Oxu. Anlama | 7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 2.1.3<br>7 – 2.1.4<br>7 – 2.2.1 | Az.d<br>7 – 4.4.3<br>7 – 2.1.1<br>7 – 1.4.2<br>Az.t<br>5 – 3.1.1<br>7 – 4.1.2 | Əqli hücum, səssiz oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, tədqiqat, təqdimat, müzakirə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, Cənubi Azərbaycan mövzusunda digər yazıçıların əsərlərindən nümunələr, məqalələr, xəritə və videogörüntülər, milli azadlıq hərəkatı qəhrəmanları haqqında məlumat, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli) |
| 9 | M.İbrahimov. “Azad”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 1.4.3<br>7 – 1.4.6<br>7 – 2.2.1<br>7 – 2.1.4 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>Az.t<br>5 – 3.1.1<br>X.d<br>7 – 3.2.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-çütləş-paylaş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, Cənubi Azərbaycan mövzusunda digər yazıçıların əsərlərindən nümunələr, məqalələr, xəritə və video-görüntülər, Milli azadlıq hərəkatı qəhrəmanları haqqında məlumat, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi özünüqiymətləndirmə (meyar cədvəli), rəyvermə, rubriklər, çıxış bileti, müəllimin effektiv rəyi, BİBÖ, çıxış bileti |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10 | Mühakimə xarakterli esseni necə yazmalı | 7 – 2.2.2<br>7 – 2.2.7 | Az.d<br>5 –<br>3.1.1<br>7 –<br>1.3.2 | Müzakirə, tədqiqat, fərdi iş, böyük qruplarda iş | Dərslik, essenin mövzusu ilə bağlı yazılı mənbələr, esse nümunələri | Müşahidə (müşahidə vərəqi), özünü qiymətləndirmə (meyar cədvəli), çıxış bileti, 3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), |
| | Mühakimə xarakterli essenin yazılması | 7 – 2.2.3<br>7 – 2.2.4<br>7 – 2.2.5<br>7 – 2.2.7 | Az.d<br>7 –<br>3.1.1<br>7 –<br>3.2.2<br>7 –<br>4.3.3<br>X.d<br>4.1.3 | Tədqiqat, fərdi iş | Dərslik, essenin mövzusu ilə bağlı yazılı mənbələr | Rubrik (mövzu və məzmun; həcm və hissələr; fakt və sitatlardan istifadə; orfoqrafiya) |
| 11 | R.Məmməd. "Qələbə müjdəsi"<br>Oxu. Anlama | 7 – 1.1.3<br>7 – 1.1.4<br>7 – 1.1.6<br>7 – 1.1.7<br>7 – 1.1.8 | Az.d<br>7 –<br>4.4.3<br>7 –<br>2.3.2 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, ikihissəli gündəlik, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, Azərbaycan xəritəsi, 44 günlük Vətən müharibəsindən görüntüləri (döyüş səhnələri, Ali Baş Komandan, Milli Ordu, şəhid və qazilər) əks etdirən slaydlar, qəzet-jurnal, internet materialları, videogörüntülər | Müşahidə (müşahidə vərəqi), özünüqiymətlən-dirmə, rəyvermə, sual-cavab, şagird jurnalı |
| | R.Məmməd. "Qələbə müjdəsi"<br>Araşdırma. Təhlil | 7 – 1.2.1<br>7 – 1.2.2<br>7 – 2.1.2<br>7 – 2.1.3<br>7 – 2.1.6 | Az.d<br>7 –<br>4.4.3<br>7 –<br>2.3.1<br>7 –<br>2.3.2<br>Az.t<br>5 –<br>3.1.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, Azərbaycan xəritəsi, 44 günlük Vətən müharibəsindən görüntüləri (döyüş səhnələri, Ali Baş Komandan, Milli Ordu, şəhid və qazilər) əks etdirən slaydlar, qəzet-jurnal, internet materialları, videogörüntülər | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), Müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndi rmə (meyar cədvəli)<br>3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), rubriklər |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 12 | R.Məmməd. “Qələbə müjdəsi”<br>Tətbiq. Müzakirə. Yaradıcı iş | 7 – 2.1.2<br>7 – 2.1.5<br>7 – 2.1.6<br>7 – 2.2.5<br>7 – 2.2.7 | Az.d<br>7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 2.3.4 | Əqli hücum, səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, BİBÖ, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, Azərbaycan xəritəsi, 44 günlük Vətən müharibəsindən görüntüləri (döyüş səhnələri, Ali Baş Komandan, Milli Ordu, şəhid və qazilər) görüntülərini əks etdirən slaydlar, qəzet-jurnal, internet materialları, videogörüntülər | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli)<br>3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), rubriklər |
| | R.Qusarçaylı. “Yurd sevgisi”<br>Tətbiq. Ümumiləşdirmə | 7 – 1.1.1<br>7 – 1.1.2<br>7 – 1.1.3<br>7 – 1.1.6<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 1.2.2<br>7 – 1.2.3<br>7 – 2.1.3 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.1.1<br>7 – 2.3.2<br>7 – 2.2.2<br>7 – 4.1.2<br>X.d<br>7 – 3.2.3 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, ikihissəli gündəlik, BİBÖ, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-paylaş-bölüş, auksion, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin əsərləri, Azərbaycanın ayrı-ayrı bölgələri, tarixi abidələri və s. haqqında məlumat, şəkil və illüstrasiyalar, xəritələr | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli)<br>3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), rubriklər |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 13 | Ədəbi mövzuda məktubu necə yazmalı | 7 – 1.5.3<br>7 – 1.6.1<br>7 – 1.6.3 | 7 – 3.1.1<br>7 – 3.1.2<br>7 – 3.2.2<br>7 – 4.3.2<br>7 – 4.3.3<br>7 – 2.3.4 | Beyin həmləsi, fərdi oxu, tədqiqat, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, ədəbi məktub nümunələri | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə (özünüqiymətləndirmə vərəqi) |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ədəbi mövzuda məktubun yazılması | 7 – 1.5.3<br>7 – 1.6.1<br>7 – 1.6.3 | Az.d<br>7 – 3.1.1<br>7 – 3.1.2<br>7 – 3.2.2<br>7 – 4.3.2<br>7 – 4.3.3<br>7 – 2.3.4 | Tədqiqat, fərdi iş | Dərslik, lüğətlər, ədəbi məktub nümunələri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi və özünüqiymətləndirmə (meyar cədvəli), rəyvermə |
| | **3. MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR** | | | | | |
| 14 | A.Bakıxanov. "Ümidin boşa çıxması"<br>Oxu. Anlama | 7 – 1.1.3<br>7 – 1.1.4<br>7 – 1.1.7 | Az.d<br>7 – 4.4.3<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.3.2<br>X.d<br>7 – 3.2.3 | Əqli hücum, səssiz oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rol oyunu və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, əsərin məzmunu ilə bağlı illüstrasiyalar, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli)<br>3-2-1 üsulu, 2+1, rubriklər |
| 15 | A.Bakıxanov. "Ümidin boşa çıxması"<br>Oxu. Anlama | 7 – 1.1.1<br>7 – 1.1.3<br>7 – 1.1.6<br>7 – 1.1.7<br>7 – 1.1.8 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.3.2<br>7 – 2.1.1<br>7 – 2.3.4 | Əqli hücum, səssiz oxu, rollu oxu, ikihissəli gündəlik, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-paylaş-bölüş, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici video-fayllar, əsərin məzmunu ilə bağlı illüstrasiyalar, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli)<br>3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), rubriklər |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | A.Bakıxanov. “Ümidin boşa çıxması”<br>Araşdırma. Təhlil | 7 – 1.2.2<br>7 – 2.1.2<br>7 – 2.1.4 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.3.2<br>7 – 1.2.2<br>7 – 1.4.2 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-paylaş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rol oyunu və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, iş vərəqləri yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, əsərin məzmunu ilə bağlı illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi və özünüqiymətləndirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1üsulu rubriklər |
| | Layihələr üzrə təqdimatlar | 7 – 1.1.5<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 1.2.2<br>7 – 1.3.4<br>7 – 1.3.8<br>7 – 2.1.2 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.3.2<br>7 – 1.2.2<br>7 – 1.4.2 | Təqdimat, nağıletmə, ifadəli oxu, səhnələşdirmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları, əfsanə və nağıl kitabları, əfsanə və nağılların məzmununa uyğun illüstrasiyalar, videogörüntülər, flipçatlar, marker və flobasterlər, proyektor, notbuk | Müşahidə (müşahidə vərəqi), rubriklər |
| 16 | Layihələr üzrə təqdimatlar | 7 – 1.3.8<br>7 – 2.1.2<br>7 – 1.2.3<br>7 – 2.1.4<br>7 – 2.1.5 | Az.d<br>7 – 2.2.3<br>7 – 1.4.2<br>6 – 1.4.2 | İfadəli oxu, nağıletmə, səhnələşdirmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları, əfsanə və nağıl kitabları, əfsanə və nağılların məzmununa uyğun illüstrasiyalar, videogörüntülər, flipçatlar, marker və flobasterlər, proyektor, notbuk | Müşahidə (müşahidə vərəqi), rubriklər |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 17 | Layihələr üzrə təqdimatların müzakirəsi | 7 – 2.1.5<br>7 – 2.1.6<br>7 – 2.1.1<br>7 – 2.1.4<br>7 – 2.1.5<br>7 – 2.1.2 | Az.d<br>7 – 1.4.1<br>7 – 1.3.1<br>7 – 3.1.1 | Müzakirə, bütün siniflə birgə iş | Dərslik, layihə materialları | Münsif qiymətləndirməsi (meyar cədvəli) müəllimin effektiv-konstruktiv rəyi, yoldaş qiymətləndirməsi və özünüqiymətlən-dirmə (meyar cədvəli) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 18 | M.Hüseyn. “Kərəm əfsanəsi”<br>Oxu. Anlama | 7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 2.2.1<br>7 – 2.1.1 | Az.d<br>7 – 4.4.3<br>3 – 3.2.2<br>7 – 3.1.1<br>7 – 3.1.2<br>7 – 3.2.1<br>7 – 3.2.2 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, nağıletmə, interpretasiya, sinkveyn, rol oyunu, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, “Qaçaq Kərəm” romanı, iş vərəqləri, illüstrasiyalar, Qaçaq Kərəm haqqında məlumatverici videogörüntülər | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə (meyar cədvəli) 3-2-1, 2+1 üsulları, rubriklər |
| | M.Hüseyn. “Kərəm əfsanəsi”<br>Oxu. Anlama | 7 – 1.3.1<br>7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.6<br>7 – 1.3.9 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.2.2<br>7 – 1.4.2 | Əqli hücum, səssiz oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, proqnozlaşdırmaqla oxu, təqdimat, müzakirə, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rol oyunu, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, iş vərəqləri, illüstrasiyalar, Qaçaq Kərəm haqqında məlumatverici videogörüntülər | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə (meyar cədvəli) 3-2-1 üsulu, 2+1, rubriklər |
| 19 | M.Hüseyn. “Kərəm əfsanəsi”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 1.4.3<br>7 – 1.4.5<br>7 – 1.4.7 | Az.d<br>7 – 4.4.3<br>7 – 2.3.1<br>7 – 2.2.1<br>6 – 2.3.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazılı), düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, iş vərəqləri, illüstrasiyalar, Qaçaq Kərəm haqqında məlumatverici videogörüntülər | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi və özünüqiymətlən-dirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | R.Rza. “Açın qapıları, insan gəlir”<br>Oxu. Anlama | 7 – 1.1.4<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 2.1.6 | Az.d<br>7 – 2.2.2<br>7 – 2.1.1<br>7 – 1.4.2 | Əqli hücum, səssiz oxu, sual tərtib edərək oxu, sual verərək oxu, ikihissəli gündəlik, müzakirə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1 rubriklər |
| 20 | R. Rza “Açın qapıları, insan gəlir”<br>Araşdırma. Təhlil | 7 – 1.2.2<br>7 – 2.1.4<br>7 – 2.2.3<br>7 – 2.2.6 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.2<br>7 – 2.3.4<br>7 – 2.3.1<br>7 – 3.1.1<br>7 – 3.1.2 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə (meyar cədvəli),<br>3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), rubriklər |
| | Gi de Mopassan. “Balaca çəllək”<br>Oxu. Anlama | 7 – 1.3.3<br>7 – 1.3.9<br>7 – 2.1.1<br>7 – 2.1.3 | Az.d<br>7 – 1.4.2<br>7 – 1.3.2<br>X.d<br>7 – 2.3.1 | Əqli hücum, səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik karusel, ziqzaq, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1 |
| 21 | Gi de Mopassan. “Balaca çəllək”<br>Oxu. Anlama | 7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.8<br>7 – 1.4.8<br>7 – 2.1.1<br>7 – 2.1.6 | Az.d<br>7 – 1.4.1<br>7 – 1.4.2<br>3 – 3.2.2<br>7 – 2.2.1<br>7 – 2.3.2 | Əqli hücum, səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, tədqiqat, təqdimat, müzakirə, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndi rmə (meyar cədvəli),<br>3-2-1 üsulu, 2+1 rubriklər |

Lalə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Gi de Mopassan. “Balaca çəllək”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.5<br>7 – 1.5.3<br>7 – 1.6.1 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.1.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, interpretasiya, müəllif kreslosu, sinkveyn, rol oyunu və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, 3-2-1 üsulu, 2+1 rubriklər |
| 22 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | S.Rüstəm. “Duz-çörək”<br>Tətbiq. Ümumiləşdirmə | 7 – 1.1.1<br>7 – 1.1.2<br>7 – 1.1.6<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 1.2.2<br>7 – 2.1.3<br>7 – 2.1.5 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.1.1<br>7 – 2.3.2<br>7 – 2.2.2<br>7 – 4.1.2<br>X.d<br>7 – 3.2.3 | Əqli hücum, səssiz oxu, səsli oxunun dinlənilməsi, ikihissəli gündəlik, interpretasiya, müzakirə, debat, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin portreti, , əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndi rmə (meyar cədvəli), 3-2-1 üsulu, 2+1, rubriklər |
| | **4. UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ** | | | | | |
| 23 | Ə.Məmmədxanlı. “Qızıl qönçələr”<br>Oxu. Anlama | 7 – 1.1.1<br>7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 1.3.5<br>7 – 1.3.9<br>7 – 2.1.4 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.2.1<br>7 – 4.1.2 | Əqli hücum, səssiz oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, BİBÖ, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, nağıletmə, parafraz, interpretasiya, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğət, yazıçının portreti, əsərləri, Cənubi Azərbaycan mövzusunda digər yazıçıların əsərlərindən nümunələr, məqalələr, xəritə və videogörüntülər, Milli azadlıq hərəkatı qəhrəmanlarının şəkilləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə (meyar cədvəli), müsahibə (qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, rubriklər, test |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ə.Məmmədxanlı. “Qızıl qönçələr”<br>Oxu. Anlama | 7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.7<br>7 – 2.2.2<br>7 – 2.2.3<br>7 – 2.2.5 | Az.d<br>7 – 2.3.2<br>7 – 2.3.4<br>7 – 2.3.2<br>7 – 3.1.1<br>7 – 3.1.2<br>7 – 3.2.1<br>7 – 3.2.2 | Səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğət, yazıçının portreti, əsərləri, Cənubi Azərbaycan mövzusunda digər yazıçıların əsərlərindən nümunələr, məqalələr, xəritə və video-görüntülər, Milli azadlıq hərəkatı qəhrəmanlarının şəkilləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə (meyar cədvəli)<br>sual-cavab, test |
| | Ə. Məmmədxanlı. “Qızıl qönçələr”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 1.4.3<br>7 – 1.4.6<br>7 – 1.4.7<br>7 – 1.4.8 | Az.d<br>7 – 2.3.2<br>7 – 2.3.1<br>7 – 2.3.3<br>7 – 4.4.3<br>7 – 1.4.2<br>Az.t<br>5 – 3.1.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, lüğət, yazıçının portreti, əsərləri, Cənubi Azərbaycan mövzusunda digər yazıçıların əsərlərindən nümunələr, məqalələr, xəritə və videogörüntülər, Milli azadlıq hərəkatı qəhrəmanlarının şəkilləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətlən-dirmə (meyar cədvəli), Müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, rubriklər |
| 24 | N.Nadir. “Peşmanlıq”<br>Oxu. Anlama | 7 – 1.1.4<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 1.3.9<br>7 – 2.1.6 | Az.d<br>7 – 2.2.2<br>7 – 2.1.1<br>7 – 1.4.2<br>7 – 1.1.2 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, ikihissəli gündəlik, interpretasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 25 | N.Nadir. “Peşmanlıq”<br>Araşdırma. Təhlil | 7 – 1.2.2<br>7 – 1.2.3<br>7 – 2.1.2<br>7 – 2.1.4 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.1.3<br>7 – 4.4.3<br>7 – 3.2.2 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, pazl, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətləndirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1 rubriklər |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 26 | E.Hüseynbəyli. “Nəvə”<br>Oxu. Anlama | 7 – 1.3.3<br>7 – 1.3.5<br>7 – 1.3.9<br>7 – 2.1.4<br>7 – 2.2.2 | Az.d<br>7 – 3.1.1<br>7 – 2.2.1<br>7 – 4.4.3<br>5 – 1.3.1 | Əqli hücum, səssiz oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, tədqiqat, təqdimat, müzakirə, nağıletmə, interpretasiya, karusel, ziqzaq, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətləndirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy |
| | E.Hüseynbəyli. “Nəvə”<br>Oxu. Anlama | 7 – 1.3.1<br>7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.6 | Az.d<br>7 – 2.1.2<br>7 – 2.2.2<br>7 – 2.3.2<br>7 – 2.3..3 | Əqli hücum, səssiz oxu, ucadan oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, rollu oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, nağıletmə, parafraz, interpretasiya, sinkveyn, karusel, ziqzaq, fərdi iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətləndirmə (meyar cədvəli) |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 27 | E.Hüseynbəyli. “Nəvə”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 1.4.5<br>7 – 1.4.8 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.3<br>7 – 2.1.1<br>7 – 2.3.5 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, beş dəqiqəlik ümumiləşdirmə (yazı), düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazışının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si, özünüqiymət-ləndirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, 3-2-1 üsulu |
| | S.Sərvi. “Məktəb yolları”<br>Tətbiq. Ümumiləşdirmə | 7 – 1.1.1<br>7 – 1.1.2<br>7 – 1.1.3<br>7 – 1.1.6<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 1.2.2<br>7 – 2.1.1<br>7 – 2.1.4 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.1.1<br>7 – 2.3.2<br>7 – 2.2.2<br>7 – 1.4.2<br>5 – 1.3.1<br>X.d<br>7 – 3.2.3 | Əqli hücum, səssiz oxu, ikihissəli gündəlik, BİBÖ, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, tədqiqat, təqdimat, müzakirə, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndir-məsi, özünüqiymətlən dirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi), rubriklər |
| | **5. TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI** | | | | | |
| 28 | Z.Xəlil. “Torpağın məhəbbəti”<br>Oxu. Anlama | 7 – 1.1.1<br>7 – 1.1.2<br>7 – 1.1.4<br>7 – 1.1.5<br>7 – 1.1.6<br>7 – 1.1.7<br>7 – 1.1.8<br>7 – 2.1.5 | Az.d<br>7 – 2.1.2<br>7 – 2.3.4<br>7 – 2.2.2<br>7 – 2.3.2<br>7 – 2.3.3 | Əqli hücum, səssiz oxu, səsli oxu, qeyd götürərək oxu, ikihissəli gündəlik, təqdimat, müzakirə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si, özünüqiymətlən dirmə (meyar cədvəli), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, 3-2-1 üsulu, 2+1 (2 güclü tərəf, 1 inkişaf sahəsi) |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Z.Xəlil. “Torpağın məhəbbəti”<br>Araşdırma. Təhlil | 7 – 1.2.1<br>7 – 1.2.2<br>7 – 1.2.3<br>7 – 2.1.2<br>7 – 2.2.1 | Az.d<br>7 – 4.4.3<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.3.2<br>7 – 1.4..2<br>7 – 3.1.2<br>7 – 3.2.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), özünü və yoldaş qiymətləndirmə-si (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy |
| 29 | B.Həsənov. “İki bala”<br>Oxu. Anlama | 7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 1.3.5<br>7 – 1.3.9 | Az.d<br>7 – 4.4.3<br>7 – 3.1.1<br>7 – 2.2.1<br>7 – 1.4.2 | Səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, sual verərək oxu, nişanlamaqla oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, təqdimat, qısa ümumiləşdirmə, auksion, nağıletmə, parafraz, interpretasiya, karusel, ziqzaq, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərləri, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməs i (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1 rubriklər |
| | B.Həsənov. “İki bala”<br>Oxu. Anlama | 7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.7<br>7 – 2.1.4<br>7 – 2.1.6 | Az.d<br>7 – 2.1.1<br>7 – 2.2.2<br>7 – 2.3.4<br>7 – 1.4.1<br>7 – 1.4.2 | Əqli hücum, səssiz oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, təqdimat, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, karusel, ziqzaq, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərlərinin adları əks olunmuş slaydlar, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si (meyar cədvəli), çıxış bileti, effektiv-konstruktiv rəy, özünüqiymətlən-dirmə 3-2-1 və 2+1 üsulları, rubriklər |
| 30 | B.Həsənov. “İki bala”<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 1.4.4<br>7 – 1.4.6<br>7 – 1.4.8<br>7 – 2.2.5<br>7 – 2.2.7 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.2.2<br>7 – 2.2.1<br>7 – 2.3.1<br>7 – 2.3.2<br>7 – 2.3.4<br>7 – 3.1.2<br>7 – 3.2.2 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərlərinin adları əks olunmuş sladlar, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si (meyar cədvəli), çıxış bileti, müəllimin effektiv-konstruktiv rəyi, özünüqiymətlən-dirmə (meyar cədvəli)<br>3-2-1 üsulu, 2+1, rubriklər |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 31 | Ə.Səbri. "Sədaqət"<br>Oxu. Anlama | 7 – 1.3.1<br>7 – 1.3.2<br>7 – 1.3.3<br>7 – 1.3.9<br>7 – 1.4.8<br>7 – 2.1.4 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 1.3.2<br>7 – 1.4.2<br>7 – 2.1.1<br>7 – 2.2.1 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, sual verərək oxu, qeyd götürərək oxu, nişanlamaqla oxu, ikihissəli gündəlik, proqnozlaşdırmaqla oxu, Sokrat dialoqu, təqdimat, müzakirə, auksion, nağıletmə, parafraz, sinkveyn, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərlərinin adları əks olunmuş sladlar, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, özünüqiymətlən dirmə 3-2-1 üsulu, 2+1, rubriklər |
| | Ə. Səbri "Sədaqət"<br>Oxu. Anlama | 7 – 1.3.1<br>7 – 1.3.3<br>7 – 1.3.4<br>7 – 1.3.5<br>7 – 1.3.7<br>7 – 2.1.1<br>7 – 2.2.1 | Az.d<br>7 – 2.1.2<br>7 – 2.2.1<br>7 – 2.3.2<br>7 – 3.1.1<br>7 – 2.3.4<br>5 – 1.3.1<br>7 – 2.3.4<br>7 – 3.1.2 | Səssiz oxu, sual verərək oxu, ikihissəli gündəlik, BİBÖ, proqnozlaşdırmaqla oxu, düşün-paylaş-bölüş, auksion, nağıletmə, interpretasiya, müəllif kreslosu, sinkveyn, karusel, ziqzaq, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, əsərlərinin adları əks olunmuş sladlar, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si və özünüqiymətlən dirmə (meyar cədvəli), sual-cavab (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy, 3-2-1 üsulu, 2+1, rubriklər |
| 32 | Ə.Səbri. "Sədaqət"<br>Araşdırma. Təhlil | 7 – 1.4.1<br>7 – 1.4.2<br>7 – 1.4.4<br>7 – 1.4.6 | Az.d<br>7 – 2.2.1<br>7 – 2.1.1<br>7 – 2.3.5<br>7 – 2.3.2<br>7 – 2.2.2 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, qısa ümumiləşdirmə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, müəllif kreslosu, sinkveyn, rollu oyun və simulyasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, yazıçının portreti, şeir kitablarının adları əks olunmuş sladlar, həyat və yaradıcılığı ilə bağlı məlumatverici videomateriallar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), effektiv-konstruktiv rəy, özünüqiymətlən dirmə (meyar cədvəli), 3-2-1 üsulu, 2+1, rubriklər, çıxış bileti |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | T.Nurəli. “Payız nəğməsi”<br>Tətbiq. Ümumiləşdirmə | 7 – 1.1.1<br>7 – 1.1.2<br>7 – 1.1.3<br>7 – 1.1.6<br>7 – 1.1.8<br>7 – 1.2.2<br>7 – 2.1.1<br>7 – 2.1.3 | Az.d<br>7 – 2.1.2<br>7 – 4.4.3<br>7 – 2.1.1<br>7 – 2.3.2<br>7 – 2.2.2<br>5 – 1.3.1<br>X.d<br>7 – 3.2.3 | Əqli hücum, səssiz oxu, səsli oxu, sual tərtib edərək oxu, sual verərək oxu, ikihissəli gündəlik, tədqiqat, təqdimat, müzakirə, düşün-paylaş-bölüş, auksion, nağıletmə, parafraz, interpretasiya, karusel, ziqzaq, test, debat, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, şairin portreti, şeir kitablarının adları əks olunmuş sladlar, həyat və yaradıcılığı ilə bağlı məlumatverici video-fayllar, məqalələr, iş vərəqləri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), 3-2-1 üsulu, yoldaş qiymətləndirmə-si və özünüqiymətlən dirmə (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), çıxış bileti, effektiv-konstruktiv rəy |
| 33 | Layihələr üzrə təqdimatlar | 7 – 1.3.8<br>7 – 2.1.2<br>7 – 2.1.5<br>7 – 1.1.5<br>7 – 1.1.8 | Az.d<br>7 – 2.3.2<br>7 – 1.2.2<br>7 – 1.3.1<br>7 – 2.3.4<br>7 – 2.2.2 | Təqdimat, ifadəli oxu, nağıletmə, səhnələşdirmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları, əfsanə və nağıl kitabları, əfsanə və nağılların məzmununa uyğun illüstrasiyalar, videogörüntülər, flipçatlar, marker və flomasterlər, proyektor, notbuk | Müşahidə (müşahidə vərəqləri) |
| | Layihələr üzrə təqdimatlar | 7 – 1.3.8<br>7 – 2.1.4<br>7 – 2.1.5<br>7 – 1.1.5<br>7 – 1.1.8 | Az.d<br>7 – 2.2.2<br>7 – 2.3.4<br>7 – 1.3.1<br>7 – 2.3.2 | Təqdimat, ifadəli oxu, nağıletmə, səhnələşdirmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları, əfsanə və nağıl kitabları, əfsanə və nağılların məzmununa uyğun illüstrasiyalar, videogörüntülər, flipçatlar, marker və flomasterlər, proyektor, notbuk | Müşahidə (müşahidə vərəqləri) |
| 34 | Layihələr üzrə təqdimatların müzakirəsi | 7 – 2.1.5<br>7 – 2.1.6<br>7 – 2.1.1<br>7 – 2.1.4<br>7 – 2.1.2 | Az.d<br>7 – 1.3.1<br>7 – 1.4.1<br>7 – 3.1.2<br>7 – 3.2.2<br>5 – 1.3.1<br>7 – 2.3.3<br>7 – 1.2.2 | Müzakirə, bütün siniflə birgə iş | Dərslik, layihə materialları | Münsif qiymətləndirmə-si (meyar cədvəli), müəllimin effektiv-konstruktiv rəyi, yoldaş qiymətləndirmə-si (meyar cədvəli), özünüqiymətlən dirmə (meyar cədvəli) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

Layihə

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qiymətləndirmə təlim prosesinin səmərəli təşkilində əhəmiyyətli rol oynayır. Qiymətləndirmədə davamlılıq, dinamiklik və şəffaflığın nəzərə alınması onun uğurlu tətbiqini təmin edən mühüm xüsusiyyətlərdir. Şagird nailiyyətlərinin daim diqqət mərkəzində saxlanması, qiymətləndirmə formalarının ardıcıl tətbiqi təlimin səmərəliliyinə əhəmiyyətli təsir edir. Bu, təhsilalanların hər birinin təlim fəaliyyəti barədə aydın təsəvvürün əldə edilməsinə, ehtiyac duyulan tədbirlərin reallaşdırılmasına imkan yaradır.

Məktəbdaxili qiymətləndirmədə məzmun standartları aparıcı mövqedə dayanır. Məhz onların uğurla reallaşdırılması şagirdlərin bilik və bacarığının inkişafında mühüm rol oynayır.

Qiymətləndirmənin formaları – diaqnostik, formativ və summativ rəsmi sənədlərdə, pedaqoji ədəbiyyatda geniş şərh edilmişdir. Bu formalardan hər birinin mahiyyəti, tətbiqi ilə bağlı müəllimlər əhatəli məlumata və praktik bacarıqlara yiyələniblər. Burada ən vacib məqamların üzərində dayanılmışdır.

*Diaqnostik* qiymətləndirmənin dərs ilinin başlanğıcında, fənn üzrə bölmələrin əvvəlində aparılması məqsədəuyğun sayılır. O, şagirdlərin müvafiq tədris vahidi üzrə bilik və bacarıqlarının, eləcə də maraq və motivasiyalarının aşkara çıxarılması, ilkin qiymətləndirilməsi məqsədini güdür. Bu qiymətləndirmə şagirdlərin yeni mövzuya maraqlarının səviyyəsini müəyyənləşdirmək baxımından da faydalıdır.

*Formativ* qiymətləndirmə hər dərsdə tətbiq edilməklə şagirdlərin təlim fəaliyyətini izləməyə imkan verir. Onun əsas məqsədi şagirdin dərsdə təlim nəticələrinə nailolma dərəcəsinin izlənməsidir. Deməli, məzmun standartlarının mənimsənilməsini hər dərs üzrə izləməklə şagirdlərin təlim fəaliyyətində özünü göstərən bütün dəyişikliyə nəzarət etmək imkanı yaranır. Bu, müəllimə təlim prosesinin sonrakı inkişafını hansı istiqamətdə təşkil etməyin məzmnunu diktə edir. Altstandart bilik və bacarıqların formalaşdırılması baxımından konkret olsa da, qiymətləndirmə üçün hələ də ümumi səciyyə daşıyır. Onun konkretləşməsi, rahat ölçülə bilən olması məqsədəuyğundur. Bu vəzifəni təlim nəticəsi və qiymətləndirmə meyarı öz üzərinə götürür. Altstandart əsasında bir deyil, bir neçə təlim nəticəsinin müəyyənləşdirilməsinə ehtiyac yaranır. Əgər bir altstandart üçün bir neçə təlim nəticəsi müəyyənləşdirilbsə, onların qarşılıqlı əlaqəsi, başlıcası isə dinamikası nəzərə alınmalıdır.

*Standart* ⟶ *təlim nəticəsi* ⟶ *qiymətləndirmə meyarı* üçlüyünü aşağıdakı cədvəldə müşahidə etmək mümkündür.

| Standartlar | Təlim nəticələri | Qiymətləndirmə meyarları |
|---|---|---|
| 7-1.1.3. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | 1. Heca vəznli şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.<br><br>2. Sərbəst şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | 1. Heca vəznli şeirdə nəzərə qabarıq çarpan bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.<br><br>2. Sərbəst şeirdə nəzərə qabarıq çarpan bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. |

Layihə

| | | |
|---|---|---|
| | 3. Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi nitqində istifadə edir.<br><br>4. Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir. | 3. Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi nitqində ardıcıl istifadə edir.<br><br>4. Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində ardıcıl istifadə edir. |
| 7- 1.4.1.Obrazları müqayisəli səciyyələndirir. | 1. Obrazları xarakterinə görə müqayisə edir.<br><br>2. Obrazları nitqlərinə görə müqayisə edir.<br><br>3. Obrazları əməllərinə görə müqayisə edir. | 1. Hekayədəki obrazların xarakterlərindəki özünəməxsusluğa müqayisə əsasında münasibət bildirir.<br><br>2. Obrazların nitqlərindəki özünəməxsusluğa müqayisə əsasında münasibət bildirir.<br><br>3. Nümunələrə əsaslanmaqla obrazların əməllərindəki oxşar və fərqli xüsusiyyətləri şərh edir. |

*Summativ* qiymətləndirmə iki formada tətbiq edilir:

- dərslikdə əks etdirilmiş bölmələrin daxilində, yaxud sonunda keçirilən kiçik summativ qiymətləndirmə;
- hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Kiçik summativ qiymətləndirmə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmayaraq müəllim tərəfindən aparılır. Böyük summativ qiymətləndirmə isə məktəb rəhbərliyi tərəfindən hər yarımilin sonunda tətbiq edilir. Kiçik summativ qiymətləndirmənin aparılacağı tarixlər şagirdlərə öncədən elan edilir və o, bir dərs saatı müddətində gerçəkləşdirilir.

Kiçik və böyük summativ qiymətləndirmə 100 ballıq şkala ilə ölçülür. Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri əsasında hazırlanır. Suallar sinif üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar mürəkkəblik səviyyələrinə görə fərqlənir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

- 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
- 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
- 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
- 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Layihə

Şagirdlərin summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

| **Bal aralığı** | **Qiymət** |
|---|---|
| 0-30 | 2 (qeyri-kafi) |
| 30-60 | 3 (kafi) |
| 60-80 | 4 (yaxşı) |
| 80-100 | 5 (əla) |

Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır.

Layihə

**Mövzu:**

**ƏDƏBİYYAT İNSANI ZƏNGİNLƏŞDİRƏN QÜDRƏTLİ VASİTƏDİR -**

**1 saat**

**Təlim məqsədləri**

- Çıxışının məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).
- Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən istifadə edir (7-2.1.5).

**Köməkçi vasitələr:** Bədii əsərlər və məlumat xarakterli mətnlər.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Bədii ədəbiyyatın insan həyatında rolu ilə bağlı təəssüratların xatırladılması.
2. **Oxu. Anlama.** "Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir" mətninin oxusu və qavranılması.
3. **Müzakirə.** Oxunmuş mətnin möhkəmləndirilməsi məqsədilə müzakirə.
4. **Təqdimatlar.** Çıxışların dinlənilməsi, müzakirəsi.
5. **Formativ qiymətləndirmə.**

Şagirdlər ilk növbədə "Dərsliklə necə işləməli" başlığı altında verilmiş yazılarla tanış olurlar. Ardınca istiqamətləndirici suallar əsasında bədii ədəbiyyatın insan həyatındakı rolu barədə yığcam müsahibə aparılır. Əvvəlki siniflərdə, eləcə də müstəqil oxunmuş səciyyəvi bədii əsərlərin ideya məzmunu xatırladılır. Şagirdlərin fəal iştirakı ilə tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** "Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir" fikrini necə əsaslandırmaq olar?

Fərziyyələr dinlənilir, səciyyəvi hesab olunanlar qeyd edilir.

Dərslikdəki "Ədəbiyyat insanı zənginləşdirən qüdrətli vasitədir" mətninin oxusuna ayrılan vaxt elan edilir. Oxunun hansı formada aparılması müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır. Variantlardan biri mətnin bitkin parçalara bölünərək səsli oxunması, hər parçanın oxusundan sonra fasilə edilərək məzmunun necə qavranıldığını aşkara çıxaran sualların verilməsi ola bilər. Digər variant səssiz oxunun təşkilidir. Bu, vaxta qənaət etməyə imkan yaradır. Səssiz oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərə cütlük şəklində fikir mübadiləsi aparmaq, mətnə aid suallar və onlara cavab hazırlamaq təklif edilir. Ardınca işi kiçik qruplarda davam etdirmək mümkündür: hazırlanmış suallar və onların cavabları qruplarda müzakirə olunur. Məhz bundan sonra mətnlə bağlı öyrənilənlərin müzakirəsinə başlamaq faydalıdır.

Mətnin oxusu üçün üçüncü variant "İNSERT" (interaktiv qeydetmə sistemi) ola bilər. Bu, oxu prosesində şagirdlərin daha diqqətli olmalarına, düşünmələrinə imkan yaradır. Sinfin bu oxu ilə bağlı praktik bacarıqları yoxdursa, qısa izahat və nümunənin nümayiş etdirilməsi lazımdır. Bunun üçün ilk növbədə aşağıdakı işarələr yazı taxtasında əks etdirilir.

| ✓ | – | + | ? |
|---|---|---|---|
| Bilirəm | Mənim üçün ziddiyyətlidir | Mənim üçün yenidir | Mənə aydın deyil |

Qeyd olunur ki, işarələrin ifadə etdikləri mənalar oxu prosesində diqqət mərkəzində saxlanmalı və mətnin üzərində işarələr tətbiq edilməlidir.

Oxunun hansı formada aparılmasından asılı olmayaraq müzakirənin təşkili və dərslikdə təklif edilmiş aşağıdakı sualların da əhatə edilməsi məqsədəuyğundur.

- Əvvəlki siniflərdə hansı janrlarla tanış olmusunuz? Müxtəlif janrlara məxsus əsərləri, onların mövzularını, ideyalarını xatırladın.
- Ədəbiyyat dərslərində hansı bacarıqlara yiyələnmisiniz?
- Yeddinci sinifdə hansı mövzularda əsərlərlə tanış olacaqsınız?

Ləvinə

– Onlar əvvəlki siniflərdə öyrəndiyiniz əsərlərdən hansı cəhətlərinə görə fərqlənir?
– Bu sinifdə hansı bacarıqlara yiyələnəcəksiniz?
– Bədii ədəbiyyat oxucuya nə zaman güclü təsir edir?
– "Bədii ədəbiyyat həm də bilik mənbəyidir" fikrini doğru saymaq olarmı?
– Ədəbiyyat dərslərində hansı biliklərə yiyələnmisiniz?

Müzakirədə mətndə deyilənlərlə kifayətlənmək mümkün deyildir. Şagirdlərin əvvəlki siniflərdə mənimsənilmiş bilik və bacarıqlara müraciət etmələri, başlıcası isə əhəmiyyətli ümumiləşdirmələr aparmaları vacib olur.

Dərsdə "Bədii ədəbiyyat insanın mənəvi aləmini və ağlını zənginləşdirən vasitədir" mövzusunda təqdimatın hazırlanması mühüm məqamlardandır. Yazılı qeydlər əsasında təqdimata hazırlaşan şagirdlərin bədii əsərlərdən nümunələr seçmələri ciddi tələb kimi nəzərə alınır. Bunun üçün sinifdə öyrənilmiş, eləcə də müstəqil oxunmuş əsərlərə müraciət edilir. Nümunələr əsərlərdəki təsvirlər, ayrı-ayrı fakt və hadisələr, ədəbi qəhrəmanların həyat yolu və s. ola bilər. Şagirdlərin əvvəlcə cütlük şəklində, ardınca kiçik qruplarda fikir mübadiləsi aparmalarına şərait yaradılır.

Müəllimin təklifi ilə sadə plan əsasında çıxışa hazırlaşan şagirdlər nümunələr seçdikləri bədii əsərləri, onlara çəkilmiş illüstrasiyaları, tanınmış yaıçıların, elm və incəsənət xadimlərinin geniş yayılmış fikirlərini əks etdirən yazıları əyani vasitə kimi nümayiş etdirməyi planlaşdırırlar.

Təqdimatların fəal dinlənilməsi, çıxış edənlərə sualların verilməsi təmin olunur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Çıxışını sadə plan əsasında hazırlayır | Tapşırıq | İş vərəqləri |
| Təqdimatın məzmununa uyğun əyani vasitələrdən istifadə edir | Şifahi sual-cavab, tapşırıq | Dərslik, iş vərəqləri |

Layihə

# 1.
# ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN SEÇMƏLƏR

**Mövzu:**

**ÇAHARGAH ƏFSANƏSİ –**

**2 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**
- Əfsanədə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir (7-1.3.1).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).
- Əsərdə hadisələrin əlaqələrini müəyyənləşdirir (7-1.3.5).
- Əfsanədə əsas konflikti müəyyənləşdirir (7-1.3.6).
- Əsərin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).
- Əfsanədən bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).

**Köməkçi vasitələr:** "Azərbaycan nağılları", "Əfsanələr" adlı kitablar, əfsanə və nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
**1. Yadasalma.** Mövzu ilə bağlı əvvəllər öyrənilənlərin xatırladılması.
**2. Oxu. Anlama.** Əfsanənin oxusu, ilkin qavrama.
**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
**4. Xatırlatma. Dərinləşdirmə.** "Konflikt" anlayışı barədə biliklərin yada salınması və dərinləşdirilməsi.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə "Çahargah əfsanəsi" əsərinin məzmununun öyrənilməsi diqqət mərkəzində saxlanılacaqdır. Əfsanədə müdriklik hər cür uğur və qələbənin əsası kimi dəyərləndirilir.Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, konfliktin, hadisələrin əlaqələrinin müəyyənləşdirilməsi, mövzu ilə bağlı ilkin qənaətlərin ifadə edilməsi, seçilmiş parçanın yığcam danışılması reallaşdırılacaqdır. "Konflikt" anlayışı ilə bağlı biliklərin xatırladılması və dərinləşdirilməsi həyata keçiriləcəkdir.

**Müəllim üçün əlavə məlumat.** *Əfsanənin məzmununun öyrənilməsini bir dərs saatında reallaşdırmaq mümkündür. Əsərin oxusunu, məzmunla bağlı öyrənilənlərin dərinləşdirilməsini dərslikdə təklif edilmiş variantdan fərqli təşkil etmək olar. Məsələn, əsərin məzmunu ilə dərsə qədər tanış olmayan sinifdə proqnozlaşdırılmış oxunun təşkili məqsədəuyğundur. Hadisələrdə kəskin dönümlər, gözlənilməz vəziyyətlərin yaranması maraqlı ehtimalların irəli sürülməsinə imkan verir. Bütün bunlar süjetin diqqətlə izlənilməsinə səbəb olur.*
*Burada dərsin təşkili ilə bağlı dərslikdə təklif edilmiş metodik tövsiyənin üzərində dayanılmışdır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərin diqqəti dərslikdə "Yadasalma" başlığı altında verilmiş fikrə cəlb edilir: "Tanış olduğunuz əfsanələrdə bir-birinə qarşı duran qüvvələr kimlərdir?". Əvvəlki siniflərdə öyrənilmiş əfsanələr ("Ana maral", "Su həsrəti" və s.) yada salınır. Əfsanələrin məzmunu, əsas ideyaları, iştirakçıları xatırladılır. Şagirdlərin fəal iştirakı ilə sual formalaşdırılır: "Məzmunundan asılı olmayaraq əfsanələrdə xeyirlə şər, müdrikliklə cahillik qarşı-qarşıya durur" fikrini doğru saymaq olarmı?

Layihə

Şagirdlərin fərziyyələrinin dinlənilməsi təmin olunur. Müəllim öyrəniləcək "Çahargah əfsanəsi" əsərinin suala əsaslandırılmış cavab verilməsinə imkan yaradacağını qeyd edir.

Əfsanənin oxusuna başlamazdan əvvəl şagirdlərə izah olunur ki, ilkin oxunun yaratdığı təəssüratı dərslikdə təklif edilmiş sualların əsasında bölüşəcəklər. Suallar aşağıdakı məzmunda təklif edilmişdir.

– Məşhur alimin xarakteri, əməlləri onun haqqında sizdə hansı təsəvvür yaratdı?
– Hökmdar obrazının xarakter və əməlləri barədə yığcam şifahi təqdimat hazırlayın.

İlkin təəssüratın aşkara çıxarılması sonrakı mərhələlərdə aparılan işlərin necə təşkil edilməsinə istiqamət verir. Təcrübədən məlumdur ki, ilkin oxu əsərin məzmunu barədə dolğun təsəvvürün yaranmasını təmin etmir. Lakin onun əhəmiyyəti böyükdür: kənar müdaxilə olmadan əsərlə baş-başa qalan oxucu-şagird hiss və düşüncələrində sərbəst olur. Təəssüratını bölüşəcəyini bildiyindən bu oxuya diqqətli və məsuliyyətli yanaşır.

Dərslikdə təklif edilmiş suallardan birincisi əfsanənin baş qəhrəmanının – alimin xarakter və əməlləri barədə ilkin təəssüratın şərh olunması ilə bağlıdır. Şagirdlərin cavabları, əlbəttə, səviyyəcə fərqlənir: yalnız qabarıq ifadə olunmuş cəhətləri qeyd edənlərlə yanaşı, müəyyən incəlikləri şərh edənlər də olur. Eləcə də əfsanədəki hökmdar obrazı haqqında birtərəfli fikirlərin səsləndirilməsi halları da müşahidə edilir. Bütün bunları nəzərə alan müəllim sonrakı mərhələdə həmin çatışmazlığın aradan qaldırılmasına ayrıca diqqət yetirir.

Dərslikdəki mətnkənarı suallar dərinləşdirilmiş oxunu, ciddi düşünməyi tələb edir.

– Hadisələrin əfsanədə təsvir olunduğu kimi inkişaf edəcəyini düşünürdünüzmü? Nə üçün?
– Sizcə, alim hökmdarın təklifinə nə üçün dərhal münasibət bildirmir?
– Alim sarayda yaşamaq istəməməsinin səbəbini necə izah edir? Bu, inandırıcı görünürmü?
– O, sarayda yaşamaqdan nə üçün imtina edir?
– Hökmdarın qəzəblənməsinə əsl səbəb, sizcə, nədir?
– Hökmdarla vəzirin tədbirini alimin puç edəcəyinə inanırdınızmı?
– Alimin cavabı insanlar tərəfindən nə üçün alqışlandı?
– Dəvələrin boynundakı zınqırovları dəyişdirməkdə alimin məqsədi nə idi?

Suallar, göründüyü kimi, obrazların daha əhatəli başa düşülməsinə, əfsanənin ideyası haqqında ilkin təsəvvürün yaranmasına əlverişli imkan yaradır. Mətnə yenidən müraciət edən şagirdlər sualların cavabları üzərində düşünür, qeydlər edirlər. Onların cütlük şəklində fikir mübadiləsi aparmalarına şərait yaradılır. Cavablar təqdimat, yığcam çıxışlar şəklində səsləndirilir. Bu prosesə yığcam müsahibəni də əlavə etmək faydalıdır. Rəngarənglik dərsin maraqlı olmasına imkan yaratdığı kimi, yeksənəqliyi də aradan qaldırır.

Məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi və müstəqil yanaşmaya nail olunması məqsədilə aşağıdakı suallar üzrə təqdimat hazırlamaq üçün vaxt ayrılır:

a) Alim sarayda yaşasaydı, xalq üçün daha faydalı işlər görə bilməzdimi?
b) Əfsanədəki hadisələrin bir-biri ilə əlaqəsini nümunələrlə izah edin.

Birinci sualla bağlı fərqli fikirlərin səsləndirilməsinə təbii baxmaq lazımdır. Alimlə saray arasındakı ziddiyyətin dərinliyini qədərincə dəyərləndirməyən şagirdlər, əlbəttə, az olmur. Hadisələrin, hökmdarın və vəzirin nitqlərinin diqqətlə izlənilməsi doğru nəticənin çıxarılmasına imkan yaradır.

Tapşırıqdakı ikinci tələb baş verən hadisələrin səbəb-nəticə əlaqələrinin aydınlaşdırılmasına istiqamət verir.

Əsərdəki konflikt, onun yaranma səbəbinin aydınlaşdırılması, əfsanənin mövzusunun müəyyənləşdirilməsi müzakirə obyekti kimi təqdim edilmişdir. Müzakirəyə ayrılmış vaxtın başlanğıcında konfliktlə bağlı əvvəlki siniflərdə mənimsənilmiş biliklərin xatırladılmasına, dərslikdə verilmiş məlumatla tanışlığa diqqət yetirilir.



Layihə

Şagirdlərin diqqəti əfsanədə qarşı-qarşıya duran iki qütbə cəlb olunur: bir tərəfdə ağıl, müdriklik, hazırcavablıq, digər tərəfdə təkəbbürlülük, cahillik, səviyyəsizlik... Münaqişə, toqquşma da bunları təmsil edənlərin (alimlə hökmdar və vəziri) arasında baş verir. Bu münaqişənin yaranma səbəbi istiqamətləndirici suallar əsasında açıqlanır.

Əsərin mövzusunun müəyyənləşdirilməsi üzrə müzakirədə şagirdlər ilkin qənaətlərini bildirirlər.

Dərsdə sonrakı addım əsərdən seçilmiş bitkin parçanın yığcam danışılmasının həyata keçirilməsidir. Şagirdlər əsərdən istədikləri parçanı seçməkdə sərbəstdirlər, lakin çıxışları sadə plan əsasında edəcəkləri onlara xatırladılır. Nağıletmənin qarşısında qoyulan digər bir tələb mənası yeni öyrənilmiş sözlərdən istifadədir. Çıxışların fəal dinlənilməsi, hər birinə münasibət bildirilməsi işin səmərəliliyində əhəmiyyətli rol oynayır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əfsanədə tanış olmayan sözlərin mənasını kontekstə uyğun izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərdə hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirir. | Tapşırıq , şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanədə konfliktin tərəflərini müəyyənləşdirir. | Tapşırıq , şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir. | Tapşırıq , şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanədən bitkin parçanın məzmununu başlıca fikirləri əhatə etməklə yığcam nağıl edir. | Tapşırıq , şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**ÇAHARGAH ƏFSANƏSİ –**

**2 saat**

**İkinci saat:**
**ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları nitqlərinə görə müqayisə edir (7-1.4.1).
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir. (7-1.4.8).
- Əfsanəni (ondan bitkin parçanı) ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (7-1.4.7).
- Əfsanənin əsas ideyasını şərh edir (7-1.4.6)

**Köməkçi vasitələr:** "Azərbaycan nağılları", "Əfsanələr" adlı kitablar, əfsanə və nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Əfsanənin mövzusunun dəqiqləşdirilməsi, ideyasının aydınlaşdırılması və obrazlarının səciyyələndirilməsi üzrə araşdırmanın aparılması.
2. **Yaradıcı iş.** Əfsanənin davamının yazılması, nəticələrin müzakirəsi.
3. **İfadəli oxuya hazırlaşın.** Əfsanədən bitkin parçaların ifadəli oxusunun hazırlanması.
4. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə başlıca diqqət təhlil üzrə araşdırmaya ayrılır. Əfsanənin mövzusunun dəqiqləşdirilməsi, ideyasının aydınlaşdırılması və şərh edilməsi, obrazlarının səciyyələndirilməsi ön plana çəkilir. Yaradıcı işin gerçəkləşdirilməsinə vaxt ayrılır. Əfsanənin davamının yazılması, əldə



Ləyihə

edilmiş nəticələrin müzakirəsi həyata keçirilir. Əfsanədən seçilmiş bitkin parçaların ifadəli oxusuna hazırlıq və ifadəli oxusu üzrə iş təşkil edilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərsin əvvəlində müəllim qeyd edir ki, əfsanənin mənasının, ideyasının, obrazlarının əhatəli dərk edilməsi araşdırmanın, təhlil üzrə işin aparılmasını zəruri edir. Əfsanənin yaradıcılarını düşündürən başlıca fikir nə olmuşdur? Bu nümunədə əsas ideya necə izah oluna bilər?

Bu sualların cavablarının aydınlaşdırılması dərslikdəki tapşırıqların əsasında araşdırmanın aparılmasından xeyli dərəcədə asılıdır.

Araşdırma, təhlil üçün dərslikdə təklif edilmiş tapşırıq aşağıdakı məzmundadır.

- Əfsanənin mövzusu ilə bağlı qənaətlərinizi nümunələrlə dəqiqləşdirin.
- Davranışına, əməllərinə əsaslanmaqla alim obrazını səciyyələndirin.
- Hökmdar obrazının davranış və əməlləri onu necə səciyyələndirməyə imkan verir? Fikrinizi nümunələrlə əsaslandırın.
- Alim və hökmdar obrazlarının nitqlərini müqayisə etməklə aralarındakı fərqi izah edin.
- Alim və hökmdar obrazlarının mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələri dəyərləndirin.
- Əfsanədəki başlıca fikri – əsas ideyanı şərh edin. Cavab hazırlayarkən əsərdəki konfliktə diqqət yetirməyi unutmayın.

Əfsanənin mövzusu ilə bağlı ilk dərsdə aparılan müzakirənin nəticələri nəzərə alınmaqla qənaətlərin dəqiqləşdirilməsi həyata keçirilir. Bunun üçün əsərdəki hadisələrin təsviri, mətləblər, obrazların dilindən səsləndirilən fikirlər bir daha nəzərdən keçirilir. Əfsanədən seçilmiş nümunələrə əsaslanmaqla mövzu barədə nəticə çıxarılır.

Obrazların əhatəli səciyyələndirilməsi əsərin ideyasının aydınlaşdırılmasına əhəmiyyətli təsir edir. Alim obrazının təmkinli davranışı, nəzakətli nitqi-danışığı, işlətdiyi sözlər onun haqqında aydın təsəvvürün qazanılmasına imkan yaradır. Eləcə də hökmdarın nitqi üzərində müşahidə onun elmə, elm adamlarına münasibəti, ümumiyyətlə, xarakteri barədə nəticə çıxarmağa əsas verir. Bu iki obrazın nitqləri arasındakı fərqin nümunələr əsasında izah edilməsi barələrində əsaslandırılmış fikir deməyə, əsərin konfliktini aydınlaşdırmağa əhəmiyyətli dərəcədə təsir edir.

Əsərdəki hadisələri diqqətlə izləməklə alim və hökmdar obrazlarının mühüm qərar vermələrinin səbəbini anlamaq mümkündür. Bu məqamda hadisələrin məzmun, məna və əhəmiyyətinin dəyərləndirilməsi vacibdir.

Əfsanənin ideyasının aydınlaşdırılması, şərh edilməsi üçün təkcə ondakı mətləblərin diqqət mərkəzində saxlanılması kifayət deyildir. Bu məqsədlə əfsanədə konfliktin xarakteri, əks qütbləri barədə bir daha düşünmək lazım gəlir.

Tapşırığın yerinə yetirilməsi üçün fərqli iş formalarından istifadə etmək mümkündür. İşə cütlük şəklində başlamaq olar, bu, şagirdlərin hər birinə öz mövqeyini ifadə etməyə, çevik fəaliyyət göstərmələrinə səbəb olur. İşin kiçik qruplarda davam etdirilməsi mümkündür. Belə olanda ayrı-ayrı cavabların daha geniş müstəvidə müzakirəsi reallaşmış olur. Nəticədə, əllərində yazılı qeydlər olan şagirdlərin hər birində tapşırığın bütün bəndləri ilə bağlı cavab variantları toplanır. Bütün bunlar əsaslandırılmış təqdimatların edilməsinə və nəticələrin çıxarılmasına imkan yaradır.

Dərslikdə növbəti tapşırıq ifadəli oxunun reallaşdırılması ilə bağlıdır. Bu, ifadəli oxunun tətbiqi üzrə VII sinifdə ilk tapşırıqdır. Tapşırıqla bağlı tövsiyənin diqqətlə oxunması, ehtiyac duyulan məqamların izahı, əvvəlki siniflərdə mənimsənilmiş bilik və bacarıqların tətbiqi diqqət mərkəzində saxlanmalıdır.

– İfadəli oxu ilə bağlı mənimsədiyiniz bilik və bacarıqları yeddinci sinifdə daha da inkişaf etdirəcəksiniz. Bu məqsədlə dərsliyinizdə verilmiş tövsiyə və tapşırıqlarla ətraflı tanış olmağınız, onların tələblərinə əməl etməyiniz vacibdir.

– Öyrəndiyiniz əfsanədən bir parçanın ifadəli oxusuna hazırlaşın. Seçdiyiniz parçanı, məsələn, "Qədim zamanlarda bir alim yaşayırdı" cümləsindən "Alimin cavabı, dikbaşlığı, açıq sözü hökmdarı hirsləndirir" cümləsinə qədər yazın. Bilirsiniz ki, mətnin sağ kənarında boş yer saxlamaq lazımdır.

Orada qeydlər edəcəksiniz. Yazdığınız parçada ifadə olunmuş əsas fikri aydınlaşdırıb onun əsasında qarşınızda duran vəzifəni, yəni sinfə nəyi çatdıracağınızı – ifaçılıq vəzifəsini müəyyənləşdirin. Variantlardan biri belə ola bilər: “Alimin uzaqgörən insan olması barədə dinləyicilərdə təsəvvür yaratmaq”. Deməli, mətni elə oxumalısınız ki, dinləyicilərdə alim haqqında bu təəssürat yaranmış olsun.

– Seçdiyiniz parçanın ilk dörd cümləsində (aşağıdakı cədvəldə verilib) səsinizin aldığı çalarlara (nağılvari, heyrətlə) diqqət edin.

– Dərsliyinizin sonunda verilmiş şərti işarələrdən istifadə etməklə fasilələrin yerini, səsinizdə yaranan dəyişikliyi (tonun yüksəlməsi, alçalması və s.), tələffüzcə fərqləndirilən sözləri (məntiqi vurğu qəbul edənləri) müəyyənləşdirib qeyd edin. Nəticədə həmin cümlələr aşağıdakı şəkli alacaqdır.

– Əfsanədən seçdiyiniz parçanı bu qayda ilə sona kimi işləyib ifadəli oxusuna hazırlaşın.


Qədim zamanlarda bir alim yaşayırdı. | O öz gözəl əməlləri ilə | xalqın rəğbətini qazanmışdı. | Alimin sorağı yaşadığı ölkənin hökmdarına da çatır. | O, saraya cəlb etmək məqsədilə | alimi çağırtdırır və öz yanında qalmağı ona təklif edir. ||

İfaçılıq vəzifəsi
Alimin uzaqgörən insan olması barədə dinləyicilərdə təsəvvür yaratmaq.
nağılvari
heyrətlə

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Alim obrazının təmkinli, müdrik, hökmdarın ədalətsiz, kinli olduğunu nümunələrlə əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Alim və hökmdar obrazlarının nitqlərinə əsaslanmaqla fərqli xarakter, davranış sahibi olduqlarını izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Alim və hökmdar obrazlarının qərar vermələrinə səbəb olan hadisələri dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Epik əsərdəki bitkin parçanı ideyasına uyğun emosionallıqla ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanənin əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**YOXSUL QOCAYNAN VƏZİR (nağıl) –**

**2 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Nağılda bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7-1.3.2).
- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Nağılın mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).
- Əsərdəki əsas konflikti müəyyənləşdirir (7- 1.3.6).
- Nağıldan bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məqamına və digər sözlərlə əlaqəsinə çıxışında diqqət edir (7-2.1.4).

**Köməkçi vasitələr:** “Azərbaycan nağılları, “Azərbaycan nağılları və əfsanələri” adlı kitablar, nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Nağılları oxuyanda sizdə daha çox hansı təəssürat, hiss və düşüncələr yaranır?
2. **Oxu. Anlama.** Nağılın oxunması, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, məzmunun öyrənilməsinin dərinləşdirilməsi.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
5. **Müzakirə.** Əsərin mövzusunun və konfliktinin müəyyənləşdirilməsi.
6. **Nitqin, düşüncənin inkişafı.** Əsərdən seçilmiş parçanın yaradıcı nağıl edilməsi üzrə işin təşkili.
7. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə başlıca məqsəd “Yoxsul qocaynan vəzir” adlı nağılın oxusu, məzmununun bütövlükdə mənimsənilməsidir. Əsərin ilkin oxusundan sonra təəssüratın aşkara çıxarılması, məzmununun mənimsənilməsinin dərinləşdirilməsi, səviyyəsinin müəyyənləşdirilməsi, öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi, nağılın mövzu və konfliktinin aydınlaşdırılması, eləcə də nitq və təfəkkürün inkişaf etdirilməsi istiqamətində işlər reallaşdırılacaqdır.

**Müəllim üçün əlavə məlumat.** *Nağılın oxusunu, məzmununun öyrənilməsini fərqli variantlarda təşkil etmək mümkündür. Bu, müəllimin məqsədindən, sinfin səviyyəsindən, məktəbin imkanlarından asılıdır. Vaxta qənaət baxımından dərslikdə təklif edilmiş variant məqsədəuyğundur. Burada həmin variant üzrə işin təşkili işıqlandırılır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Diqqət ilk növbədə dərslikdəki “Yadasalma” başlığı altında əks etdirilmiş suala cəlb edilir: Nağılları oxuyanda sizdə daha çox hansı təəssürat, hiss və düşüncələr yaranır? Suala cavab vermək şagirdlər üçün çətin deyildir. Nağıl janrında xeyli nümunələr oxuyan, araşdırma aparan şagirdlərin diqqəti əvvəlki siniflərdə öyrənilmiş əsərlərə çəlb edilə bilər. Sevimli nağıl qəhrəmanlarını, maraqlı, yaddaqalan epizodları xatırlayan məktəblilər xeyir və şər qüvvələrin təmsilçilərinə diqqəti cəlb edirlər. Müəllim yığcam müsahibənin sonunda əsas sualı səsləndirir: Nağıllarda xalq öz qəhrəmanlarını necə təqdim edir? Şagirdlərin fikirləri dinlənilir. Müəllim qeyd edir ki, dərsdə öyrəniləcək “Yoxsul qocaynan vəzir” nağılı bir çox mətləblərlə yanaşı, suala da aydınlıq gətirəcəkdir.

Nağılın səssiz ilkin fərdi oxusu təklif edilir. Şagirdlər artıq bilirlər ki, ilkin təəssüratlarını bölüşməli olacaqlar. Oxu posesində şagirdlər tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına ehtiyac duyurlar. Bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi dərinləşdirilmiş oxuda da həyata keçirilə bilər. Şagirdlər ilkin təəssüratlarını cütlük şəklində bölüşə bilərlər. Növbəti addımda şagirdlərin təqdimatlarının dinlənilməsinə, yaxud müsahibənin aparılmasına vaxt ayrılır. Şagirdlər qoca, padşah və

Layihə

vəzir obrazları haqqındakı ilkin təəssüratlarını səsləndirirlər. Cavablardakı birtərəfli yanaşmalar, fikirlərin qədərincə əsaslandırılmaması, əsərdən nümunələrin çox az göstərilməsi və s. müşahidə oluna bilər. Bütün bunları müəllimin qeyd etməsi sonrakı mərhələlərdə işin səmərəli təşkilinə imkan yaradır. İlkin təəssüratların aşkara çıxarılmasından aydın olur ki, mətnə yenidən müraciət edilməsinə ehtiyac vardır. Bu, dərslikdə təklif edilmiş sualların əsasında həyata keçirilir.

– Əsərdə nağıl janrına məxsus hansı cəhətləri müşahidə etdiniz?
– Qocanın həmişə təkrar etdiyi sözlər sizi düşündürdümü? Hansı nəticəyə gəldiniz?
– Padşahın "çox tədbirli adam olması" nağılda təsdiqini tapırmı? Nümunələr göstərin.
– Qocanı sadəlövh adam saymaq olarmı?
– Vəzirin müxtəlif vəziyyətlərdə keçirdiyi hissləri duydunuzmu? Onun hisslərini necə izah edərsiniz?
– Nağılın belə sonluqla başa çatacağını gözləyirdinizmi? Nə üçün?

Suallar ilkin oxuda müşahidə edilən çatışmazlığın aradan qaldırılmasını təmin etməlidir. Deməli, müəllim dərinləşdirilmiş oxu məqsədilə dərslikdə təklif edilmiş suallara konkret situasiyadan asılı olaraq əlavələr edə bilər.

Şagirdlər suallara cavab hazırlayır, cütlük şəklində, yaxud kiçik qruplarda fikir mübadiləsi aparırlar. Yalnız bundan sonra nəticə müsahibə və ya təqdimatlar əsasında yoxlanılır.

Dərinləşdirilmiş oxunun səviyyəsi test tapşırıqları vasitəsilə müəyyənləşdirilir. Suallar elə tərtib edilmişdir ki, doğru cavabın müəyyənləşdirilməsi üçün nağılın məzmunu ilə bağlı əhatəli məlumata malik olmaq lazımdır.

1. **Fikirlərdən biri doğrudur.**
   A) Qocanın məqsədi padşahın diqqətini cəlb etmək idi.
   B) Qoca elə əvvəldən vəzirin hiyləgər olduğunu anlamışdı.
   C) Qoca haqqında ölüm hökmünü verən padşah sonradan peşman olur.
   D) Vəzir qocanın ağlını, fərasətini yüksək dəyərləndirir.
   E) Padşah vəzirinə heç vaxt inanmamış, ona etibar etməmişdi.
2. **Fikirlərdən biri səhvdir.**
   A) Qoca xeyirxah insan idi.
   B) Qocanı var-dövlət, firavan həyat maraqlandırmırdı.
   C) Padşah eşitdiklərinə laqeyd qalmırdı.
   D) Vəzir qocanın onun vəzifəsini əlindən alacağından qorxurdu.
   E) Padşah qocanın salamat qalmasından məmnun olur.

Dərslikdəki növbəti tapşırıq nağılın məzmunu ilə bağlı qazanılmış biliklərin, eləcə də nəzəri anlayışların möhkəmləndirilməsi və zənginləşdirilməsi məqsədini güdür.

1. Mətndə işlənmiş bədii təsvir və ifadə vasitələrini və onların növlərini müəyyənləşdirin.
2. Mövzulardan birini seçib yazılı qeydlər etməklə şifahi təqdimata hazırlaşın.
   a) Sizcə, əsərdəki mühüm mətləblər hansılardır?
   b) Nağıldakı obrazlardan hansına daha çox rəğbətim var.

Tapşırığın digər mühüm funksiyası təhlilə hazırlıqla bağlıdır. Belə ki, birinci bənd nağılın bədii keyfiyyətlərinin başa düşülməsinə əhəmiyyətli təsir edir. Yaxud əsərdəki mühüm mətləblərin aydınlaşdırılması ideyanın şərh edilməsini asanlaşdırır. Obrazlara münasibətin müəyyənləşdirilməsi isə təhlildə əsaslandırılmış fikrin səsləndirilməsinə yardımçı olur.

Dərslikdə müzakirə məqsədilə təklif edilmiş tapşırıqlar nağılın mövzusunun və konfliktin müəyyənləşdirilməsi ilə bağlıdır. Nağılın məzmunu haqqında kifayət qədər məlumat qazanan şagirdlər mövzusu barədə fikirlər irəli sürməkdə çətinlik çəkmirlər. Lakin bu, əksər hallarda qənaətlər şəklində olur. Konfliktin müəyyənləşdirilməsi üçünsə çox hallarda qarşı-qarşıya duran qüvvələri (insanları) xatırladırlar.

Dərslikdəki sonrakı tapşırıq "Nitqin, düşüncənin inkişafı" başlığı altında verilmişdir. Onun başlıca tələbi əsərdən seçilmiş parçanın yaradıcı nağıl edilməsidir. Mənası yeni aydınlaşdırılmış sözlərdən nağıletmədə istifadə edilməsi də tövsiyə olunmuşdur. Yaradıcı nağıletmə ilə bağlı təcrübəsi olan şagirdlər müstəqil seçdikləri parçanın məzmunu üçün sadə plan da hazırlaya bilərlər.

Layihə

Fəal dinləmə və çıxışlara münasibət bildirilməsi təmin olunur.

Dərslikdə “Xatırlatma. Dərinləşdirmə” başlığı altında “bədii sual” və “təkrir” anlayışları üzərində dayanılmışdır. Bunlardan birincisi (bədii sual) haqqında məlumatlı olan şagirdlərə xatırlatma məqsədi güdülsə də, əlavə fikirlər də ifadə edilmişdir. İkinci (təkrir) haqqında isə ətraflı məlumat verilmişdir. Şagirdlər yenicə öyrəndikləri nağılda hər iki anlayışla bağlı nümunələr müəyyənləşdirə bilərlər.

Dərsin əvvəlində formalaşdırılmış sual (Nağıllarda xalq öz qəhrəmanlarını necə təqdim edir?) xatırladılır, xeyirxah, gözütox, təmkinli qoca obrazının xalqın sevimli qəhrəmanı olduğu təsdiqlənir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Bədii təsvir və ifadə vasitələrinin növ fərqlərini əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağıldakı başlıca mətləblərlə bağlı təəssüratını nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mövzu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərdəki konflikti nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağıldakı başlıca fikri yaradıcı nağıletmənin tələblərinə uyğun ifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri çıxışında məqamında işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**YOXSUL QOCAYNAN VƏZİR (nağıl) –**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**
- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Təsvir və ifadə vasitələrinin nağılda bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.4.3).
- Nağılın əsas ideyasını şərh edir (7-1.4.6).
- Nağılın ideyasının müəyyənləşdirilməsində əsas konfliktin rolunu izah edir (7-1.4.5).

**Köməkçi vasitələr:** “Azərbaycan nağılları”, “Nağıllar” adlı kitablar, nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
**1. Araşdırma. Təhlil.** Nağılın mövzusu ilə bağlı qənaətin dəqiqləşdirilməsi, ideyanın şərh edilməsi, obrazlarının səciyyələndirilməsi, bədiiliyinin artmasına təsir edən vasitələrin dəyərləndirilməsi üzrə araşdırma.
**2. Yaradıcı iş.** Bədii yaradıcılıq bacarığının inkişafı üzrə müstəqil iş.
**3. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə nağılın mövzusu ilə bağlı qənaətin dəqiqləşdirilməsi, ideyasının aydınlaşdırılması, obrazlarının səciyyələndirilməsi, bədii keyfiyyətini artıran vasitələrin araşdırılması və təhlili üzrə işlər reallaşdırılır. Şagirdlərdə bədii yaradıcılıq bacarığının inkişafı üçün müstəqil işin icrasına vaxt ayrılır.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, nağılın məzmunu, mövzusu, obrazları və s. bağlı öyrənilənlər əhəmiyyətli olsa da, onun bütövlükdə dəyərləndirilməsi üçün yetərli deyildir. Bunun üçün düşündürücü suallar əsasında araşdırma və təhlilin aparılmasına ehtiyac duyulur.

Şagirdlərin diqqəti müstəqil araşdırılacaq suallara yönəldilir.

- **Nağılın mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Aşağıdakı tövsiyələri nəzərə alın:**
  – nağıldakı hadisələrin məzmununu yada salın;

Layihə

– obrazların hər birinin hadisələrdəki mövqeyini xatırlayın.

- **Qoca obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
  – fərqli məqamlarda davranışı və nitqi;
  – həyat haqqında düşüncələri, başqalarına münasibəti.
- **Padşah obrazını səciyyələndirin. Tövsiyələrə diqqət edin:**
  – müxtəlif vəziyyətlərdə nitqi;
  – müxtəlif məqamlarda qərar və davranışı;
  – insanlara münasibəti.

4. **Vəzir obrazını səciyyələndirin.**
   – fərqli vəziyyətlərdə nitqi;
   – müxtəlif məqamlarda davranış və əməlləri;
   – insanlara münasibəti.

**5. Nağılda təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin. Cədvəldən istifadə edin.**

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Cümlələrin bədii təsvir və ifadə vasitələri olmadan işlənməsi | Fərqin izahı |
|---|---|---|
| | | |

**6. Nağılın əsas ideyasını şərh edin. Cədvəldəki fikirlərlə tanış olun. Əfsanədəki mühüm mətləblər və konfliktlə bağlı öyrəndiklərinizi yada salın.**

| S. | Fikirlərdən hansı əfsanənin əsas ideyasını ifadə edə bilər? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Hər bir işdə ağılla, təmkinlə davranmaq vacibdir. | | |
| 2 | İnsanın özünə elədiyini, el yığılsa, eləyə bilməz. | | |
| 3 | Özgəyə quyu qazan özü düşər. | | |

Tapşırığın icrası üçün hansı iş forması daha səmərəlidir? Belə hallarda iş formalarını qarşı-qarşıya qoymaq doğru deyildir. İş formasının seçilməsi üçün bir deyil, bir neçə şərt ola bilər. Müəllim iş formaları ilə bağlı şagirdlərinin mənimsəmiş olduqları bacarıqları, tapşırığın xarakterini, qarşıya qoyduğu məqsədi və s. nəzərə almaqla qərar qəbul edir. Təbiidir ki, “Araşdırma. Təhlil” tipli tapşırıqların icrasını fərdi iş formasının tətbiqi ilə həyata keçirmək olar. Lakin nəticənin müsahibə, təqdimatların edilməsi və s. tətbiqi ilə müzakirə olunması vacibdir.

Bu tip tapşırıqların şagirdlərin əməkdaşlığı şəraitində yerinə yetirilməsi daha məqsədəuyğundur. Məsələn, cütlük şəklində işə başlayan şagirdlər ilkin cavab variantlarını hazırlayandan sonra kiçik qruplarda birləşərək fikir mübadiləsi, müzakirə apara bilərlər və s.

Şagirdlər bu qəbildən tapşırıqların icrası ilə bağlı təcrübə qazanıblar. Sualların hər biri tövsiyələrlə müşayiət olunur. Onların nəzərə alınması işin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Məsələn, qoca obrazının təhlilində birinci tövsiyə (fərqli məqamlarda davranışı və nitqi) şagirdləri əsərin müxtəlif epizodlarına müraciət etməyə istiqamətləndirir. Məlum olur ki, qoca fərqli vəziyyətlərdə öz təmkinini, sadə, səmimi davranış və danışığını qoruyub saxlayır. İkinci tövsiyə (həyat haqqında düşüncələri, başqalarına münasibəti) şagirdləri əsər üzərində dərindən düşünməyə, fakt və hadisələri müqayisə etməyə yönəldir. Şagirdlər nəticə çıxarırlar ki, qoca gözü-könlü tox, başqalarına xeyirxah münasibət bəsləyən bir insandır.

Əsərin ideyasının izah edilməsində konfliktin rolunun aydınlaşdırılması şagirdin müstəqil düşüncəsinin inkişafına əhəmiyyətli töhfə verir. Bu konflikt, əslində, xeyirlə şərin toqquşmasıdır. Bir

Layihə

tərəfdə xeyiri təmsil edən qoca, digər tərəfdə şəri, pislikəri təmsil edən vəzir... Onların müqayisəsindən çıxan nəticə əsərin ideyası kimi qəbul edilə bilər.

Dərslikdə təklif edilmiş "Nağılda təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin" tapşırığı ilə bağlı əvvəlki siniflərdə tanış olan şagirdlər çətinlik çəkmirlər. Cədvəldən istifadə etməli olan şagirdlər təsvir və ifadə vasitələrinin fikrin təsir gücünü və bunula da bədiiliyin artmasında rolunu açmağı bacarmalıdırlar. Onların aşağıdakı nümunəni müşahidə etmələri yerinə düşər.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Cümlələrin təsvir və ifadə vasitələri olmadan işlənməsi | Fərqin izahı |
|---|---|---|
| Qarabağın cənnət kimi yaylaqları çox, durnagözlü bulaqları tükənməzdir... | Qarabağın yaylaqları çox, bulaqları tükənməzdir... | Birinci cümlə adama sevinc, fərəh gətirir, mənzərəni çox təsirli əks etdirir. |

Dərslikdə təklif edilmiş "Yaradıcı iş" başlıqlı tapşırıqla (Nağılın davamını – qocanın sonrakı taleyini təsəvvür etdiyiniz kimi yazın) bağlı şagirdlər əvvəlki siniflərdə müəyyən bacarıqlar qazanıblar. Müəllim əlavə olaraq qeyd edir ki, nağılın davamı yazılarkən hadisələrin mərkəzində qoca obrazının taleyi dayanmalıdır. Hazırlanan mətn dil-üslubuna görə nağıldan fərqlənməməli, söz, ifadə seçimi maksimum yaxın olmalıdır.

İşin nəticəsinin müzakirə edilməsinə, yazılardan nümunələrə münasibət bildirilməsinə vaxt ayrılmalıdır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Qoca, padşah və vəzir obrazlarını fərqli vəziyyətlərdə davranış və əməllərinə görə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağılda təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına təsirini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas ideyanı nağıldakı mətləblərə, konfliktə əsaslanmaqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| Mövzu: | Təlim məqsədləri |
|---|---|
| **KOROĞLU İLƏ DƏLİ HƏSƏN („Koroğlu" dastanından) –**<br><br>**2 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | • Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).<br>• Dastanda hadisələrin obrazlara təsirini izah edir (7-1.3.5).<br>• Dastanın (qolun) mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir 7-1.3.4).<br>• Dastanda konfliktdə olan tərəflərin mövqeyini izah edir (7-1.3.6).<br>• Dastanda bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).<br>**Köməkçi vasitələr:** "Koroğlu" dastanı, "Azərbaycan dastanları" adlı kitablar, "Koroğlu" dastanına çəkilmiş illüstrasiyalar.<br>**Dərsin qısa planı**<br>**1. Yadasalma.** Dərslikdəki sual ("Koroğlu" dastanı haqqında öyrəndiklərinizi xatırlayın. Sizcə, dastanın böyük şöhrət qazanmasına səbəb nədir?) əsasında mövzu ilə bağlı məlumatın yada salınması, ondan maraqoyatma vasitəsi kimi istifadə edilməsi.<br>**2. Oxu. Anlama.** "Koroğlu ilə Dəli Həsən" qolunun oxunması, ilkin qavramanın aşkara çıxarılması, məzmunun öyrənilməsinin dərinləşdirilməsi.<br>**3. Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması.<br>**4. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.<br>**5. Müzakirə.** Dastanın (qolun) mövzusunun və konfliktin müəyyənləşdirilməsi.<br>**6. Nitqin, düşüncənin inkişafı.** Məzmunun yığcam nağıl edilməsi üzrə işin təşkili.<br>**7. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə "Koroğlu ilə Dəli Həsən" qolunun bütövlükdə oxusu, məzmununun mənimsənilməsi həyata keçiriləcəkdir. İlkin oxunun yaratdığı təəssüratın aşkara çıxarılması əsasında dərinləşdirilmiş oxunun təşkili, öyrənilənlərin yoxlanması, məzmunun möhkəmləndirilməsi, qolun mövzusunun və konfliktin müəyyənləşdirilməsi, eləcə də nitq və təfəkkürün inkişafı üzrə işin təşkili reallaşdırılacaqdır.

**Müəllim üçün əlavə məlumat.** *Oxu, məzmunun öyrənilməsinin dərinləşdirilməsi fərqli variantlarda təşkil edilə bilər. Məsələn, proqnozlaşdırılmış oxunu tətbiq edən müəllim mətnin ilkin qavranma səviyyəsini aşkara çıxarmaqla bərabər, onun dərinləşdirilməsinə də nail ola bilər.*

*Burada təklif edilən metodik tövsiyə dərsin dərslikdəki təsvirinə uyğun işlənilmişdir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərə "Yadasalma" başlığı altında verilmiş sualı oxumaq təklif edilir: Sizcə, dastanın böyük şöhrət qazanmasına səbəb nədir?

Sual fərqli fikirlərin səslənməsinə səbəb olur. Müəllim dastanın türk xalqlarının şifahi ədəbiyyatında önəmli yer tutduğunu, müştərək abidə kimi dünya şöhrəti qazandığını qeyd edir. Əlavə edir ki, "Koroğlu ilə Dəli Həsən" dastanın maraqlı qollarından biridir, onunla bağlı araşdırma səsləndirilmiş suala cavab tapmağa yardımçı olacaqdır.

Səssiz fərdi oxuya başlamazdan əvvəl şagirdlərin diqqəti "Oxu. Anlama" başlıqlı tapşırığa cəlb edilir.

– Əsərdə sizin üçün təəccüblü, yaxud gözlənilməz olan təsvir, epizod oldumu?

Lavin

– Koroğlu obrazı haqqındakı təəssüratınızla bağlı şifahi təqdimat edin.

– Dəli Həsən obrazı sizdə hansı təəssürat yaratdı?

Şagirdlərə xatırladılır ki, mətnin oxusundan sonra təəssüratlarını bu sualların əsasında bölüşəcəklər. Suallardan birincisi əsərin bütövlükdə məzmunu haqqında təsəvvürün, sonrakılar isə obrazlarla bağlı təəssüratın səviyyəsini müəyyənləşdirmək üçün faydalıdır. İkinci sualın cavabının təqdimatlar şəklində ifadə edilməsi nəzərdə tutulmuşdur. Cavabların məzmunu müəllimə növbəti işi necə təşkil etməyin lazım olduğunu diktə edir. Başqa sözlə, dərinləşdirilmiş oxunun reallaşdırılması üçün nəzərdə tutulmuş mətnkənarı suallara ya əlavələr etmək, ya da onlarda ixtisarlar aparmaq lazım gələ bilər. Əlbəttə, bu suallar bütövlükdə ilkin oxudan qazanılmış təsəvvürün dərinləşməsində əhəmiyyətli rol oynayır. Məsələn, birinci sual (Dəli Həsənin Koroğluda yaratdığı ilk təəssürat necə olur?) Dəli Həsən obrazı ilə bağlı ilkin təəsüratı xeyli zənginləşdirir. Elə ilk baxışdan Dəli Həsənə Koroğluda rəğbət hissi yaranır: "Bir də baxdı ki, budur, bir dəstə yaraqlı-yasaqlı atlı gəlir. Amma atlıların qabağında bir oğlan gəlir, bir oğlan gəlir ki, dünyalara dəyər. Üzündən, gözündən igidlik yağır".

Sualların cavabları əsərdən seçilmiş nümunələrlə əsaslandırılır.

Suallara cavabların hazırlanmasında iş formalarından səmərəli istifadə etmək əsaslı nəticələrin çıxarılmasına təsir edir. Əlbəttə, müəllimdə hər bir şagirdin suallara fərdi hazırladığı cavabı görmək arzusu güclü olur. Lakin bu qəbildən tapşırıqların yalnız fərdi iş formasının tətbiqi ilə yerinə yetirilməsi, nəticəsi barədə təsəvvürün əldə edilməsi çox vaxt tələb edir. Buna görə də iş formalarının çevik əvəzlənməsi qaydalarının mənimsənilməsi və tətbiqi məqsədəuyğundur. Bütün hallarda suallarla şagirdlərin fərdi tanışlığına, ilkin cavabların üzərində düşünmələrinə imkan yaradılması faydalıdır. Məhz bundan sonra cütlük şəklində fikir mübadiləsi aparmaqla cavabların hazırlanması həyata keçirilə bilər. Lakin bu da hələ son deyildir; şagirdlərin kiçik qruplarda birləşərək daha geniş dairədə fikir mübadiləsi, müzakirə aparmalarına vaxt ayrıla bilər.

Əslində, şagirdlər belə suallara cavab hazırlamağın variantları ilə əvvəlki siniflərdə tanış olmuşlar:

– suallara fərdi olaraq cavabların hazırlanması və nəticənin müsahibə yolu ilə müzakirəsi;

– suallara fərdi olaraq cavabların hazırlanması, cütlük şəklində və kiçik qruplarda işin davam etdirilməsi, nəticənin təqdimatlar əsasında müzakirəsi;

– suallara kiçik qruplarda cavabların hazırlanması, nəticənin təqdimatlar əsasında müzakirəsi və s.

Bu variantların əvəzlənməklə tətbiqinə müəllimin fəaliyyətində önəm verilməsi məqsədəuyğundur.

Dərslikdə təklif olunmuş test tapşırığı üzrə işin təşkilinə vaxt ayrılır. Suallar, əsasən, əsərin məzmununun mənimsənilmə səviyyəsinin yoxlanılması məqsədilə tərtib edilmişdir. Lakin onların sırasında əsərin ideya məzmunu ilə bağlı incəliklərə diqqəti çəkənlər də var və bunlar obrazların, əsas ideyanın başa düşülməsinə əhəmiyyətli təsir edir.

"Möhkəmləndirmə. Zənginləşdirmə" başlıqlı növbəti tapşırıq təkcə məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi məqsədini güdmür. Əsərdə başlıca olanları – mühüm mətləbləri müəyyənləşdirmək və əsaslandırmaq tələbi şagirdləri düşünməyə, müqayisələr aparmağa istiqamətləndirir. Bu, mövzu və ideyanın aydınlaşdırılması işini asanlaşdırır.

Tapşırığın ikinci bəndində hadisələrin inkişafı fonunda obrazlarda baş verən dəyişikliyi və bunun səbəblərini izah etmək tələbi əks etdirilmişdir. Bu, ədəbi qəhrəmanların hiss, düşüncə aləmi, niyyətləri barədə təsəvvürün qazanılmasına səbəb olur.

Dastanın (qolun) mövzusunun və onda ifadə olunmuş konfliktin müzakirə yolu ilə aydınlaşdırılması tövsiyə olunmuşdur. Hər iki məsələnin aydınlaşdırılması fərqli fikirlərin səsləndirilməsinə səbəb olur. Elə buna görə də müzakirənin diskussiya xarakterli olması məqsədəuyğundur.

Məzmunun əhatəli qavranılması, xüsusən mühüm mətləblərin açıqlanması, iştirakçılar haqqında aydın təsəvvürün qazanılması mövzu barədə tutarlı qənaətlərin söylənməsinə və konfliktə aydınlıq gətirilməsinə imkan yaradır.

Dərslikdəki sonuncu tapşırıq dastandan seçilmiş parçanın yığcam nağıletmənin tələblərinə uyğun danışılması ilə bağlıdır. Seçilmiş parçalar fərqli olur, onların sadə plan əsasında nağıl edilməsi, başlıca fikrin çatdırılması tələbi diqqət mərkəzində saxlanır.

Layihə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mühüm mətləblərlə bağlı təəssüratını nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastandakı hadisələrin obrazlara təsirini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Qolun mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Tərəflərin mövqeyinə əsaslanmaqla konflikti izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastandan seçilmiş parçanın məzmununu başlıca fikri çatdırmaqla yığcam danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**KOROĞLU İLƏ DƏLİ HƏSƏN (“Koroğlu” dastanından) –**

**2 saat**

**İkinci saat:**

**ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, nitq və davranışlarına görə müqayisə edir (7-1.4.1).
- Dastanın əsas ideyasını ondakı mühüm mətləbləri və konflikti nəzərə almaqla şərh edir (7-1.4.6).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Dastandan bitkin parçanı məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur (7-1.4.7).

**Köməkçi vasitələr:** “Koroğlu” dastanı”, “Azərbaycan dastanları” adlı kitablar, “Koroğlu” dastanına çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Araşdırma. Təhlil.** “Koroğlu ilə Dəli Həsən” qolunun mövzusu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsi, ideyanın şərhi, obrazlarının təhlili üzrə araşdırmanın aparılması, dəyərləndirilmələrin reallaşdırılması.
2. **Müzakirə.** Qolun süjet xətti və mərhələləri üzrə təqimatların hazırlanması, müzakirəsi.
3. **İfadəli oxuya hazırlaşın.** Qoldan bitkin parçanın ifadəli oxusu üzrə işin təşkili.
4. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə qolun məzmunu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsi, ideyanın aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, əsas süjet xətti və mərhələlərinin araşdırılması, bitkin parçanın ifadəli oxusu həyata keçiriləcəkdir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərsin əvvəlində müəllim qeyd edir ki, “Koroğlu ilə Dəli Həsən” qolunun məzmununun öyrənilməsi üzrə aparılmış iş onun bütövlükdə dəyərləndirilməsini həyata keçirməyə imkan verir. Bunun üçün araşdırma və təhlilin həyata keçirilməsi lazımdır.

Şagidlərin fəal iştirakı ilə araşdırılacaq məsələlər müəyyən edilir:
– əsərin mövzusunun dəqiqləşdirilməsi;
– qəhrəmanların səciyyələndirilməsi;
– qəhrəmanların müqayisəli təhlili;

Layihə

– konflikt və əsas mətləblərin əsasında başlıca ideyanın şərhi;
– əsas süjet xəttinin və mərhələlərinin araşdırılması;
– dastandan parçanın ifadəli oxusu.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə araşdırılması nəzərdə tutulan bu məsələlər "Araşdırma. Təhlil" başlığı altında əks etdirilmişdir. Müəllimin məqsədindən, sinfin səviyyəsindən asılı olaraq tapşırığa əlavələr etmək, yaxud onda ixtisarlar aparmaq mümkündür.*

Heç də sadə olmayan, bilik və bacarıqların tətbiqini zəruri edən bu tapşırığın icrası üçün işi fərqli məzmunda təşkil etmək mümkündür. Başqa sözlə, hələ dərsə qədər hansı iş formasının, yaxud formalarının seçilməsi və əsaslandırılması vacibdir. Əlbəttə, ilk növbədə sinfin qazanmış olduğu təcrübə diqqət mərkəzində saxlanmalıdır. Məktəb təcrübəsindən məlumdur ki, bu qəbildən tapşırıqların əməkdaşlıq şəraitində yerinə yetirilməsi daha səmərəli nəticələrin əldə edilməsinə səbəb olur. Tapşırığın bütövlükdə məzmunu, tələblərinin mürəkkəbliyi fərdi iş formasının tətbiqini şübhə altına alır. Lakin tapşırığın tələbləri ilə bağlı şagirdlərin hər birinin bilik və bacarığının səviyyəsi barədə təsəvvürün yaranmasının vacib olduğu da unudulmamalıdır. Hazırlıq səviyyəsi yüksək olan, müəyyən təcrübə qazanmış sinifdə fərdi iş formasının tətbiqinə yer vermək mümkündür, lakin fikir mübadiləsinin təşkili, nəticələrin çıxarılması, ümumiləşdirmənin aparılması əməkdaşlıq şəraitinin olmasını zəruri edir.

İşin hansı formada təşkilindən asılı olmayaraq tapşırığın yerinə yetirilməsində hər bir sual üçün təklif edilmiş tövsiyələrin nəzərə alınması vacibdir. Məsələn, tapşırıqda bəndlərin biri və onunla bağlı tövsiyələr belədir:

**Koroğlu obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:**
– müxtəlif epizodlarda nitqi-danışığı;
– fərqli məqamlarda davranışı;
– müxtəlif vəziyyətlərdə keçirdiyi hisslər.

Qolun oxusu, məzmunun dərinləşdirilməsi üzrə iş tövsiyələrdə tələb olunanlar barədə əhatəli məlumatın əldə edilməsinə imkan yaradıb. İndi şagirdlərə *nəzərdən keçirməklə oxu* tətbiq etməklə nümunələr seçmək qalır. Koroğlunun nitqinin ardıcıl izlənilməsi onun xarakteri, hiss və düşüncələri barədə təsəvvürün konkretləşməsinə əhəmiyyətli təsir edir. Dəli Həsənlə qarşılaşdığı ilk epizodda Koroğlunun nitqi-danışığı onun təmkini, səbirli davranışı barədə aydın təsəvvür yaradır. Sonrakı epizodlarda da seçdiyi sözlər, danışıq tərzi məntiqli olmasından, nəcibliyindən xəbər verir.

Dəli Həsənin təhrikedici danışığı Koroğlunu özündən çıxarmır. Bunu müxtəlif məqamlarda davranışına nəzarət etməsindən aydın görmək olur. O, Dəli Həsənlə son ana kimi ehtiyatla və ehtiramla davranır. Bu, bir tərəfdən obrazın xarakterindəki bütövlüyüyü göstərirsə, digər tərəfdən, güclü iradə sahibi olduğunu da təsdiq edir.

Oxucu-şagird Koroğlunu müxtəlif vəziyyətlərdə müşahidə edir: Dəli Həsənlə ilk görüş, Dəli Həsənin onunla kobud rəftar etməsi, Koroğlunun Dəli Həsənlə münaqişəsiz ötüşmək niyyəti, döyüş səhnəsi və s. Bütün bu vəziyyətlərdə Koroğlunun keçirdiyi hiss və həyəcanlar onun soyuq mühakimə, məntiqlə davrandığını təsdiq edir. Xalq öz qəhrəmanını məhz belə görmək istəmiş və belə də yaratmışdır.

Tapşırıqdakı digər suallar və onların cavablandırılması üçün təklif edilmiş tövsiyələr də şagirdlərin səmərəli işləmələrinə, əsaslandırılmış nəticələr çıxarmalarına istiqamət verir. Tapşırıqların sırasında müqayisə tələbinin olması şagirdlərdə müstəqilliyin inkişafı baxımından faydalıdır.

**Koroğlu və Dəli Həsən obrazlarını müqayisəli səciyyələndirin. Cədvəldən istifadə edin.**

| S. | Obrazlar | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | xarakterlərindəki başlıca cəhətlər | | davranışları | | nitqləri | |
| | | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| 1 | Koroğlu | | | | | | |
| 2 | Dəli Həsən | | | | | | |

Obrazların müqayisəsi üçün müəyyənləşdirilən və cədvələ daxil edilən əsaslar (cəhətlər) müəllimin istəyindən asılı olaraq artırıla bilər. Bütün hallarda cavablar əsərdən seçilmiş nümunələrlə

əsaslandırılmalı, sonda ümumiləşdirmə aparılmalı, nəticə çıxarılmalıdır. Əlbəttə, nümunələrin çoxluğuna yox, səciyyəvi olmasına diqqət yetirilir.

Dərslikdə təklif edilmiş növbəti tapşırıq müzakirənin təşkili ilə bağlıdır.

**Müzakirə**

1. "Əsərin əsas süjet xətti və onun mərhələləri" mövzusu üzrə müzakirəyə hazırlaşın.
2. Şifahi təqdimatların hazırlanmasında və müzakirəsində fəal iştirak edin.

Əsas süjet xəttinin izlənilməsi, mərhələləri üçün səciyyəvi olan cəhətlərin izahı qolun ideya məzmunu ilə bağlı təsəvvürün zənginləşməsinə əhəmiyyətli təsir edir. Təqdimata hazırlığın yazılı qeydlərin əsasında aparılması faydalıdır. Bu, çıxışların məntiqi ardıcıllığına və işə məsuliyyətli münasibətin yaranmasına səbəb olur.

Sonuncu iş qoldan seçilmiş bitkin parçanın ifadəli oxusuna hazırlıqla bağlıdır. Şagirdlər ilk növbədə tapşırığın tələbi ilə tanış olurlar. Məntiqi fasilələrin yerini və məntiqi vurğulu sözlərin müəyyənləşdirilib şərti işarələrlə göstərilməsi başlıca tələb kimi qeyd olunmuşdur. Müəllim mətnin həcminin artırılmasını, eləcə də digər şərti işarələrdən istifadə edilməsini şagirdlərə təklif edə bilər. Çıxışların fəal dinlənilməsi, onlara münasibət bildirilməsi təmin olunur.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Koroğlu və Dəli Həsən obrazlarının davranış və əməllərindəki özünəməxsusluğu nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Koroğlu və Dəli Həsən obrazlarını nümunələrə əsaslanmaqla müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mühüm mətləbləri və konflikti nəzərə almaqla dastanın ideyasını nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Süjet xəttinin mərhələləri üçün səciyyəvi olan cəhətləri nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Məntiqi fasilə və məntiqi vurğunu nəzərə çarpdırmaqla dastandan bitkin parçanı ideyasına uyğun ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

**Mövzu:**

**NƏSİRƏDDİN TUSİ İLƏ BOSTANÇI –**

**1 saat**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Çıxışında mimika və jestlərdən yerində istifadə edir (7-2.1.3).
- Rəvayətdən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Rəvayətin mövzusu ilə bağlı ilkin qənaətlərini əsərdəki başlıca mətləblərə əsaslanmaqla izah edir (7-1.3.4).
- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Rəvayətdə hadisələrin səbəb-nəticə əlaqələrini nümunələr əsasında izah edir (7-1.3.5).
- Rəvayətin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir (7-1.4.6)
- Obrazları xarakter, nitq, əməl və davranışlarına görə müqayisə edir (7-1.4.1).

**Köməkçi vasitələr:** "Azərbaycan türklərinin xalq rəvayətləri", "Rəvayətlər" adlı kitablar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Rəvayətin oxusu, ilkin təəssüratın bölüşülməsi, məzmunun mənimsənilməsinin dərinləşdirilməsi.
**2. Öyrəndiklərinizi yoxlayın.** Məzmuna aid sualların və cavablarının müzakirəsi.
**3. Nitqinizi və düşüncənizi zənginləşdirin.** Məzmunun yaradıcı nağıl edilməsi, çıxışlara münasibət bildirilməsi.
**4. Xatırlatma. Dərinləşdirmə.** "Rəvayət" anlayışı ilə bağlı məlumatın dərinləşdirilməsi və zənginləşdirilməsi.
**5. Araşdırma.** Rəvayətin ideya məzmununun dəyərləndirilməsi məqsədilə araşdırmanın aparılması.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə başlıca məqsəd bədii əsərin oxusu, məzmununun öyrənilməsi, təhlili üzrə qazanılmış bilik və bacarıqların tətbiqi ilə bağlı işlərin həyata keçirilməsidir. Əsərin oxusu, ilkin təəssüratın aşkara çıxarılması, məzmunla bağlı suallar və onlara cavabların hazırlanması, öyrənilənlərin dərinləşdirilməsi, nitq və düşüncənin zənginləşdirilməsi, təhlil məqsədilə araşdırmanın aparılması, nəticəsinin yoxlanması, "rəvayət" anlayışının mənimsənilməsi diqqət yetirilən məsələlərdir.

**Müəllim üçün əlavə məlumat.** *"Tətbiq. Ümumiləşdirmə"dərslərinin təşkili ciddi hazırlıq işlərinin aparılmasını tələb edir. Şagirdlərə müəllimin bələdçiliyi əsasında mənimsədikləri bilik və bacarıqları bu dərsdə yüksək fəallıq və müstəqillik nümayiş etdirməklə tətbiq etmək imkanı yaradılır. Əhatə edilən təlim materialı və standartlar çox olduğundan vaxtdan maksimum səmərəli istifadə zəruri olur.*

Layihə

Şagirdlər "Oxu. Anlama" başlıqlı tapşırığın tələbinə uyğun olaraq rəvayətin mətnini səssiz oxuyurlar. Dərsə qədər mətnlə tanış olan şagirdlər buna çox vaxt sərf etmirlər. Şagirdlərdən hər biri özünə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə ilə aydınlaşdırır. İlkin təəssüratın aşkara çıxarılması fərqli yollarla (müsahibənin, müzakirənin təşkili, təqdimatların dinlənilməsi və s.) reallaşdırılır. İlkin qavrama səviyyəsi barədə dolğun təsəvvür qazanan müəllim məzmuna aid ikidən az olmayaraq sual və onlara cavab hazırlanmasını təklif edir. Bu tələb mətnə yenidən müraciət edilməsinə səbəb olur. Lakin bu dəfə qarşıya qoyulmuş konkret məqsəd diqqətin daha çox səfərbər olunmasına istiqamətləndirir. İndi şagirdlər mətnə başqa gözlə, daha ciddi yanaşmağa məcbur olurlar. Tərtib edilmiş suallar və onların cavabları dərslikdəki "Öyrəndiklərinizi yoxlayın" başlıqlı tapşırığa uyğun olaraq təqdimatlar əsasında müzakirə edilir. Tərtib edilmiş sualların əhatə dairəsinə, məzmunla bağlı hansı məsələlərin ön plana çəkildiyinə müzakirədə xüsusi diqqət yetirilir. Daha səciyyəvi sualların və cavabların səsləndirilməsinə, təkrarlara yol verməməyə səy göstərilir. Çıxışlara münasibət bildirilməsi, diskussiya şəraitinin yaradılması təmin olunur.

Əsərin məzmununun müxtəlif formalarda nağıl edilməsi ilə bağlı xeyli təcrübə qazanmış şagirdlər növbəti tapşırığın yerinə yetirilməsində ciddi çətinlik çəkmirlər.

**Nitqin, düşüncənin inkişafı**

1. Rəvayətdən seçdiyiniz parçanın məzmununu yaradıcı danışmağa hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

Şagirdlərin rəvayətdən seçdikləri parçaların fərqli olması məqsədəuyğundur. Onlara məlumdur ki, mətnə əlavələr məzmuna uyğun olmalı, dili, üslubu rəvayətlə səsləşməlidir. Mənası yeni öyrənilmiş sözlərdən istifadəyə diqqət yetirilir. İşin səmərəliliyi dinləyicilərin fəallığından asılıdır: səsləndirilənlərə münasibət bildirilməsi, dəyər verilməsi diqqət mərkəzinə çəkilməlidir.

Təcrübədən məlumdur ki, şagirdlərin cavabları – əlavələri fərqli səviyyələrdə olur. Bir neçə kəlmə, yaxud cümlə artırmaqla məhdudlaşan şagirdlər də olur. Bunun səbəbləri (söz ehtiyatının az olması, obrazlı təfəkkürün işinin zəif olması və s.) aşkara çıxarılır və fərdi tapşırıqlar verilir.

Dərslikdə "rəvayət" anlayışının mahiyyəti haqqında yığcam məlumat verilmişdir. Onun oxusuna vaxt ayrılır, necə mənimsənildiyi sonda müsahibə ilə aşkara çıxarılır. İnternet mənbələrini müstəqil mütaliə etməklə dərslikdəki məlumatın zənginləşdirilməsini də təklif etmək olar. Bu, xüsusən rəvayətlərin mövzu rəngarəngliyinin öyrənilməsi baxımından faydalıdır.

Dərslikdəki "Araşdırma. Təhlil" başlıqlı tapşırıq şagirdlərdən daha yüksək səviyyədə fəallıq və müstəqillik tələb edir. Bu tapşırıqla bağlı araşdırmada fərqli istiqamətlərdə mənimsənilmiş bilik və bacarıqların tətbiqinə zərurət yaranır; rəvayətin mövzusunun, ideyasının şərh edilməsi, obrazlarının səciyyələndirilməsi, müqayisəli təhlilin gerçəkləşdirilməsi və s. Ümumiləşdirmənin aparılmasını, əsaslandırılmış nəticənin çıxarılmasını da bura əlavə etmək lazımdır.

Tapşırığın icrası üçün dərslikdə kiçik qruplarda iş forması təklif edilmişdir. Lakin müəllim fərqli variantların tətbiqində sərbəstdir. Məsələn, tapşırığın bəzi bəndlərinin fərdi olaraq yerinə yetirilməsi mümkündür: əsərin ideyasının şərhi, obrazların müqayisəli səciyyələndirilməsi bu qəbildəndir. Sonrakı addımda cavablar cütlük şəklində, yaxud kiçik qruplarda müzakirə oluna bilər.

Kiçik qrupların iş prosesində yazılı qeydlərin edilməsi vacibdir. Bu, təqdimatların məzmununa əhəmiyyətli təsir edir, əsərdən seçilmiş nümunələrin yerində və dəqiq səsləndirilməsinə imkan yaradır.

Layihə

Şagirdlər sualların icrası üçün təklif edilmiş tövsiyələrlə diqqətlə tanış olur, iş prosesində onlardan ardıcıl faydalanırlar. Bu tövsiyələr təkcə sualların səmərəli icrasına imkan yaratmaqla məhdudlaşmır, həm də ilk baxışda sezilməyənlərin üzə çıxarılmasına və tədqiqata cəlb edilməsinə səbəb olur.

Təqdimatların fəal dinlənilməsi, səsləndirilən fikirlərin diskussiya obyekti olması müəllimin ən mühüm vəzifəsi olaraq qalır.

Tapşırıqda müqayisəli təhlillə bağlı fərqli yanaşma müşahidə edilir; alim və Nəsirəddin Tusi obrazının müqayisəsi üçün əsasların (cəhətlərin) çoxaldılması şagirdlərə həvalə olunur. Bunun yerinə yetirilməsi əsərin məzmunu, obrazları, ideyası barədə mükəmməl təsəvvür olmadan mümkün deyildir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Rəvayətin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışında mimika və jestlərdən ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Rəvayətin məzmununu əsas fikirləri ifadə etməklə yaradıcı danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mövzu ilə bağlı ilkin qənaətlərini başlıca mətləblərdən nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nümunələrə əsaslanmaqla obrazları davranış və əməllərinə görə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hadisələrin səbəb-nəticə əlaqələrini nümunələr əsasında ardıcıllıqla izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Rəvayətin ideyasını mühüm mətləblərə aid nümunələr göstərməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nəsirəddin Tusi və alim obrazlarını xarakter, nitq , əməl və davranışlarına görə müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

# BİRİNCİ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*"Xeyirxah odunçu" nağılı üzrə*
*aparıla bilər.*

XEYİRXAH ODUNÇU

(eston nağılı)

Bir gün bir odunçu meşəyə yollandı. Odunçu necə olar ki? Nahar çantası çiynində, baltası belində. Meşə də elə həmin meşə: ağaclar, yamyaşıl otlar yerində, cürbəcür quşları da göyündə. Ətrindən, təmiz havasından bihuş olur, talasında dincəlirsən...

Qərəz, bu odunçu gəldi meşəyə. Sağa-sola boylanıb hər şeyi yerində gördü və sizcə, neylədi? Üz-gözünüzü turşutmayın, – odunçu neyləyəsidir, əlbəttə, odun qırasıdır!..

O, bir də baxdı ki, qarşısında bir tozağacı var. Elə baltasını yuxarı qaldırmaq istəyəndə tozağacı insan kimi dil açıb dedi:

– Mənə rəhmin gəlsin. Cavanam, körpə balalarım var. Ölsəm, nə günə qalarlar?

Odunçu tozağacının dil açıb danışmağına məəttəl qaldı. Fikirləşdi ki, yəqin, bu, sehrli ağacdır, kəsərəm, ziyan görərəm. O, tozağacına dəymədi. Yaxınlaşıb ondan bir az aralıdakı qızılağacı kəsmək istədi. Qızılağac gözünün yaşını axıda-axıda dedi:

– Mənim nə günahım var? Görürsən ki, südümlə kiçik meşə cücülərini bəsləyirəm. Onlar ac qalsalar, bir gün də yaşamazlar.

Odunçu qızılağacın da dil açıb danışmağına mat qaldı. Fikirləşdi ki, yəqin, sehrli meşəyə gəlib çıxıb. Odunçu qızılağaca da dəymədi. Yaxınlıqdakı gilas ağacına üz tutdu. Elə baltasını qaldırmaq istəyirdi ki, gilas ağacı incə səslə yalvarmağa başladı:

– Təzəcə çiçək açmışam. Bu çiçəklərin həvəsinə quşlar budaqlarıma qonub nəğmə oxuyurlar. Məni kəssən, uçub gedəcəklər. Meşədəkilər bir də onların gözəl nəğmələrini eşitməyəcəklər...

Odunçu gilas ağacına da dəymədi. Yaxınlaşıb quşarmudu ağacını kəsmək istədi. Təhlükəni duyan quşarmudu ağacı haray-həşir qopardı:

– Dayan, əl saxla! Payızda, qışda quşlar mənim meyvələrimlə dolanırlar. Onları acından qırmaqmı istəyirsən?

Odunçu quşarmudu ağacına da dəymədi. Yaxınlaşıb palıd ağacını kəsmək istədi. Palıd ağacı baltanı görən kimi qorxudan tir-tir əsdi:

– Mənə yazığın gəlsin. İndi-indi güclənirəm. Heç qozalarım yetişməyib. Onları məhv eləsən, palıd meşəsinin kökü kəsilər.

Bunu eşidən odunçu palıd ağacına da dəymədi. Yaxınlaşıb şam ağacını kəsmək istədi. Şam ağacı baltanı görəndə zülüm-zülüm ağladı:

– Mənə necə qıyırsan? İnsanlar bütün fəsillərdə yaşıllığımdan zövq alırlar.

Odunçu şam ağacına da dəymədi. Axırda bir daşın üstündə oturub öz-özünə dedi: "Pah, həyatda nə cür möcüzələr varmış. Sən demə, bütün ağaclar danışa bilirmiş. Hansını kəsmək istəyirəm, göz yaşı tökür, imdad diləyir. Mənim də ürəyim daşdan deyil ki... O saat yumşalıram. Amma evə əliboş da gedə bilmərəm – arvad nə deyər?.."

Elə bu vaxt meşənin qalınlığından əyninə qoz ağacının qabığından köynək, küknar qabığından kürk geymiş, başına göbələk papaq qoymuş saç-saqqallı ağ bir qoca çıxdı. Qoca odunçudan soruşdu:

– Nə olub? Niyə dilxorsan?

Odunçu dedi:

Layihə

– Dilxor olmayım, neyləyim? Gəldim ki, odun qırım, aparım bazarda satım, uşaqlara pal-paltar, azuqə alım. Ağacların hamısı dil açdı, rəhm dilədi. Heç birini kəsə bilmədim.

Qoca xeyirxah nəzərlərlə odunçunu süzüb dedi:

– Mən bu meşədəki canlıların atasıyam. Çox sağ ol ki, rəhmə gəlib övladlarıma dəyməmisən. Bunun əvəzində səni xoşbəxt edərəm.

Qoca sonra odunçuya bir sehrli çubuq verib dedi:

– Bunu göz bəbəyin kimi qoru. Nə arzulasan, övladlarım yerinə yetirəcək. Amma gərək sən də kömək edəsən, işsiz-gücsüz durmayasan, yoxsa çubuğun sehri azalar...

Qoca bunu deyən kimi yox oldu. Odunçu da sehrli çubuğu götürüb evə gəldi. Həyətdəki köhnə anbarı görəndə ürəyindən keçdi ki, onu təzələsin. Sehrli çubuğu qarışqa yuvasının üstündə üç dəfə fırladıb dedi:

– Mənə həyətdə təzə anbar tikin!

Qolunu çırmayıb özü də işə başladı. Bir də gördü ki, həyətdə təzə anbar tikilib. Sevindiyindən bilmədi, neyləsin. Sən demə, qocanın söylədikləri doğru imiş...

Hə... O gündən odunçu artıq yemək dərdi çəkmədi – nə istədi, soba bir göz qırpımında bişirdi. Xətrindən şirin şey keçdi – arıların topladığı ətirli bal süfrədə hazır oldu. Hələ bu harasıdır, – hörümçəklər parçasını toxudu, köstəbəklər yerini şumladı, qarışqalar payızda məhsulunu yığdı. Amma bir şey var ki, gərək işi özü başlaya, işdən əlini soyutmayaydı...

...Sehrli çubuğun sahibi həm çox, həm də firavan yaşadı, çünki heç vaxt artıqtamahlıq eləmədi, yaşamaq üçün nə lazımdırsa, onu arzuladı. O, ölümündən qabaq övladlarını başına yığdı, qocanın əmanətini – sehrli çubuğu onlara verib vəsiyyət etdi ki, gözütox olun, həddinizi aşmayın, həmişə bir əliniz işdə olsun. Yoxsa çubuğun sehri azalar, xoşbəxtliyiniz bədbəxtliyə çevrilər...

Layihə

# QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Nağılın sizdə yaratdığı ilkin təəssüratı bir neçə cümlə ilə yazın.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

2. Nağıldakı “azuqə”, “dilxor olmaq”, “əlini işdən soyutmaq” ifadələrinin mənasını aydınlaşdırıb yazın.

______________________________________________
______________________________________________
______________________________________________

3. Fikirlərdən biri yanlışdır.

A) Nağılın qəhrəmanı odun qırıb satmaqla ailəsini dolandırırdı.
B) Ağacların hər biri özünün gərəkli olduğuna odunçunu inandırır.
C) Ağacları kəsməyən odunçu çətin vəziyyətə düşür.
D) Sehrli çubuq odunçunu bütün qayğılardan, işdən, zəhmətdən azad edir.
E) Odunçu övladlarının şad-xürrəm yaşamasını arzulayır.

4. Cədvəli uyğun fikirlərlə tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| Odunçu ağacların yalvarışını eşidib onları kəsmədi. | |
| | Odunçu ömrünün sonuna qədər firavan yaşadı. |

5. Əsərdə daha maraqlı hesab etdiyiniz bədii təsvir və ifadə vasitələrinin əsasında cədvəli tamamlayın.

| Bədii təsvir və ifadə vasitəsi işlənmiş cümlə | Bədii təsvir və ifadə vasitəsinin növü | Bədii təsir gücünün artmasında rolu |
|---|---|---|
| | | |
| | | |

Layihə

6. Hiss, düşüncə, davranış və əməllərini nəzərə almaqla odunçu obrazını bir neçə cümlə ilə səciyyələndirin. Fikrinizi təsdiq edən nümunələr göstərin.

___

___

___

___

7. Nağıl yaradıcılarının odunçuya münasibəti necədir? Fikrinizi nağıldan nümunələr göstərməklə əsaslandırın.

___

___

___

___

8. Nağılın süjetinin mərhələlərində baş verənləri ardıcıllıqla qısaca yazın.



9. Nağıldakı əsas fikri — ideyanı şərh edin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| S. | Fikirlərdən hansı ideya üçün əsas sayıla bilər? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Mərhəmətli, xeyirxah adam darda qalmaz. | | |
| 2 | Tamahını çox edən qismətini azaldar. | | |
| 3 | Zəhmətsiz bal yeməzlər. | | |

10. Dostunuzu (həmyaşıdınızı) "Xeyirxah odunçu" nağılını oxumağın faydalı olduğuna inandırın. Bunun üçün obrazlı söz və ifadələrdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə yığcam mətn yazın.

___

___

___

___

Layihə

| | |
|---|---|
| **Mövzu:**<br><br>**ƏDƏBİ MÖVZUDA ESSENİ NECƏ YAZMALI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Yazı üçün sadə plan tərtibi üzrə çalışmalar icra edir (7-2.2.2).<br>• Mənasını yeni öyrəndiyi sözlədən fərqli üslubi məqama uyğun istifadə edir (7-2.2.4).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı:**<br>**1. Oxu. Anlama.** Ədəbi mövzuda esse ilə bağlı mətnin oxunması.<br>**2. Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.<br>**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin möhkəmləndirilməsi və tətbiqi üzrə işin təşkili.<br>**4. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Ədəbi mövzuda esse ilə bağlı mətnin oxunması, məzmununun qavranılma səviyyəsinin yoxlanması, möhkəmləndirmə və tətbiq üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlərin yazı bacarıqları barədə müəllimin dərsə qədər aydın təsəvvürünün olması vacibdir. Bu, dərsdə, eləcə də sonrakı mərhələlərdə işin hansı məzmunda təşkil edilməsinə istiqamət verir.*

Şagirdlərin dərslikdəki "Ədəbi mövzuda esseni necə yazmalı" mətninin məzmununu öyrənmələri, yazı bacarıqlarının möhkəmləndirilməsi istiqamətində müstəqil işlərinin təşkili həyata keçirilir.

Mətnin oxusu fərqli formalarda reallaşdırıla bilər. Mətnin həcminin qısa olması fərdi (səssiz) oxunu tətbiq etməyə imkan verir. Oxu prosesində şagirdlərin ehtiyac duyduqları məsələlərdə onlara istiqamət verilir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra ilkin qavrama səviyyəsi suallar əsasında aşkara çıxarılır. Yalnız bundan sonra şagirdlərə aşağıdakı suallara cavab hazırlamaq təklif edilə bilər. Bunun üçün şagirdlərin dərinləşdirilmiş oxu məqsədilə mətnə müraciət etmələrinə ehtiyac yaranır.

– Ədəbi mövzuda esse üçün əsas mənbə nə olur?
– Ədəbi mövzuda esse ilə mühakimə xarakterli essenin oxşar cəhətləri hansılardır?
– Ədəbi mövzuda essenin özünəməxsusluğunu necə izah edərsiniz?
– Essenin hazırlanması hansı mərhələlər üzrə həyata keçirilir?
– Yazıya hazırlıq mərhələsində hansı işlər həyata keçirilir?
– Yazının yerinə yetirilməsi mərhələsi üçün səciyyəvi cəhətlər hansılardır?
– Yazının müzakirəsi və qiymətləndirilməsi mərhələsində hansı işlər icra olunur?

Əlbəttə, ilkin qavramanın səviyyəsindən asılı olaraq şagirdlərin mətnə müraciəti fərqli olur; bəziləri mətni sürətlə nəzərdən keçirir, digərləri mətni seçmə yolla oxuyur, başqaları daha əhatəli oxumağa ehtiyac duyurlar.

Cavablar təqdimatların dinlənilməsi və ya müsahibənin tətbiqi yolu ilə dəyərləndirilir. Mənimsənilmiş biliyin konkret nümunə əsasında möhkəmləndirilməsinə və zənginləşdirilməsinə vaxt ayrılır. Bunun üçün şagirdlərin ətraflı öyrəndikləri "Koroğlu ilə Dəli Həsən" qolunun seçilməsi məqsədəuyğundur. Mövzu aşağıdakı şəkildə formalaşdırılır: "Koroğlu ilə Dəli Həsən obrazlarının müqayisəli təhlili".

Mövzu ilə bağlı təsəvvürün konkretləşməsi üçün əsasında aşağıdakı suallar dayanan yığcam müsahibə aparılır:

– Koroğlu ilə Dəli Həsənin qarşılaşdığı ilk səhnəni xatırlayırsınızmı, onu necə təsvir edərsiniz?
– Dəli Həsən Koroğlu ilə ilk görüşdə özünü necə aparır?
– Koroğlu Dəli Həsənin kobud davranışını necə qarşılayır?
– Onların davranış və nitqləri arasındakı fərqi necə izah edərsiniz?
– Bu ilk görüşdə onların xarakteri arasında oxşarlıq, yaxud fərq hiss etdinizmi?
– Onların döyüş qabiliyyətləri, qorxmazlığı barədə hansı nəticəyə gəldiniz?
– Sizcə, onlardan hansı daha ehtiyatlı idi? Fikrinizi nümunələrlə əsaslandırın.



Layihə

Növbəti addım plan tərtibi olur. Müəllim qeyd edir ki, essenin quruluşunda sərbəstlik olduğunu bilirsiniz. Öyrəndiniz ki, giriş, əsas hissə, nəticə kimi bölgü esse üçün şərti anlamdadır. Məsələn, nəticənin bir çox hallarda yazının başlanğıcında əks etdirilməsi mümkündür, yaxud nəticənin çıxarılması oxucunun öhdəsinə buraxılar. Bunu da bilirsiniz ki, essedə bir fikirdən digərinə keçərkən məntiqi ardıcıllıq gözlənilməyə də bilər. Əgər essedə belə sərbəstlik varsa, bu, planda necə nəzərə alınmalıdır?

Müəllimin istiqamətləndirici sualları əsasında şagirdlər qeyd edirlər ki, müqayisəli səciyyələndirmə tələb edən essedə müəyyən fərqlər özünü göstərir. Məsələn, obrazların oxşar, yaxud fərqli cəhətləri müəyyən əsaslar üzrə şərh edilirsə, burada ardıcıllıq gözlənilir. Deməli ardıcıllığın olmasını müqayisə üçün müəyyənləşdirilmiş əsaslar tələb edir.

Müəllimin təklifinə əsasən Koroğlu və Dəli Həsən obrazlarının müqayisə edilməsi üçün əsaslar (cəhətlər) müəyyənləşdirilir.

- Xarakterlərindəki başlıca cəhətlər.
- Davranışları.
- Əməlləri.
- Var-dövlətə, sərvətə münasibətləri.
- Başqalarına münasibətləri.
- Nitqləri.
- Xarici görünüşləri (portretləri).

Müəllim qeyd edir ki, bu, essenin əsas hissəsi hesab edilə bilər. Müqayisə həmişə ümumiləşdirmənin aparılması, nəticənin çıxarılması ilə yekunlaşır. Bu, müqayisəli səciyyələndirməyə həsr edilmiş essenin nəticəsi hesab oluna bilər.

Şagirdlər müəllimin təklifi ilə əsaslardan ikisini seçməklə obrazların oxşar və fərqli cəhətlərini qısaca yazırlar. İcra olunmuş işlərdən nümunələrin oxunması məqsədəuyğundur. Bu, ilkin qaralama variantı olsa da, müqayisənin tələblərinin nə cür gözlənilməsi, mənası yeni öyrənilmiş sözlərdən necə istifadə edildiyi diqqət mərkəzində saxlanılır və qiymətləndirmə üçün əsas olur.

Şagirdlərin diqqəti yeni suala cəlb olunur: Sizcə, yazı necə başlanmalı, onun girişində nədən danışılmalıdır?

Fərqli fikirlərin səsləndirilməsini təbii qəbul etmək lazımdır. Cavabların çoxunda qeyd olunur ki, girişdə essenin mövzusu haqqında təsəvvür yaradılır, əhatə olunacaq məsələlərə toxunulur. Müəllim ədəbi mövzuda essenin girişində yazının mövzusu, eləcə də müraciət olunmuş əsər haqqında məlumatlandırıcı fikirlərin əks etdirilə biləcəyini diqqətə çatdırır. Girişin həmişə bu məzmunda olmadığını xatırladan müəllim əlavə edir ki, bu hissədə inşa müəllifinin sərbəstliyi aparıcı yer tutur. O, mövzu ilə bağlı düşündüklərini, onu cəlb edən, yaxud ürəyincə olmayanları, əlavə məlumatlardan öyrəndiklərinin yaratdığı təəssüratı girişdə qeyd edə bilər.

Obrazların müqayisəli səciyyələndirilməsi ilə bağlı dərs boyu səsləndirilən fikirlərin ilkin variant kimi qeyd edilməsi vacibdir.

Dil xüsusiyyətlərinin nəzərə alınması üzrə çalışmalar diqqət mərkəzində saxlanılır. Qolun tədrisində mənası yeni aydınlaşdırılmış sözlərdən, obrazlı kəlmə və ifadələrdən, təsvir-ifadə vasitələrindən necə istifadə olunacağı ilə bağlı fikir mübadiləsi aparılır. Eləcə də essenin müxtəlif məqamlarında işləniləcək cümlələrin müəyyənləşdirilməsinə, onlara münasibətin bildirilməsinə diqqət yetirilir.

Bu qeydlərin üzərində işin davam etdirilməsi, son variantın yazılması, düzəlişlərin aparılması növbəti dərsdə həyata keçirilsə də, dərs üçün müəyyənləşdirilmiş standartların əsasında qiymətləndirmənin aparılması məqsədəuyğundur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Çalışmalar yerinə yetirməklə nümunə əsasında sadə plan tərtib edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərdən essenin üslubuna uyğun istifadə edir. | Yazı | Dərslik, iş vərəqləri |

Layihə

| **Mövzu:**<br><br>**ƏDƏBİ MÖVZUDA ESSNİN YAZILMASI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Ədəbi mövzu üzrə esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).<br>• Ədəbi mövzuda essedə obrazlara oxşar və fərqli xüsusiyyətlərinə əsaslanmaqla münasibət bildirir (7-2.2.6).<br>• Ədəbi mövzu üzrə essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir (7-2.2.5).<br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı**<br>1. Yazı ilə bağlı ilkin qeydlərin nəzərdən keçirilməsi.<br>2. Yazının yerinə yetirilməsi.<br>3. Yazının oxunması, düzəlişlərin edilməsi.<br>4. Yazının müzakirəsi və özünüqiymətləndirmə.<br>5. Formativ qiymətləndirmə. |
|---|---|

**Dərsin məzmunu.** Ədəbi mövzuda essenin hazırlanması, müzakirəsi və özünüqiymətləndirmə üzrə işin təşkili.

Essenin icrası ilə bağlı birinci dərsdə yerinə yetirilmiş işin məzmunu xatırladılır. Qeydlərini nəzərdən keçirən, onların zənginləşdirilməsi üzərində düşünən şagirdlərə tövsiyələr verilir. Girişlə bağlı birinci dərsdə səsləndirilən fikirlərdən nəticə çıxaran şagirdlər ilk cümlələrini yazırlar. Artıq qeyd edildiyi kimi, "Koroğlu"nu qəhrəmanlıq dastanı kimi səciyyələndirən, bunu yazısının girişində qabardan şagirdlər az olmur. Belə yazıların girişində dastan türk xalqlarının şifahi ədəbiyyatının ölməz abidəsi kimi dəyərləndirilir. Daha sonra Koroğlu, onun silahdaşları xatırladılır, yazı müəllifinin onlara münasibəti əks etdirilir. Ardınca Dəli Həsən obrazının Çənlibeldə sayılan, seçilən bir igid olması, essedə onunla Koroğlunun müqayisəli təhlilindən danışılacağı diqqətə çatdırılır.

Şagirdlər girişi fərqli məzmunda yazmağın mümkün olduğunu bilir və buna cəhd edənlər də az olmur. Belə yazıların girişində birbaşa mövzuya münasibət ifadə edilir. Qeyd olunur ki, Çənlibelə ilk ayaq basan, Koroğluya dost, arxa olan Dəli Həsəndir. O, igidlikdə, qorxmazlıqda Koroğludan heç də geri qalmır. Yazıda daha sonra obrazların müqayisəli təhlili aparılır.

Müqayisə əvvəlcədən müəyyənləşdirilmiş əsaslar üzrə aparılır. Obrazların oxşar və fərqli xüsusiyyətləri eyni (vahid) əsaslar üzrə aydınlaşdırılır. Qol hadisələrlə çox zəngin olmasa da, oxucu-şagird hər iki obraz haqqında aydın təsəvvür qazana bilir. Məsələn, müqayisə üçün müəyyənləşdirilmiş birinci əsas üzrə (xarakterlərindəki başlıca cəhətlər) hər iki obrazın oxşar və fərqli xüsusiyyətləri barədə nümunələr göstərməklə danışmaq mümkündür. Hər ikisi mərd, qorxmaz və ləyaqətlidir. Koroğlu tək olmasına baxmayaraq Dəli Həsənin dəstəsi ilə vuruşmaqdan çəkinmir. Dəli Həsən isə Koroğlunun qeyri-adi gücünü, məharətini müşahidə etsə də, onunla döyüşməkdən imtina etmir. Dəli Həsənin Koroğlunun igidliyini yüksək qiymətləndirib ona tabe olması ləyaqətinin göstəricisi kimi qiymətləndirilə bilər. Eləcə də Koroğlunun Dəli Həsənin arzusunu yerinə yetirməsi ləyaqətli olmasını təsdiq edir. Bu obrazların xarakterlərində fərqli cəhətlər də vardır. Koroğlu təmkinli, yüz ölçüb-bir biçən, sözünün qədrini bilən insandır. Ondan fərqli olaraq Dəli Həsən çılğın, sonrasını düşünmədən danışan və dərhal qərar qəbul edən adam təsiri bağışlayır.

Onların davranışlarında da fərq özünü göstərir. Koroğlu Dəli Həsənlə, onun adamları ilə nəzakətlə, ehtiyatla davranır. Bu onun hər kəlməsində, eləcə də hərəkətlərində aydın müşahidə olunur. Amma bunları Dəli Həsən haqqında demək olmaz; o, görüşün ilk dəqiqələrindən saymazyanalıq edir, hətta kobudluqdan belə çəkinmir.

Onların arasındakı fərq əməllərində də özünü göstərir. Dəli Həsən kimdə xoşuna gələn nə görsə, onu əldə etməyə cəhd edir. Bununla da ədalətsizliyə yol verir. Koroğlunun atına gözü düşən Dəli Həsən açıqca deyir: – Düş atdan! Bu at mənə çatacaq.

Obrazların müqayisəsi üçün müəyyənləşdirilmiş digər əsaslar da əsərdən nümunələrin göstərilməsinə imkan verir və şagirdlər yazıda buna əməl etməyin vacib olduğunu bilirlər. Obrazların var-dövlətə, sərvətə münasibətlərində oxşar cəhətlər yox, fərqli cəhətlər görmək mümkündür. Dastanın

digər qolları ilə tanış olan şagirdlər Koroğlunun sərvət hərisi olmadığını, gözütox xalq qəhrəmanı kimi tanındığını bilirlər. Dəli Həsən Koroğluya uzun illər ərzində böyük bir xəzinə topladığı barədə məlumat verir. Koroğlu bunu çox adi xəbər kimi qarşılayır, xüsusi maraq, meyil nümayiş etdirmir.

Əsaslarıdan birində obrazların xarici görünüşlərinə görə müqayisə olunması nəzərdə tutulmuşdur. Dastanla bağlı şagirdlərin əvvəlki siniflərdə, eləcə də müstəqil oxuduqları qollar Koroğlunun xarici görünüşünü təsəvvür etmələrinə imkan verir. Dəli Həsənin portretinin təsəvvür edilməsi onun haqqında Koroğlunun düşündükləri əsas ola bilər. Ümumiyyətlə, bu əsas şagirdlərdə obrazlı təsəvvürün fəal işini tələb edir.

Ədəbi qəhrəmanların müqayisəsi onlara əsaslandırılmış münasibətin bildirilməsi ilə müşayiət olunur. Bunu müqayisənin sonunda aparılan ümumiləşdirmə, nəticənin çıxarılması ilə qarışdırmaq olmaz. Müqayisə əsasında obrazlara münasibət bildirilməsi bütün yazı boyu davam edir.

Şagirdlərə obrazların müqayisəsi üzrə işin nəticəsini cədvəldə ümumiləşdirmək təklif oluna bilər.

| Hansı əsaslara görə müqayisə olunurlar | Obrazlar | |
|---|---|---|
| | Koroğlu | Dəli Həsən |
| Xarakterlərindəki başlıca cəhətlər | | |
| Davranışları | | |
| Əməlləri | | |
| Var-dövlətə, sərvətə münasibətləri | | |
| Başqalarına münasibətləri | | |
| Nitqləri | | |
| Xarici görünüşləri (portretləri) | | |

Yazının dil xüsusiyyətləri ilə bağlı birinci dərsdə mənimsənilənlərin zənginləşdirilmiş əsasda geniş tətbiqinə diqqət yetirilir. Ədəbi mövzuda essenin təbiəti, eləcə də mövzu obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən istifadəni zəruri edir. İş prosesinin diqqətlə müşahidə edilməsi, şagirdlərə istiqamətləndirici suallarla yardım olunması müəllimin dərsdəki fəaliyyətinin əsasında dayanır.

Şagirdlərə məlumdur ki, yazının keyfiyyəti sonda onun oxunmasından, üzərində düşünülməsindən və qüsurların aradan qaldırılmasından xeyli dərəcədə asılıdır. Yazını başa çatdıran şagirdin mətni bir neçə dəfə oxuması vacibdir. Bu oxuda diqqət yetirilməli olan məsələlər haqında şagirdlərin aydın təsəvvürü olmalıdır. İlk növbədə o, bütövlükdə məzmunun tutumlu, aydın olmasına diqqət yetirir. Mövzu ilə bağlı şəxsi mövqeyini, hiss-düşüncələrini geniş ifadə edir. Müqayisənin xüsusiyyətlərini nəzərə alır, tətbiqi qaydalarına əməl edir. Mənasını yeni öyrəndiyi sözlərdən, obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən məqamında istifadə edir. Yazının bütövlükdə ədəbi mövzuda essenin xüsusiyyətlərinə uyğun icrasına səy edir. Yazıda orfoqrafik qaydalara, durğu işarələrindən yerində istifadəyə əməl etməyə çalışır. Bütün bunlar yazı ilə bağlı bacarığın ümumiləşdirilmiş şəkildə ifadəsinə imkan verir:

– yazının essenin müvafiq növünə uyğun olduğunu müəyyənləşdirmək bacarığı;
– səhvləri aşkara çıxarmaq bacarığı;
– səhvləri aradan qaldırmaq bacarığı.

Yazının müzakirəsində mövqeyini əsaslandırmaqla səsləndirilən fikirlərə hörmətlə yanaşır. Lakin şagirdin ilk növbədə öz yazısını qiymətləndirməsi vacibdir. Bunun üçün aşağıdakı cədvəldə verilmiş meyarlardan istifadə tövsiyə olunur. Müəllim məqsədindən, sinfin səviyyəsindən asılı olaraq yeni, fərqli meyarlar hazırlaya bilər.

| **Özünüqiymətləndirmə meyarları** | **Bəli** | **Xeyr** |
|---|---|---|
| Mövzu barədə aydın təsəvvür yarada bilmişəm. | | |
| Müqayisənin xüsusiyyətlərini və tətbiq qaydalarını nəzərə almışam. | | |

Ləyihə

| | | |
|---|---|---|
| Mövzu ilə bağlı hiss və düşüncələrimə geniş yer vermişəm. | | |
| Obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən istifadə etmişəm. | | |
| Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin aydınlığına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən ardıcıl istifadə ilə icra edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Essedə obrazların oxşar və fərqli xüsusiyyətlərinə nümunələr əsasında münasibət bildirir. | Yazı | Dərslik, iş vərəqləri |
| Müvafiq dil xüsusiyyətlərinə uyğun yazıldığına əsaslanmaqla essedə düzəliş edir. | Yazı | Dərslik, iş vərəqləri |

Layihə

# 2.
# YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ

**Mövzu:**

**SƏMƏD VURĞUN. AZƏRBAYCAN –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını izah edir (7-1.1.4).
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (7-1.1.3).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).
- Yazını obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).
- Mənasını yeni öyrəndiyi sözlərdən fərqli üslubi məqama uyğun istifadə edir (7-2.2.4).

**Köməkçi vasitələr:** Səməd Vurğunun əsərlərindən nümunələr. “Azərbaycan” şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Bu başlığın sualları mövzu ilə bağlı biliklərin xatırlanması, maraqoyatma üçün faydalıdır.
2. **Oxu. Anlama.** Əsərin ilkin oxusunun və qavranılma səviyyəsinin müəyyənləşdirilməsi. Suallar əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi, məzmunun əhatəli mənimsənilməsinin təmin olunması.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun və nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.
5. **Nitqin, düşüncənin inkişafı.** Şifahi və yazılı nitqin inkişaf etdirilməsi üzrə müstəqil işlərin yerinə yetirilməsi.
6. **Xatırlatma. Dərinləşdirmə.** Əsərdəki mətləblər, onların aydınlaşdırılması ilə bağlı tövsiyələrin mənimsənilməsi.
7. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin oxusu, məzmununun öyrənilməsi, mənimsənilənlərin dərinləşdirilməsi, səviyyəsinin yoxlanması, möhkəmləndirilməsi həyata keçirilir. Şifahi və yazılı nitqin inkişafı, nəzəri anlayışların tətbiqi, mənası aydınlaşdırılmış sözlərdən istifadə və s. üzrə tapşırıqların reallaşdırılmasına diqqət yetirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərin diqqəti dərslikdəki “Yadasalma” başlıqlı suallara (Vətənimizə həsr edilmiş hansı əsərləri xatırlayırsınız? Onlarda daha çox hansı mətləblər əks olunur?) cəlb olunur. Sualların əsasında qısa müsahibə aparılır. Nəticə çıxarılır: Vətən mövzusunda yazılan əsərlərdə ona dərin sevgi ifadə edilir, təbiətinin gözəlliyi, təbii sərvətləri, əməksevər insanları... tərənnüm olunur. Bədii oxu ustasının ifasında S. Vurğunun “Azərbaycan” şeirindən bir bənd dinlənilir. Yaxud şeirin sözləri əsasında bəstələnmiş mahnıdan kiçik parça səsləndirilir. Sual formalaşdırılır: Şeiri yazmaqda şairin əsas məqsədi nə olmuşdur?

Suala əsaslandırılmış cavabın verilməsinə şeiri əhatəli öyrənməklə nail olunacağı qeyd edilir.

Layihə

**Müəllim üçün əlavə məlumat.** *Şeirdən parçanın səssiz oxusunun təşkili məqsədəuğundur. Bu, şagirdlərin mətnlə bilavasitə təmasda olmalarına, sərbəst təəssürat qazanmalarına imkan verir. Ehtiyac yaranarsa, müəllim istiqamətləndirici suallarla şagirdlərə yardım edə bilər. Bu da unudulmamalıdır ki, ilkin oxunun yaratdığı təəssüratın aşkara çıxarılması prosesində mətnin məzmununun qavranılma səviyyəsini əhəmiyyətli dərəcədə müəyyənləşdirmək mümkün olur.*

*Əlbəttə, müəllimin məqsəd və istəyindən asılı olaraq oxunu fərqli şəkildə həyata keçirmək mümkündür.*

İlkin oxudan sonra təəssüratların bölüşülməsi həyata keçirilir. Bunun üçün dərslikdə suallar təklif edilmişdir:

– Şeirdə ən çox xoşunuza gələn nə oldu? Səbəbini izah edin.
– Əsərdəki hansı təsvirləri daha uğurlu sayırsınız?
– Onlar sizdə hansı hiss-düşüncə yaratdı?

Suallara əlavələrin edilməsi, yaxud onların fərqli məzmunda hazırlanması mümkündür. Suallara hazırlanmış cavablar təqdimatların dinlənilməsi, yaxud müsahibənin tətbiqi ilə müzakirə oluna bilər. Bütün hallarda çıxış edənlərin sərbəst danışmalarına, onlara sualların verilməsinə imkan yaradılır.

Dillər əzbəri olan "Azərbaycan" şeirini şagirdlər maraqla mütaliə edirlər. Əsərin dolğun məzmunu, yüksək sənətkarlıqla yazılması şagirdləri elə ilk oxudan cəlb edir. Bütövlükdə məzmun şagirdlərdə xoş ovqat yaradır, misraların çoxunda ifadə edilmiş məna onlar üçün əlçatan olur və izahında çətinlik çəkmirlər. Məsələn, dərslikdə təklif edilmiş suala (Şeirdə ən çox xoşunuza gələn nə oldu?) uyğun olaraq təəssüratlarını bölüşən şagirdlər şeirdən gətirdikləri nümunələrə (El bilir ki, sən mənimsən, Yurdum, yuvam, məskənimsən, Anam, doğma vətənimsən! Ayrılarmı könül candan? və s. misralara) əsaslanmaqla doğma yurdla bağlı səmimi fikirləri yüksək dəyərləndirirlər.

Növbəti suala (Əsərdəki hansı təsvirləri daha uğurlu sayırsınız?) cavab hazırlayan şagirdlər şeirin uğurlu cəhətlərindən danışır, səciyyəvi hesab etdikləri təsvirləri xatırlatmaqla kifayətlənirlər. Şagirdlərin fikrincə, əsərdə vətənimizin gözəllikləri ustalıqla əks etdirilmişdir. Onun başı qarlı uca dağları, gen dərələri, durna gözlü bulaqları, nadir inciləri – ceyranı, cüyürü: bir sözlə, təbiəti uğurla təsvir edilmişdir.

Sonuncu sual (Onlar sizdə hansı hiss-düşüncə yaratdı?) əsərin emosional-estetik təsirinin müəyyənləşdirilməsi məqsədilə təklif edilmişdir. Adətən, bu tipli suallara VII sinfdə oxuyan şagirdlər obrazlı konkretləşmə səviyyəsində cavab verməkdə çətinlik çəkirlər. Daha çox ümumi sözlərdən istifadə etməklə əsərin onlarda yaratdığı hissi, düşüncəni ifadə etməyə səy göstərirlər.

Təəssüratların dinlənilməsində aydınlaşır ki, şagirdlər şeirdə obrazlı ümumiləşdirmənin güclü olduğu məqamlarda köməyə ehtiyac duyurlar. Məsələn, "Ağ örpəyin buludlardır", "Böyük bir keçmişin vardır", "Bilinməyir yaşın sənin","Nələr çəkmiş başın sənin", "Düşdün uğursuz dillərə" qəbildən misraların şərhində birtərəfli, təhrif xarakterli fikirlər səsləndirilir. Bu qüsurların aydınlaşdırılması sonrakı mərhələdə həyata keçirilən işin necə, hansı məzmunda qurulmasına istiqamət verir. Başqa sözlə, təklif edilən yeni suallar mətnin qavranılmasını dərinləşdirməyə imkan yaratmalıdır. Bu məqsədlə dərslikdə təklif edilmiş mətnkənarı suallara müəllim diqqətlə yanaşır. Təəssüratların bölüşülməsi mərhələsində müşahidə etdiklərinə əsasən həmin suallarda ya dəyişiklik edir, ya da onları əlavələrlə zənginləşdirir.

Dərslikdə dərinləşdirilmiş oxu məqsədilə aşağıdakı suallar təklif edilmişdir:

– Şeirdə doğma təbiətin gözəlliyi və zənginliyi necə ifadə olunmuşdur?
– Şair vətənə bağlılığını hansı misralarda və necə əks etdirmişdir?
– Əsər Vətənimizin keçmişi və bu günü barədə hansı təsəvvür yaradır?

Birinci sual təəssüratla bağlı təklif edilmiş sualın cavabının dərinləşdirilməsini, başlıcası isə bədiiliyə necə nail olunduğunun aşkara çıxarılmasını, nəticədə emosional-obrazlı dərkin zənginləşdirilməsini məqsəd kimi qarşıya qoyur. Şagirdlər, məsələn, "Sıra dağlar, gen dərələr" misrası ilə başlayan bəndin üzərində dayanmaqla şairin sözlə cəlbedici, yaddaqalan bir mənzərə



Layihə

yaratdığını, bunun onlarda gözəl hisslər oyatdığını, düşüncələrinə güclü təsir etdiyini göstərirlər.

İkinci və üçüncü suallar ilkin oxuda birtərəfli yanaşılan məsələlərə aydınlıq gətirilməsinə imkan verir. Azərbaycanın tarixən qədimliyi, keşməkeşli taleyi, zaman-zaman uğursuz dillərə, nəhs aylara, illərə düşməsi, bütün bunlara baxmayaraq nəsillərdən nəsillərə keçən şöhrətini qoruyub saxlaması, bu günə qədər yaşatmağı bacarması dərinləşdirilmiş oxunun sayəsində aydınlaşdırılır.

Məzmunun mənimsənilmə səviyyəsi barədə təsəvvürün qazanılmasına ehtiyac yaranır, bu, sonrakı fəaliyyətin səmərəli təşkili üçün də vacibdir. Bu məqsədlə şagirdlərə test tapşırığının ("Öyəndiklərinizi yoxlayın") üzərində işləmək üçün vaxt ayrılır. Test tapşırıqlarındakı cavab variantları əsərin ideya məzmunu ilə sıx bağlı olub ciddi düşünməyi, mənimsənilmiş bilik və bacarıqların tətbiqini tələb edir. Variantların hər birinin üzərində dayanılması faydalıdır.

Dərslikdəki növbəti tapşırıq (Möhkəmləndirmə. Zənginləşdirmə) əsərin ideyasının izahına, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqinə əhəmiyyətli təsir edir. Belə ki, oxunmuş parçadakı mətləblərin – mühüm fikirlərin müəyyənləşdirilməsi, nümunələr əsasında şərh olunması bütövlükdə yazıçı niyyətinin, əsas ideyanın izahında əhəmiyyətli rol oynayır.

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

1. Oxuduğunuz parçadakı mühüm mətləblər hansılardır? Nümunələr əsasında izah edin.
2. Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin.
3. İşinizin nəticələrini müzakirə edin.

Nəticələrin müzakirəsində səciyyəvi cavabların üzərində dayanılması vacibdir. Belə cavabların sinfin fəal iştirakı ilə təhlili şagirdlərin öz işlərindəki uğurlu, zəif cəhətləri müstəqil müəyyənləşdirmələrinə əlverişli imkan yaradır.

Dərslikdə təklif edilmiş sonrakı tapşırıq (Nitqin, düşüncənin inkişafı) fərqli məqsədlərin reallaşdırılması üçün nəzərdə tutulmuşdur; mənası yeni öyrənilmiş sözlərin nitqə daxil edilməsi, əsərin məzmununa əsaslanmaqla yazılı nitqin inkişaf etdirilməsi, idrak fəallığının güclənməsinə imkan yaradan müqayisənin aparılması bu qəbildəndir.

**Nitqinizi, düşüncənizi zənginləşdirin.**

1. **Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin. Cümlələrdə şeirlə bağlı fikirlərinizi ifadə etməyə çalışın.**
2. **Mövzulardan birini seçib yığcam yazılı təqdimata hazırlaşın.**
   a) Şeirdəki təsvirlər vətənimizin təbiəti barədəki təsəvvürümü necə zənginləşdirdi?
   b) Şeir mənə oxuduğum hansı əsəri xatırlatdı.
3. **İşinizin nəticəsini müzakirə edin. Çıxışlara münasibət bildirin.**

Artıq deyildiyi kimi, tapşırıq çoxməqsədlidir. Yazılı nitqin inkişafı ilə bağlı tələblər ön plana çəkilir. Bununla bağlı standartların reallaşdırılması səviyyəsi aşkara çıxarılır və müzakirədə diqqət mərkəzində saxlanır.

Dərslikdə "Xatırlatma. Dərinləşdirmə" başlığı altında əks etdirilmiş məlumatla tanışlıq "Möhkəmləndirmə. Zənginləşdirmə"yə aid tapşırıqların yerinə yetirilməsi ərəfəsində həyata keçirilir. Əvvəlki siniflərdə "mətləb" anlayışı ilə tanış olan şagirdlər onunla bağlı müəyyən praktik bacarıqlara da yiyələnmiş olurlar. Dərslikdəki yeni məlumat həmin anlayış üzrə mənimsənilmiş bilik və bacarıqların dərinləşdirilməsi məqsədini güdür. Mətnin səsli oxunması, eytiyac yaranan məqamlarda izahların verilməsi məqsədəuyğundur.

Leyla

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Başlıca mətləblərlə bağlı təəssüratını nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Mənasını yeni aydınlaşdırdığı sözləri cümlələrdə məqamında ardıcıl işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Yazını obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən ardıcıl istifadə ilə icra edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni aydınlaşdırdığı sözlərdən fərqli üslubi məqama uyğun ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**SƏMƏD VURĞUN. AZƏRBAYCAN –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə ilə aydınlaşdırır (7-1.1.1).
- Şeirdə ahəng yaradan vasitələri (misra, qafiyə, rədif, misradaxili bölgü) müəyyənləşdirir (7-1.1.2).
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (7-1.1.3).
- Əsərin ilkin oxusunda yaranan təəssüratını izah edir (7-1.1.4.).
- Şeirdə mətləbləri müəyyən edir (7-1.1.7).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.1.8).
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir (7-2.1.4).

**Köməkçi vasitələr:** Səməd Vurğunun əsərlərindən nümunələr. “Azərbaycan” şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Əsərin ilkin oxusunun təşkili, qavaranılma səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun həyata keçirilməsi, məzmunun əhatəli mənimsənilməsi.

**2. Öyrəndiklərinizi yoxlayın.** Məzmunun necə mənimsənildiyinin test tapşırıqları ilə yoxlanması.

**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun öyrənilməsinin dərinləşdirilməsi, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.

**4. Nitqin, düşüncənin inkişafı.** Nitqin inkişaf etdirilməsi üzrə müstəqil işlərin yerinə yetirilməsi.

**5. Müzakirə.** Əsərin mövzusu ilə bağlı ilkin qənaətlərin müzakirəsi.

**6. Xatırlatma. Dərinləşdirmə.** Şeirdə ahəng yaradan vasitələrlə (misra, bənd, qafiyə, rədif və s.) bağlı mənimsənilmiş biliklərin dərinləşdirilməsi, yeni anlayışların mənimsənilməsi.

**7. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin ardının oxusu, məzmununun öyrənilməsi diqqət mərkəzində saxlanır. İlkin oxunun qavranılma səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili, məzmunun öyrənilməsinin möhkəmləndirilməsi, nitq inkişafı üzrə müstəqil işin icrası, şeirin mövzusu ilə bağlı ilkin qənaətlərin müzakirəsi, şeirdə ahəng yaradan vasitələrin xatırladılması, yeni anlayıların mənimsənilməsi həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Şeirin oxusuna şagirdlər xüsusi maraq göstərirlər. İkinci dərsə qədər o, bütövlükdə oxunmuş olur. Deməli, ilkin oxu bu məqamda şərti xarakter daşıyır. Mətni nəzərdən keçirmək üçün bir neçə dəqiqə vaxt ayırmaq kifayət edir. Bunun səssiz oxuya həsr edilməsi mümkündür. Növbəti addım ilkin qavramanın səviyyəsinin aşkara çıxarılması ola bilər.*

Bu məqsədlə dərslikdə təklif edilmiş suallardan (müəllimin suallara yaradıcı yanaşması məqsədəuyğundur) istifadə etmək olar:

– Şeirin davamı xoşunuza gəldimi? Səbəbini izah edin.
– Hansı misra və bəndlər diqqətinizi daha çox cəlb etdi? Nə üçün?
– Şeirin sizdə yaratdığı hiss və düşüncələri izah etməyə çalışın.

Sualların üzərində düşünən şagirdlərin cavabları müsahibə, yaxud təqdimatların dinlənilməsi ilə müzakirə oluna bilər. Birinci sual məntiqi təfəkkürün fəal işini tələb edir. Bir şərtlə ki, cavablarda konkretlik olsun. Əsaslandırılmış cavabın tələb olunması şagirdləri daha diqqətli olmağa sövq edir, sözçülüyü aradan qaldırır. Sual təkcə əsərin bədii keyfiyyətinə deyil, onda əksini tapmış mətləblərə də münasibətin bildirilməsini nəzərdə tutur.

İkinci sual daha çox əsərin mənasının, qismən də bədii keyfiyyəti barədə qavranılanların ifadəsinə yönəlikdir.

Üçüncü sual bütövlükdə şeirin ideya məzmunu ilə bağlı mövqeyin bildirilməsini ön plana çəkir.

Bu deyilənlərin nəzərə alınması ilkin qavramanın keyfiyyət və səviyyəsinin aşkara çıxarılıb qavranılmasına imkan verir. Yalnız bundan sonra mətnin dərinləşdirilmiş oxusuna necə, hansı məzmunda müraciət etməyin lazım olduğunu müəyyənləşdirmək mümkün olur. Dərinləşdirilmiş oxunun əvvəlcədən təqdim edilmiş sualların əsasında aparılmasının əhəmiyyəti metodikada çoxdan əsaslandırılmışdır. Suallar, deyildiyi kimi, ilkin qavramanın nəticələri əsasında hazırlanır. Deməli, dərslikdə bu məqsədlə təklif edilmiş suallara müəllim sinfindəki vəziyyətə uyğun yanaşmalıdır. Dərslikdə təklif edilmiş suallar aşağıdakılardır:

– Şeirdə ölkəmizin hansı bölgələri xatırladılır? Bununla şair oxucunun diqqətini nəyə cəlb etmək istəyir?
– Əsərdə dahi şairlərimiz – Nizami, Füzuli nə məqsədlə xatırladılır?
– Vətənimizin paytaxtı – Bakı şeirdə necə təsvir edilib? Şəhəri seyr edən müəllifdə hansı hisslər yaranır?

Göründüyü kimi, suallar obrazlı ümumiləşdirmə və obrazlı konkretləşdirmə tələbləri əsasında hazırlanmışdır. Başlıcası isə ilkin qavramada mənimsənilənlərin dərinləşdirilməsi və zənginləşdirilməsi məqsədi güdülmüşdür.

Hər iki mərhələdə öyrənilənlərin yoxlanması test tapşırıqlarının ("Öyrəndiklərinizi yoxlayın") yerinə yetirilməsi yolu ilə həyata keçirilir. Şagirdlər tapşırığın üzərində fərdi olaraq işləyirlər, cavabların müzakirəsində sinfin fəal iştirakı təmin olunur. Test tapşırıqlarındakı cavab variantlarının hər birinin üzərində dayanılması faydalıdır.

Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" başlığı altında verilmiş tapşırıq çoxməqsədli olub ciddi yanaşma tələb edir. Tapşırıq şeirin ikinci parçasındakı mühüm mətləblərin izah olunması, bədii təsvir və ifadə vasitələrinin cümlələrdə işlədilməsi, nəzəri anlayışların şərhi, mənimsənilmiş bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi və tətbiqini tələb edir.

Layihə

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

1. Oxuduğunuz parçadakı mühüm mətləblər hansılardır? Nümunələr əsasında izah edin.
2. Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin.
3. Şeirdən iki bənd seçin. Sizə məlum olan və yeni tanış olduğunuz anlayışları (misra, bənd, qafiyə, rədif, ritmik fasilə, məntiqi fasilə, misradaxili bölgü) bu bəndlərin əsasında izah edin.
4. İşinizin nəticələrini müzakirə edin.

Şeirdə əks olunmuş başlıca mətləblərin müəyyən edilməsi, izahı ideyanın, müəllif niyyətinin aydınlaşdırılması və dəyərləndirilməsində əhəmiyyətli rol oynayır. Tapşırıqdakı digər tələblər nəzəri anlayışlarla bağlı bilik və bacarıqların dərinləşməsinə, zənginləşməsinə əhəmiyyətli təsir edir.

Tapşırıq üzərində fərdi işləyən şagirdlərin cütlük şəklində fikir mübadiləsi aparmalarına şərait yaradılır.

Növbəti tapşırığı ("Nitqin, düşüncənin inkişafı") fərdi olaraq yerinə yetirən şagirdlər mənasını yeni öyrəndikləri sözlərdən bir neçəsini cümlələrdə işlədir, şeirlə bağlı fikirlərini ifadə edirlər. Bu, şagirdlərin müstəqil düşüncəsinin inkişafına, təhlilə hazırlaşmalarına əlverişli imkan yaradır. İşin nəticələrinin müzakirəsində daha çox şagirdin iştirak etməsinə diqqət yetirilir.

Şeirin mövzusunun müəyyənləşdirilməsi üzrə müzakirənin təşkili faydalıdır. Bu, ilkin qənaətlərin bildirilməsi əsasında keçən müzakirə olur. Əsərin məzmunu barədə xeyli məlumat qazanan şagirdlər müzakirədə fəal iştirak edirlər. Lakin son qərarın verilməsi elə də asan olmur. Əsərdə əksini tapmış mühüm mətləblərin yeni öyrənilməsi, əsərin bütövlükdə qavranılmasının qədərincə reallaşmaması mövzu haqqında möhkəmlənmiş, əsaslandırılmış mövqeyin bildirilməsinə imkan vermir.

Dərslikdə "Xatırlatma. Dərinləşdirmə" başlığı altında şeirdə ahəng yaradan vasitələr: misra, bənd, qafiyə, ritmik fasilə, məntiqi fasilə, misradaxili bölgü barədə məlumat verilmişdir. Şagirdlər bunların bir qismi ilə əvvəlki siniflərdən tanışdırlar. Məlumat "Möhkəmləndirmə. Zənginləşdirmə" tapşırığının yerinə yetirilməsindən əvvəl oxunur və şeirdən seçilmiş nümunələr əsasında izah olunur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə ilə kontekstə uyğun aydınlaşdırır. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə ahəng yaradan vasitələri (misra, qafiyə, rədif, misradaxili bölgü) nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Bədii təsvir və ifadə vasitələrindən yazıda məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun yaratdığı təəssüratını nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdəki mətləbləri nümunələrə əsaslanmaqla müəyyən edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında ardıcıl diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**SƏMƏD VURĞUN. AZƏRBAYCAN –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.2.1).
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).

**Köməkçi vasitələr:** Səməd Vurğunun əsərlərindən nümunələr. "Azərbaycan" şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Şeirin mövzusu, ideyası, eləcə də ədəbi-nəzəri anlayışlar üzrə araşdırma və dəyərləndirmənin həyata keçirilməsi.
2. **İfadəli oxuya hazırlaşın.** Şeirin ifadəli oxusu üzrə işin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin mövzusu üzrə qənaətlərin dəqiqləşdirilməsi, ideyasının aydınlaşdırılması, nəzəri anlayışlarla bağlı mənimsənilənlərin tətbiqi, şifahi nitq bacarığının inkişafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şeirdə Vətənimizə dərin sevgi ifadə olunmuşdur. Onun təbiəti, mənəvi sərvəti, bölgələri yüksək sənətkarlıqla diqqətə çatdırılmışdır. Əsərdə toxunulan mətləblər çoxdur və onlar barədə əsərin öyrənilməsinə həsr edilmiş ilk iki dərsdə xeyli təsəvvür qazanılmışdır. Bəs bu mətləblərin müəllifin diqqətini çəkməsinə səbəb nədir, onları necə dəyərləndirmək olar? Araşdırma və təhlil aparmaqla suala əsaslandırılmış cavab əldə etmək mümkündür.

**Müəllim üçün əlavə məlumat.** *Şeirdə müəllifin təsvir olunanlara münasibəti və obrazı aydın təsəvvür edilir. Şairin doğma yurduna, onun keçmişinə, təbiətinə, insanlarına sevgi dolu münasibətinin aydınlaşdırılması əsərin ideyasının izahında və dəyərləndirilməsində əhəmiyyətli rol oynayır. Bu məqsədlə tapşırığa ayrıca tələbin daxil edilməsi təsadüfi deyildir və ona xüsusi diqqətin yetirilməsi vacibdir.*

Dərsdə reallaşdırılmalı olan araşdırma, təhlil üzrə işin təşkili ilə bağlı müəllimlərin zəngin təcrübəsi vardır. Məlumdur ki, müəllimlər məqsədlərindən, sinfin səviyyəsindən çıxış etməklə bu işi fərqli formalarda təşkil edirlər. Məsələnin daha səmərəli həlli müxtəlif iş formalarının qarşılıqlı əlaqədə tətbiq edilməsinə nail olunmasıdır. Aydındır ki, tapşırığın bu və ya digər tələbi ilə bağlı şagirdin fərdi işi onun fəaliyyətinin keyfiyyəti, səviyyəsi barədə aydın təsəvvürün əldə edilməsinə səbəb olur. Yaxud cütlük şəklində, eləcə də kiçik qruplarda iş əməkdaşlığın reallaşmasını təmin edir.

Kiçik qruplarda işin təşkilinə üstünlük verənlər o vaxt uğur əldə edirlər ki, qruplar bir-birinin işinin məzmunu, nəticəsi barədə aydın təsəvvür qazanmış olsunlar. Lakin dinləyib anlamanın həmişə səmərəli olduğunu iddia etmək də doğru sayıla bilməz. Deməli, hər qrup eşitdikləri ilə kifayətlənməməli, digər qrupların üzərində işlədikləri tapşırıqlarla maraqlanmalı, dinləyib mənimsədiyini müstəqil fəaliyyəti ilə möhkəmləndirməlidir. Bunun reallaşdırılması yolunun müəyyənləşdirilməsi və tətbiq olunması müəllimdən zəhmət və yaradıcı yanaşma tələb edir.

Dərslikdə təklif edilmiş tapşırığın hər bəndinə metodik tövsiyələrin əlavə etdirilməsi müəllimin və şagirdlərinin işinin səmərəliliyinə əhəmiyyətli təsir edir. Məsələn, tapşırığın birinci bəndi və ona əlavə edilmiş tövsiyələr belədir.

- Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələri nəzərə alın:
  – şeirin hər bəndində ifadə olunmuş fikirlərin arasındakı əlaqələri müəyyənləşdirin;
  – bu fikirlərin hamısına aid olan mətləbi müəyyən etməyə çalışın.

Əvvəlki dərsdə şeirin mövzusunun müəyyənləşdirilməsi ilə bağlı keçirilən müzakirədə əldə edilmiş ilkin qənaətlər xatırladılır. Tövsiyələrə uyğun oaraq şeirin ayrı-ayrı bəndlərində ifadə olunmuş fikirlər və aralarındakı əlaqələr bir daha aydınlaşdırılır. Onların hamısında vətən sevgisinin ifadə olunduğu qənaəti üzərində dayanılır. Mövzunun əsasında da məhz bunun dayandığı nəticəsi çıxarılır.

Layihə

Tapşırığın müəlliflə bağlı olan ikinci bəndi əsərin ideyasının aydınlaşdırılması və dəyərləndirilməsi üçün geniş imkan açır.

- Şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı? Tövsiyələrə də diqqət yetirməklə onun haqqındakı düşüncələrinizi ifadə edin:
  – müəllifin doğma yurduna, onun təbiətinə, insanlarına münasibəti;
  – vətənin keçmişi, taleyi barədə müəllifin düşüncələri.

Şeirin hər bəndində müəllifin mövqeyi özünü qabarıq göstərir. Lakin cavablarda konkretliklə yanaşı, *ümumiləşdirmənin* olması da vacibdir. Şairin yurd sevgisi, yurdun təkrarolunmaz təbiətinə vurğunluğu barədə konkret misra, bəndlər əsasında fikir söyləmək mümkündür. Müəllifin Vətənin keçmişi, taleyi barədəki düşüncələrini əks etdirən misralar olsa da, fikrin ümumiləşdirmə əsasında ifadə edilməsi məqsədəuyğundur.

Şagirdlərin hər birinin tapşırığın növbəti bəndinə hazırladığı cavabın səviyyəsi barədə təsəvvürün əldə edilməsi vacibdir. Şagirdlər daha maraqlı hesab etdikləri bədii təsvir və ifadə vasitələrindən azı ikisini seçməklə bədiiliyin artmasına onların verdiyi töhfəni izah edirlər.

Tapşırığın sonuncu bəndində şeirin əsas ideyasının izahı tələb olunur. Tapşırığın məzmunu şagirdləri axtarışlara cəlb edir. Hansı iş formasının tətbiqindən asılı olmayaraq şagirdlərin hər birinin fəallıq göstərməsinə şərait yaradılır. Əsas ideya ilə bağlı variantların təklif edilməsi şagirdlərin fərdi olaraq düşünmələrinə imkan verir. Eləcə də şagirdlərin hər biri orijinal fikirlərini bildirmək, əsaslandırmaq imkanı qazanırlar. Şeirdə əksini tapmış mühüm mətləblərin (bu, müəllifin mövqeyi ilə bağlı mənimsənilənlərlə üst-üstə düşür) nəzərə alınması ideyanın aydınlaşdırılmasında az əhəmiyyət kəsb etmir.

Dərslikdəki sonuncu tapşırıq ifadəli oxu ilə bağlıdır. Şeirin üç bəndinin üzərində işin təşkili nəzərdə tutulmuşdur. Lakin tələblər az deyildir, onların hər birinin yerinə yetirilməsi ciddi düşünməyi və işləməyi tələb edir:

– fasilə işarəsi (misra daxilində və misra sonunda);
– məntiqi vurğulu sözlərin fərqləndirilməsi işarəsi;
– səsin keyfiyyətini (ucalıq, temp) göstərən işarələr;
– oxuda qarşınızda duran vəzifəni yığcam cümlə şəklində mətnin sağ tərəfində yazın;
– oxuda səsinizin aldığı çalarları ifaçılıq vəzifəsini ifadə edən cümlənin altında ardıcıllıqla yazın;
– ayrı-ayrı danışıq səslərinin müxtəlif məqamlarda tələffüzü üzərində düşünün.

Dərslikdəki nümunənin üzərində müşahidənin təşkil edilməsi vacibdir. Bu, şagirdlərin səmərəli işləmələrinə əhəmiyyətli təsir edir. Yaxşı düşünülmüş, vaxtdan səmərəli istifadə olunan dərsdə ifadəli oxu ilə bağlı işin bütövlükdə yerinə yetirilməsi mümkündür. Sinfin səviyyəsindən asılı olaraq işin başa çatdırılmaması halları da müşahidə oluna bilər. Belə olanda işin asudə vaxtda – evdə yerinə yetirilməsi təklif oluna bilər. Lakin nəticənin yoxlanılması növbəti dərsdə həyata keçirilməlidir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas ideyanı şeirdəki mühüm mətləblərə əsaslanmaqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Lahiyə

**Mövzu:**

**MİRZƏ İBRAHİMOV. AZAD –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir (7-1.3.1).
- Əsərin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayədə hadisələrin səbəb-nəticə əlaqələrini izah edir (7-1.3.5).
- Dəlillərlə əsaslandırılmış təqdimat hazırlayır (7-2.1.2).
- Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmalar icra edir (7-2.2.1).

**Köməkçi vasitələr:** Mirzə İbrahimovun əsərlərindən nümunələr. "Azad" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istifadə olunması.
2. **Oxu. Anlama.** Hekayədən parçanın ilkin oxusu, məzmununun qavranılma səviyyəsinin aşkara çıxarılması. Dərinləşdirilmiş oxunun təşkili.
3. **Öyrəndiklərinizi yoxlayın.** Mənimsənilənlərin test tapşırıqları əsasında yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi üzrə işin təşkili.
5. **Yaradıcı iş.** Kiçik həcmli hekayənin yazılması üzrə hazırlıq işləri.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**

– hekayədən bir parçanın oxusu;
– ilkin qavramanın səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun suallar əsasında həyata keçirilməsi;
– məzmunun öyrənilməsinin yoxlanması;
– məzmunun mənimsənilməsinin möhkəmləndirilməsi və zənginləşdirilməsi;
– sadə süjetli, kiçik həcmli hekayənin yazılması üzrə hazırlıq işlərinin icrası.

**Müəllim üçün əlavə məlumat.** *Hekayədən dərsliyə daxil edilmiş parçanın həcmi yığcamdır. Oxunun səmərəli təşkili dərsdə nəzərdə tutulmuş işlərin vaxt qıtlığı duyulmadan yerinə yetirilməsinə imkan verir. Hekayə janrında mətnin yazılması üzrə çalışmaların icrası ilk dəfə bu dərsdə nəzərdə tutulmuşdur. Bu məzmunda işin təşkili xüsusi diqqət və qayğı tələb edir. Həmçinin şagirdlər bu işə xüsusi önəm verildiyini hiss etməlidirlər.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərə dərslikdəki "Yadasalma" başlıqlı suallarla (Cənubi Azərbaycanda ən böyük milli azadlıq hərəkatının nə vaxt baş verdiyini bilirsinizmi? Bu hərəkatın nəticəsi necə olub?) tanış olmaq təklif edilir. Digər fənlərdən və mənbələrdən əldə edilmiş biliklər yığcam müsahibə aparmağa imkan verir. Müsahibədə Cənubi Azərbaycan mövzusunda öyrənilmiş əsərlərin xatırladılması məqsədəuyğundur. Sonda sual formalaşdırılır: Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın milli azadlıq hərəkatında fəal iştirak etmələrinə səbəb nə idi?

**Oxu. Anlama.**

Vaxta qənaət baxımından ilkin qavrama üçün səssiz oxunun (müəllim məqsədindən asılı olaraq fərqli oxu forması seçə bilər) tətbiqi faydalıdır. Şagirdlər ilkin oxunun yaratdığı təəssüratı dərslikdə təklif edilmiş sualların əsasında ifadə edirlər.

– Əsərdə diqqətinizi daha çox çəkən nə oldu? Nə üçün?
– Azad obrazı haqqında ilkin təəssüratınızı necə izah edərsiniz?
– Fərda obrazı barədə sizdə hansı təsəvvür yarandı?
– Səlimə xanımın övladına münasibətində sizin üçün yeni, fərqli olan nədir?

Layihə

Təqdimatların dinlənilməsi, müsahibənin aparılması şagird təəssüratlarının aydınlaşdırılması üçün əlverişlidir. Şagirdlərin öz təəssüratlarını dialoq əsasında şərh etmələri də maraqlı ola bilər. Bu, şagirdlərin daha fəal və inamlı olmaları üçün əlverişlidir.

Cavablar məzmun və səviyyəcə fərqli olur. Müəllim səsləndirilən fikirlərin əsasında ilkin qavramanın səviyyəsi barədə təsəvvür qazanır. Bu, sonrakı mərhələni – dərinləşdirilmiş oxunu necə təşkil etməyin lazım olduğunu müəyyənləşdirməyə imkan verir.

Dərslikdə dərinləşdirilmiş oxu üçün təklif edilmiş suallara müəllim sinfin səviyyəsindən çıxış etməklə yanaşır: suallara əlavələr etmək, yaxud onlarda ixtisarlar aparmaq üzərində düşünür.

– Təsvir olunan hadisələr harada baş verib? Fikrinizi nümunələrlə izah edin.

– Hadisələrin nə vaxt baş verdiyi barədə nə deyə bilərsiniz?

– Fərdanın öz dostu Azad haqqındakı düşüncələrində diqqətinizi çəkən nə oldu?

– Fərda Səlimə xanımın oğluna münasibətində qeyri-adi nə görür?

– Azadın uğursuz taleyi sizdə hansı hisslər yaratdı?

– Fərdanın həyatdan, taleyindən şikayətlənməsinə səbəb nə idi? Onun düşüncələrinə haqq qazandırırsınızmı? Nə üçün?

– Sizcə, Fərda “Biz ölmək üçün yaşayırıq... Yaşamaq üçün ölən insanlardan xəbərsizik!..” sözləri ilə nə demək istəyir?

– Azad və Fərdanın qoşulduqları hərəkatın məqsədi nə idi?

Suallar şəxsi yozum, müstəqil fikir üçün geniş imkan açır, başlıcası isə ilkin qavramanın sayəsində mənimsənilənlərin dərinləşməsinə və zənginləşməsinə səbəb olur.

Dərinləşdirilmiş oxunun nəticəsinin yoxlanması üçün hansı yolun seçilməsi də müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır. Əgər müsahibədən istifadə edilərsə, onun müzakirə xarakterli olması faydalı olar.

**Öyrəndiklərinizi yoxlayın.**

Bu başlıq altında əks etdirilmiş test tapşırıqları təkcə əsərlə bağlı mənimsənilənlərin yoxlanması baxımından əhəmiyyətli deyil, eləcə də dərinləşdirmə, zənginləşdirmə məqsədləri üçün də faydalıdır. Onun tələbləri əsasında əsərdəki hadisələrin səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi də tapşırığın üstünlüklərindən sayılmalıdır.

Tapşırığın yerinə yetirilməsində cavab variantlarının hər birinin üzərində dayanılması vacibdir. Başqa sözlə, hər bir variantda ifadə edilmiş fikrə münasibət bildirilməli, o, əsərdən nümunələr göstərilməklə əsaslandırılmalıdır. Məsələn, birinci test tapşırığının ilk cavab variantı (“Fərda Azadın qəlbinə dəydiyini düşünür və peşman olur”) izah olunarkən həyatdan, yaşayışlarından şikayətlənən Fərdanın Azadla sərt davrandığı, hətta ona kəskin, kinayəli sözlər dediyi xatırladılır: “Biz ölmək üçün yaşayırıq... Yaşamaq üçün ölən insanlardan xəbərsizik!.. Buna görə də cənazəmiz qəbrə çatmamış bizi unudacaqlar... Səni də, məni də, bizim tanış və dostlarımızı da. Yox, bəlkə, səni bir az yad edən tapıldı... Deyəcəklər ki, dərzi Azad yaxşı yamaq salardı... Allah rəhmət eləsin!”

Əlavə olunur ki, həqiqi dost olan Fərda az keçməmiş haqsız olduğunu özlüyündə etiraf edir: “Mən bu yazığı niyə incitdim?.. Onun taqsırı nədir?”

Digər cavab variantı (“Səlimə xanım Azadı çətinliklə böyütmüşdür”) izah olunarkən hekayədən seçilmiş nümunələrin səsləndirilməsinə diqqət yetirilir: “Azad doğulmamışdan iki ay əvvəl atası ölmüşdü... Anası Səlimə xanım evdə tək qalmışdı... Birinin evini təmizlər, birinin paltarını yuyar, birinə yun çırpardı... Bu qayda ilə bir qarnı ac, bir qarnı tox o, Azadı böyütmüşdü...”

İşin bu məzmunda təşkili əsərin daha dərin qatlarına nüfuz edilməsinə, incəliklərin dərk olunmasına imkan yaradır.

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

Bu başlıq altında verilmiş tapşırıqda obrazlarla bağlı şifahi təqdimatın hazırlanması təklif olunur. Tapşırıqdakı birinci bəndə (“Fərda və Azadın taleyi barədə düşüncələrim”) əsaslandırılmış cavabın hazırlanması müstəqil düşüncə, müstəqil yanaşma tələb edir. Bu iki obrazın məhrumiyyətlərlə dolu olan acı taleyi ölkədəki ağır durumdan xəbər verir. Fərdanın özü və həmvətənləri haqqında söylədikləri

Layihə

oxucunu düşündürür, həqiqəti dərk etməyə istiqamətləndirir. Fərdanın dedikləri minlərlə gəncin ürəyindən keçənlərdir: “Ağlamaq istəyirəm. Gözlərimdən yaş gəlmir. Bu nə güzəran, bu nə dirilikdir? ... İşləməyə yer yox, danişgahda oxumağa imkan yox, oğurluqmu edim, qardaş?

Əlim sağ, qolum sağ, özümdə dağ gücü hiss edirəm, mən nələr edə bilmərəm? Əlimdən nə gəlməz?

... Bəs indi də işləməyəndə mən nə zaman işləyəcəyəm?”

Suala əhatəli cavabın hazırlanması yazıçı niyyətinin, əsərin əsas ideyasının aydınlaşdırılmasına əhəmiyyətli dərəcədə təsir edir.

Tapşırığın ikinci bəndi (“Fərdanın nitqi, hiss-həyəcanı onu bizə necə tanıdır”) obrazın sonrakı dərslərdə təhlilinə zəmin yaradır. Fərdanın nitqi-danışığı onun xarakteri, həyata baxışı, dünyagörüşü barədə təsəvvür yaradır. Onun haqqında obyektiv fikir müxtəlif vəziyyətlərdə keçirdiyi hiss-həyəcanın doğru-dürüst dəyərləndirilməsindən də asılıdır. Şagirdlər hekayədən seçdikləri nümunələrə əsaslanmaqla Fərdanın səmimi, xeyirxah, insanpərvər, vətənini, xalqını dərin məhəbbətlə sevən bir gənc olduğu barədə ilkin qənaətlərini söyləyirlər.

**Yaradıcı iş.**

Şagirdlərdə bədii yaradıcılıq bacarığının inkişaf etdirilməsi təkmilləşdirilmiş ədəbiyyat fənn kurikulumunda ayrıca diqqət yetirilən məsələlərdəndir. Qeyd edildiyi kimi, hekayə janrında mətnin yazılması üzrə çalışmaların icrası ilk dəfə bu dərsdə nəzərdə tutulmuşdur. Şagirdlərə izah olunur ki, hekayə janrında mətnin yazılaraq başa çatdırılması müəyyən zaman çərçivəsində yerinə yetiriləcəkdir. Ən mühümü isə dərsdə icra olunan işlərin asudə vaxtda davam etdirilməsidir.

Dərslikdə ilk hazırlıq işi ilə bağlı konkret tələblər əks etdirilmişdir:

– hekayənin mövzusunu müəyyənləşdirin (bunun üçün oxucuların diqqətini hansı mühüm həyati məsələyə yönəltmək istədiyinizi aydınlaşdırın);

– əsas süjet xətti barədə fikir mübadiləsi aparın (təsvir olunacaq əhvalat və hadisələr barədə ilkin qənaətlərinizi bölüşün);

– düşündüyünüz ideyanın konfliktin yaranmasına səbəb olub-olmayacağını müəyyən edin;

– hekayənin necə bitəcəyi ilə bağlı düşüncələrinizi müzakirə edin.

Bu tapşırıq-tövsiyənin kiçik qruplarda müzakirə edilməsi məqsədəuğundur. Qrup sözçülərinin təqdimatları əsasında geniş müzakirənin aparılması qənaətlərin durulaşmasına səbəb olur. Tələblərin hər biri ilə bağlı aparılan fikir mübadiləsindən çıxarılan nəticələrin yazılmasına diqqət yetirilir.

Sonda şagirdlərə təklif olunur ki, bu tələblərlə bağlı başladıqları işləri asudə vaxtlarında davam etdirsinlər və yazılı təqdimat əsasında növbəti dərsdə müzakirəyə hazırlaşsınlar.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə hadisələrin səbəb-nəticə əlaqələrini nümunələrlə izah edir | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dəlillərlə əsaslandırılmış yığcam təqdimat hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmaları fikrini əsaslandırmaqla icra edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| | |
|---|---|
| **Mövzu:**<br><br>**MİRZƏ İBRAHİMOV. AZAD –**<br><br>**3 saat**<br><br>**İkinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (7-1.3.2.).<br>• Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3.).<br>• Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlrini izah edir (7-1.3.4.).<br>• Çıxışında mimika və jestlərdən yerində istifadə edir (7-2.1.3.).<br>• Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir (7-2.1.4.).<br>• Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmalar icra edir (7-2.2.1.).<br><br>**Köməkçi vasitələr:** Mirzə İbrahimovun əsərlərindən nümunələr. “Azad” hekayəsinə çəkilmiş illüstrsiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1.Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istfadə olunması.<br>**2.Oxu. Anlama.** “Azad” hekayəsindən parçanın ilkin oxusunun təşkili, məzmununun qavaranılma səviyyəsinin aşkara çıxarılması. Dərinləşdirilmiş oxunun həyata keçirilməsi.<br>**3.Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi üzrə işin təşkili.<br>**4.Müzakirə.** Hekayənin mövzusunun müəyyənləşdirilməsi üzrə ilkin qənaətlərin müzakirəsi.<br>**5.Yaradıcı iş.** Kiçik həcmli hekayənin yazılması üzrə işin təşkili.<br>**6.Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu:**

– hekayənin davamının oxusu;
– ilkin qavramanın səviyyəsinin müəyyənləşdiriməsi;
– dərinləşdirilmiş oxunun suallar əsasında həyata keçirilməsi;
– məzmunun mənimsənilməsinin möhkəmləndirilməsi və zənginləşdirilməsi;
– hekayənin mövzusunun müəyyənləşdirilməsi üzrə ilkin qənaətlərin müzakirəsi;
– sadə süjetli, kiçik həcmli hekayənin yazılması üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Hekayənin istər ilkin, istərsə də dərinləşdirilmiş oxusunda, təlim məqsədlərində qeyd edilməsə də, tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına diqqət yetirilir. Dərsdə icra olunan bütün işlərdə həmin sözlərdən istifadənin vacib olması şagirdlərə xatırladılır.*

*Yaxud dərsin məqsədləri sırasında hekayədəki bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi ilə bağlı tələb yoxdur. Lakin bədii təsvir və ifadə vasitələrindən ikisinin cümlələrdə işlədilməsi ilə bağlı tapşırıq təklif edilmişdir. Deməli, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, eləcə də bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi oxuya həsr edilmiş dərslərdə həyata keçirilir. Bunun bütün əsərlər üçün xatırladılması məqsədəuyğun sayılmamışdır.*

**Oxu. Anlama.**

Şagirdlər səsli, yaxud səssiz oxunun tətbiqi ilə hekayənin davamı ilə tanış olurlar. Təəssüratların bölüşülməsi üçün dərslikdə təklif edilmiş suallarla bağlı yığcam fikir mübadiləsi aparırlar. Suallarda əsərdəki epizodlar və obrazlarla bağlı təəssüratların bölüşülməsinə üstünlük verilmişdir.

– Sizə daha güclü təsir edən epizod hansı oldu? Nə üçün?
– Ana obrazları haqqında sizdə hansı təəssürat yarndı?
– Azad və Fərda obrazları haqqında təsəvvürünüzə yeni nə əlavə olundu?

Layihə

Şagirdlərin fərqli epizodların üzərində dayanmalarına təbii baxmaq lazımdır. Başlıcası şagirdlərin bu epizodların nə dərəcədə əhəmiyyətli olmasına və nə üçün məhz bu epizodu seçmələrinin səbəbini əsaslandıra bilmələridir.

Obrazlar haqqında artıq müəyyən təəssüratları olan şagirdlər hekayənin davamını oxuduqca onlar barədəki təsəvvürlərini zənginləşdirməlidirlər. Bunun aşkara çıxarılması dərinləşdirilmiş oxunun, eləcə də sonrakı mərhələlərdə aparılan işlərin məzmununa təsir edir.

Şagirdlər dərinləşdirilmiş oxu üçün nəzərdə tutulmuş suallarla tanış olurlar. Onlar mətn üzərində müstəqil işləyir, həmin suallara əsaslandırılmış cavab üzərində düşünürlər. Mətnə müraciət fərqli şəkildə olur; ilkin oxuda daha diqqətli olan şagirdlər mətndə konkret məsələlərə diqqət yetirməyə üstünlük verirlər. Əlbəttə, mətni bir daha diqqətlə oxumağa ehtiyac duyan şagirdlər də olur. Onlar bundan nəticə çıxarmalı və sonralar ilkin oxuda daha diqqətli olmağın zəruriliyini dərk etməlidirlər.

Dərslikdə təklif edilmiş suallar hekayənin məzmunundakı incəliklərin, hadisələrin səbəb-nəticə əlaqələrinin, obrazların əməllərinin, düşüncələrinin başa düşülməsinə və ilkin dəyərləndirilməsinə əhəmiyyətli təsir edir.

– Fərdanın Təbrizə qayıtmasına səbəb nə oldu?

– Vaxtilə həyatından şikayətlənən Fərdanın yorulmaq bilmədən çalışmasının səbəbini necə izah edərsiniz?

– Xalqın milli azadlıq hərəkatına kimlər və necə mane olurdular?

– Fərdanın Zəncana göndərilməsinə səbəb nə idi?

– Beş illik ayrılıqdan sonra dostların görüşü hansı şəraitdə baş verdi?

– Ölüm ayağında olan Azadın Fərdanı görmək arzusu nə ilə bağlı idi?

– Azad Fərdaya və silahdaşlarına nəyi tövsiyə edir?

Dərinləşdirilmiş oxunun nəticəsinin hansı formada yoxlanmasından asılı olmayaraq əsərdən nümunələrin göstərilməsi, cavabların daha çox dəlillərlə əsaslandırılması diqqət mərkəzində saxlanmalıdır.

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

Tapşırıqlardan birincisi (“Hekayədə mühüm hesab etdiyiniz mətləbləri qeyd edin”) əsərdə əksini tapmış mətləblərlə bağlı ilkin təəssüratların, eləcə də ikinci oxudan sonra səsləndirilmiş fikirlərin qısaca yazılmasını tələb edir. Bu, ümumiləşdirmənin aparılmasına, əsərin ideya məzmunu haqqında təsəvvürün zənginləşməsinə səbəb olur.

Tapşırıqlardan ikincisi (“Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin”) nəzəri anlayışlarla bağlı mənimsənilənlərin tətbiq edilməsi, yazılı nitqin inkişafı baxımından faydalıdır.

Hər iki tapşırığı fərdi yerinə yetirən şagirdlərə sonda fikir mübadiləsi aparmaları üçün imkan yaradılır. Nəticənin müzakirə yolu ilə yoxlanılması məqsədəuyğundur.

**Müzakirə.**

Təkmilləşdirilmiş ədəbiyyat fənn kurikulumunun tələbinə əsasən bədii əsərin oxusu və məzmununun öyrənilməsinin son mərhələlərində mövzu ilə bağlı ilkin qənaətlərin açıqlanması həyata keçirilməlidir. Bu məqsədlə dərslikdə müzakirə məqsədilə mövzu (“Hekayə hansı mövzuda yazılmışdır?” sualı üzrə müzakirəyə hazırlaşın) təklif edilmişdir.

Şagirdlər ilk növbədə əsərdə mühüm hesab etdikləri mətləblərin, başlıca fikirlərin üzərində dayanırlar. Təsvirlərdə, epizodlarda, obrazların nitqində daha çox toxunulan məsələlərə diqqətin çəkilməsi, yazıçı niyyətinin aydınlaşdırılması mövzu haqqında ilkin qənaətlərin formalaşmasına az təsir etmir.

**Yaradıcı iş.**

Müstəqil yazılan hekayə ilə bağlı əvvəlki dərsdə verilmiş tapşırıqların hansı səviyyədə yerinə yetirildiyi aşkara çıxarılır. Şagirdlərdən hər biri aşağıdakı məsələlərlə bağlı gəldikləri qənaətləri qısaca izah edirlər:

– hekayənin mövzusunu necə formalaşdırıb?

– əsas süjet xəttini necə, hansı formada təsəvvür edir?

– başlıca ideyanın əsasında hansı fikir, niyyət dayanır?

– əsas ideya konfliktə (konfliktlərə) yol açırmı?

Layihə

– hekayənin sonunu, hadisənin (hadisələrin) sonluğunu necə təsəvvür edir?

Çıxış edənlərin mövqeyinə hörmətlə yanaşılmasına və münasibətin bildirilməsinə, müzakirənin diskussiya xarakterli olmasına, inandırma əsaslı fikirlərin səsləndirilməsinə diqqət yetirilir.

Səsləndirilən fikirlərlə bağlı aydın nəticəyə gələn şagirdlər növbəti fəaliyyətlərini əhatə edən sadə plan düşünə bilərlər. Yalnız bundan sonra şagirdlərin yazıya başlamaları məqsədəuyğundur. Dərsin sonunda icra olunanlarla bağlı fikir mübadiləsinin aparılması faydalıdır.

Şagirdlərə təklif olunur ki, işi asudə vaxtlarında davam etdirsinlər, icra etdikləri ilə bağlı müzakirəyə hazırlaşsınlar .

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışında mimika və jestlərdən ardıcıl olaraq yerində istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında ardıcıl diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmaları fikrini əsaslandırmaqla icra edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

**Mövzu:**

**MİRZƏ İBRAHİMOV – AZAD**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**
- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, həyata baxış, davranış və nitqlərinə görə müqayisə edir (7-1.4.1.).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Hekayədə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.4.3).
- Hekayənin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir (7-1.4.6).
- Hekayə janrında sadə süjetli mətni icra edir (7-2.2.1).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).

**Köməkçi vasitələr:** Mirzə İbrahimovun əsərlərindən nümunələr. “Azad” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Araşdırma. Təhlil.** Əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, nəzəri anlayışların araşdırılması.

**2. Yaradıcı iş.** Müstəqil işlənən hekayə ilə bağlı fikir mübadiləsinin aparılması, işin davam etdirilməsi.

**3. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların təhlili, nəzəri anlayışların araşdırılması üzrə işin təşkili həyata keçirilir. Müstəqil yazılan hekayə ilə bağlı fikir mübadiləsi aparılır və iş davam etdirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, əsərin məzmununun əhatəli öyrənilməsi onun araşdırılması, təhlili istiqamətində işin aparılmasına imkan verir. Bunun səmərəli təşkili isə əsərin bütövlükdə dəyərləndirilməsinə və əsaslandırılmış nəticənin çıxarılmasına səbəb olur.

**Müəllim üçün əlavə məlumat.** *Dərsdə obrazların təhlili əhəmiyyətli yer tutsa da, əsərin bir sıra komponentlərinin araşdırılması vacib vəzifə kimi qarşıda durur. Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərin dəqiqləşdirilməsi, bədiiliyi təmin edən vasitələrin üzərində iş, süjet xəttinin mərhələləri üçün səciyyəvi cəhətlərin nümunələrlə aydınlaşdırılması, mətləblərə əsaslanmaqla ideyanın şərhi diqqət mərkəzində saxlanır.*

*Azad və Fərda obrazlarının müqayisəli təhlili şagirdlərin xüsusi maraq göstərdikləri tapşırıqlardandır. Onların xarakterləri, həyata baxışları, davranışları və s. müqayisəli səciyyələndirmədə ön plana çəkilir. Müqayisəyə cəlb olunan bütün cəhətlər əsərdən seçilmiş nümunələrlə əsaslandırılır. Müqayisənin sonunda ümumiləşdirmənin aparılması, nəticənin çıxarılması aparılmış işin səmərəliliyini təsdiq edir.*

Araşdırma, təhlil üçün təklif edilmiş tapşırığın əksər bəndləri üçün tövsiyələrin əlavə edilməsi şagirdlərin səmərəli işləmələrinə təsir edir. Məsələn, tapşırığın bəndlərindən biri və onun yerinə yetirilməsi üçün tövsiyələr belə ifadə edilmişdir:

- Azad obrazını necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə alın:
  – taleyi, davranışı barədə bildiklərinizi yada salın;
  – hiss, həyəcan və düşündükləri barədə öyrəndiklərinizi xatırlayın;
  – ölüm ayağında danışdıqlarına, vəsiyyətinə münasibətinizi dəqiqləşdirin.

Tövsiyələrin bir əhəmiyyəti də əsərin məzmununun incəliklərinə qədər bir daha xatırlanmasına, ona indi fərqli baxımdan dəyər verilməsinə imkan yaratmasıdır. Oxucu-məktəbli Azad haqqında Fərdanın dediklərindən məlumat qazanmış olur. Atasının üzünü görməyən, fərəhsiz uşaq ömrü yaşayan, kiçik yaşlarından ağır əməyə qatlaşan Azad həssas bir gəncdir. Həmvətənləri – minlərlə gənclər kimi onun da taleyi uğursuz olur: təhsil ala bilmir, ehtiyac içində yaşayır. Tərbiyəsi, mədəni davranışı ilə diqqəti cəlb edən, məktəb yoldaşlarından fərqlənən Azadı oxucu əsərin sonunda – o, ölüm ayağında olanda daha dərindən tanıyır. Vətənini, xalqını dərin məhəbbətlə sevən bu gənc zəngin hiss, dərin düşüncə sahibidir. O, azadlığı hər şeydən uca tutur, canını bu yolda fəda etməkdən çəkinmir.

Tapşırıqda əks etdirilmiş tövsiyələr Fərda obrazının əhatəli təhlilinə səbəb olur. Bu obrazın xarakteri, mənəvi aləmi, taleyi barədə aydın təsəvvür qazanan şagirdlər növbəti tapşırığı yerinə yetirməkdə ciddi çətinlik çəkmirlər.

- Azad və Fərda obrazlarının oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə çalışın.

Obrazların müqayisəli təhlili onlar ayrılıqda səciyyələndirilərkən sezilməyən cəhətlərin aşkara çıxarılmasına və dəyərləndirilməsinə imkan yaradır. Müqayisəli səciyyələndirmə üçün dərslikdə təklif edilmiş əsaslar müəllimin məqsədindən asılı olaraq artırıla bilər. Başqa sözlə, müqayisə cədvəlində əks etdirilmiş əsaslara (xarakterlərindəki başlıca cəhətlər, həyata baxışları, davranış və nitqləri) əlavələr (doğma yurdalarına, xalqa, əməyə münasibətləri və s.) edilə bilər. Müqayisə üçün müəyyənləşdirilmiş bütün əsaslar üzrə bədii əsərdən nümunələrin seçilməsi mümkün və vacibdir.

Hekayənin süjet xətti ilə əlaqədar təklif edilmiş tapşırıq ciddi düşünməyi, arşdırma aparmağı, müstəqil fikir söyləməyi tələb edir.

- Hekayədə süjetin mərhələləri üçün səciyyəvi olan cəhətləri cədvəldə qısaca qeyd edin.

| Bədii müqəddimə | düyün | zirvə | düyünün açılması | final |
|---|---|---|---|---|
| | | | | |

Tapşırıq əsərin ideya məzmunu barədə aydın təsəvvür olmadan yerinə yetirilə bilməz. Deməli, şagirdlər əsərlə bağlı öyrəndiklərini yaddaşlarında bir daha dirçəltməli olurlar. Onlar "süjet" anlayışı ilə əvvəlki siniflərdə tanış olub praktik bacarıqlara yiyələnsələr də, müəyyən izaha ehtiyac duya bilərlər. Bunu müəllim şagirdlərin fərdi müraciətləri əsasında yerinə yetirir. Yazılı qeydlərin aparılmasının vacib olduğu şagirdlərə xatırladılır. Tapşırığı fərdi olaraq yerinə yetirən şagirdlərin cütlük şəklində fikir

Layihə

mübadiləsi aparmalarına vaxt ayrılır. Məhz bundan sonra yazılı qeydlərin əsasında şifahi təqdimatların dinlənilməsi və müzakirəsi gerçəkləşdirilir.

Hekayənin əsas ideyasının şərh edilməsi üzrə işin əməkaşlıq şəraitində yerinə yetirilməsi məqsədəuyğundur. Hansı iş formasının tətbiqindən asılı olmayaraq şagirdlər ilk növbədə əsərdəki mühüm mətləbləri – fikirləri, aralarındakı əlaqələri, onlar üçün ümumi olan cəhətləri xatırlamalı, nəticə çıxarmalıdırlar. Dərslikdə ideya ilə bağlı təklif edilmiş variantlar şagirdləri düşünməyə yönəldir. Həmin variantlar həmçinin şagirdlərin fərqli fikir söyləmələrinə, orijinal mövqelərini ortaya qoymalarına istiqamət verir.

Vaxtdan qənaətlə istifadə olunması dərslikdəki “Yaradıcı iş” başlıqlı tapşırığın yerinə yetirilməsinə imkan yaradır.

1. Üzərində işlədiyiniz hekayə ilə bağlı ehtiyac duyduğunuz məsələlər üzrə fikir mübadiləsi aparın.

2. Hekayənin yazılması ilə bağlı işinizi davam etdirin.

İlk növbədə şagirdlərin dərsə qədər icra etdikləri işlə bağlı təqdimatları dinlənilir. Hesabat xarakterli təqdimatlar fikir mübadiləsi əsasında müzakirə edilir, yaranan suallara aydınlıq gətirilir. Şagirdlər yazılarından parçalar oxuyur, məzmun, dil-üslub xüsusiyyətləri ilə bağlı səsləndirilən fikirləri dinləyir, nəticə çıxarırlar.

İşin asudə vaxtda davam etdirilməsi xatırladılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları xarakter, həyata baxış, davranış və nitqlərinə görə nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas süjet xəttinin mərhələlərini nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin ideyasını ondakı mühüm mətləblərdən nümunələr göstərməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə janrında sadə süjetli mətni müvafiq dil xüsusiyyətlərinə əməl etməklə icra edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında və məzmuna uyğun işlədir. | | |

Layihə

# BİRİNCİ BÖLMƏ ÜZRƏ İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə "Xəzinəqaya əfsanəsi" əsəri üzrə aparıla bilər.*

Xəzinəqaya əfsanəsi

Bir zalım şah varmış. Bu şahın zülmü ərşə dirənibmiş. Onun xəzinəsində qızıl, gümüş, cəvahirat ildən-ilə artdıqca ölkə xarabazarlığa çevrilirmiş. Kotan tutmalı, əkin əkməli olan əllər qılınc, nizə, qalxan tuturmuş.

Şah bir gün yenə də şeypurları səsləndirdi. Ən ucqar kəndlərə də adamlarını göndərib yenicə ərsəyə gəlmiş cavanları səfərbərliyə almağı tapşırdı. Ordugahlar quruldu, döyüşə hazırlıq işləri görülməyə başlandı.

Qoca bir qarının bircə nəvəsini də zorla düşərgəyə gətirib şahın döyüşçüləri arasına qatırlar. Atalar "dövlətdə dəvə, övladda nəvə" deyiblər. Qarı nəvə toyu görməmiş dünyadan köçmək istəmirdi. Toy tədarükü görürdü. O, çox çalışır ki, nəvəsini dava-şavadan qurtarsın, bir şey çıxmır. Odur ki üz tutub şahın çadır qurub oturduğu yerə gedir. Keşikçilər qarını şahın yanına buraxmaq istəmirlər.

Qarı yalvar-yaxar eləyir. Onun səsi şahın qulağına çatır. Şah deyir:

– Qarını mənim yanıma gətirin.

Keşikçilər qarını şahın yanına gətirirlər. Şah bir ayağı burda, biri gorda olan qarının istəyini bilib qəzəblənir:

– Bəxtin kəsib. Səfər üstəyəm, istəmirəm, səfər üstündə əlimi sənin qanına batırım. Məşhur pəhləvanları, ordular basan, ölkələr tutan sərkərdələri bir həmlədə qanına qəltan edirəm. Mənə dua et, uğur dilə ki, səfərdən əlidolu qayıdım, səni bağışlayım.

Qarı dedi:

– Qibleyi-aləm, mən bağışlanmağımı istəmirəm. Mənə toyuna hazırlaşdığım nəvəm lazımdır. Onu zorla döyüşçülərinin sırasına qatmısan. Mən qarıya yazığın gəlsin. Ata, qardaş, oğul, qız dağı görmüş sinəmə nəvə dağı çəkmə.

Şah güldü:

– Qarı, bu cın-cındırınlamı toy tədarükü görürsən? Sən mənə minnətdar olmalısan ki, nəvəni döyüşə aparıram. Nəvən fərasətli olsa, hünər göstərsə, çapıb-talayıb sərvət yığar. Geri qayıdandan sonra o sərvətlə özünə toy elər.

– Şah sağ olsun, nahaq qan bahasına əldə edilmiş var-dövlət nə mənə, nə də mənim gəlinimə lazımdır. Belə sərvət heç kimə ağ gün gətirməz. Gəl qayıt bu yoldan. Axıtdığın qanlar, haqsız axan göz yaşları selə dönüb bir gün səni yer üzündən silər.

Qarının sözlərini eşitcək şahın halı dəyişdi. Hirsindən əlləri titrədi, gözləri hədəqədən çıxdı. Vəzir, vəkil, adlı-sanlı sərkərdələr onun sözünün qabağında söz deməyə cürət etmirdilər. İndi yoxsul bir qarı ona ağıl öyrədirdi, özü də harada. Sərkərdələrin, əyanların yanında. Şah var gücüylə çığırdı:

– Cəllad, bu qarını bir qatırın quyruğuna bağla!

Qarı nə əzab-əziyyətdən, nə də ölümdən qorxdu. Səsini qaldırıb dedi:

– Şah, ulu babaların da sənin kimi qəddarlıq elədiyindən yadellilər yurduna hücum çəkəndə qoşunun sayı düşməndən çox olsa da, basıldı. Babanla atan vətəndən didərgin düşüb qürbətdə öldü. Sən də kimsəsiz bir gədə kimi dilənçi kökündə yaşayırdın. Yadellilərə nifrət vətən övladlarına ulu babanın qəddarlığını unutdurdu, düşməni qovmaq üçün elin hər yerində dəstələr düzəltdilər. Ağsaqqalların məsləhətiylə atam gedib səni yad ölkədən gətirdi. Hamının qarşısında and içdin ki, ağsaqqallarının məsləhətiylə oturub-duracaqsan. El ayağa qalxdı, yadelliləri qovdu. Amma sən verdiyin vədləri unutdun. Şahlıq taxtında yerini bərkidəndən sonra döyüşlərə hazırlaşdın. Xalqa yalan danışdın, öldürülmüş qardaşlarımızın, əsir aparılmış ana-bacılarımızın qisasını almağa getdiyini söylədin. Döyüşlərdə ölən igidlərin qanı bahasına xəzinələr, torpaqlar ələ keçirdin, qan tökməkdən, ölkələr talamaqdan doymadın.

Qarı qəddarlaşmış şahı heç cür qarşıdakı döyüşdən çəkindirə bilmədi. Üz tutdu dağlara. Ulu Tanrıya yalvardı ki, şahın bu səfərinə imkan verməsin. Onun ləl-cəvahiratını, qızıl-gümüş xəzinəsini daşa-torpağa çevirsin.

Göy guruldadı, şimşək çaxdı, aləm bir-birinə qarışdı. Şah qoşuna bu uğursuz yerdən uzaqlaşmağı əmr elədi. Xəzinəni yükləmək istəyəndə gördülər ki, cəvahirat, qızıl – hamısı daşlara dönüb.

Həmin gündən bu yerlərə "Xəzinəqaya" deyilməyə başladı.

Layihə

# QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əfsanə sizdə hansı təəssürat yaratdı? Fikrinizi bir neçə cümlə ilə yazın.

___

2. Əfsanədə işlənmiş “bəxtin kəsib”, “qanı bahasına”, “dövlətdə dəvə, övladda nəvə” ifadələrinin mənasını qısaca yazın.

___

3. Fikirlərdən biri doğrudur.

A) Şah öz ölkəsini yadellilərin hücumlarından qorumaq üçün müharibələrdən əl çəkmirdi.
B) Ulu babalarından fərqli olaraq şah mərhəmətsiz və qəddar idi.
C) Məşhur pəhləvanları, sərkərdələri bir həmlədə qanına qəltan edən şah ölkəsinin cavanlarına qıymır, öz ağlı, gücü, qüvvəti ilə orduları məğlub edirdi.
D) Şah qarının sözlərindən qəzəblənsə də, rəhmi gəldiyi üçün onu öldürmədi.
E) Doğmalarını itirmiş qarı nəvəsinin döyüşə aparılmasını istəmirdi.

4. Cədvəlin boş xanalarını uyğun fikirlərlə tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| Qarı şaha əyanların, sərkərdələrin yanında nəsihət verir. | |
| | Qoşununun sayı düşmən qoşunundan çox olsa da, şahın ulu babası yadellilərlə müharibədə basılır. |
| Yadellilərə nifrət xalqa şahın qəddarlığını unutdurur. | |
| | Şahın qızıl-gümüş dolu xəzinəsi daşa dönür. |

5. Əsərdə konflikt kimlər, hansı qüvvələr arasında baş verir? Fikrinizi qısaca yazın.

. ___

___

6. Əfsanə hansı mövzudadır?

___

___

7. Əsərdəki obrazlarla bağlı doğru fikirləri müəyyən edin.

| Qarı | Padşah |
|---|---|
| 1. Atası padşah olmuşdur. | 3. Ata-babasını itirib dilənçi kökünə düşmüşdü. |
| 2. Müdrik və cəsarətlidir. | 4. Nahaq qurbanlar bahasına əldə etdiyi xəzinə ona qismət olmur. |
| 3. Padşahı doğru yola çəkmək istəyir, ona nəsihətamiz sözlər söyləyir. | 5. Qarının nəvəsinin güzəranının yaxşılaşması üçün çalışır. |

8. Əsərdəki ən gərgin, ən həyəcanlı məqamı müəyyənləşdirin. Nə üçün belə düşündüyünüzün səbəbini izah edin.

9. Cədvəldəki fikirlərlə tanış olun. Hansı fikri əsərin əsas ideyası hesab etmək olar? Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| S. | Fikirlərdən hansı ideya üçün uyğun sayıla bilər? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1. | Zülm ilə əldə edilən sərvətdən xeyir gəlməz. | | |
| 3. | Ana və nənələr övlad yolunda ölümə gedər. | | |
| 5. | Zülmün axırı olmaz. | | |



Layihə

10. Dostunuzu (həmyaşıdınızı) "Xəzinəqaya" əfsanəsini oxumağın faydalı olduğuna inandırmağa çalışın. Bunun üçün obrazlı söz və ifadələrdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə bir neçə cümlədən ibarət mətn yazın.

**Mövzu:**

**MÜHAKİMƏ XARAKTERLİ ESSENİ NECƏ YAZMALI –**

**1 saat**

**Təlim məqsədləri**
- Yazı üçün sadə plan tərtibi üzrə çalışmalar icra edir (7-2.2.2).
- Mühakimə xarakterli essedə şəxsi hiss və düşüncələrinin əhatəli ifadəsinə diqqət edir (7-2.2.7).
- Mühakimə xarakterli essedə hiss və düşüncələrini ifadə edən qənaətlərini əsaslandırmağa diqqət edir (7-2.2.7)

**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.

**Dərsin qısa planı:**

**1. Oxu. Anlama.** Mühakimə xarakterli esse ilə bağlı mətnin oxunması.
**2. Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.
**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin möhkəmləndirilməsi və tətbiqi üzrə işin təşkili.
**4. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Mühakimə xarakterli esse ilə bağlı mətnin oxunması, məzmununun qavranılma səviyyəsinin yoxlanması, möhkəmləndirmə və tətbiq üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdəki "Esseni necə yazmalı" mətnində mühakimə xarakterli esse barədə ayrıca danışılmışdır. Mətnin əvvəlində ədəbi mövzuda esse ilə mühakimə xarakterli essenin oxşar cəhətləri barədə məlumat verilmişdir. Deməli, mətndə mühakimə xarakterli esse ilə bağlı bütün fikirlərlə tanışlıq vacibdir.*

Mətnin səssiz oxusunun təşkili məqsədəuyğundur. Oxu prosesində şagirdlərin fikir mübadiləsi aparmasına imkan yaradılır. Ehtiyac duyan şagirdlərə fərdi olaraq istiqamət verilir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra ilkin qavrama səviyyəsi müsahibə ilə aşkara çıxarılır. Bu məqsədlə təqdimatların dinlənilməsi və müzakirə edilməsi də həyata keçirilə bilər. Növbəti iş mətnin hansı səviyyədə qavranılmasından asılı olaraq təşkil edilir. Bütün hallarda mətnə yenidən müraciət olunmasına ehtiyac yaranır. Bunun üçün müəllim qavrama səviyyəsini əsas götürür. Şagirdlərə fərqli tələbləri əks etdirən suallar təklif etmək olar. Aşağıdakı suallardan istifadə etmək mümkündür.

– Ədəbi mövzuda esse ilə mühakimə xarakterli essenin oxşar və fərqli cəhətləri hansılardır?
– Mühakimə xarakterli esse daha çox hansı mövzuda yazılır?
– Mühakimə xarakterli essenin özünəməxsusluğunu necə izah edərsiniz?
– Mühakimə xarakterli essenin hazırlanması hansı mərhələlər üzrə həyata keçirilir?
– Yazıya hazırlıq mərhələsində hansı işlər icra olunur?
– Yazının yerinə yetirilməsi mərhələsi üçün səciyyəvi cəhətlər hansılardır?
– Yazının müzakirəsi və qiymətləndirilməsi mərhələsində hansı işlər yerinə yetirilir?

Cavabların müsahibənin aparılması ilə dəyərləndirilməsi vaxta qənaət baxımından səmərəlidir. Mənimsənilmiş biliyin möhkəmləndirilməsi və ilkin tətbiqinə nail olunması üçün vaxt ayrılır. Şagirdlərin fəal iştirakı ilə mövzu müəyyənləşdirilir: İnsanın rifahı üçün təbiətə hər cür müdaxilə mümkündür.

Təbiət mövzusunda öyrənilmiş əsərlər xatırladılır. Təbiətin insan həyatında rolu, bir çox hallarda insan qayığısına möhtac olması barədə bədii və incəsənət əsərləri xatırladılır. Təbiətə laqeyd münasibətin, təbiətə qəsd edilməsinin nəticələri barədəki həyati faktlar üzərində dayanılır. Mövzu ilə bağlı təsəvvürün konkretləşməsi üçün aşağıdakı suallar əsasında müsahibə aparılır:

Ləyihə

– Təbiət geniş anlayışdır. Bu anlayış özünə nələri daxil edir?
– Təbiət hadisələri dedikdə nələri başa düşürsünüz?
– Bu hadisələrdən hansılar insan iradəsindən asılı deyildir?
– Təbiət hadisələrindən hansılarını insan özünə ram edə bilir?
– İnsan təbiətdən öz məqsədləri üçün hansı hallarda istifadə edə bilər?
– İnsanın hansı hallarda təbiətə müdaxilə etməsi yolverilməzdir?
– İnsanın təbiətə yersiz müdaxiləsi hansı nəticələrə səbəb ola bilər?

Esse üçün plan tərtibi həmişə izah və aydınlaşdırma ilə müşayiət olunur. Bu işi şagirdlərin müstəqil icra etməsi ciddi hazırlıq yolu keçilməsini tələb edir. Deməli, zaman gərəkir. Elə buna görə də dərsdə plan tərtibinə şagirdlərin cəlb edilməsi məqsədəuyğundur. Artıq onlara məlumdur ki, mühakimə xarakterli essenin kompozisiyasında sərbəstlik olur. Onlar giriş, əsas hissə, nəticə kimi bölgünün esse üçün şərti xarakterdə olduğu barədə məlumatlıdırlar. Müəllim əlavə edir ki, essedə mövcud olan sərbəstlik mövzu barədə aydın təsəvvürün yaradılmasına mane olmamalıdır. Məsələn, icra olunacaq mühakimə xarakterli essedə təbiət, insanla təbiətin əlaqəsi, təbiətə insan qayğısı, insan həyatında təbiətin əvəzedilməz rolu, təbiətə yersiz müdaxilənin nəticələri və s. öz əksini tapmalıdır. Deməli, şagirdlər esseyə necə başlayacaqları, əsas fikirlərini hansı məqamda və necə ifadə edəcəklərini, gəldikləri nəticəni nə cür ifadə edəcəkləri barədə əvvəlcədən müəyyən qənaətdə olmalıdırlar. Bütün bunların hər bir şagirdin yazısında fərqli şəkildə özünü göstərəcəyini də unutmaq olmaz. İş prosesində yazının məzmununda və quruluşunda dəyişikliyin olmasına isə təbii baxmaq lazımdır.

Şagirdlər müəllimin təklifinə uyğun olaraq yazının başlanğıcını, eləcə də müsahibədə xatırladılmış məsələlərdən birini, yaxud ikisini ("Təbiət" anlayışı özünə nələri daxil edir? Təbiət hadisələri dedikdə nələri başa düşürsünüz?) əhatə etməklə işləyirlər. Buna ayrılan vaxt başa çatdıqdan sonra nümunələrin oxunması həyata keçirilir. Şagirdlərin hiss və düşüncələrini necə ifadə etmələri, qənaətlərini necə əsaslandırdıqları müzakirə obyekti olur.

Dil xüsusiyyətlərinin nəzərə alınması ilə bağlı fikir mübadiləsinin aparılmasına diqqət yetirilir. Mənası yeni aydınlaşdırılmış sözlərdən, obrazlı ifadələrdən, təsvir-ifadə vasitələrindən necə istifadə olunacağı ilə bağlı praktik yönümlü iş aparılır. Buna çox vaxt sərf edilmir, bir neçə cümlənin yazılması və onların müzakirəsi kifayətdir.

Hazırlanmış işin davam etdirilməsi, son variantın yazılması, düzəlişlərin aparılması növbəti dərsdə həyata keçirilir. Müsahibədə əhatə olunmuş suallarla bağlı asudə vaxtlarında araşdırma aparmağın vacib olduğu onlara xatırladılır.

Bu dərs üçün müəyyənləşdirilmiş standartların əsasında qiymətləndirmə aparılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Çalışmalar yerinə yetirməklə nümunə əsasında sadə plan tərtib edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Mühakimə xarakterli essedə əsaslandırılmış şəxsi hiss və düşüncələrinə əhatəli, ardıcıl yer verir. | Yazı | Dərslik, iş vərəqləri |
| Mühakimə xarakterli essedə hiss və düşüncələrini ifadə edən qənaətlərini nümunələrlə əsaslandırmağa diqqət edir. | Yazı | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**MÜHAKİMƏ XARAKTERLİ ESSENİN YAZILMASI –**

**1 saat**

**Təlim məqsədləri**

- Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).
- Mənasını yeni öyrəndiyi sözlərdən fərqli üslubi məqama uyğun istifadə edir (7-2.2.4).
- Mühakimə xarakterli essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir (7.2.2.5)
- Mühakimə xarakterli essedə şəxsi hiss və düşüncələrinin əhatəli ifadəsinə diqqət edir (7-2.2.7).

**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.

**Dərsin qısa planı**

1. Yazı ilə bağlı ilkin qeydlərin nəzərdən keçirilməsi.
2. Yazının yerinə yetirilməsi.
3. Yazının oxunması, düzəlişlərin edilməsi.
4. Yazının müzakirəsi və özünüqiymətləndirmə.
5. Formativ qiymətləndirmə.

**Dərsin məzmunu.** Mühakimə xarakterli essenin hazırlanması, müzakirəsi və özünüqiymətləndirmə üzrə işin təşkili.

Esse ilə bağlı birinci dərsdə yerinə yetirilmiş işlər nəzərdən keçirilir, səsləndirilmiş fikirlər xatırladılır və onlara əlavələr edilir. Səciyyəvi qüsurlar, bunların başvermə səbəbləri izah olunur. Yalnız bundan sonra essenin davamı yazılır.

Şagirdlərə artıq məlumdur ki, birinci dərsdə müsahibədə əhatə olunan suallar onlar üçün plan timsalındadır:

– Təbiət geniş anlayışdır. Bu anlayış özünə nələri daxil edir?
– Təbiət hadisələri dedikdə nələri başa düşürsünüz?
– Bu hadisələrdən hansılar insan iradəsindən asılı deyildir?
– Təbiət hadisələrindən hansılarını insan özünə ram edə bilir?
– İnsan təbiətdən öz məqsədləri üçün hansı hallarda istifadə edə bilər?
– İnsanın hansı hallarda təbiətə müdaxilə etməsi yolverilməzdir?
– İnsanın təbiətə yersiz müdaxiləsi hansı nəticələrə səbəb ola bilər?

Suallarla bağlı dərsə qədər araşdırma aparan şagirdlər işin icrasında ciddi çətinlik çəkmirlər. Digər fənlərdən, müxtəlif mənbələrdən əldə etdikləri bilik və məlumat şagirdlərin təbiət haqqında, insanla təbiətin bağlılığı barədə təsəvvürlərini zənginləşdirir. Lakin hazırlanan esselər təkcə məzmunlarına görə yox, həm də quruluşlarına, belə də demək olar, kompozisiyalarına görə fərqlənir. Birbaşa mətləbə keçən yazı sahibləri ilk növbədə insanın təbiətə öz rifahı üçün yerli-yersiz müdaxilə etməsini diqqətə çatdırır. Təbiət belə insanlar üçün yalnız ehtiyacların ödənilməsi üçün bir mənbədir, həm də tükənməzdir. Bu, nəticədə təbiətə amansız münasibətin yaranmasına gətirib çıxarır. Meşələrin qırılması, uca dağların yolların çəkilməsinə qurban verilməsi, təbii göllərin qurudulması, təbiətin nadir incilərinin – heyvanların, quşların ovlanaraq nəslinin kəsilməsi və s. acı nəticələr verir. Bu qəbildən yazılarda əks dəlillərə də cavab verilir. Lazım olan hər şeyi təbiətdən qopartmağı doğru sayanların fikrincə, insan bitib-tükənməyən təbiətdən, ona məxsus olan hər şeydən istifadə edə bilər. Çünki təbiət elə məhz bunun üçündür, tükədilən hər şey yeniləri ilə əvəz olunacaq. Buna verilən cavab daha məntiqlidir: təbiət də canlı kimidir, ona dəyən yaralar heç də asanlıqla sağalmır. Meşələrin, qurudulmuş su mənbələrinin, məhv edilmiş yaşıllıqların və s. bərpası çox vaxt mümkün olmur. Əksər hallarda isə insanlar bunun üçün "vaxt tapmırlar"...

Belə yazılarda giriş bu parçadan sonra verilir. Şərti olaraq giriş adlandırılan bu hissədə "təbiət" anlayışının mahiyyəti, onun zənginliyi, nemətləri sadalanır, bütün bunlar əsrlərin yadigarı kimi dəyərləndirilir. Yazıda həmçinin təbiət hadisələri xatırladılır. Bu hadisələrin çoxunun insan iradəsindən kənar olduğu və təkcə insanlara deyil, təbiətin özünə də ciddi zərər verdiyi açıqlanır. Tufan, daşqınlar,

Layihə

su hövzələrinin quruması, meşə yanğınları və s. ağır nəticələr verir, dəymiş zərərin aradan qaldırılması baha başa gəlir, bəzən isə heç mümkün olmur.

İnsanlar zaman ötdükcə elmin köməyi ilə təbiətdən, təbiət hadisələrindən fayda götürməyin yollarını müəyyənləşdirməyə nail olmuşlar. Təbiət indi böyük enerji mənbəyidir. Nəhəng tikinti-quraşdırma işləri təbiətin təmənnasız verdiyi materialların hesabına icra olunur. Təbiətdən elmi əsaslarla istifadə edilməsi hər iki tərəf üçün sərfəlidir. İnsanlar fayda götürdükləri kimi, təbiət də yenilənir, imkanlarını genişləndirir...

Təbiətin insan qayğısına həmişə ehtiyacı var. Bu, təkcə heyvanlar, quşlar aləminə aid deyil. Meşə də, bağ da, çay da, dağ da, təpə də, yaşıllıq da... gözlə görünən nə varsa, zaman-zaman insan qayğısına möhtac olur. Bu qayğını onlardan əsirgəmək olmaz. İnsan qayğısını görən təbiət daha səxavətli olur...

Müəllim şagirdlərin mənası yeni öyrənilmiş kəlmələrdən, obrazlı söz, təsvir və ifadə vasitələrindən yazıda necə istifadə etdikləri barədə iş prosesində təsəvvür qazanır. Bu ona elə məqamındaca zəruri kömək göstərməsinə imkan yaradır.

Şagirdlər yazını tamamladıqdan sonra onu oxumağın, üzərində düşünməyin vacib olduğunu bilirlər. Əslində, şagirdlər mətni bir neçə dəfə oxumağa məcbur olurlar. Oxuda hansı cəhətlərə diqqət yetirməyin lazım olduğunu bilən şagirdlərin oxusu daha səmərəli olur. İlk növbədə məzmunun dolğun və aydın olmasına diqqət yetirilir. Ayrı-ayrı faktlarla bağlı şəxsi mövqeyin ifadə olunb-olunmadığı aşkara çıxarılır. İrəli sürülmüş dəlillərin tutarlı olması, əks arqumentlərə münasibətin nə dərəcədə məntiqli ifadə edilməsi yoxlanılır. Eləcə də yazının müvafiq dil xüsusiyyətləri əsasında icra edilməsi, obrazlı söz və ifadələrdən istifadə səviyyəsi və s. nəzərdən keçirilir.

Yazının müzakirəsində deyilən fikirlər diqqətlə dinlənilməli, obyektiv olanlar qəbul edilməlidir. Şagirdlərdən hər birinin öz yazısını qiymətləndirməsi vacibdir. Bunun üçün konkret meyarlara istinad edilməsi zəruridir. Bunun üçün aşağıdakı cədvəldə əks etdirilmiş meyarlardan istifadə etmək olar. Lakin müəllimin bu məsələyə yaradıcı yanaşması, sinfin səviyyəsindən çıxış edərək fərqli məzmunda meyarlar hazırlaması da mümkündür.

| Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|
| Mövzu barədə aydın təsəvvür yarada bilmişəm. | | |
| Əsaslandırılmış dəlil, fakt və sübutlardan istifadə etmişəm. | | |
| Fərqli yanaşmaya məxsus dəlillərin əsaslı olmadığını sübut etmişəm. | | |
| Mövzu ilə bağlı hiss və düşüncələrimə geniş yer vermişəm. | | |
| Obrazlı söz və ifadələrdən, təsvir-ifadə vasitələrindən yerində istifadə etmişəm. | | |
| Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin aydınlığına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən ardıcıl istifadə ilə icra edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərdən fərqli üslubi məqama uyğun ardıcıl istifadə edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Mühakimə xarakterli essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib əsaslandırılmış düzəlişlər edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Mühakimə xarakterli essedə şəxsi hiss və düşüncələrinin əhatəli, ardıcıl ifadəsinə diqqət edir. | Yazı | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**RAHİL MƏMMƏD.**

**QƏLƏBƏ MÜJDƏSİ –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Heca vəznli şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (7-1.1.3).
- Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını izah edir (7-1.1.4)
- Heca vəznli şeirlərin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).
- Heca vəznli şeirlərdə mətləblərin əlaqələrini müəyyənləşdirir (7-1.1.7).
- Heca vəznli şeirlərin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir 7-1.1.8).

**Köməkçi vasitələr:** Rahil Məmmədin əsərlərindən nümunələr. "Qələbə müjdəsi" şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Bu başlığın suallarından keçmiş biliklərin canlandırılması, maraqoyatma vasitəsi kimi istifadə etmək olar.
2. **Oxu. Anlama.** Əsərlə ilkin tanışlıq, qavaranılma səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun, məzmunun əhatəli mənimsənilməsinin təmin olunması.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun və nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.
5. **Müzakirə.** Əsərin mövzusunun, vəzn xüsusiyyətlərinin aydınlaşdırılması.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin oxusu, ilkin qavranılma səviyyəsinin aşkara çıxarılması, mənimsəmənin dərinləşdirilməsi, nəticəsinin yoxlanması, möhkəmləndirmənin reallaşdırılması. Nəzəri anlayışların tətbiqi üzrə işin təşkili.

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərslikdəki "Yadasalma" başlıqlı suallara (Qarabağ müharibəsinə həsr olunmuş hansı əsərləri xatırlayırsınız? Qələbənin sizdə yaratdığı hiss və düşüncələri necə ifadə edərsiniz?) nəzər salınır. Sualların əsasında aparılan yığcam müsahibənin sonunda nəticə çıxarılır: Düşmən üzərində qələbədən sonra yazılan bədii əsərlərdə qazanılmış zəfərin yaratdığı sevinc hissləri ifadə olunur. Bu əsərlərin əksəriyyətində qələbədə payı olanların hamısı xatırlanır...

Bədii oxu ustasının ifasında R.Məmmədin "Qələbə müjdəsi" şeirindən iki bənd dinlənilir. Sual formalaşdırılır: Şeirdə zəfər sevincinin ifadəsinə şair necə nail olmuşdur?

Qeyd olunur ki, şeirin əhatəli öyrənilməsi suala əsaslandırılmış cavabın tapılmasına imkan verəcəkdir.

**Oxu. Anlama.** İlk oxunun hansı formada təşkili müəllimin dərsi necə planlaşdırmasından asılıdır. Şeirin məzmunu fərdi oxudan istifadə edilməsinə imkan verir. Bu, vaxta qənaət baxımından da əlverişlidir. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinin vacib olduğu şagirdlərə bir daha xatırladılır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdə təklif edilmiş suallardan da istifadə etməklə ilkin təəssüratlarını bölüşürlər.

– Şeiri oxusu maraqlı oldumu? Nə üçün?
– Şairin hiss və düşüncələri barədə sizdə hansı təəssürat yarandı?
– Şeirdə sizi daha çox təsirləndirən məqamlar hansılar oldu?

Layihə

Dərslikdə təklif edilmiş bu suallar şagirdlərin fəaliyyətinə istiqamət verilməsi baxımından faydalıdır. Lakin onlarla məhdudlaşmaq doğru olmazdı. Müəllimin əlavə suallar verməsi, yaxud şagirdlərin öz cavablarında bu suallardan kənara çıxaraq əsərlə bağlı fərqli məsələlər barədə təəssüratlarını bildirmələri yaradıcı yanaşma kimi dəyərləndirilməlidir.

Şeirdə əksini tapmış başlıca fikirlərin – mətləblərin ilkin oxuda necə qavranılmasının aşkara çıxarılması diqqət mərkəzində saxlanır.

Şagirdlərə dərslikdəki mətnkənarı suallarla tanış olmaq təklif edilir. Onlara cavab hazırlayan şagirdlər dərinləşmiş oxu məqsədilə mətnə yenidən müraciət etməli olurlar. İlkin qavrama səviyyəsinin nəticəsi burada da özünü göstərir: mətnlə işə az vaxt sərf edən şagirdlərlə yanaşı, ikinci oxuya daha çox zaman ayıranlar da olur. Suallar yalnız məzmunla bağlı olmayıb ciddi ümumiləşdirmə tələblərini də əks etdirir.

– Şeirdə müəllifin hiss-həyəcanlarını duya bildinizmi? Bu barədəki fikrinizi nümunələrlə izah edin.

– Əsər müraciət şəklində yazılıb. Müraciət olunanları müəyyənləşdirib ardıcıl olaraq qeyd edin. Onları birləşdirən cəhətləri necə izah edərsiniz?

– "Gözəl Qarabağım, eynin açılsın" misrasında ifadə olunmuş fikri necə başa düşdünüz?

– "Hüsnünü görməyən fidan oğullar, Yazdı tariximə zəfər savaşı" misralarında ifadə olunmuş fikri necə izah edərsiniz?

– Şeirdə Ali Baş Komandan necə xatırlanır?

– Torpaqlarımızın azad edilməsi uğrunda canlarından keçən gənclərimiz şeirdə necə yad edilmişdir?

– Son iki misrada ifadə olunmuş fikri necə izah edərsiniz?

Cavablar təqdimatların dinlənilməsi, eləcə də müsahibənin təşkili ilə müzakirə olunur.

**Öyrəndiklərinizi yoxlayın.** Əsərin bütövlükdə qavranılma səviyyəsi test tapşırıqlarının fərdi yerinə yetirilməsi ilə yoxlanır. Fərqli tipdə olan test tapşırıqları bütövlükdə əsərin ideya məzmunu ilə bağlı olub səbəb-nəticə əlaqələrinin aydınlaşdırılmasını da özündə əks etdirir. Cavab variantlarının hər birinə münasibətin bildirilməsinə imkan yaradılır.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** İlkin oxu prosesində şeirdəki başlıca mətləblərlə bağlı təəssüratların bölüşülməsinə diqqət yetirilmişdir. Aşkara çıxarılan çatışmazlıqların aradan qaldırılmasına dərinləşdirilmiş oxuda səy göstərilmişdir. Yeni tapşırıqda isə əsərdəki mətləblərlə – başlıca fikirlərlə bağlı mənimsənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi vəzifə kimi qarşıya qoyulmuşdur.

Tapşırıqda bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi, tərbiq edilməsi tələbinə də yer verilmişdir.

İşin fərdi olaraq yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Birinci tələbdə əsərdə əksini tapmış mətləblərin əlaqələrinin izah edilməsi nəzərdə tutulmuşdur ki, bu da əsərin mənasının, əsas ideyasının aydınlaşdırılmasında əhəmiyyətli rol oynayır.

**Müzakirə.** Əsərin məzmununun əhatəli öyrənilməsi, xüsusən onda əks olunmuş mətləblər barədə təsəvvürün qazanılması mövzu barədə ilkin qənaətlərin yaranmasına imkan verir. Bunun üçün müzakirənin təşkili məqsədəuyğun hesab edilmişdir. Müzakirədə fərqli fikirlərin olması təbiidir, lakin onların nümunələr göstərilməklə əsaslandırılmasına cəhd edilməsinə diqqət yetirilməlidir.

Müzakirənin digər bir tələbi şeirin vəzn xüsusiyyətləri ilə bağlıdır. Məsələyə geniş yanaşılması nəzərdə tutulmuşdur. Yəni heca vəzninin başlıca xüsusiyyətlərinin, misra, misradaxili bölgü, qafiyə, rədif və s. üzərində dayanılması, şeirdən nümunələr göstərilməklə ətraflı izahı həyata keçirilməlidir.

Müzakirənin uğuru şagirdlərin fəallığından asılıdır. Fikir mübadiləsində daha çox şagirdin iştirak etməsi məsələnin bir tərəfidir. Ondan heç də az olmayan məsələ faydalı fikirlərin ön plana çəkilməsidir.

Layihə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Heca vəznli şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Heca vəznli şeirlərin vəzn xüsusiyyətlərini nümunələr göstərməklə müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Heca vəznli şeirlərdə mətləblərin əlaqələrini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Heca vəznli şeirlərin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**RAHİL MƏMMƏD.**

**QƏLƏBƏ MÜJDƏSİ –**

**3 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.2.1).
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Dəlillərlə əsaslandırılmış təqdimat hazırlayır (7-2.1.2)
- Çıxışında mimika və jestlərdən istifadə edir (7-2.1.3).
- Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).

**Köməkçi vasitələr:** Rahil Məmmədin əsərlərindən nümunələr. “Qələbə müjdəsi” şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Şeirin mövzusunun dəqiqləşdirilməsi, ideyası, eləcə də ədəbi-nəzəri anlayışlar üzrə araşdırma və dəyərləndirmənin həyata keçirilməsi.
2. **Müzakirə.** Vətən müharibəsi qəhrəmanlarına həsr edilmiş müzakirənin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Şeirin mövzusu ilə bağlı qənaətlər dəqiqləşdirilir, müəllifin təsvir etdiklərinə münasibəti, əsərin ideyası aydınlaşdırılır, nəzəri anlayışlarla bağlı mənimsənilənlərin tətbiqi, şifahi nitqin inkişafı üzrə işin təşkili gerçəkləşdirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şeirdə xalqımızın düşmən üzərində tarixi və ədalətli qələbəsi ifadə edilmişdir. Bu zəfərin xalqımız, ölkəmiz üçün əhəmiyyəti, nəticələri yüksək sənətkarlıqla ümumiləşdirilmişdir. Müəllifin mövqeyini, niyyətini necə dəyərləndirmək olar? Bu suala əhatəli araşdırma və təhlil aparmaqla əsaslandırılmış cavab tapmaq mümkündür.

**Müəllim üçün əlavə məlumat.** *Şeirdə müəllifin obrazını təsəvvür etmək çətin deyildir. O öz sevincini milyonların sevinci kimi ifadə etmiş, maraqlı ümumiləşdirmə yolu seçmişdir. Şairin doğma yurdumuza, onun insanlarına, qazanılmış qələbəyə münasibətinin aydınlaşdırılması bütövlükdə əsərin dəyərləndirilməsinə əhəmiyyətli təsir edir. Bunun üçün ayrıca sualın təklif edilməsinin bir səbəbi də budur.*

Ləyihə

Dərslikdə "Araşdırma. Təhlil" başlığı altında verilmiş tapşırıqların hansı formada yerinə yetirilməsinə məktəbdə fərqli yanaşılır. Bu məsələdə ilk növbədə məktəblərdə qazanılmış təcrübənin nəzərə alınması vacibdir. Təbiidir ki, müstəqil, yaradıcı işləməklə bağlı bacarıqlara yiyələnmiş şagirdlər tapşırığın üzərində fərdi işləməkdə ciddi çətinlik çəkmirlər. Hansı iş formasının tətbiqindən asılı olmayaraq işin icrasının müəyyən mərhələsində şagirdlərin əməkdaşlığının təmin edilməsinə yer ayrılmalıdır.

Dərslikdəki tapşırığın hər bəndi üçün metodik tövsiyələrin əlavə edilməsi daha əhatəli araşdırmanın aparılmasına və nəticənin çıxarılmasına səbəb olur. Tapşırığın birinci bəndi və tövsiyələri aşağıdakı məzmundadır.

- Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:
  – şeirin bütün bəndlərinin məzmununu yada salın;
  – bəndlərdə ifadə olunmuş fikirlərin arasındakı oxşarlığı xatırlayın;
  – şeirin bütövlükdə məzmununu əhatə edən əsas fikri müəyyən edin.

Tövsiyələrin tələbləri üzrə düşünən, işləyən şagirdlər ilk dərsdə mövzu ilə bağlı səsləndirilmiş qənaətləri nəzərə almaqla mövqelərini açıqlayırlar. Fikirlərin əlaqələndirilməsi, yekun qənaətin qəbul edilməsi yığcam müzakirənin nəticəsində mümkün olur.

İkinci bənd və ona əlavə edilmiş tövsiyələr belədir.

- Əsərdə müəllifi barədə sizdə hansı təəssürat yarandı? Fikrinizi nümunələrlə əsaslandırın. Tövsiyələrdən faydalanın:
  – doğma yurduna, onun insanlarına münasibəti;
  – işğalçılara münasibəti;
  – qazanılmış qələbənin onda yaratdığı hiss-həyəcan və düşüncələri.

Tövsiyələrin hər biri ilə bağlı əsərdən nümunələrin göstərilməsinə diqqət yetirilir. Bu baxımdan əsərdə zəngin material var, seçilmiş nümunənin daha tutarlı, yerində olması diqqətə çatdırılır. Məsələn, şair bircə misrada ("Əzildi zəhərli ilanın başı!") düşmənə münasibətini uğurla ifadə etməyə nail olmuşdur.

Tapşırığın növbəti bəndi (şeirin eyni mövzuda olan digər əsərlə müqayisə edilməsi) üzrə şagirdlər müəyyən praktik bacarıqlar qazanıblar. Bir daha izah olunur ki, müqayisə üçün səciyyəvi əsasların (cəhətlərin) müəyyənləşdirilməsi vacibdir. Bu bəndin üzərində işin əməkdaşlıq şəraitində – cütlük şəklində təşkil edilməsi faydalı olar.

Müəyyənləşdirilmiş təsvir və ifadə vasitələrinin əsərdə bədiiliyin artmasına verdiyi töhfənin izah edilməsi konkret nümunələrin əsasında həyata keçirilir. Şagirdlər daha maraqlı hesab etdikləri bir, yaxud iki təsvir-ifadə vasitəsinin üzərində dayana bilərlər. Başlıca şərt izahların hansı dərəcədə məntiqli olmasıdır.

Şeirin ideyasının şərh edilməsi üzrə tapşırığın yerinə yetirilməsi şagirdlərdən fəallıq, müstəqil düşüncə, başlıcası isə öyrəndiklərini səfərbərliyə almaq bacarığı tələb edir. Əsərdəki mühüm mətləblərlə, müəllifin mövqeyi ilə bağlı öyrəndiklərini nəzərə alan şagirdlər dərslikdəki variantlardan fərqli variant da səsləndirə bilərlər. Bütün hallarda çıxarılmış nəticənin əsaslandırılmış olmasına diqqət yetirilir.

Tapşırığın bütün bəndləri üzrə təqdimatlar, çıxışlar dinlənilir.

Dərslikdə təklif edilmiş sonuncu iş "Vətən müharibəsi qəhrəmanları" mövzusunda müzakirənin aparılmasıdır. Şagirdlərin mövzu ilə bağlı müəyyən məlumatları olsa da, bununla kifayətlənmək doğru olmazdı. Dərsə bir neçə gün qalmış müzakirəyə hazırlıq işlərinin aparılması vacibdir. İlk növbədə müxtəlif mənbələrdən məlumat toplanmalı, daha vacib hesab edilənlər seçilməli və yazılı təqdimatlar hazırlanmalıdır.

İstər "Araşdırma. Təhlil" tapşırığının nəticələrinin müzakirəsində, istərsə də sonuncu tapşırıqla bağlı təqdimat və çıxışlarda dərs üçün müəyyənləşdirilmiş standartların (7-2.1.2; 7-2.1.3; 7-2.1.6) reallaşma səviyyəsi diqqət mərkəzində saxlanır, zəruri tövsiyələr verilir.

Layihə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını ondakı mətləblərə əsaslanmaqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dəlillərlə əsaslandırılmış təqdimatı məntiqi ardıcıllığı gözləməklə hazırlayır. | | |
| Çıxışında mimika və jestlərdən yerində istifadə edir. | | |
| Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

**Mövzu:**

**RAHİL MƏMMƏD.**

**QƏLƏBƏ MÜJDƏSİ –**

**3 saat**

**Üçüncü saat: TƏTBİQ. MÜZAKİRƏ. YARADICI İŞ**

**Təlim məqsədləri**

- Əlaqələndirimiş fikirlərin əks olunduğu təqdimat hazırlayır (7-2.1.2).
- Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən müqayisə əsasında istifadə edir (7-2.1.5).
- Dialoji nitq şəraitində ritorik suallardan istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).
- Essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir (7-2.2.5).
- Essedə şəxsi hiss və düşüncələrinin əhatəli ifadəsinə diqqət edir (7-2.2.7).

**Köməkçi vasitələr:** Rahil Məmmədin əsərlərindən nümunələr. "Qələbə müjdəsi" şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Essenin yazılması.** Seçmə yolu ilə ədəbi mövzuda, yaxud mühakimə xarakterli essenin yazılması.
2. **İfadəli oxu.** Şeirdən parçanın ifadəli oxusu üzrə işin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Ədəbi mövzuda, yaxud mühakimə xarakterli essenin yazılması, nümunələrin müzakirəsi, ifadəli oxu üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *"Tətbiq. Müzakirə. Yaradıcı iş" ayrıca dərs növü olub mənimsənilmiş bilik və bacarıqların yeni təlim materialı əsasında yoxlanmasına imkan yaradır. Dərsdə şagirdlərin maksimum fəallığı təmin olunur. Meyarlar əsasında özünüqiymətləndirmənin həyata keçirilməsinə diqqət yetirilir.*

*Yaxşı planlaşdırılan, vaxtdan səmərəli istifadə edilən dərsdə dərslikdə təklif edilmiş tapşırıqların hamısını həyata keçirmək mümkün olur. Bunu Bakı şəhərindəki 18, 20 və 31 saylı məktəblərdə keçilən sınaq dərsləri təsdiq edir. Səviyyəcə fərqli olan siniflərdə vaxt qıtlığı yaranarsa, ifadəli oxu ilə bağlı tapşırığın bir qisminin asudə vaxtda icra edilməsini təklif etmək olar. Nəticənin yoxlanması növbəti dərsdə həyata keçirilə bilər.*

Leyla

Dərsdə ilk növbədə essenin yazılması təklif olunmuşdur. Bunun üçün dərslikdə iki mövzu verilmişdir. Bunlardan birincisi ("R.Məmmədin "Qələbə müjdəsi" şeirində zəfər sevincinin ifadəsi") ədəbi mövzuda esse kimi nəzərdə tutulmuşdur. İkinci mövzu ("Qarabağ – şeir, sənət ocağım") mühakimə xarakterli esse kimi müəyyənləşdirilmişdir. Müəllim öz sinfinə fərqli mövzular təqdim edə bilər. Hər iki halda dərsdən bir neçə gün əvvəl mövzuların şagirdlərə elan olunması məqsədəuyğundur.

Yazıya başlamazdan əvvəl şagirdlərin dərslikdəki "Esseni necə yazmalı" mətnini, özünüqiymətləndirmə üçün təklif edilmiş meyarları nəzərdən keçirmələri təmin olunur. Şagirdlər essedə fikrin sərbəst ifadə edildiyini, başqa sözlə, kompozisiya "dağınıqlığını" bilsələr də, bu barədə xatırlatmaya ehtiyac vardır və planın hazırlanmasında bunun nəzərə alınması vacibdir.

Yazının icrası üçün vaxt müəyyənləşdirilir və elan olunur. İş prosesində ehtiyac yaranan məqamlarda şagirdlər müəllimdən istiqamətləndirici kömək alırlar. Yazı tamamlanandan sonra mətnin oxunması, məzmun, dil-üslub və s. baxımından düzəlişlərin aparılması həyata keçirilir. Nümunələrin müzakirəsindən əvvəl meyarlar əsasında özünüqiymətləndirmənin aparılması məqsədəuyğundur.

Müzakirə təqdimatların dinlənilməsi əsasında aparılır. Təqdimatların məzmunu (fikirlərin necə əlaqələndirilməsi), dinləyicilərlə ünsiyyətin necə yaradılması, davamlılığı, hansı vasitələrdən istifadə olunması diqqət mərkəzində saxlanır.

Şeirin ilk iki bəndinin ifadəli oxusunun hazırlanması dərsliyə növbəti tapşırıq kimi daxil edilmişdir. İfadəli oxu ilə bağlı xeyli təcrübə qazanan şagirdlər işi fərdi olaraq yerinə yetirməkdə çətinlik çəkmirlər. Dərslikdə verilmiş nümunə onların daha səmərəli işləmələrinə yardımçı olur. Şagirdlər oxuya hazırlıq işlərini aşağıdakı ardıcıllıqla yerinə yetirirlər:

– nəzərdə tutulmuş iki bəndin oxusunda hansı vəzifəni (ifaçılıq vəzifəsini) yerinə yetirəcəklərsə, müəyyənləşdirib qeyd edirlər (bir variant belə ola bilər: qələbənin yaratdığı fərəh, sevinc hissinin ifadə edilməsi);

– bəndlərin hər birinin oxusunda səsin aldığı çalarları misraların qarşısında yazırlar (məsələn: sevinclə, fərəhlə, təntənəli və s.);

– məntiqi fasilələri (misra daxilində, misra sonunda), məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyənləşdirib müvafiq şərti işarələrlə göstərirlər;

– oxuda tənəffüs məqamlarını (dərindən nəfəslama: Dn, əlavə nəfəsalma: Ən) müəyyən edib mətnin üzərində qeyd edirlər;

– sait və samit səslərin müxtəlif məxrəclərdə təəffüzü üzərində düşünürlər.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra ifaların dinlənilməsi və müzakirəsi həyata keçirilir.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əlaqələndirimiş fikirlərin ardıcıl əks olunduğu təqdimat hazırlayır. | Yazı | Dərslik, iş vərəqləri |
| Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən müqayisə əsasında ardıcıl istifadə edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Dialoji nitq şəraitində ritorik suallardan ardıcıl istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir. | Yazı | Dərslik, iş vərəqləri |
| Essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib məntiqli düzəlişlər edir. | Yazı | İş vərəqləri |
| Mühakimə xarakterli essedə şəxsi hiss və düşüncələrinin əhatəli, ardıcıl ifadəsinə diqqət edir. | Yazı | İş vərəqləri |

Layihə

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

**Mövzu:**

**RAMİZ QUSARÇAYLI.**

**YURD SEVGİSİ –**

**1 saat**

**Təlim məqsədləri**

- Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır (7-1.1.1).
- Şeirdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) müəyyənləşdiririr (7-1.1.2).
- Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7.1.1.3).
- Şeirin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).
- Şeirdə mətləbləri müəyyən edir (7-1.1.7).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.1.8)
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Şeiri məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur (7-1.2.3).
- Çıxışında mimika və jestlərdən istifadə edir (7-2.1.3).

**Köməkçi vasitələr:** Ramiz Qusarçaylının əsərlərindən nümunələr, "Yurd sevgisi" şeirinə aid illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Şeirin oxusu, ilkin təəssüratın bölüşülməsi, məzmuna aid sualların və onlara cavabların yazılması.
**2. Öyrəndiklərinizi yoxlayın.** Sualların və cavablarının müzakirəsi.
**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunun, nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi və tətbiqi üzrə iş.
**4. Müzakirə.** Şeirin mövzu, ideya və bədii xüsusiyyətlərinin dəyərləndirilməsi.
**5. İfadəli oxu.** Şeirdən parçanın ifadəli oxusu.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin oxusu, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, mətnə aid sualların yazılması və onlara cavabların hazırlanması, öyrənilənlərin dərinləşdirilməsi, məzmunun, nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi, ifadəli oxu üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** Məlumdur ki, "*Tətbiq.Ümumiləşdirmə" dərslərində icra olunan işlərin həcmi çox olur. Elə buna görə də reallaşdırılması nəzərdə tutulan standartlar da az olmur. Lakin yerinə yetirilməsi nəzərdə tutulanlarla bağlı zəruri bacarıqların artıq mənimsənildiyini də unutmaq olmaz. Dərsdə icra olunacaq işləri əvvəlcədən yaxşı planlaşdıran müəllim şagirdlərinin fəallıq və müstəqilliyini səmərəli təşkil etməklə gözlənilən nəticəni əldə edə bilir.*

**Oxu. Anlama.**

Bu başlığın ilk tapşırığında şeirin oxusu təklif olunur. Oxunun hansı formada təşkili müəllimin məqsədindən asılıdır. Oxucu-şagird şeirin ilk oxusundan zəngin təəssüratla ayrılır. Yüksək sənətkarlıqla qələmə alınan şeirdə vətənimizin müxtəlif bölgələri özünəməxsus gözəlliyi ilə diqqətə çatdırılmışdır. Şeir ölkəmizin təbii gözəlliyinin təsviri ilə məhdudlaşmır, onun tarixi, gələcəyi barədə ustalıqla ifadə edilmiş fikirləri də əks etdirir. Yadda qalan, hiss və düşüncəni oyadan misralar şagirdləri diqqətli olmağa sövq edir.

Layihə

İlkin təəssüratların bölüşülməsində şagirdlər öz mövqelərini sərbəst ifadə edir, fikir mübadiləsi aparır, bir növ "ucadan fikirləşirlər". Məzmuna aid ikidən az olmayaraq sual yazmaq, onların cavablarını hazırlamaq şagirdləri cəlb edən fəaliyyətdir. Bu tapşırıq onların mətni daha diqqətlə nəzərdən keçirmələrinə səbəb olur.

**Öyrəndiklərinizi yoxlayın.**

Şagirdlər müstəqil yazdıqları suallar və onlara hazırladıqları cavabları səsləndirirlər. Təqdimatların dinlənilməsində həm sualların necə tərtib edilməsinə, həm də cavabların səviyyəsinə diqqət yetirilir. Çıxışların hər birinə münasibət bildirilməsinə, müzakirə şəraitinin yaradılmasına səy göstərilir.

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

Bu başlıq altında verilmiş tapşırıqların yerinə yetirilməsi üçün fərqli iş formalarından istifadə etmək mümkündür. Dərslikdə kiçik qruplarda işin təşkili təklif edilmişdir. Qruplar üçün müəyyənləşdirilmiş tapşırıqlar, əsasən, şeirin məzmunu ilə bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi məqsədini güdür. Tapşırıqlara tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin və onların növlərinin müəyyənləşdirilməsi, şeirdə heca vəzninə məxsus xüsusiyyətlərin izah edilməsi kimi tələblər də daxil edilmişdir.

Tapşırıqların cavabları yazılı qeydlər əsasında hazırlanır. Bu, şagirdlərin məsuliyyətini xeyli artırır, diqqətli olmalarını təmin edir. Tapşırıqların rəngarəngliyi də onların işə maraq göstərimələrinə səbəb olur. Ayrı-ayrı bəndlərdə əksini tapmış mətləblərin aydınlaşdırılması və onlarla bağlı qeydlərin edilməsi əsərin ideya məzmununun başa düşülməsinə ciddi təsir edir.

Kiçik qrupların sözçüləri hazırlanmış təqdimatları səsləndirirlər. Fəal dinləmə, çıxış edənlərə sualların verilməsi və fikir mübadiləsinin aparılması qrupların gəldiyi nəticələrlə bağlı təsəvvürün qazanılmasına səbəb olur. Sonda müəllim şagirdlərin əsərlə bağlı təhlil və ümumiləşdirmə xarakterli işə hazır olduqları qənaətinə gəlir. Bu iş dərslikdə təklif edilmiş sualların əsasında müzakirənin aparılması ilə həyata keçirilir. Dərslikdə əks etdirilmiş suallar aşağıdakılardır.

**Müzakirə.**

– şeir hansı mövzuda yazılmışdır?
– şeiri maraqlı edən cəhətlər hansılardır?
– əsərdə heca vəzninə məxsus hansı cəhətlər əksini tapıb?
– əsərin əsas ideyası nədir?
– əsərdən hansı nəticəni çıxarmaq olar?

Suallara əlavələr etmək, yaxud onlarda ixtisarlar aparmaq müəllimin məqsədindən asılıdır. Şagirdlərin müzakirəyə hazırlaşmasını fərqli formalarda təşkil etmək olar; suallar üzrə fərdi hazırlaşan şagirdlər sonda cütlük, yaxud kiçik qruplarda hazırlıq işlərini davam etdirib fikir fikir mübadiləsi apara bilərlər. Yaxud işə cütlük və ya kiçik qruplarda başlamaqla müzakirəyə hazırlaşmaq mümkündür.

Müzakirənin ikinci tələbi "Yurd sevgisi" və S. Vurğunun "Azərbaycan" şeirinin müqayisə edilməsi ilə bağlıdır. Müqayisə üçün əsasların müəyyənləşdirilməsi şagirdlərə həvalə edilmişdir. Bu tipli tapşırıqlarla tanış olan şagirdlər işin icrasında çətinlik çəkmirlər. Həmin əsərlərin mövzu-məzmun oxşarlığı müqayisə üçün çoxlu sayda əsasların (mövzu, ideya, mətləblər, təsvirlər, bədii keyfiyyətlər və s.) müəyyənləşdirilməsinə imkan verir.

**İfadəli oxu.**

Şeirin ilk iki bəndinin ifadəli oxusuna hazırlıq dərsin sonuncu tapşırığıdır. Vaxta qənaət baxımından kiçik qruplarda işin təşkili məqsədəuyğundur. Qruplar işi aşağıdakı ardıcıllıqla yerinə yetirirlər:

– əvvəlcə ifaçılıq vəzifəsini – dinləyicilərə çatdıracağınız fikri müəyyənləşdirin;

– məntiqi fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyənləşdirib şərti işarələrlə göstərin;

– misradaxili bölgüləri müəyyən edin, qafiyə və danışıq səslərinin tələffüzü üzərində düşünün;

– hər bəndin oxusunda səsinizin aldığı çalarları qeyd edin.

Dərslikdəki nümunə şagirdlərə əhəmiyyətli dərəcədə istiqamət verir.

İfaların dinlənilib müzakirə edilməsinə vaxt ayrılır.

Layihə

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə kontekstə uyğun aydınlaşdırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) mətnə uyğun müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin vəzn xüsusiyyətlərini nümunələrə əsaslanmaqla müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə mətləbləri nümunələr əsasında müəyyən edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin mövzusu ilə bağlı qənaətlərini başlıca mətləblər əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeiri məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyasına, səs çalarlarına uyğun ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışında mimika və jestlərdən istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

## İKİNCİ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə R.Məmmədin “Türk oğlu türkəm” şeiri üzrə aparıla bilər.*

Rahil Məmməd
Türk oğlu türkəm!...

Aslanlar gücü var dizimdə mənim,
Şimşəklər toqquşar gözümdə mənim.
Axtar həqiqəti sözümdə mənim,
Tuncam, qranitəm, poladdan bərkəm,
Yurdum Azərbaycan, türk oğlu türkəm!

Palıdtək söykənsək çiyin-çiyinə,
Həddi nə, dil açıb düşmən öyünə!
Qurdlar çaqqalları almaz eyinə,
Qalalar içində alınmaz Ərkəm,
Yurdum Azərbaycan, türk oğlu türkəm!

...Bacarsan, kişitək danış mənimlə,
Vətən sevgisində yarış mənimlə!
Həm ləzgi, həm avar, talış... mənimlə,
Gör neçə millətin Vətəni ölkəm,
Yurdum Azərbaycan, türk oğlu türkəm!

Çətin ki, ram edə tiranlar məni,
Göytürkəm, tanısın soranlar məni.
Sarsıtmaz tufanlar, boranlar məni,
Vətən varlığımdır, çiynində kürkəm,
Yurdum Azərbaycan, türk oğlu türkəm!

Əbədiyaşardır qurduğum dövlət,
Üçrəngli bayrağım yurduma zinət.
Sadəyəm, içimdə olmaz xəyanət,
Dosta sədaqətli, yağıya görkəm,
Yurdum Azərbaycan, türk oğlu türkəm!

Layihə

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsər haqqındakı təəssüratınızı qısaca yazın.

______________________________________________
______________________________________________
______________________________________________

2. Şeirdəki "tiran", "göytürk", "görk" sözlərinin mənasını aydınlaşdırın. Şair bu sözlərlə hansı mətləbləri ifadə etmişdir? Fikrinizi bir neçə cümlə ilə yazın.

______________________________________________
______________________________________________
______________________________________________

3. Fikirlərdən biri yanlışdır.
   A) Şeirdə şairin öz yurduna sonsuz sevgisi duyulur.
   B) Əsərdə Azərbaycanda yaşayan bütün millətlərə dərin hörmət, rəğbət əks olunub.
   C) "Zalımın zülmü, təzyiqi məni sındıra bilməz" qənaəti ifadə olunur.
   D) Şeirdə milli birlik fikri ifadə edilməyib.
   E) Əsərdə milli iftixar, sarsılmazlıq və nikbin ruh ifadə olunur.

4. Şeirdə heca vəzninə məxsus cəhətlərdən bir neçəsini qeyd edin.

______________________________________________
______________________________________________
______________________________________________

5. Əsərdə işlənmiş bədii təsvir və ifadə vasitələri ilə bağlı cədvəli tamamlayın. Cədvəlin xanalarını artıra bilərsiniz.

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi misra | Bədii təsvir və ifadə vasitəsinin növü | Bədiiliyin artmasında onun rolu |
|---|---|---|
| | | |
| | | |
| | | |

6. Bənddə məntiqi fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini və s. müəyyənləşdirib şərti işarələrlə göstərin. İfaçılıq vəzifəsini və səsinizin aldığı çalarları qeyd edin.

| Palıdtək söykənsək çiyin-çiyinə,<br>Həddi nə, dil açıb düşmən öyünə!<br>Qurdlar çaqqalları almaz eyninə,<br>Qalalar içində alınmaz Ərkəm,<br>Yurdum Azərbaycan, türk oğlu türkəm! | İfaçılıq vəzifəsi |
|---|---|

7. Bəndlərdən birində ifadə olunmuş fikir R.Məmmədin "Türk oğlu türkəm" şeirinin ideyası üçün səciyyəvi sayıla bilməz.

A) Düşmənlə mübarizədə birliyin vacibliyi
B) Azərbaycanda yaşayan azsaylı xalqların doğmalaşması



Layihə

C) Doğma təbiətin tərənnümü
D) Türklərin güclü və azad ruhlu, qədim və şanlı dövlətçiliyə malik olmaları
E) Dövlətimizin əbədi olacağına böyük inam

8. Şeirdə ifadə edilmiş mühüm mətləbləri və aralarındakı əlaqələri müəyyən edib qısaca yazın.

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

9. Şeiri mövzu, məzmun və ideya baxımından X.R.Ulutürkün aşağıdakı əsəri ilə müqayisə edin. Uyğun cədvəldən istifadə edə bilərsiniz.

Yadda saxla, qoca tarix, mən Türk oğlu Ulutürkəm.
Əhrimənlər qarşısında sanma çökəm, boyun bükəm.
Bircə kişi qalsam belə, güman etmə, yalqız, təkəm.
Mən – dünənəm, mən – bu günəm, gələcəyəm, yerəm-göyəm.
Həzrət Əli qılıncıyam, oddan gərək bir qın geyəm.
Kəsib keçəm xəyanəti, cinayəti, alçaqlığı.
Eşqim, hüsnüm, cəlalımsan, Odər yurdu, Od torpağı!

10. Şeir oxucuda hansı hiss və düşüncələr yaradır? Onda ifadə olunan əsas ideya nədir?

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

Laylinə

**Mövzu:**

**ƏDƏBİ MÖVZUDA MƏKTUBU NECƏ YAZMALI –**

**1 saat**

**Təlim məqsədləri**

- Ədəbi məktubda əsas fikirləri müəyyənləşdirir (7-1.5.3).
- Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini dəyərləndirir (7-1.6.1).
- Ədəbi məktubdakı başlıca fikri dəyərləndirir (7-1.6.3).

**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.

**Dərsin qısa planı**

1. **Oxu. Anlama.** Ədəbi mövzuda məktubla bağlı mətnin oxunması.
2. **Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.
3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin tətbiqi üzrə işin təşkili.
4. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Ədəbi mövzuda məktubla bağlı mətnin məzmununun öyrənilməsi, mənimsəmə səviyyəsinin yoxlanması və dərinləşdirilməsi üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Ədəbi mövzuda məktubla bağlı işin icrası ədəbiyyat fənn kurikulumunun yeni tələblərindəndir. Əslində, fəal təlimin metodu hesab olunan "ədəbi məktub"a məktəb təcrübəsində müraciət olunur. Lakin müşahidələrdən aydınlaşır ki, məktəbdə onun tətbiqinə nadir hallarda yer verilir. Deməli, dərsdə təşkil olunacaq iş ədəbi mövzuda məktubun yazılması ilə bağlı ilk addımlar kimi dəyərləndirilə bilər. Bu isə vaxtdan maksimum qənaətlə istifadəni, işin səmərəli təşkilini ciddi vəzifə kimi qarşıya qoyur.*

**Oxu. Anlama**

İlk növbədə dərslikdəki "Ədəbi məktubu necə yazmalı" mətninin oxusu həyata keçirilir. Müəllim məqsədindən, sinfin səviyyəsindən asılı olaraq oxunun hansı formada təşkilinə qərar verir. Mətnin həcmi onun səsli oxunmasına imkan verir. Bunun bir üstünlüyü ondadır ki, izahına ehtiyac duyulan məsələlərə yerindəcə aydınlıq gətirilir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra ilkin qavranılma səviyyəsi aşkara çıxarılır. Bunun üçün səmərəli vasitə əvvəlcədən təqdim edilmiş sualların əsasında müsahibənin aparılması ola bilər.

**Öyrəndiklərinizi yoxlayın.**

Müsahibədə aşağıdakı suallardan (müəllimin onlara yaradıcı yanaşması arzuolunandır) istifadə etmək məqsədəuyğundur:

– "məktub" anlayışının mahiyyətinə nələr daxildir?
– bu gün məktubdan hansı məqsədlər üçün istifadə olunur?
– məktub şəklində yazılan bədii əsərlər varmı, onlarda nədən danışılır?
– "ədəbi məktub" anlayışının mahiyyətinə nələr daxildir?
– ədəbi məktubları daha çox kimlər yazır?
– ədəbi məktublar hansı məzmunda olur?
– tənqidçi-alim N.Şəmsizadənin yazıçı Elçinə yazdığı ədəbi məktubda əsas diqqət nəyə yönəldilib?
– ədəbi məktubun yazılması ilə bağlı bacarıqlara yiyələnməyin sizin üçün əhəmiyyəti nədir?
– yazıya hazırlıq mərhələsində hansı qaydaların nəzərə alınması vacibdir?

Cavablar mətnin hansı səviyyədə qavranıldığını aşkara çıxarmağa imkan verir. Müsahibə prosesi bununla məhdudlaşmır; cavabların fəal dinlənilməsi, çıxış edənlərə sualların verilməsi mənimsəmənin dərinləşməsinə təsir edir. Ədəbi məktuba aid verilmiş nümunə şagirdlərin marağına səbəb olur. Ədəbi məktubla bağlı oxuduqlarının ("Məktub müəllifi fikirlərini... sadə, anlaşıqlı şəkildə, bütün oxucuların başa düşəcəyi tərzdə ifadə etməyə xüsusi diqqət yetirir... belə məktublar, əsasən, kəskin, barışmaz mövqe əks etdirmir. Məktubu yazan hətta razılaşmadığı ən prinsipial məsələni belə səmimi şəkildə,

Layihə

inandırma, tövsiyə yolu ilə çatdırmağa üstünlük verir") nümunədə necə əks olunduğunu üzə çıxaran şagirdlər digər məsələlərə də xüsusi diqqət yetirirlər.

Müsahibənin sonunda dərslikdəki mətnə şagirdlərin yenidən nəzər salmalarına imkan yaradılır. İndi onlar ən xırda incəlikləri belə nəzərdən qaçırmamağa, müsahibədə çətinlik çəkdikləri məqamları aydınlaşdırmağa, öyrəməyə səy göstərirlər. İş ümumiləşdirmənin aparılması, nəticənin çıxarılması ilə yekunlaşdırılır.

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

Öyrənilmiş məlumat, ədəbi məktub nümunəsi ilə ətraflı tanışlıq, ümumiləşdirmə və nəticənin çıxarılması mənimsənilənlərin ilkin tətbiqi üzrə işin təşkilini mümkün edir. Hazırlanacaq ədəbi məktub haqqında (məsələn, "Payız", "Yurd sevgisi" əsərlərinin müəllifi Ramiz Qusarçaylıya ədəbi məktub) məlumat verilir. Ədəbi məktubun yazılmasına hazırlıqla bağlı qaydalar bir daha nəzərdən keçirilir:

– ədəbi məktub üçün konkret mövzu müəyyənləşdirməlisiniz;
– məktubda məqsədinizin nə olduğunu aydın təsəvvür etməlisiniz;
– ifadə edəcəyiniz əsas və yardımçı fikirlərin ilkin variantları, qarşılıqlı əlaqələri barədə düşünməlisiniz;
– məktubda əks etdirəcəyiniz fakt, məlumat, dəlillərin ilkin variantları ilə bağlı qeydlərinizi əvvəlcədən hazırlamalısınız;
– qənaətlərinizi məktubda necə ümumiləşdirəcəyinizi, gəldiyiniz nəticəni necə ifadə edəcəyinizi əvvəlcədən qısaca qeyd etməlisiniz.

Hər iki şeir üzrə fikir mübadiləsi aparılır. Şagirdlər şeir müəllifinə yazacaqları məktubda niyyətlərinin nə olduğunu açıqlayırlar: əsərlərini xoşladıqlarını, "Payız", "Yurd sevgisi" şeirlərində mənalı fikirlərin, təbiət mənzərələrinin diqqətlərini cəlb etdiyini, onların bədii gözəlliyini, yaradıcılığında daha hansı məsələlər barədə oxumağı arzuladıqlarını və s.

Şagirdlər məktublarında daha çox hər iki şeirlə bağlı düşüncələrini – əsas fikirlərini ifadə edəcəklərini qeyd edir, mövqelərini əsaslandırmaq üçün yardımçı fikirlərə də müraciət edəcəklərini bildirirlər.

Dördüncü qaydaya uyğun olaraq şagirdlər şairin yaradıcılığından oxuduqları nümunələrin, onun haqqında yazılmış məqalələrdən seçdikləri məlumatların üzərində dayanacaqlarını qeyd edirlər.

Məktubun sonunda şairin "Payız", "Yurd sevgisi" şeirləri, ümumiyyətlə, yaradıcılığı ilə bağlı qənaətlərini ümumiləşdirəcəklərini, gəldikləri nəticəni konkret faktlarla əks etdirəcəklərini diqqətə çatdırırlar.

Bütün bunlar dərsin qalan hissəsində ədəbi məktubun ilkin variantının üzərində işləməyə imkan verir. Bu variant mövzu ilə bağlı ilkin təəssüratın qeyri-ardıcıl, pərakəndə ifadəsidir. İkinci dərsdə bu, mənbə, istinad rolunu oynayır.

Dərsdə bütövlükdə icra olunmuş iş müəyyənləşdirilmiş standartlar əsasında qiymətləndirmənin aparılmasına imkan verir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Ədəbi məktubda əsas fikirləri nümunələrə əsaslanmaqla müəyyənləşdirir. | Yazı | Dərslik, iş vərəqləri |
| Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini nümunələr əsasında dəyərləndirir. | Yazı | Dərslik, iş vərəqləri |
| Ədəbi məktubdakı başlıca fikri nümunələr əsasında dəyərləndirir. | Yazı | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**ƏDƏBİ MÖVZUDA MƏKTUBUN YAZILMASI –**

**1 saat**

**Təlim məqsədləri**

- Ədəbi məktubda əsas fikirləri müəyyənləşdirir (7-1.5.3).
- Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini dəyərləndirir (7-1.6.1).
- Ədəbi məktubdakı başlıca fikri dəyərləndirir (7-1.6.3).

**Köməkçi vasitələr:** 1) Dərslik. 2) Bədii əsərlər. 3) İnternet mənbələri.

**Dərsin qısa planı**

1. Yazıdan hazırlanmış hissələrin gözdən keçirilməsi.
2. Yazının yerinə yetirilməsi.
3. Yazının oxunması, düzəlişlərin edilməsi.
4. Yazının müzakirəsi və özünüqiymətləndirmə.
5. Formativ qiymətləndirmə.

**Dərsin məzmunu.** Ədəbi məktubun hazırlanması, müzakirəsi və özünüqiymətləndirmə üzrə işin təşkili.

Ədəbi mövzuda məktubla bağlı birinci dərsdə icra olunmuş hissələr gözdən keçirilir, aralarında əlaqələr yaradılır, ortaya çıxan suallar cavablandırılır. İş dərinləşdirilmiş istiqamətdə davam etdirilir. Məktubun yazılmasının səbəbi açıqlanır:

*“Hörmətli Ramiz Qusarçaylı!*

*Biz altıncı sinifdə oxuyanda sizin “Payız” adlı şeirinizlə tanış olduq. Şeir elə ilk oxudan hamımızın xoşuna gəldi. Ertəsi gün uşaqların çoxu şeiri əzbər bilirdi. Sinfimizin tədbirlərində onu ifadəli oxumaq bir adət halını aldı. Mən isə hər dəfə şeiri oxuyanda sanki sehrli aləmə düşürəm...*

*İndi yeddinci sinifdə sizinlə ikinci görüşümüz baş tutdu. Bu dəfə “Yurd sevgisi” şeirinizi öyrənməli olduq. Hər iki əsər haqqında təəssüratlarımı sizə yazmaya bilmirəm... Ürək sözlərimi sizə yazmağa sanki ehtiyac duyuram...”*

Bədii əsərin ədəbi məktub müəllifində doğurduğu hiss-həyəcan, düşüncə geniş əks olunur. O, bütün bunların səbəbini açıqlamağa, mövqeyini əsaslandırmağa, sanki müəllifi inandırmağa çalışır:

*“Şeiri ilk dəfə oxuyanda keçirdiyim hissləri bu gün də keçirirəm. Su kimi axıb gedən misralar, oxuduqca gözümün önündə canlanan mənzərələr məni ovsunlamışdı. Sanki payızın təbiətdə yaradtığı çaxnaşmanın içinə düşmüşdüm. Toqquşan buludların şaqqıltısı qəlbimi döyündürür, budaqlardan tək-tək qopub ağacların dibinə tökülən yarpaqların xışıltısını, qərib-qərib ötən durna qatarının həyəcanlı, nisgilli avazını, boz qayaları döyəcləyən iri, inadkar yağış damlalarının səsini, qorxaq sərçələrin kövrək cikkiltilərini eşidirdim. Şeiri oxuduqca mənə elə gəlirdi ki, vıyıltısı qulaqlarımda səslənən payız yelləri qova-qova o mənzərələri gətirir, gözlərimin önündə dolandırır: şimşək səsinə diksinib mağarasını bərkidən ayılar, ağac gövdələrini taqqıldadan ağacdələnlər, payızın nəfəsi ilə ala-bəzək olan xallı yamaclar, talada kimsəsiz qalan sapsarı ot tayaları, lələk-lələk sovrulan quş yuvaları, bütün bunlara təmkinlə tamaşa edən, tül dumana bürünmüş dağlar... bircə-bircə gözüm qarşısından gəlib keçirdi...”*

Bu mərhələdə məktub müəllifini daha çox düşündürən yazının məzmunu olur. O özü də fərqinə varmadan əsərin bədii keyfiyyətinin doğurduğu emosionallığı, bağışladığı estetik təsiri əks etdirməyə səy göstərir. Onu bu məqamda düşündürən başlıca məsələ fikirlərini aydın ifadə etmək istəyidir. Elə buna görə də hər cümləni yazandan sonra onun üzərində xeyli fikirləşməyə, mənasının ağlabatan olub-olmadığını, anlaşılıb-anlaşılmadığını aydınlaşdırmağa çalışır. Bu şəkildə gərgin, məhsuldar iş məktubun məzmunca keyfiyyətli olmasına əhəmiyyətli təsir edir:

*“Qəlbimdə elə qəribə hisslər yaranmışdı ki... Sevincmi, kədərmi olduğunu hələ də anlaya bilmirəm. Bu hissləri yaradan şeirdə bir-birini əvəz edən mənzərələr idi... onlar doyulmaz idi... Bar-bəhəri, narı,*

Ləyihə

*göyəmi ilə bayram xonçasına bənzəyən bağlar, üstündə tək-tük yarpaq qalan şax budaqlar arasından boy göstərən o meyvələr sanki nisgil oyadırdı... Bu, kədər idimi? Bilmirəm, amma bu mənim üçün füsunkar bir aləm idi...*

*Şeiri təkrar-təkrar oxuyur, bitməsini istəmirdim. Deyirdim ki, şair niyə az yazıb, görəsən, daha nələr görüb, nələr duyub təbiətdə, amma onlardan söz açmayıb..."*

Məktubda konkret faktların üzərində dayanılmasına diqqət yetirilir. Bunun üçün şeirlərdən nümunələrin göstərilməsi məqsədəuyğundur.

*..."Yurd sevgisi" məni "Payız"dan heç də az təsirləndirmədi. Səmimi fikirlər, maraqlı bənzətmələr ürəyimi oxşadı. Uğurlu qafiyələr şeirdə güclü ahəng yaratmışdır. Təkirlər təkrarolunmazdır, gözəldir:*

*Nə gözəl hüsnü var dağın, aranın,*
*Nə gözəl hüsnü var Milin, Muğanın,*
*Nə gözəl hüsnü var ulu Şirvanın,*
*Heyranam hüsnünə Azərbaycanın".*

Əsərdə daha uğurlu hesab edilənlər ümumiləşdirmə ilə nəzərə çarpdırılır, onlara münasibət bildirilir:

*"Şeir mənə doğma Vətənimizin xəritəsini xatırlatdı. İnanıram ki, siz Azərbaycanı qarış-qarış gəzmisiniz. Ayrı-ayrı bölgələri öz gözəlliyi, özünəməxsusluğu ilə xatırlayırsınız...*

*Şeiri oxuduqca mənə elə gəldi ki, "Mənim doğma yurdum — Azərbaycanım!" deyərək öz ölkəmə, vətənimə məktub yazıram, onun təbiəti, insanları ilə danışıram.*

*Bu əsərdə nələr yoxdu?!*

*Bu qədər mətləbi kiçik bir şeirə sığışdırmaq olar?!*

*Əziz sənətkar!*

*Siz öz şeirlərinizlə bizə Vətəni daha yaxşı tanıdır və onu sevməyi öyrədirsiniz..."*

Məktubun sonunda şairin yaradıcılığından digər nümunələrin, onun haqqında ədəbi-tənqiddə söylənmiş fikirlərdən seçmələrin xatırladılması məqsədəuyğundur. Nəticənin nisbətən geniş ifadə edilməsinə də diqqət yetirilməlidir.

Yazının başa çatdırılması onun tamamlanması kimi başa düşülməməlidir. Məktub müəllifinin mətni bir neçə dəfə oxuması faydalıdır. Məktubun bütövlükdə məzmunu, fikirlərin əlaqələndirilməsi və məntiqi ardıcıllığı, məqsədin aydın ifadə edilməsi oxuda xüsusi diqqət yetirilən məsələlərdən olmalıdır.

Söz seçimi, cümlələrin necə qurulması, bütövlükdə dil xüsusiyyətləri, orfoqrafik qüsurlar, durğu işarələrindən yerində istifadə və s. oxu prosesində ön plana çəkilir. Yazını başqasına oxudub dinləmək onun necə qavranıldığını müəyyənləşdirmək baxımından faydalıdır.

Yazılardan nümunələrin oxusunda fəal dinləmənin təmin olunması müzakirənin səmərəli keçməsinə əhəmiyyətli təsir edir. Özünüqiymətləndirmənin əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında aparılması vacibdir. Meyarlar müəllim tərəfindən hazırlana bilər. Aşağıdakı variantdan yaradıcı yanaşma əsasında istifadə etmək də mümkündür.

| S. | Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|---|
| 1. | Məqsədimi aydın ifadə etmişəm. | | |
| 2. | Əsərlərlə bağlı hiss və düşüncələrimi nümunələrlə əsaslandırmışam. | | |
| 3. | Əsərlərin əhəmiyyəti barədəki fikirlərimi əsaslandırmışam. | | |
| 4. | Dil xüsusiyyətlərini ədəbi məktubun üslubuna uyğunlaşdırmışam. | | |
| 5. | Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Ədəbi məktubda əsas fikirləri nümunələrə əsaslanmaqla müəyyənləşdirir. | Yazı | İş vərəqləri |
| Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini nümunələr əsasında dəyərləndirir. | Yazı | İş vərəqləri |
| Ədəbi məktubdakı başlıca fikri nümunələr əsasında dəyərləndirir. | Yazı | İş vərəqləri |

# 3

# MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR

**Mövzu:**

**ABBASQULU AĞA BAKIXANOV. ÜMİDİN BOŞA ÇIXMASI –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənzum hekayədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (7-1.1.3.).
- Əsərin ilkin oxusunda yaranan təəssüratını izah edir (7-1.1.4).
- Mənzum hekayədə mətləbləri müəyyənləşdirir (7-1.1.7).

**Köməkçi vasitələr:** Abbasqulu ağa Bakıxanovun əsərlərindən nümunələr.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Bu başlıq altındakı suallardan mövzu ilə bağlı biliklərin xatırlanması, maraqoyatma üçün istifadə edilir.
2. **Oxu. Anlama.** Əsərin oxusu, ilkin qavranılma səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun həyata keçirilməsi, məzmunun əhatəli mənimsənilməsinin təmin olunması.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun, başlıca mətləblərinin, nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
5. **Xatırlatma. Dərinləşdirmə.** "Mənzum hekayə" anlayışının mahiyyətinin aydınlaşdırılması və mənimsənilməsi.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə mənzum hekayənin oxusu, ilkin qavramanın yoxlanması, dərinləşdirilmiş oxu, mənimsəmə səviyyəsinin yoxlanması, məzmunun və nəzəri anlayışların möhkəmləndirilməsi üzrə tapşırıqların yerinə yetirilməsinə diqqət yetirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlər dərslikdəki "Yadasalma" başlıqlı suallarla (Hikmətli fikirlərin ifadə olunduğu hansı əsərləri xatırlada bilərsiniz? Onlarda diqqətinizi daha çox çəkən nə olub?) tanış olurlar. Əsasında həmin sualların dayandığı qısa müsahibədən nəticə çıxarılır: Hikmətli fikirlərin ifadə olunduğu əsərlərin yazılmasında başlıca məqsəd nə olur?

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə mənzum hekayənin bütövlükdə oxusu nəzərdə tutulmuşdur. Əsərin maraqlı məzmunu, fikirlərin asan başa düşülməsi, eləcə də təklif olunmuş tapşırıqların az olması bu vəzifənin öhdəsindən gəlməyə imkan verir. Səssiz oxu vaxta qənaət baxımından əlverişli olsa da, səsli oxunun təşkili məqsədəuyğundur. Bitkin parçaların ayrı-ayrı şagirdlərin oxusu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi, sinfin müstəqil izah edə bilmədiyi misraların açıqlanması həyata keçirilir.*

İlkin oxunun yaratdığı təəssüratın bölüşülməsi üçün dərslikdə suallar təklif edilmişdir:

– Əsərdə sizi daha çox maraqlandıran nə oldu? Nəyə görə?
– Bağban haqqında ilk təəssüratınız nə oldu?
– Saray məmurları barədə ilk təsəvvürünüz necə oldu?

Layihə

Suallar fərqli məzmunda da verilə bilər, yaxud onlara əlavələrin edilməsi mümkündür. Məqsəd məzmunun ilkin qavranılma səviyyəsi barədə təsəvvürün qazanılmasıdır. Yığcam müsahibə aparılmaqla bu təsəvvürü əldə etmək olar. Çıxarılmış nəticə dərinləşdirilmiş oxuya ehtiyacın səviyyəsini müəyyən etməyə imkan verir. Dərinləşdirilmiş oxunun səmərəli olması dərslikdə təklif edilmiş suallara əsaslanmaqdan xeyli dərəcədə asılıdır. Lakin həmin suallara müəllimin yaradıcı yanaşması istisna edilmir. Suallar obrazlar (Bağban Həsən həyatını necə qurmuşdu? O, taleyindən razı idimi? Saray adamları haqqında qənaətiniz nə oldu?), onların hiss, düşüncə və əməlləri (Böyük zəhmətlə əldə etdiyi məhsul – alma onda hansı düşüncələr yaratdı? Bağbanın uzun müddət qərara gələ bilməməsinə səbəb, sizcə, nədir? Bağban xəzinədən balta və Quran götürməsinin səbəbini necə izah edir?) ədəbi qəhrəmanların bir-birinə münasibəti (Hökmdarın bağbana münasibətində diqqətinizi daha çox çəkən nə oldu?) ilə bağlıdır. Bütün bunlar əsərin məzmunu ilə əhatəli tanış olmağı tələb edir. Deməli, şagirdlərin mətnə yenidən müraciət etmələrinə ehtiyac yaranır, lakin bu, təbii ki, fərqli səviyyələrdə baş verir.

Sualların cavablarını yığcam müsahibə əsasında dəyərləndirmək olar. Test tapşırıqlarının üzərində səmərəli işin təşkili öyrənilənlərin yoxlanması baxımından daha səmərəlidir. Bu tapşırıqların üzərində fərdi işləyən şagirdlər qənaətlərini müzakirə edirlər.

Dərslikdəki növbəti tapşırıq əvvəlki mərhələlərdə mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi məqsədini güdür. Əsərdəki başlıca mətləblərin müəyyənləşdirilməsi tələbi ideya məzmunun bütövlükdə qavranılması baxımından faydalıdır. Şagirdlər əsas hesab etdikləri mətləbləri qısaca qeyd edir, müzakirəsinə hazırlaşırlar.

Tapşırığın ikinci tələbi də mətnə bir daha diqqətlə nəzər salmağı tələb edir; hələ ilk oxu prosesində bədii təsvir və ifadə vasitələri barədə təsəvvür qazanan şagirdlər bu barədəki məlumatlarını indi konkret nümunələrlə möhkəmləndirmə, zənginləşdirmə istiqamətində çalışırlar.

Təkmilləşdirilmiş proqramın tələbinə uyğun olaraq dərslikdə *mənzum hekayə* anlayışı haqqında məlumat verilmişdir. Şagirdlərin bu məlumatı əks etdirən mətnlə birinci dərsin sonunda tanış olmaları məqsədəuyğundur. Belə bir fikir var ki, bu qəbildən məlumatların oxudan əvvəl mənimsədilməsi faydalı olar. Unudulur ki, əsərin öyrənilməsinə bir neçə saat ayrılır, anlayışla bağlı öyrənilən biliyin elə həmin əsərin tədrisindəcə tətbiqinə imkan yaranır.

Mətnin oxusu aşağıdakı məsələlər barədə aydın təsəvvürün əldə edilməsinə imkan yaratmalıdır:

– hekayə həm nəsr, həm də nəzmlə olur;

– mənzum hekayə müxtəlif mövzularda yazılır;

– nəsrlə yazılmış hekayədə olduğu kimi, mənzum hekayədə də əsas qəhrəmanın həyatının bir səhnəsi, onunla bağlı mühüm bir hadisə yığcam təsvir edilir;

– mənzum hekayənin digər nəzm əsərləri ilə həm oxşar, həm də fərqli cəhətləri vardır;

– digər nəzm əsərlərində olduğu kimi, mənzum hekayədə də müəyyən ölçülər gözlənilir, qafiyə sistemi olur;

– nəzm əsərləri, məsələn, lirik şeirlərdən müəyyən hadisənin təsviri, eləcə də təhkiyənin mövcud olması və s. fərqlənir.

Müəllim bu deyilənlərin nümunələrlə təsdiq edilməsinə istiqamətləndirici suallarla yardım edir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənzum hekayədə təsvir və ifadə vasitələrini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun yaratdığı təəssüratı nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Mənzum hekayədə mətləbləri nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |



Layihə

**Mövzu:**

**ABBASQULU AĞA BAKIXANOV. ÜMİDİN BOŞA ÇIXMASI –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir (7-1.1.1).
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (7-1.1.3).
- Əsərin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).
- Əsərdə mətləbləri müəyyənləşdirir (7-1.1.7).
- Əsərin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.1.8)

**Köməkçi vasitələr:** Abbasqulu ağa Bakıxanovun əsərlərindən nümunələr.

**Dərsin qısa planı**

1. **Nitqin, düşüncənin inkişafı.** Əsərin məzmunu, nəzəri anlayışlarla bağlı mənimsənilmiş biliklərin dərinləşdirilməsi zəminində nitq inkişafı üzrə işlərin təşkili.
2. **Müzakirə.** Əsərin mövzusu, vəzn xüsusiyyətlərinin müəyyənləşdirilməsi üzrə işlərin yerinə yetirilməsi.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə mənzum hekayənin məzmunu və nəzəri anlayışlarla bağlı mənimsənilmiş biliklərin dərinləşdirilməsi zəminində nitq inkişafı üzrə işin təşkili, mövzu və vəzn xüsusiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə müzakirənin aparılması reallaşdırılır.

Dərslikdə "Nitqin, düşüncənin inkişafı" başlığı altında verilən tapşırıqlar rəngarəngliyi ilə diqqəti cəlb edir. Şagirdlər ilk növbədə yeni öyrənilmiş sözlərin əsərin məna və məzmununun başa düşülməsində rolunun aydınlaşdırılması tələbi ilə (Mənasını yeni öyrəndiyiniz sözlərin əsərin məzmununun başa düşülməsinə təsirini nümunələr əsasında şərh edin) qarşılaşırlar. Bu qəbildən tapşırları əvvəllər icra edən şagirdlər müəllimin təklifi ilə mənasını yeni öyrəndikləri üç söz seçir və onların hekayədə işləndikləri misraları diqqətlə nəzərdən keçirirlər. Sözlərin mənasının aydınlaşdırılmasının həmin misralardakı fikrin başa düşülməsində əhəmiyyətli rolunu qısaca izah edirlər. Məsələn, *bədcins, nəməkbəhəram* sözlərinin mənasını bilmədən saray adamları haqqında doğru nəticə çıxarmağın mümkün olmadığı izah edilir.

Tapşırığın növbəti tələbi də maraqlıdır; şagirdlər hekayədəki obrazların (bağban, hökmdar) xarakter və davranışlarına uyğun epitet və bənzətmənin işləndiyi cümlələr yazmalıdırlar. Bunun üçün obrazlar, eləcə də epitet və bənzətmə haqqında aydın təsəvvürün olması vacibdir.

İkihissəli gündəlik əsərə müstəqil yanaşmanı zəruri edir. Əsərdə məhz hansı cəhətlərin onu cəlb etdiyini və bunun səbəbini açıqlamaq şagirddən yaradıcı iş, tənqidi düşüncə tələb edir. Bu, əsərə müəyyən münasibət yaranmadan mümkün deyildir.

Tapşırıqdakı digər tələb hekayədəki hadisələrin ardıcıllığının izah edilməsi ilə əlaqədardır. Bu, əsas süjetin izlənilməsi, səbəb-nəticə əlaqələrinin başa düşülməsi baxımından faydalıdır.

Bir sıra mühüm məsələlərin (əsərin mövzusu, vəzn xüsusiyyətləri) müzakirə yolu ilə aydınlaşdırılması məqsədəuyğun hesab edilmişdir. Müzakirəyə səmərəli hazırlaşmaq üçün cütlük, yaxud kiçik qruplarda fikir mübadiləsi üçün imkan yaradılır. Müzakirə üçün müəyyənləşdirilmiş sonuncu mövzuya (Mənzum hekayə mənə yeni nə öyrətdi) şagirdlərin fərdi hazırlaşması təmin edilir.

Əsərin məzmununun, ondakı başlıca mətləblərin əhatəli mənimsənilməsi mövzunun müəyyənləşdirilməsi işini asanlaşdırır. Lakin fərqli fikirlərin olması təbiidir.

Mənzun hekayənin vəzn xüsusiyyətlərindən danışılarkən *beyt* anlayışı, beytləri təşkil edən misraların həmqafiyə olması barədə məlumatın əlavə edilməsi məqsədəuyğundur.

Mənzum hekayənin sonunda bağban Həsənin sözləri, şairin özünə müraciətlə dedikləri, nəhayət, axırıncı misralar "Mənzum hekayə mənə yeni nə öyrətdi" mövzusuna əsaslandırılmış cavabların hazırlanmasına səbəb olur. Müzakirədə səsləndirilən fikirlər fərqli məzmunda olsa da, çıxarılmış nəticələr oxşar olur: qənaətlə yaşamaq, tamah hissindən, mənsəb arzusundan uzaq olmaq əsl səadətdir...

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində yerində istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Mənzum hekayənin vəzn xüsusiyyətlərini nümunələr göstərməklə müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənzum hekayədə başlıca mətləbləri müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənzum hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**ABBASQULU AĞA BAKIXANOV. ÜMİDİN BOŞA ÇIXMASI –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu şərh edir (7-1.2.2).
- Əlaqələndirimiş fikirlərin əks olunduğu təqdimat hazırlayır (7-2.1.2).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).

**Köməkçi vasitələr:** Abbasqulu ağa Bakıxanovun əsərlərindən nümunələr.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Mənzum hekayənin mövzusu, obrazları, ideyası üzrə araşdırma və dəyərləndirmənin həyata keçirilməsi.
2. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə mənzum hekayənin mövzusu üzrə qənaətlərin dəqiqləşdirilməsi, obrazlarının səciyyələndirilməsi, ideyasının dəyərləndirilməsində rolu, ideyasının şərhi üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Mənzum hekayədə ibrətamiz hadisə təsvir edilmiş, nəsihətamiz fikirlər əks olunmuşdur. Bütün bunlar barədə ilk dərslərdə aydın təsəvvür qazanılmışdır. Bəs şairin bu əsəri qələmə almaqda əsas niyyəti nə olmuşdur? Bunun dəyərləndirilməsi, sualın cavabının aydınlaşdırılması üçün araşdırma-təhlil istiqamətində fəaliyyətin təşkili lazım gəlir.

**Müəllim üçün əlavə məlumat.** *Mənzum hekayədə maraqlı, yaddaqalan obrazlar yaradılmışdır. Onların hərtərəfli səciyyələndirilməsi müəllif niyyətinin aydınlaşdırılmasına və dəyərləndirilməsinə əhəmiyyətli təsir edir. Suallara əlavə edilmiş tövsiyələrə diqqətin cəlb olunması, xüsusilə faydalıdır.*

Dərslikdə "Araşdırma. Təhlil" başlıqlı tapşırığın yerinə yetirilməsi xeyli vaxt və böyük zəhmət tələb edir. Bu baxımdan işin kiçik qruplarda təşkili faydalı hesab oluna bilər. Tapşırığın hər bəndini bir qrupa həvalə etmək mümkündür.

Tapşırığın birinci bəndi və onun üçün nəzərdə tutulmuş tövsiyələr aşağıdakı məzmundadır.

- Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin. Tövsiyələrə diqqət edin:
  – əsərdəki hadisələri, onların arasındakı əlaqələri yada salın;
  – bu hadisələrdən hansının daha önəmli olduğunu və nə ilə nəticələndiyini xatırlayın;
  – əsərin sonunda müəllifin gəldiyi qənaəti bir daha nəzərdən keçirin.

Layihə

Bu məzmunda tapşırıqla tanış olan şagirdlər tövsiyələrə əsaslanmaqla araşdırmalarını davam etdirirlər. Əsərdə əxlaqi-nəsihətamiz fikirlərin aparıcı olduğunu qeyd edən şagirdlər bu əsasda da mövzu haqqındakı qənaətlərini dəqiqləşdirirlər.

Bağban və hökmdar obrazlarının təhlilində onların hiss və düşüncələrini, nitqlərini, fərqli vəziyyətlərdə davranışlarını diqqət mərkəzinə çəkən şagirdlər nümunələr göstərməklə hər biri haqqında əsaslandırılmış fikir söyləməkdə çətinlik çəkmirlər.

Tapşırığın növbəti bəndi (Müəllifin bağban obrazına münasibətini necə dəyərləndirərsiniz?) əhəmiyyətli ümumiləşdirmə, müstəqil yanaşma tələb edir. Lakin bunlar əsərdən seçilmiş nümunələr əsasında reallaşmalıdır. Suala cavab hazırlayan şagirdlərin yazıçı niyyəti, əsərin ideyası haqqındakı qənaətləri möhkəmlənir.

Mənzum hekayə haqqında mənimsənilmiş biliyin tətbiqi məqsədilə təklif edilmiş tapşırığın (Mənzum hekayə ilə hekayə janrının oxşar və fərqli cəhətlərini müəyyənləşdirin) konkret nümunələrin əsasında icra edilməsinə şərait yaradılır. Şagirdlərin yeni öyrəndikləri M.İbrahimovun "Azad" hekayəsi ilə "Ümidin boşa çıxması" mənzum hekayəsinin müqayisə edilməsi məqsədəuyğun olar. Şagirdlər müqayisə üçün əsasları müstəqil müəyyənləşdirirlər. Nəticələr müqayisə cədvəlində və ya Venn diaqramında əks olunur.

Əsərin ideyasının şərh edilməsi ilə bağlı nəzərdə tutulmuş tapşırıq şagirdlərin müstəqil fikir səsləndirmələrinə geniş imkan verir. Əsərin əsas ideyası üçün uyğun ola biləcək variantlara diqqətin cəlb edilməsi müstəqil düşüncənin qarşısını almır, əksinə, şagirdləri ciddi fikirləşməyə, öz variantlarını təklif etməyə istiqamətləndirir. Başlıcası isə mənzum hekayədəki mətləblərin mənimsənilməsi, obrazlar haqqında aydın təsəvvürün qazanılması ideyanın əhatəli açıqlanmasına və dəyərləndirilməsinə səbəb olur.

Hansı iş formasının tətbiqindən asılı olmayaraq araşdırmanın, təhlilin nəticələri ilə bağlı təqdimatların dinlənilməsi, onlara münasibət bildirilməsi gerçəkləşdirilir. Təqdimatların məzmunu, onlarda əksini tapmış fikirlərin məntiqi əlaqəsi, şagird nitqinin zənginliyi, mənası yeni öyrənilmiş sözlərdən faydalanma səviyyəsi diqqət mərkəzində saxlanır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əlaqələndirilmiş fikirlərin nümunələrlə əks olunduğu təqdimat hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında ardıcıllıqla işlədir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

## ÜÇÜNÇÜ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

***Qiymətləndirmə B.Vahabzadənin "Bayraq" şeiri əsasında ədəbi məktub yazdırılmaqla aparıla bilər.***

Bəxtiyar Vahabzadə

Bayraq

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası — bayraq.
Zəfərdən doğulmuş Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq — öz yurduma öz hakimliyim.

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

Layihə

**“Azadlıq və müstəqillik rəmzi” və ya “Bayrağım —kimliyim, şərəfim”**

**Xalq şairi Bəxtiyar Vahabzadəyə ədəbi məktub**

**Ədəbi məktubun qiymətləndirmə rubriki**

| Meyarlar | Meyarın təsviri | Bal |
|---|---|---|
| 1. Mövzuya uyğunluq | Məktub şeirin ideya məzmununa uyğun yazılır, ayrı-ayrı bəndlərdə ifadə edilə mətləblər, əsas ideya əks etdirilir. | |
| 2. Məzmun dolğunluğu | Fikirlər dolğundur, yeni, yaradıcı fikirlər ifadə olunur, həyatdan, ədəbiyyatdan nümunələr, sitatlar gətirilir. | |
| 3. Bədiilik yaradan vasitələrdən istifadə | Obrazlı söz və ifadələr, bədii təsvir-ifadə vasitələri, hikmətli kəlamlardan istifadə olunur. | |
| 4. Üslub və quruluş | Üslub ədəbi məktuba uyğundur, yazının hissələri, abzaslar düzgün müəyyənləşdirilir. | |
| 5. Orfoqrafiya və dil qaydaları | Dil, yazı qaydaları gözlənilir, durğu işarələrindən yerində istifadə edilir. | |

**Qeyd: 1. Qiymətləndirmə meyarları əvvəlcədən şagirdlərə elan edilir.**

**2. Ədəbi məktubu qiymətləndirmək üçün fərqli meyarlardan, müxtəlif bal sistemlərindən istifadə oluna bilər.**

Layihə

**Mövzu:**

**MEHDİ HÜSEYN. KƏRƏM ƏFSANƏSİ –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (7-1.3.2).
- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmalar icra edir (7-2.2.1).
- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).

**Köməkçi vasitələr:** Mehdi Hüseynin əsərlərindən nümunələr. "Kərəm əfsanəsi" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1.Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istifadə olunması.
**2. Oxu.Anlama.** Hekayədən parçanın ilkin oxusu, məzmununun qavranılma səviyyəsinin aşkara çıxarılması. Dərinləşdirilmiş oxunun təşkili.
**3. Öyrəndiklərinizi yoxlayın.** Mənimsənilənlərin test tapşırıqları əsasında yoxlanması.
**4. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi üzrə işin təşkili.
**5. Yaradıcı iş.** Kiçik həcmli hekayənin yazılması üzrə hazırlıq işləri.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayədən bir parçanın oxusu;
– ilkin qavramanın səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun suallar əsasında həyata keçirilməsi;
– məzmununun öyrənilməsinin yoxlanması;
– məzmunun mənimsənilməsinin möhkəmləndirilməsi və zənginləşdirilməsi;
– müstəqil yazılan hekayənin üzərində işin davamı.

**Müəllim üçün əlavə məlumat.** *Maraqlı süjeti ilə şagirdlərin diqqətini dərhal cəlb edən hekayənin oxusu üzrə işi fərqli formalarda təşkil etmək mümkündür. Bunlardan biri proqnozlaşdırılmış oxudur. Bu o vaxt mümkündür ki, şagirdlər dərsə qədər hekayəni oxumamış olsunlar. Proqnozlaşdırılmış oxu tətbiq edilərsə, ilkin qavrama səviyyəsi, onun aşkara çıxarılması həmin prosesdəcə aydınlaşmış olur.*

*Hekayənin tədrisinə ayrılmış birinci dərsdə fasilələrlə oxunun tətbiqi mümkündür, lakin bu halda da əsər müstəqil oxunmamış olmalıdır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlər dərslikdəki "Yadasalma" başlıqlı suallarla (Müxtəlif səbəblərə görə qaçaq həyatı yaşayan insanlar haqqında eşitmisinizmi? Belə adamlar barədə yazılmış bədii əsərlərlə tanışsınızmı?) tanış olurlar. Yığcam müsahibənin sonunda nəticə çıxarılır: Qaçaq həyatı yaşayan insanların içində xalqımıza məxsus mənəvi dəyərləri yaşadanların çox olmasına səbəb, sizcə, nədir?

Qeyd olunur ki, öyrəniləcək hekayə bu qəbildən suallara doğru cavabın tapılmasına imkan verəcəkdir.

**Oxu. Anlama.**

Hekayədən verilmiş parçanın oxusu həyata keçirilir. Mətndəki tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir. Oxuya

Layihə

ayrılmış vaxt başa çatdıqda şagirdlərin diqqəti ilkin təəssüratın bölüşülməsi məqsədilə dərsliyə daxil edilmiş suallara yönəldilir.

– Əsəri oxumaq maraqlı oldumu?

– Kərəm haqqında ilk təəssüratınız necə oldu?

– Əsərdə sizə daha çox təsir edən və sizi heyrətləndirən nə oldu?

Suallara əlavələr də etmək olar, lakin ilkin qavramanın aşkara çıxarılmasına ayrılan vaxtı lüzumsuz olaraq uzatmaq məqsədəuyğun deyildir. Adətən, şagirdlər bu mərhələdə hissiyyata qapılır, epizodları, onlara güclü təsir edən səhnələri yerli-yataqlı danışmağa meyilli olurlar. Qavramadakı qüsurlar özünü dərhal büruzə verir, bunların yadda saxlanması, onlara istinad edilərək dərinləşdirilmiş oxunu təşkil etmək lazımdır.

Dərinləşdirilmiş oxu üçün müəyyənləşdirilmiş suallarla tanış olanda şagirdlərin əksəriyyəti əsərin məzmunu ilə bağlı məlumatlarının dolğun olmadığını anlayırlar. Suallar düşündürücüdür, onlardan bəziləri mətnin gizli mətləblərinə nüfuz etməyi nəzərdə tutur. Məsələn, “Ağalığını qəbul etmədiyi xalq”, “Evin sahibi həmin evin kişisi olar” kimi fikirlər dərin qatlara enməyi tələb edir.

Bəzi suallar isə yazıçının əsl niyyətini aşkara çıxarmağa hesablanıb: “Qaçaq Kərəmin düşmənləri kim idi?”, “Onun dəstəsinin üzvləri kimlər idi?” , “Çar hakimiyyətinin Qaçaq Kərəmə və onun dəstəsinə münasibəti necə idi?” “Kərəmə və onun silah yoldaşlarına yoxsul insanların münasibəti necə idi?”

Suallar mətnə yenidən müraciət etməyi, həm də əhəmiyyətli dərəcədə düşünməyi tələb edir. Qaçaq Kərəmin əsl düşməni çar Rusiyası idi. Müstəmləkə şəraitinin yaratdığı vəziyyət idi, “zəmanə idi”.

Qaçaq Kərəmin dəstəsinə qoşulanlar qəlbində haqq, ədalət hissi gəzdirən vətənpərvər insanlardır. Onlar işğalçılarla heç cür barışmır və kazaklara qarşı vuruşurlar.

Çar hakimiyyətinin Qaçaq Kərəmə, onun dəstəsinə düşmən münasibətini dərinləşdirilmiş oxu prosesində aydınlaşdırmaq imkanı daha çox olur.

Qaçaq Kərəm xalqını sevir, xalq da onu öz qəhrəmanı kimi qəbul edir. Bunun dəyərləndirilməsi vacibdir. Bu igid insanı Təbrizdə də sevir, milli qəhrəman kimi qiymətləndirirlər.

Sualların əsasında mətnin üzərində düşünən şagirdlər sonda müsahibədə fəal iştirak edirlər. Nəticənin fərdi olaraq yoxlanmasına ehtiyac yaranır. Bu, test tapşırıqlarının yerinə yetirilməsi ilə reallaşdırılır. Fərdi işləyən şagirdlərin cavabları dinlənilir və çıxışlara münasibət bildirilir.

Dərslikdəki növbəti tapşırıq biliklərin tətbiq yolu ilə möhkəmləndirilməsi məqsədini güdür. Tapşırığın (“Müəyyənləşdirdiyiniz bədii təsvir və ifadə vasitələrindən daha maraqlı hesab etdiklərinizi cümlələrdə işlədin”) icrası üçün nəzərdə tutulmuş vaxta əsasən bədii təsvir və ifadə vasitələrinin sayı müəyyənləşdirilir. İşin nəticələrinin müzakirə edilməsi diqqət mərkəzində saxlanır. Daha çox nümunələrin dinlənilməsi və onlara münasibət bildirilməsi faydalıdır.

Müstəqil yazılan hekayə ilə bağlı icra olunmuş işlər dərsin sonunda müzakirə edilir. Şagirdlərin təqdimatları dinlənilir. Onlar plan əsasında hazırladıqları təqdimatlarında üzərində işlədikləri hekayə barədə məlumat verir, icra etdikləri işlə bağlı dinləyicilərdə aydın təsəvvürün yaranmasına çalışırlar. Başlıca diqqət hekayədə yaradılan obrazların xarakter, davranış və əməllərini əks etdirən epizodların necə işləndiyinə yönəldilir. Çıxış edənlər daha sonrakı səhifələrdə nəzərdə tutulmuş səhnələr, epizodlar barədəki qənaətlərini bölüşürlər.

Bu mərhələdə fikir mübadiləsinə geniş yer verilir. Tövsiyələr, iradlar dinlənilir, onlara münasibət bildirilir. Hekayənin üzərində işin davam etdirilməsi məsləhət görülür.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| | | |
|---|---|---|
| Hekayə janrında mətnin yazılmasına hazırlıq üzrə çalışmaları ardıcıllıqla icra edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışın məzmununa uyğun əsaslandırılmış sadə plan hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**MEHDİ HÜSEYN. KƏRƏM ƏFSANƏSİ –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir (7-1.3.1).
- Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7-1.3.2).
- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).
- Hekayədəki əsas konflikti müəyyənləşdirir (7-1.3.6).
- Hekayədən bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).

**Köməkçi vasitələr:** Mehdi Hüseynin əsərlərindən nümunələr. “Kərəm əfsanəsi” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Hekayədən parçanın oxusu, ilkin qavramanın aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili.
**2. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmun və nəzəri anlayışlarla bağlı öyrənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.
**3. Müzakirə.** Əsərin mövzusunun, kofliktin müəyyənləşdirilməsi üzrə müzakirə.
**4. Nitqin, düşüncənin inkişafı.** Mənası yeni aydınlaşdırılmış sözlərin məzmunun başa düşülməsində rolunun açıqlanması, yığcam nağıletmə üzrə işin təşkili.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayənin davamının oxusu;
– ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun həyata keçirilməsi;
– öyrənilənlərin yoxlanması;
– məzmun və nəzəri anlayışlarla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi;
– hekayənin mövzusunun və konfliktin müəyyənləşdirilməsi;
– mənası yeni aydınlaşdırılmış sözlərin məzmunun başa düşülməsində rolunun müəyyənləşdirilməsi və yığcam nağıletmə üzrə işin təşkili.

**Oxu. Anlama**

Şagirdlər müəllimin təklif etdiyi formada hekayənin davamını oxuyurlar. Mətndə tanış olmayan sözlərin aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanır. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdə təklif edilmiş sualların əsasında

Layihə

ilkin təəssüratlarını bölüşürlər. Suallar, əsasən, obrazlarla bağlıdır. Bir-biri ilə münaqişədə olan obrazlar haqqında aydın təsəvvürün qazanılması əsərdəki mətləblərin başa düşülməsində əhəmiyyətli rol oynayır.

– Kərəm haqqında təəssüratınıza yeni nə əlavə olundu?

– İsrafil ağa barədə yeni nə təsəvvür qazandınız?

– Qaçaqların həyatı haqqında əlavə nə öyrəndiniz?

Kərəmin müxtəlif vəziyyətlərdə keçirdiyi hisslər, ən çətin anlarda belə təmkin və ləyaqətini qoruması, qaçaqlara ata, qardaş qayğısı göstərməsi, ulu düşmənlə barışmazlığı barədə əlavə öyrənilənlər araşdırma və təhlil üçün yol açır.

İsrafil ruslara sığınsa da, mərdliyi, igidliyi ilə hörmət qazanmışdır. Onun namərdlik etməməsi, imkanı olduğu halda Kərəmə güllə atmaması oxucu-şagirdləri heyrətləndirir, məmnun edir.

Bəs bu iki mərd, qorxmaz, qoçaq igid nə üçün barışa bilmirlər? Bu suala ilkin oxudan sonra tutarlı cavab vermək şagirdlər üçün asan olmur.

Qaçaq həyatının çətinlikləri barədə əsərdə deyilənlər şagirdlərin diqqətini cəlb edir. Onların bu həyatdan cana doymalarının səbəbini şagird-oxucular məntiqli şəkildə izah etməkdə çətinlik çəkirlər.

Dərinləşdirilmiş oxu məqsədilə dərslikdə təklif edilmiş suallar əsərdə ilk oxuda sezilməyənlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayır. Elə birinci sual (Tapdığı patron Kərəmi nə üçün həyəcanlandırır?) ciddi bir mətləbin aydınlaşdırılmasını tələb edir: Doğrudanmı, İsrafil ağa burada olmuş və düşmənini öldürməkdən imtina etmişdir?

Həqiqəti öyrənən Kərəm İsrafil ağanın alicənablığını qədərincə dəyərləndirir.

Digər bir sual (Təbrizlilərin Kərəmə və dəstəsinə münasibəti necə idi?) əsərdəki mühüm mətləbin – xalqın öz qəhrəmanına münasibətinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir. Başqa bir sual (Kərəm İran şahına məktub göndərməkdən nə üçün imtina etdi?) fərqli mətləbin izahını tələb edir. Cənublu soydaşlarımız Kərəmə açıqca bildirirlər ki, İran şahı ilə, Rusiya çarının arasında fərq yoxdur – “İt itin ayağını basmaz!”.

Suallar mətndəki mühüm mətləblərin aydınlaşdırılmasında, sonrakı mərhələlərdə isə dəyərləndirilməsində əhəmiyyətli rol oynayır.

Öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi isə dərslikdəki digər tapşırığın tələbləridir. “Möhkəmləndirmə. Zənginləşdirmə” başlıqlı həmin tapşırığın ilk tələbi (Əsərdə hansı mətləbləri daha mühüm hesab etdiniz?), əslində, əsəri bütövlükdə əhatə edən sanballı sualdır. Mətləblərin nümunələr əsasında izahı əsərin ideya məzmununun qavranılmasında mühüm addımlardandır.

Müəyyənləşdirilmiş bədii təsvir və ifadə vasitələrinin fərqləndirilməsi, cümlələrdə işlədilməsi nəzəri biliklərin tətbiq yolu ilə möhkəmləndirilməsini təmin edir.

Dərslikdə müzakirə məqsədilə mövzuların (Hekayə hansı mövzuda yazılmışdır? Hekayədə konflikt) təklif edilməsi dərsin maraqlı keçməsinə səbəb olur. Müzakirəyə hazırlaşan şagirdlər əsərin mühüm mətləblərini, bütövlükdə məzmununu bir daha xatırlamağa, mövzu ilə bağlı qənaətlərini əsaslandırmağa çalışırlar. Əsərdəki konfliktlə bağlı mübahisələrin olması təbiidir. Bu məsələdə görünən tərəf yox, daha dərin qatlardakılar əsas götürülməlidir.

Dərslikdəki “Nitqin, düşüncənin inkişafı” başlıqlı tapşırığa uyğun olaraq şagirdlər mənasını yeni aydınlaşdırdıqları sözlərdən bir neçəsinin (sayını müəllim dəqiqləşdirir) məzmunun başa düşülməsindəki rolunu yazılı qeydlər əsasında açıqlayırlar. Bu baxımdan *alay, xaniman, sərgərdan* sözləri səciyyəvidir.

Tapşırığın sonuncu tələbi (Mətnin məzmununu yığcam danışmağa hazırlaşın) genişdir. Dərsdə qalmış vaxtdan çıxış etmək lazım gəlir. Vaxt az qalmış olsa, əsərdən seçilmiş kiçik parçanın yığcam nağıl edilməsi üzrə işin təşkili faydalıdır. Yığcam nağıletmə ilə bağlı təcrübə qazanan şagirdlərə xatırladılır ki, nağıl edilən parçadakı əsas fikirlər saxlanılmaqla məzmunun çatdırılması vacibdir.

Çıxışlara münasibət bildirilməsinə, fikir mübadiləsinə diqqət yetirilir.

Lahiə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini nümunələrlə fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı ardıcıl izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədəki əsas konflikti nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun ardıcıl danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**MEHDİ HÜSEYN. KƏRƏM ƏFSANƏSİ –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, həyata baxış, davranış və nitqlərinə görə müqayisə edir (7-1.4.1).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Hekayədə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.4.3).
- Hekayənin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla izah edir (7-1.4.5).
- Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (7-1.4.7).

**Köməkçi vasitələr:** Mehdi Hüseynin əsərlərindən nümunələr. “Qaçaq Kərəm” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, nəzəri anlayışların araşdırılması.
2. **İfadəli oxuya hazırlaşın.** Əsərdən seçilmiş parçanın ifadəli oxusuna hazırlıq.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların təhlili, nəzəri anlayışların mənimsənilməsinin dərinləşdirilməsi və tətbiqi üzrə işin təşkili həyata keçirilir. Hekayədən seçilmiş parçanın oxusuna hazırlıq və ifadəli oxusu reallaşdırılır.

**Mövzuya yönəltmə (maraqoyatma).** Hekayənin məzmunu haqqında aydın təsəvvürün qazanılması dəyərləndirmə üzrə işin təşkilinə imkan verir. Bunun reallaşdırılması yazıçı niyyətinin, əsərin əsas ideyasının aydınlaşdırılmasına, əsaslandırılmış nəticələrin çıxarılmasına imkan verəcəkdir.

Layihə

Dərslikdə “Araşdırma. Təhlil” başlığı altında əks etdirilmiş tapşırıq çoxcəhətlidir. Hekayənin təhlili ilə bağlı mühüm məsələlərin, demək olar, hamısı burada əhatə olunmuşdur. Bu məzmunda tapşırığın əməkdaşlıq şəraitində yerinə yetirilməsi məqsədəuyğundur. Müəllim məqsədindən, sinfin səviyyəsindən asılı olaraq cütlük şəklində, yaxud kiçik qruplarda işin təşkilinə üstünlük verə bilər.

Əvvəlki dərsdə hekayənin mövzusu ilə bağlı müzakirənin keçirilməsi, müəyyən qənaətlərin əldə edilməsi dəqiqləşdirmənin aparılmasına imkan yaradır. Buna dərslikdə əks etdirilmiş tövsiyələr də az təsir etmir.

Obrazların (Kərəm, İsrafil ağa) səciyyələndirilməsi üçün bütün zəruri işlər əvvəlki dərslərdə həyata keçirilmişdir. Artıq hər iki obrazın xarakterlərindəki başlıca cəhətlər, davranış və əməlləri, həyata baxışları və s. barədə mükəmməl təsəvvür əldə edən şagirdlər təhlilə, münasibət bildirməyə, ümumiləşdirmə aparmağa hazır olurlar. Suallara əlavə edilmiş tövsiyələr obrazlar haqqında konkret fikirlərin səsləndirilməsinə əhəmiyyətli təsir edir.

Qaçaq Kərəm və İsrafil ağa obrazlarının müqayisə edilməsi tapşırığın maraqlı, həm də asan olmayan tələblərindəndir. Müqayisə üçün əsaslar müəyyənləşdirilmiş və cədvəldə əks etdirilmişdir. Lakin onlara yaradıcı yanaşılması məqsədəuyğundur. Başqa sözlə, əsaslar çoxaldıla, yaxud azaldıla bilər. Dərslikdə təklif edilmiş müqayisə əsaslarının hər birinə aid hekayədən tutarlı nümunələrin seçilməsi mümkündür və bu, diqqət mərkəzində saxlanmalıdır. Yazıçının obrazlara münasibətinin müqayisə obyekti olması şagirdləri yenidən düşünməyə, əsərə müraciət etməyə yönəldir. Yazıçı Qaçaq Kərəmə rəğbətini gizlətməmişdir. Əsərin bir neçə yerində xəsisliklə də olsa, onun haqqında xoş sözlər işlətmişdir. Yazıçının İsrafil ağaya rəğbəti özünü açıq büruzə vermir, lakin bu obrazla bağlı təsvirlərdə, səhnələrdə ona isti münasibətini hiss etmək mümkündür. Diqqətli şagird müəllifin sözlərinə əsaslanmaqla müqayisə üzrə fikir söyləməkdə çətinlik çəkməyəcəkdir.

Təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfənin izahı ilə bağlı tapşırıq şagirdlər üçün yeni deyildir. Təsvir və ifadə vasitələrinin işləndiyi cümlələrdən bir neçəsini seçib üzərində müşahidə aparan şagird çətinlik çəkmədən nəticə çıxarır: təsvir və ifadə vasitələrini cümlələrdən ayıranda fikir sönük görünür, onun bədii təsir gücü ciddi şəkildə azalır. Nümunələrin dərslikdə təklif edilmiş cədvəldə əks etdirilməsi yaranmış vəziyyəti müşahidə etməyə əlverişli şərait yaradır.

Tapşırığın sonuncu bəndi şagirdləri daha ciddi düşünməyə, axtarışlar aparmağa sövq edir.

- Konfliktin yaranma səbəbini nəzərə almaqla hekayənin əsas ideyasını şərh etməyə çalışın. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın. Əsərdəki mühüm mətləbləri nəzərə alın.

| S. | Əsərin əsas ideyasına hansı daha uyğundur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Milli-mənəvi dəyərlərin qorunub saxlanması hər şeydən vacibdir. | | |
| 2 | Xalqın igid övladları yadellilərin fitvası ilə bir-birinə düşmən kəsilirlər. | | |
| 3 | Xalqa güvənməyən igidin sonu olmaz. | | |

Konfliktin əks qütblərində dayananların müəyyənləşdirilməsi ideyanın doğru izahına səbəb olur. Doğrudanmı, konfliktin bir tərəfində Qaçaq Kərəm, digər tərəfində İsrafil ağa dayanır? Əgər belə olsaydı, əsərdə bu fikrə yer verilməzdi: “ – Mən borcumu ödədim!.. – deyə Kərəm bu dəfə artıq fərəhini boğa bilməyib dəli bir qəhqəhə çəkdi, sanki onun atsayağı kişnədiyi gənclik illəri geriyə qayıtdı, – mən də səni körpənə bağışladım!.. Sür atını, get. Lənət bu fani dünyaya! Lənət bu zamanəyə!..”

Kərəm İsrafillə onu düşmən edən zəmanəni – rus ağalığını lənətləyir. Konflikti məhz burada görmək lazımdır. Hekayənin ictimai-bədii dəyəri də məhz bundadır. Bunun aydınlaşdırılması ideyanın izahını birə-beş asanlaşdırır.

Dərslikdə təklif edilmiş sonuncu tapşırıq ifadəli oxu ilə bağlıdır. Əsərdən seçilmiş parçanın ifadəli oxusunu hazırlamaq üçün icra olunmalı işlər dərslikdə ardıcıllıqla əks etdirilmişdir. Seçilmiş parçanın həcmcə yığcam olması dərsdə işin başa çatdırılmasını mümkün edir.

Şagirdlər hekayədən seçilmiş mətni ("İfadəli oxunacaq parça"nı) iş vərəqinin sağ tərəfində ağ yer saxlamaqla yazıb aşağıdakı işləri ardıcıllıqla yerinə yetirirlər.

– İfaçılıq vəzifəsini – dinləyicilərə nəyi çatdıracağınızı müəyyənləşdirib mətnin sağ kənarında yazın.
– Cümlələrin oxusunda səsinizin aldığı çalarları (kədər, hüzn və s.) ifaçılıq vəzifəsinin altında qeyd edin.
– Fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini müəyyən edib şərti işarələrlə göstərin.
– Tənəffüs məqamlarını (dərindən nəfəsalma: Dn, əlavə nəfəsalma: Ən) müəyyən edib mətnin üzərində qeyd edin.
– Sait və samit səslərin müxtəlif məqamlarda tələffüzünə diqqət yetirin.

İşi fərdi yerinə yetirən şagirdlər cütlük şəklində, yaxud kiçik qruplarda fikir mübadiləsi aparırlar. İfaların dinlənilməsinə və münasibət bildirilməsinə vaxt ayrılır.

Dərslikdəki "Növbəti dərsə qədər" başlıqlı tövsiyə şagirdlərin diqqətinə çatdırılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları xarakter, həyata baxış, davranış və nitqlərinə görə nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas süjet xəttinin mərhələlərini nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları ilə ünsiyyət yaratmaqla ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

**Mövzu:**

**RƏSUL RZA.**

**AÇIN QAPILARI, İNSAN GƏLİR –**

**2 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını izah edir (7-1.1.4)
- Şeirdə mətləblərin əlaqələrini müəyyənləşdirir (7-1.1.7).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir 7-1.1.8).
- Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).

**Köməkçi vasitələr:** Rəsul Rzanın əsərlərindən nümunələr. “Açın qapıları, insan gəlir” şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Suallarından biliklərin xatırlanması, maraqoyatma vasitəsi kimi istifadə edilir.
2. **Oxu. Anlama.** Əsərin oxusu, ilkin qavranılma səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərdəki mühüm mətləblərlə bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
5. **Müzakirə.** Əsərin mövzusunun müəyyənləşdirilməsi ilə bağlı müzakirə.
6. **Xatırlatma. Dərinləşdirmə.** “Sərbəst şeir” anlayışının mahiyyətinin aydınlaşdırılması.
7. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin oxusu, ilkin qavranılma səviyyəsinin aşkara çıxarılması, mənimsəmənin dərinləşdirilməsi, nəticəsinin yoxlanması, möhkəmləndirilməsi, nəzəri anlayışlarn aydınlaşdırılması üzrə işin təşkili.

**Müəllim üçün məlumat.** *Xalq şairi Rəsul Rzanın “Açın qapıları, insan gəlir” şeiri yaradıcı insan, onun taleyi, həyata baxışı, düşüncələri, arzuları barədə geniş ümumiləşdirmə əsasında qələmə alınmış maraqlı sənət əsəridir. Mürəkkəb ictimai problemlər şeirdə elə sənətkarlıqla ifadə edilmişdir ki, şagirdlər onları qavramaqda çətinlik çəkməyəcəklər. Şeirdə dil sadəliyi, ən əsası isə orijinal deyimlər oxucunu dərhal cəlb edir, onu maraqlandırır və düşündürür. Şair uşaqlıq illərinin real təsvirlərindən ictimai məsələlərin təqdiminə elə ustalıqla keçir ki, oxucu fərqinə varmadan onların da təsiri altına düşür, bu fikirləri adi nəsihət kimi yox, müdrik insanın tövsiyələri kimi qavrayır və düşünür...*

*Əsər bu gün də aktualdır, şübhəsiz, hələ uzun illər diqqət mərkəzində olacaq. Çünki bəşəriyyətə problem yaradan məsələlərə toxunulub və onlara həqiqi insan münasibəti açıqlanıb.*

*Şeirin üzərində şagirdləri düşündürmək, hər misranın ifadə etdiyi mənanı başa düşüb dəyərləndirməyi bacarmalarına nail olmaq mühüm vəzifə hesab edilməlidir. Bunun üçün dərslikdə təklif edilənlərə yaradıcı yanaşmaq, əlavələrlə onları zənginləşdirmək arzuolunandır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərslikdəki “Yadasalma” başlığı altında verilmiş suallar (Sülhə, əmin-amanlığa həsr edilmiş hansı əsərlərlə tanışsınız? Belə əsərlərdə hansı fikirlərin ifadə olunmasını üstün sayırsınız?) diqqətə çatdırılır. Onlardan istifadə ilə aparılan yığcam müsahibənin sonunda nəticə çıxarılır: Bu məzmunda yazılmış şeirlərdə müəllifin başlıca niyyəti nə olur? Belə şeirlərdə bugünkü insanın həyat mövqeyi necə müəyyən edilir?

Qeyd olunur ki, şeirin öyrənilməsi bu qəbildən suallara cavab tapmağa imkan verəcəkdir.

**Oxu. Anlama.** İlk oxunun hansı formada təşkili müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır. Şeirin məzmunu müstəqil qavramaya imkan verdiyindən səssiz oxudan istifadə mümkündür. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılması fikrin başa düşülməsinə əhəmiyyətli

Lavihə

təsir edir. Oxuda müəllimin köməyinə ehtiyac yaranarsa, istiqamətləndirici suallardan istifadə olunur. Sonda şagirdlərin diqqəti təəssüratların bölüşülməsi üçün dərslikdə əks olunmuş suallara cəlb edilir.

– Şeiri oxumaq maraqlı oldumu? Nə üçün?
– Şeirin sizdə yaratdığı ən güclü təəssürat nə oldu?
– Şeirdə sizə tanış olan hiss və düşüncə varmı?

Şagirdlər təəssüratlarını təqdimatlar etməklə bölüşə bilərlər. Vaxta qənaət baxımından müsahibənin aprılması daha sərfəlidir. Cavablar fərqli məzmunda olsa da, bütövlükdə ilkin qavramanın səviyyəsi barədə təsəvvür əldə etmək olur. Nəticədən asılı olaraq müəllim dərinləşdirilmiş oxunu necə təşkil edəcəyini müəyyənləşdirir. Bu məqsədlə o, dərslikdəki suallara yaradıcı (əlavələr edir, azaldır və s.) yanaşır.

Dərslikdəki suallarda yalnız məzmunla bağlı dərinləşdirilmiş bilik əldə etmək məqsədi güdülməmişdir. Suallar müəllifin fərqli məsələlərə münasibətini, ciddi ictimai problemlərlə bağlı düşüncələrini anlamağa istiqamət verir. Elə ilk sual (Müəllif şeirin ilk misralarında özünü necə təqdim edir? O, “silah”, “ölüm” sözlərini nə məqsədlə işlətmişdir?) şairlə oxucu arasında səmimi ünsiyyətin təməlini qoyur: əlində silah gəzdirməyən, fikrində ölüm olmayan hər kəs insanın dostudur, o, sadə ürək sahibi olub könlünü məhəbbət üçün açıq saxlayır...

Növbəti sual (Şair xalqa münasibətini necə ifadə etmişdir?) müəllifi oxucuya daha yaxından tanıdır: o, xalqın sevincini, dərdini yazan, qəlbi xalqla birlikdə döyünən sənətkardır...

Digər sual (Şair şeirə, sənətə, təbiətə, doğma yurda münasibətini necə ifadə etmişdir?) müəllifin həyata baxışı barədə ilkin təsəvvür yaradır: o, şeiri, sənəti həyat mənbəyi kimi uca tutur, təbiət, təbiət hadisələri, təbiətin nemətləri, üstündə gəzdiyi vətən torpağı onun üçün əzizdir, əvəzedilməzdir...

Başqa bir sual (O, insanları nə barədə xəbərdar edir? Onu haqlı saymaq olarmı?) müəllifin mövqeyinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir: o, insanları kin və qəzəbdən uzaq olmağa, qardaşlıq və məhəbbətə üstünlük verməyə səsləyir, lakin nifrət hissi də unudulmamalıdır, çünki bəşəriyyət hələ əliqanlı güclülərlə üz-üzədir...

Öyrənilənlərin test tapşırıqları ilə yoxlanmasına vaxt ayrılır. Şagirdlər tapşırığın üzərində fərdi işləyirlər. Cavab variantlarının hər birinin izahına, təhlilinə diqqət yetirilir.

Növbəti tapşırıq (Möhkəmləndirmə. Zənginləşdirmə) mənimsənilənlərin, xüsusən mətləblərin dəqiqləşdirilməsi və möhkəmləndirilməsi baxımından faydalıdır. Cavablar təqdimatların dinlənilməsi əsasında müzakirə edilir. Əsərdəki mühüm mətləblərin bəndlər şəklində qısaca qeyd edilməsi məqsədəuyğundur.

Əsərin mövzusu ilə bağlı qənaətlərin bildirilməsi müzakirənin təşkili ilə həyata keçirilir. Əsərdəki mətləblərin mənimsənilməsi qənaətlərin ağlabatan olmasına az təsir etmir.

Təhsil proqramının tələbinə əsasən “sərbəst şeir” anlayışı haqqında məlumatın mənimsənilməsi həyata keçirilir. Dərslikdə “Xatırlatma. Dərinləşdirmə” başlığı altında verilmiş mətnlə tanışlıq üçün vaxt elan edilir. Mətni fərdi oxuyan şagirdlərə cütlük şəklində fikir mübadiləsi aparmaq üçün vaxt ayrılır. Mətnin oxusu şagirdlərin aşağıdakı məlumatı qazanmalarına imkan yaratmalıdır:

– sərbəst şeir ədəbiyyatımızda geniş istifadə olunan şeir ölçüsüdür;
– sərbəst şeirdə misraların həcmi, daxili bölümü, qafiyələrin yeri sabit qaydalara tabe deyildir;
– sərbəst şeirdə misraların pilləli olması, bəzən qafiyələrin dalbadal gəlməsi müəyyən fikrin daha qabarıq çatdırılmasına imkan yaradır;
– sərbəst şeirlərdə ahəngin yaranmasında məntiqi vurğulu sözlərin əhəmiyyətli rolu vardır, təsadüfi deyildir ki, bu qəbildən nümunələrdə məntiqi vurğulu sözlər sayca çox olur.

R.Rzanın “Açın qapıları, insan gəlir” şeiri üzərində müşahidə aparan şagirdlərin bu deyilənlərin nümunədə necə əks olunduğunu misallar əsasında izah etməsi faydalıdır. Lakin dərinləşdirilmiş iş növbəti dərsdə reallaşdırılır.

Layihə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə mətləblərin əlaqələrini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin ardıcıl davamlılığına diqqət edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**RƏSUL RZA.**

**AÇIN QAPILARI, İNSAN GƏLİR –**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu şərh edir (7-1.2.2).
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir (7-2.1.4).
- Ədəbi mövzu üzrə esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).
- Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).
- Ədəbi mövzuda essedə hiss və düşüncələrini ifadə edən qənaətlərini əsaslandırmağa diqqət edir (7-2.2.6).

**Köməkçi vasitələr:** Rəsul Rzanın əsərlərindən nümunələr. "Açın qapıları, insan gəlir" şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Şeirin mövzusunun dəqiqləşdirilməsi, ideyası, eləcə də ədəbi-nəzəri anlayışlar üzrə araşdırma və dəyərləndirmənin həyata keçirilməsi.
2. **Yaradıcı iş.** Esse yazılması.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Şeirin mövzusu ilə bağlı qənaətlər dəqiqləşdirilir, müəllif obrazı və şeirin janr xüsusiyyətləri haqqındakı təsəvvür dəqiqləşdirilir, ideyanın aydınlaşdırılması və essenin yazılması üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Şeir müəllifin oxucularla birbaşa, səmimi ünsiyyəti təsirini bağışlayır. İlk sətirlərdən oxucuların rəğbətini qazanan müəllif özü haqqında aydın təsəvvür yaradır: işıqlı arzularla yaşayan, sadə ürək sahibi olan, xalqının sevincini, kədərini bacardığı kimi yazan sənətkardır... Şeir oxunduqca onun obrazı haqqında daha dolğun təsəvvür qazanılır. O, həyatını, şəxsi düşüncələrini, insan və dünya haqqındakı baxışlarını maraqlı bədii detallarla diqqətə çatdırır. Beləliklə, əsərdəki başlıca niyyət, əsas ideya birbaşa müəllifin dili ilə ifadə olunur. Məhz buna görə də tapşırığa ayrıca bənd – "Şeirin müəllifi barədə sizdə hansı təsəvvür yarandı?" daxil edilmişdir. Sualın cavabının aydınlaşdırılması əsərin ideya məzmununun başa düşülməsi və dəyərləndirilməsində əhəmiyyətli rol oynayır.*

Dərslikdə araşdırma və təhlilin həyata keçirilməsinə xidmət edən tapşırıq əsərin mövzusu ilə bağlı əvvəlki dərsdə əldə edilmiş qənaətin dəqiqləşdirilməsi tələbi ilə başlayır. Bu tələb – tapşırığın bəndlərinə əlavə edilmiş tövsiyələr mövzu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsinə ciddi təsir edir. Müəllifin fikrincə, insan həyatda ən uca məqamda tutulmalıdır, həyatda ən önəmli olan isə insani münasibətlərin qorunub saxlanmasıdır. Yalnız insan qardaşlığı, insan ülfəti, insan məhəbbəti yer üzündə həmişə bahar olmasını təmin edər. Deməli, əsərin mövzusunun əsasında insan, onun həyatdakı mövqeyi dayanır.

Tapşırığın "Əsərin sərbəst şeirin tələblərinə uyğun olduğunu nümunələrlə əsaslandırın" tələbi əvvəlki dərsdə mənimsənilmiş biliklərə əsaslanır. Şagirdlər bəndə əlavə edilmiş tövsiyələr üzrə düşünür və işləyirlər:

– misralarda hecaların sayına diqqət edin;
– həmqafiyə sözlərin necə işlənildiyini müəyyənləşdirin;
– misraların həcminə, məntiqi vurğulu sözlərə diqqət edin.

Ləvhə

Şeirin üzərində müşahidə aparan şagirdlər yazılı qeydlər əsasında təqdimatlara hazırlaşırlar. Təqdimatların fəal dinlənilməsinə və diskussiya şəraitinin yaradılmasına səy göstərilir.

Əsərin ideyasının aydınlaşdırılması, şərh edilməsi əsərdəki mətləblərin yenidən xatırlanmasını, onlara istinad edilməsini vəzifə kimi qarşıya qoyur. Bu vəzifənin yerinə yetirilməsi əsərin ideyası ilə bağlı dərslikdə əks etdirilmiş variantların obyektiv təhlilinə səbəb olur. Ən əsası isə şagirdlərə öz variantlarını müəyyənləşdirmək imkanı yaradır.

Dərslikdə "Yaradıcı iş" başlığı altında yığcam essenin icrası nəzərdə tutulmudur. İki mövzu təklif edilmişdir; onlardan biri ədəbi mövzuda, digəri mühakimə xarakterlidir:

– "Açın qapıları, insan gəlir..." şeirində müəllifin narahatlığına əsas varmı?

– Yer üzündə həmişə bahar olması üçün insanlar nə etməlidirlər.

Essenin yerinə yetirilməsi ilə bağlı dərslikdəki mətn (Esseni necə yazmalı) nəzərdən keçiriləndən sonra yığcam müsahibə aparılır. Essedə obrazlı söz, təsvir-ifadə vasitələrindən istifadə edildiyi, şəxsi hiss və düşüncələrin ifadəsinə geniş yer verildiyi, qənaətlərin əsaslandırılmasına diqqət yetirildiyi xatırladılır.

Yazının icrası başa çatdıqdan sonra mətnin oxunmasına, özünüqiymətləndirməyə və müzakirəyə vaxt ayrılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin əsas ideyasını ondakı mətləblərə əsalanmaqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ədəbi mövzu üzrə esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən ardıcıl istifadə ilə icra edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən ardıcıl istifadə ilə icra edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Ədəbi mövzuda essedə hiss və düşüncələrini ifadə edən qənaətlərini ardıcıl əsaslandırmağa diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

**Mövzu:**

**Gİ DE MOPASSAN. BALACA ÇƏLLƏK –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Epik əsərdən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).
- Çıxışında mimika və jestlərdən istifadə edir (7-2.1.3).

**Köməkçi vasitələr:** Gi de Mopassanın əsərlərindən nümunələr. "Balaca çəllək" novellasına çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istfadə olunması.
**2. Oxu. Anlama. Əsər**dən parçanın ilkin oxusu, məzmununun qavranılma səviyyəsinin aşkara çıxarılması. Dərinləşdirilmiş oxunun təşkili.
**3. Öyrəndiklərinizi yoxlayın.** Mənimsənilənlərin test tapşırıqları əsasında yoxlanması.
**4. Nitqin, düşüncənin inkişafı.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi üzrə işin təşkili.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– Əsərdən bir parçanın oxusu;
– ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun həyata keçirilməsi;
– məzmununun öyrənilməsinin yoxlanması;
– əsərdən seçilmiş bitkin parçanın yaradıcı nağıl edilməsi.

**Müəllim üçün əlavə məlumat.** *Dünya ədəbiyyatında maraqlı novella müəllifi kimi tanınan Gi de Mopassanın "Balaca çəllək"əsəri bir çox ölkələrin məktəblərində tədris edilir. Əsər təkrarolunmaz obrazları və süjeti ilə oxucuların diqqətini cəlb edir və maraqla oxunur. Novellanı təhlil edən tənqidçilər başlıca diqqəti qəhrəmanların üzərinə yönəldirlər. Bu, təsadüfi deyildir; Şiko və Maqluar qarı yüksək sənətkarlıqla, deyildiyi kimi, "zərgər dəqiqliyi ilə" işlənmiş, yaradılmış obrazlardır.Tamahkarlıq və hiyləgərlik onları birləşdirən mühüm cəhətlərdir, bu baxımdan onlar bir-birindən geri qalmırlar. Yazıçı niyyətinin başa düşülməsinə obrazların doğru qavranılması əhəmiyyətli təsir edir. Məhz buna görə də istər oxuda, istərsə də təhlildə başlıca diqqətin qəhrəmanlara yönəldilməsi lazım gəlir. Bu bütün mərhələlər üçün (ilkin oxu, dərinləşdirilmiş oxu, təhlil) müəyyənləşdirilmiş sual və tapşırıqlarda nəzərə alınmışdır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərin diqqəti dərslikdəki "Yadasalma" başlıqlı suallara (Acgözlüyün, tamahkarlığın acı nəticələri barədə bədii əsərlər oxumusunuzmu? Belə əsərlərin qəhrəmanları haqqında nə düşünmüsünüz?) cəlb olunur. Sualların əsasında aparılan yığcam müsahibənin sonunda nəticə çıxarılır: Sizcə, bu mövzuda əsərlərin yazılmasına səbəb nədir?

Qeyd olunur ki, öyrəniləcək novelladan çıxarılan nəticə suala doğru cavabın tapılmasına imkan verəcəkdir.

**Oxu. Anlama.**

Əsərdən verilmiş parçanın oxusu (oxunun formasını müəllim müəyyənləşdirir) həyata keçirilir. Tanış olmayan sözlərin mənasının oxu prosesində aydınlaşdırılmasının vacib olduğu şagirdlərə xatırladılır. Oxu başa çatdırıldıqdan sonra ilkin təəssüratın bölüşülməsi məqsədilə dərsliyə daxil edilmiş suallara diqqət yetirilir.

Leylinə

– Əsərdə sizi heyrətləndirən, yaxud daha çox düşündürən məqamlar oldumu? Fikrinizi nümunələrlə izah edin.
– Şiko obrazı haqqında ilkin təəssüratınız nə oldu?
– Maqluar qarı haqqında sizdə hansı təsəvvür yarandı?

Yığcam müsahibə aparmaqla ilkin qavranılma səviyyəsini aşkara çıxarmaq olar. Çıxarılmış nəticə dərinləşdirilmiş oxunun necə aparılmasının lazım olduğu barədə təsəvvür yaradır. Dərinləşdirilmiş oxunun təşkili üçün dərsliyə daxil edilmiş suallar sayca çox, məzmunca konkretdir. Onların əhatə edilməsi üçün digər tapşırıqlara çox az yer verilmişdir. Artıq deyildiyi kimi, suallarda diqqətin obrazlara yönəlməsinə səy göstərilmişdir. Məsələn, birinci sual (Şikonun xarici görkəmini necə təsəvvür etdiniz?) qəhrəman haqqında təsəvvürün konkretləşməsinə, başlıcası isə yazıçının ona münasibəti barədə müəyyən qənaətin yaranmasına səbəb olur. Yazıçı cəmi bir neçə cümlədə öz qəhrəmanı haqqında əhəmiyyətli məlumat verir: "Şiko qırx yaşlarında, yekəqarın, qırmızısifət bir adam idi. Başı sanki çiyinlərinə bitişmişdi. Yeriyəndə qollarını kənara yelləyir, elə bil suda üzürdü. Üzü həmişə tüklü olurdu. Əzik kətan köynəyi onun pinti olduğundan xəbər verirdi". Bu sətirlərdə yazıçının qəhrəmanına münasibətini hiss etmək çətin deyil. Lakin müəllif bununla kifayətlənməmiş, obrazın portretinin təsvirindən sonra sanki bir cümlə yazmaqdan özünü saxlaya bilməmişdir: "Bir az da kələkbaz idi". Bu cümlə Şiko haqqında bütün deyilənlərə çox yaxşıca yekun vurmuşdur. Yazıçı oxucuya xəbərdarlıq edir: diqqətli olun, Şiko adi adamlardan deyildir...

İlkin oxuda sezilməyən bu cəhət dərinləşdirilmiş oxuda aşkara çıxarılır, üzərində düşünmək imkanı əldə edilir...

Növbəti sual (Sizdə ona rəğbət yarandımı? Nə üçün?) şagirdlərə öz mövqelərini dərhal aydınlaşdırmaq imkanı verir. Cavabların əsaslandırılması tələb olunur və fikir mübadiləsi aparılır.

Növbəti iki sual (Maqluar qarının torpağı, mülkü barədə nə öyrəndiniz? Bu mülk insanları nə üçün cəlb edirdi?) bir-biri ilə əlaqəlidir. Maqluar qarıya məxsus olan torpaq həm geniş, həm də münbit olduğuna görə diqqəti cəlb edir. Suyu bol, başdan-başa yaşıllığa qərq olan torpaq görənləri valeh edir.

Sonrakı sualın (Mülklə bağlı Şikonun fikri nə idi?) cavabının ümumiləşdirmə ilə ifadə edilməsinə nail olunur: Hiyləgər və ayıq Şikonun gözləri bu torpağı tutmaya bilməzdi...

Maqluar qarının xarici görünüşü barədə əsərdə işlədilən ikicə cümlə oxucunun gözləri önündə arıq, beli bükülmüş, lakin qıvraq, gözlərinin parıltısı hələ sönməyən bir qarı obrazını canlandırır. Portretin bu şəkildə yaradılması təsadüfi deyildir: oxucuda belə təsəvvür yaranır ki, Maqluar qarı hələ uzun illər yaşaya bilər...

Əsərdəki psixoloji məqamların başa düşülməsi məqsədilə dərsliyə daxil edilmiş suallların (Maqluar qarını görən Şiko "özünü itirən kimi" olur. Sizcə, buna səbəb nədir? Qarı ilə söhbətə başlamaq Şikoya nə üçün çətin idi? Onun keçirdiyi hissləri izah edə bilərsinizmi?) cavabları ilkin qavramadan sonra şagirdlər üçün aydın olmur. Sualların cavabı üzərində düşünən şagirdlər mətnə yenidən müraciət etməyə məcbur olur, fikirlərini nümunələrlə əsaslandırmağa çalışırlar. Aydınlaşdırılır ki, bu dəfə Şiko düşündüyü ağlagəlməz planı həyata keçirmək üçün Maqluar qarının evinə gəlmişdir. Bu hiyləgər plan Şikonun özünə də qəribə, qeyri-adi gəlir, o, "özünü itirən kimi olur", "çəkinir", "tərəddüd edir"... Amma, qəribədir ki, geri çəkilmir, tamah hissi qələbə çalır...

Dərslikdə təklif edilmiş sonrakı suallar (Torpaqla bağlı Şikonun qarıya etdiyi təklif sizdə hansı təəssürat yaratdı? Sizcə, o, ümidini nəyə bağlamışdı?) ilkin qavramanın yoxlanmasında verilmiş suala (Əsərdə sizi heyrətləndirən, yaxud daha çox düşündürən məqamlar oldumu?) birtərəfli cavabların dolğun məzmun qazanması məqsədini güdür.

Dərinləşdirilmiş oxu üçün təklif edilmiş sonrakı suallar (Maqluar qarı nə üçün Şikonun təklifini əvvəllər olduğu kimi dərhal rədd etmədi? Qarının təklifə şübhə ilə yanaşmasına səbəb nə idi? Şikodan möhlət istəyən qarı günlərini necə keçirdi? Maqluar qarı notarius idarəsində özünü necə aparır, ona nə



Layihə

məsləhət görürlər? Onun son qərarı nə olur?) obrazlarla bağlı ilkin oxuda sezilməyənlərin aşkara çıxarılması baxımından əhəmiyyətli olub əsərin alt laylarına enməyə sövq edir. Öyrənilənlərin test tapşırıqları ilə yoxlanmasına vaxt ayrılır. Fərdi olaraq hazırlanan cavabların əhatəli təhlili həyata keçirilir.

Növbəti tapşırıq əsərdən seçilmiş bitkin parçanın yaradıcı nağıletmənin tələblərinə uyğun danışılmasıdır. Şagirdlər oxu üçün müəyyənləşdirdikləri parçanın azbəndli – sadə planını hazırlayırlar. Əlavələrini ayrıca yazır, əsərin məzmunu ilə səsləşməsinə xüsusi diqqət yetirirlər. Seçilmiş parçadakı başlıca fikrin dinləyicilərə çatdırılması mühüm meyar kimi diqqət mərkəzində saxlanılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərdən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun ardıcıl danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ardıcıllığa əməl etməklə çıxışının məzmununa uyğun sadə plan hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışında mimika və jestlərdən məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**Gİ DE MOPASSAN. BALACA ÇƏLLƏK –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7.1.3.4).
- Müəllifin obrazlara münasibətini müəyyənləşdirir (7-1.3.8).
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir (7-1.4.8).
- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).
- Dialoji nitq şəraitində ritorik suallardan istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).

**Köməkçi vasitələr:** Gi de Mopassanın əsərlərindən nümunələr. “Balaca çəllək” novellasına çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
**2. Müzakirə.** Əsərin mövzu və konfliktinin aydınlaşdırılması üzrə işin təşkili.
**3. Xatırlatma. Dərinləşdirmə.** “Novella” janrı haqqında biliyin mənimsənilməsi üzrə işin təşkili.
**4. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– əsərin davamının oxusu;
– ilkin qavrama səviyyəsinin aşkara çıxarılması;
– dərinləşdirilmiş oxunun həyata keçirilməsi;
– öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi;
– əsərin mövzu və konfliktinin aydınlaşdırılması.

**Oxu, Anlama.** Əsərin davamının oxusu həyata keçirilir. Tanış olmayan sözlərin mənasının müstəqil aydınlaşdırılmasına diqqət yetirilir. İlkin qavramanın səviyyəsinin aşkara çıxarılması məqsədilə dərsliyə daxil edilmiş suallarla tanış olan şagirdlər cavabların üzərində düşünürlər. Müsahibədən və ya təqdimatlardan istifadə ilə təəssüratların dinlənilməsi reallaşdırılır. Cavabların təhlili qavramanın səviyyəsi haqqında təsəvvürün qazanılmasına səbəb olur. Bu isə öz növbəsində dərinləşdirilmiş oxuda hansı məsələlərə daha çox diqqət ayırmağın lazım olduğunu müəyyənləşdirməyə imkan verir.

Dərinləşdirilmiş oxu üçün dərsliyə daxil edilmiş suallar hazırlanarkən əsərin məzmununun maksimum əhatə edilməsinə səy göstərilmişdir. Suallara əlavələr etməyə ehtiyac yoxdur. Lakin ilkin oxu səmərəli təşkil edilibsə, həmin suallardan ixtisarlar etmək məqsədəuyğundur. Bu suallarda obrazların davranış, hiss-həyəcan və psixoloji durumlarına ayrıca diqqət yetirilmişdir. Elə ilk suala (Qarının Şiko ilə “məzələnməkdə” məqsədi nə idi?) cavab hazırlanarkən Maqluar qarının Şikonun düşündüyü qədər də sadəlövh olmadığını anlamaq mümkün olur. Yaxud Şikonun tamahkar olduğu qədər də xəsis olduğunu ikinci sualın (Qarının əlli ekü tələb etməsinə Şikonun münasibəti necə oldu?) cavabı aydınlıq gətirir. Onlar bir-birinin gözlərinin içinə baxa-baxa yalan danışır və qarşıdakını öz yalanına inandırmağa çalışır. Növbəti sual (Maqluar qarı sağlamlığının yerində olmadığını deməklə nəyə işarə edir? Onun səmimiliyinə inanmaq olarmı?) məhz bunun aydınlaşdırılması məqsədilə təklif edilmişdir.

Müqavilənin bağlanmasından bir neçə il sonra Şikonun əndişəyə düşməsi, gərgin, narahat günlər keçirməsi ilkin oxuda qədərincə sezilmir. Əslində, bu səhifələr əsərin ən maraqlı yerlərindən olub obrazın daha ətraflı başa düşülməsi və dəyərləndirilməsi üçün əhəmiyyətlidir. Sonrakı suallar (Müqavilənin bağlanmasından bir neçə il sonra Şikonun əndişəyə düşməsinə səbəb nə idi? Onun gərgin,

Layihə

narahat günlər keçirməsi, hiss-həyəcanları əsərdə necə ifadə edilmişdir?) dərinləşdirilmiş oxuda bunların açıqlanmasına əlverişli imkan yaradır.

Yazıçı qəhrəmanını – Şikonu oxucusuna hərtərəfli tanıdır. O, uzun-uzadı təsvirlərə yer vermədən cəmi bir neçə cümlə ilə böyük bir mətləbə aydınlıq gətirir. Suallardan biri belədir: Ailə üzvlərinin Şikoya münasibəti barədə nə deyə bilirsiniz?

Məhz dərinləşdirilmiş oxuda aydınlaşdırılır ki, Şiko ilə ailə üzvləri arasında səmimi münasibət yoxdur, ona inanmırlar, sual verməyə cəsarət etmirlər. Şagirdlər əsərdən fikirlərini təsdiq edən nümunə seçirlər: "Gecələr yuxuya gedə bilmirdi. Sağa-sola çevrilir, ah-uf səsi qonşu otaqda da aydın eşidilirdi. Evdəkilər onun dərdindən xəbərsizdilər. Soruşmağa cəsarət etmirdilər, nə vaxtsa deyəcəyinə də inanmırdılar".

Qarını meyxanaya cəlb etmək Şikonun planının bir hissəsi idi. O buna çox cəhd edir. İlkin oxuda bunun səbəbini tam aydınlaşdıra bilməyən şagirdlərə yeni sual üzərində (Onun qarını israrla öz meyxanasına qonaq olmağa dəvət etməsi sizi təəccübləndirdimi? Nə üçün?) düşünməli olurlar.

Digər bir sual isə (Maqluar qarını meyxanaya çəkib aparan hansı hiss idi?) qarının hədsiz tamahkar və xəsis olduğunun aşkara çıxarılmasına hesablanmışdır. Mətni yenidən, indi daha diqqətlə nəzərdən keçirən şagirdlər yazıçının niyyətini anlamış olurlar.

Qarının şərab içməsi üçün dəridən-qabıqdan çıxan Şikonun davranışını aydınlaşdırmağa xidmət edən sual (Şikonun şərabı aramsız tərifləməsi, qarının içməsini təkid etməsi sizi təəccübləndirdimi? O bunu qonaqpərvər olduğu üçünmü edir?) onun əsl niyyəti barədə düşünməyə, müəyyən nəticə çıxarmağa imkan yaradır. Şagirdlərdən daha diqqətli olanlar bunun Şikonun planının mühüm hissəsi olduğunu izah edirlər.

Sonrakı suallar Şikonun öz məqsədinə çatmaq üçün həyata keçirdiyi hiylələri anlamağa imkan yaradır: Şikonun öz niyyətini son dərəcə gizli saxlaması (Şiko elə vaxt seçmişdi ki, qonşulardan kimsə nə onu, nə də çəlləyi gördü. Sizcə, Şiko nə üçün belə edir?), qarıya şərab çəlləyi hədiyyə edəndən sonra böyük maraqla onun evinə gəlməsi (Qarıya şərab çəlləyi hədiyyə edəndən bir neçə gün sonra Şikonun görüşə gəlməkdə məqsədi nə idi?), bu evdən ayağını kəsməsi (Sizcə, Şiko qarının evindən ayağını nə üçün kəsir?) bu qəbildəndir.

Sonuncu iki sual Şikonun həm də ikiüzlü olduğunu anlamağa səbəb olur. Birinci sualla (Maqluar qarının içkiyə qurşandığını eşidən Şiko hansı fikri səsləndirir? Onu səmimi saymaq olarmı?) bağlı Şikonun sözləri xatırladılır: "Bu yaşda içkiyə belə qurşanmaq bədbəxtlikdir. Adam qocalanda canı da zəifləyir. İçki qarının axırına çıxmasa yaxşıdır". Bu, Şikonun illərlə düşünüb hazırladığı planın əsasını təşkil edirdi.

İkinci sual (Qarının ölümündən sonra Şikonun dediyi sözlər onun hansı gizli niyyətini başa düşməyə imkan verir?) Şikonun nədən qorxduğunu, belə bir amansız, hiyləgər addım atmasının səbəbini başa düşməyə imkan yaradır. Onun son sözləri nümunə kimi səsləndirilir: "Bu səfeh qarı içməsəydi, hələ bir on il də yaşaya bilərdi".

Növbəti tapşırıq şagirdlər üçün maraqlıdır. Tapşırığın birinci bəndi yazıçının obrazlara münasibətinin aydınlaşdırılması ilə bağlıdır. Novellada yalnız bir yerdə yazıçı Şiko haqqında birbaşa fikir bildirmişdir. Onun yaddaqalan portretini sözlə çəkən müəllif "Bir az da kələkbaz idi" cümləsini işlədir. Lakin oxucular yazıçının öz qəhrəmanına münasibətini əsər boyu duyur. Bu, təsvirlərdə, Şikonun sözlərində, əməllərində özünü büruzə verir. Şikonun qarı ilə rəftarını amansız saymaq olar; o, tamahkar, hiyləgər və ikiüzlüdür. Onu ailə üzvləri də sevmirlər... Mopassan belə qəhrəmana rəğbət bəsləyə bilməzdi. Lakin o, Şikoya nifrətini bircə kəlmə ilə də olsun ifadə etmir. Əlbəttə, bu məsələdə yaradıcılıq metodunun tələbləri mühüm rol oynayır.

Müəllifin Maqluar qarı obrazına münasibətini müəyyənləşdirmək oxucu-məktəbli üçün çətin deyildir. Bu münasibət birbaşa ifadə edilmir, lakin obrazın nitqi, davranışı, əməllərində bunu duymaq asandır. Qarının tamahkarlığı sanki yazıçının özünü belə heyrətləndirir, o, ipə-sapa yatmır, müəllifin istəyindən asılı olmayaraq baş alıb gedir, gərəksiz əməllərə əl atır. Onun qədərindən artıq ehtiyatlılığı, özünəməxsus hiyləgərliyi bəzən oxucuda heyrət və gülüş doğurur. Bu məqamda oxucu mövqeyi ilə müəllif mövqeyi üst-üstə düşür.

Tapşırığın ikinci bəndi (Maqluar qarı mühüm qərar qəbul etməyə bilərdimi?) obrazla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi baxımından əhəmiyyətlidir. Şikonun təklifi onun rahatlığını əlindən alır. Gecəni yuxuya gedə bilməyən, gündüzlər əli işə yatmayan, günlərlə

Layihə

qızdırmalı adam kimi ağlına şübhəli fikirlər gələn qarı, nəhayət, mühüm qərar qəbul edir. Buna səbəb isə "havayı yerdən ətəyinə töküləcək sikkələrin cingiltisi" olur. O, mühüm qərar qəbul etməyə bilmir.

Novellanın mövzusunun və konfliktinin müzakirə ilə aydınlaşdırılması məqsədəuyğun sayılmışdır. Obrazlar üçün səciyyəvi cəhətlərin, eləcə də baş verən əsas hadisənin səbəbinin aydınlaşdırılması novellanın mövzusunun müəyyənləşdirilməsinə imkan verir.

Əsərdəki konfliktin əks qütblərində obrazların durduğunu düşünmək birtərəfli yanaşma olardı. Konflikt oxşar, amma fərqli niyyətləri güdən arzu və istəklərin arasında baş verir.

Təhsil proqramının tələbinə uyğun olaraq VII sinifdə "novella" janrı haqqında nəzəri məlumatın mənimsənilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə dərslikdə "Xatırlatma. Dərinləşdirmə" başlığı altında verilmiş yığcam məlumatla tanışlıq həyata keçirilir. Sonda – müsahibə prosesində ehtiyac yaranarsa, əlavələrin edilməsi mümkündür. Aparılmış ümumiləşdirmənin əsasında isə aşağıdakı fikirlər əksini tapmış olur:

– epik növdə yazılan novella hekayənin bir növü, şəkli hesab olunur;
– novellada yığcam əhvalat, hadisə təsvir olunur;
– iştirakçıların sayı çox olmur;
– belə əsərlərin süjetində bir qeyri-adilik, əslində, qəribəlik olur;
– qeyri-adilik qəhrəmanların davranış və əməllərində də müşahidə olunur;
– əlavə süjet xəttinə az hallarda yer verilir;
– hadisələrin necə davam edəcəyi və başa çatacağı aydın təsəvvür edilmir;
– novella üçün səciyyəvi cəhət finalda – əsərin sonunda özünü göstərir: əhvalat, hadisə gözlənilməz bir şəkildə başa çatır;
– əsərin belə tamamlanması oxucunu həm düşündürür, həm də heyrətləndirir: məzmundan asılı olaraq oxucuda acı təbəssüm, yaxud xoş ovqat yaranır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Epik əsərin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Müəllifin obrazlara münasibətini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini nümunələr əsasında dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışın məzmununa uyğun məntiqi əsaslı olan sadə plan hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

**Mövzu:**

**Gİ DE MOPASSAN. BALACA ÇƏLLƏK –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, davranış və əməllərinə ğörə müqayisə edir (7-1.4.1).
- Əsərin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla izah edir (7-1.4.5).
- Ədəbi məktubda əsas fikirləri müəyyənləşdirir (7-1.5.3).
- Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini dəyərləndirir (7-1.6.1).

**Köməkçi vasitələr:** Gi de Mopassanın əsərlərindən nümunələr. "Balaca çəllək" novellasına çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1.Araşdırma. Təhlil.** Əsərin mövzusu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsi, obrazların səciyyələndirilməsi, ideyasının aydınlaşdırılması.

**2. Yaradıcı iş.** Ədəbi məktub nümunəsinin yazılması üzrə işin təşkili.

**3. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzusunun dəqiqləşdirilməsi, obrazların təhlili, ideyasının aydınlaşdırılması, nəzəri biliklərin tətbiqi, ədəbi məktub nümunəsinin yazılması üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Novellanın məzmunu haqqında aydın təsəvvürün qazanılması, araşdırma, dəyərləndirmə üzrə işin təşkilinə imkan verir. Bunun reallaşdırılması yazıçı niyyətinin, əsərin əsas ideyasının aydınlaşdırılmasına, əsaslandırılmış nəticələrin çıxarılmasına imkan verəcəkdir.

**Araşdırma. Təhlil.** Bu başlıq altında təklif edilmiş tapşırıqların yerinə yetirilməsinə fərqli metodik yanaşmaların tətbiqi mümkündür. İş forması kimi kiçik qruplarda işin seçilməsi faydalıdır. Bir şərtlə ki, qrup üzvlərinin hər biri işə fəal cəlb olunsun, öz töhfələrini versin. Bunun üçün qrup daxilində iş bölgüsünün aparılması lazım gəlir. Tapşırığın hər bəndini xırdalamaq, eləcə də onların əlavələrini qrup üzvləri arasında bölmək mümkündür. Məsələn, birinci bəndin (Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin) tövsiyələrinin araşdırılması qrup daxilində ayrı-ayrı şagirdlərə həvalə edilir. Belə ki, birinci tövsiyə üzrə (Əsərdə əhvalat və hadisələrin daha çox nə ilə bağlı olduğunu yada salın) işi bir, yaxud iki şagird yerinə yetirir. İkinci, üçüncü tövsiyələr də həmin qayda ilə icra olunur. Sonda fikir mübadiləsi, ümumiləşdirmə və nəticənin çıxarılması həyata keçirilir.

Tapşırığın hər bəndi üçün müəyyənləşdirilmiş tövsiyələr səmərəli axtarışlara səbəb olur. Məsələn, obrazların hərtərəfli təhlilinə istiqamət verir. "Şiko obrazını səciyyələndirin" bəndi üçün təklif edilmiş tövsiyələr aşağıdakılardır:

– həyatda ən çox nə barədə düşündüyünü və nə ilə maraqlandığını yada salın;

– Maqluar qarı ilə rəftarını, onunla bağlı davranış və əməllərini xatırlayın;

– müəllifin və doğmalarının ona münasibətini yada salın.

Birinci tövsiyə (həyatda ən çox nə barədə düşündüyünü və nə ilə maraqlandığını yada salın) ilə bağlı axtarış aparan şagird (şagirdlər) Şikonun nəyin hesabına olursa-olsun sərvətini artırmağı başlıca məqsəd seçdiyini qeyd edir. O, qonşusunun – Maqluar qarının malikanəsinə, torpağına sahiblənmək üçün gecə-gündüz düşünür, əzab çəkir, planlar qurur...

Şagird əsərdən bu deyilənləri təsdiq edən nümunələr seçir, fikrini əsaslandırmaq üçün dəlillərə istinad edir.

İkinci tövsiyə (Maqluar qarı ilə rəftarını, onunla bağlı davranış və əməllərini xatırlayın) Şiko obrazının xarakterindəki digər cəhətlərin aydınlaşdırılmasına, nümunələrlə əsaslandırılmasına yönəldir. Şiko qonşusu Maqluar qarı ilə heç vaxt səmimi olmamışdır. Qarının əmlakına gözü düşən bu hiyləgər

Layihə

adam hətta onun ölümünü belə arzulayır. Lakin o, qarı ilə rəftarında son dərəcə ehtiyatlıdır, sözlərinə, hərəkətlərinə diqqət edir. Qarı ilə mehriban rəftar edən Şiko yeri gələndə ona yaltaqlanır, şirin sözlər söyləyir... Qarının tamahkar olduğunu bildiyindən onu pulla yoldan çıxarmağa ümid bəsləyir. Bu yolla da istəyinə nail olur. Maqluar qarının içkiyə qurşanmasına nail olan Şikonun əməlləri ikrah doğurur, qonşusu haqqındakı son sözləri isə ikiüzlü, nifrətəlayiq adam olduğundan xəbər verir.

Bütün bunların əsərdən seçilmiş nümunələrlə əsaslandırılmasına diqqət yetirilir.

Şiko obrazının təhlilində müəllifin və ailə üzvlərinin ona münasibətinin aydınlaşdırılması az əhəmiyyət kəsb etmir. Bu, üçüncü tövsiyənin (müəllifin və doğmalarının ona münasibətini yada salın) tələbi kimi qeyd olunmuşdur. Əvvəlki dərslərdə bu barədə ətraflı məlumat qazanan şagirdlər əsərdən seçdikləri nümunələrə əsaslanmaqla müəllifin və ailə üzvlərinin Şikoya münasibətini daha ətraflı şərh edir, bu baxımdan ona obyektiv qiymət verməkdə çətinlik çəkmirlər.

Şiko və Maqluar qarının müqayisəli səciyyələndirilməsi məntiqi təfəkkürün fəal işini tələb edir. Obrazların oxşar və fərqli xüsusiyyətləri müxtəlif əsaslar üzrə aşkara çıxarılır, ümumiləşdirilir və nəticələr çıxarılır. Bu məqsədlə dərslikdəki cədvəldə aşağıdakı əsaslar əks etdirilmişdir:

- xarakterlərindəki başlıca cəhətlər;
- davranış və əməlləri;
- sərvətə münasibətləri.

Obrazların müqayisəsi üçün fərqli, yaxud əlavə əsaslar da müəyyənləşdirmək olar. Başlıca məqsəd bu əsaslara doğru əməl edilməsi, fikirlərin nümunələr göstərilməklə ifadə olunmasıdır.

Məlumdur ki, bu və ya digər əsərin ideyasının müəyyənləşdirilməsi bütövlükdə məzmunun necə qavranılmasından, mühüm mətləblər, konfliktlər barədə aydın təsəvvürün olmasından əhəmiyyətli dərəcədə asılıdır. Təsadüfi deyildir ki, dərslikdə ideya ilə bağlı tapşırığın məzmunu belədir: Konfliktin yaranma səbəbini nəzərə almaqla əsərin ideyasını şərh etməyə çalışın.

Əsərdəki konfliktin müəyyənləşdirilməsinə əvvəlki dərsdə nail olunmuşdur. Onun xatırladılması ilə yanaşı, dərslikdə diqqətə çatdırılmış variantların təhlili, müzakirəsi aparılır. Bu məqamda fikir müxtəlifliyinin yaranması təbiidir. Variantlardan birinin üzərində dayanılması, yaxud yeni variantın müəyyənləşdirilməsi halları meydana çıxır, lakin bütün hallarda əsaslandırma önəmli meyar kimi diqqət mərkəzində saxlanılır.

Dərslikdə "Yaradıcı iş" başlıqlı müstəqil işin icrasına vaxt ayrılır. Öyrəndikləri "Balaca çəllək" novellası ilə bağlı ədəbi məktub yazmalı olan şagirdlər dərslikdə təklif edilmiş tövsiyələrlə tanış olurlar:

– bu məktubu nə üçün yazmaq niyyətinə düşdüyünüzün səbəbini, sizi düşündürən başlıca fikri qeyd edin;

– əsərin mövzusu, süjeti, obrazları, əsas və yardımçı fikirlərin əlaqələri haqqındakı təəssüratınızı qısaca yazın;

– novellada sizə görə maraqlı, yaxud yorucu olan məqamları şərh edin;

– dostunuza bu əsəri oxumağı tövsiyə etsəniz, fikrinizi əsaslandırın.

Şagirdlərə izah olunur ki, birinci növbədə məktubun ilk – qaralama variantını işləməlidirlər. Tövsiyələrin tələblərinə əməl etməklə ilkin qeydlər qələmə alınır. Məktubun yazılmasının səbəbini, sizi düşündürən başlıca fikri (birinci tövsiyə), əsərin mövzusu, süjeti, obrazları, əsas və yardımçı fikirlərin əlaqələri haqqında təəssüratın qısaca yazılması (ikinci tövsiyə), novellaya şəxsi münasibətin ətraflı şərhi (üçüncü tövsiyə), əsərin oxunması faydalı hesab edilirsə, dəlillərlə əsaslandırılması (dördüncü tövsiyə) qaralama variantında əks olunur. Yalnız bundan sonra yazılmış variantın bir neçə dəfə oxunması, düzəlişlərin aparılması həyata keçirilir. Özünüqiymətləndirmə reallaşdırılır. Məktublardan nümunələrin oxunması və müzakirəsinə vaxt ayrılır.

layihə

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları xarakter, davranış və əməllərinə görə nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ədəbi məktubda əsas fikirləri ardıcıllıqla müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ədəbi məktubda əsas və yardımçı fikirlərin əlaqələrini nümunələr əsasında dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

# ÜÇÜNCÜ BÖLMƏ ÜZRƏ
# İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə N.Gəncəvinin*
*"Oğlum Məhəmmədə nəsihət" əsəri üzrə*
*aparıla bilər.*

Nizami Gəncəvi

**Oğlum Məhəmmədə nəsihət**

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!
Yeddiyaşar oldun o zaman ki sən,
Açıldın gül kimi güləndə çəmən.
İndi ki çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.
Qəflətdə oynama, qeyrət vaxtıdır,
İndi hünər vaxtı, şöhrət vaxtıdır.
Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.
Uşaqkən əslini sorsalar bir az,
Ağac bar verəndə cinsi sorulmaz!
Elə ki böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən aslanlar kimi keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən!
Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa,
Öz adına layiq işlər gör ki sən,
Axırda utanma xəcalətindən.
Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz.
Hərçənd sənətin çox rütbəsi var,
Həyata faydalı bir elmi axtar.

Ləyla

…Fəqih olsan əgər, itaətkar ol,
Hiylədən, riyadan daim kənar ol.
İsa mərifətli həkim ol, amma
İnsanı öldürən bir həkim olma.
…Həyat da, ölüm də qul olar sana,
Səadət və şöhrət düşər payına.
Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək:
Bir insan əliboş gəzməsin gərək!

Layihə

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1.** Əsər hansı mövzuya həsr olunub, onda hansı mətləblər əksini tapıb? Fikrinizi qısaca yazın.

______________________________________________

______________________________________________

______________________________________________

**2.** Nümunələrdə ifadə edilən fikirləri izah etməyə çalışın.

| Əsərdən nümunələr | Nümunənin izahı |
|---|---|
| 1. Ucalmaq istəsən, bir kamala çat,<br>Kamala ehtiram göstərər həyat. | |
| 2. Elə ki böyüdün, belədir qayda,<br>Atanın adından sənə nə fayda? | |
| 3. Sən aslanlar kimi keç cəbhələrdən,<br>Yalnız hünərinin balası ol sən! | |
| 4. İsa mərifətli həkim ol, amma<br>İnsanı öldürən bir həkim olma. | |
| 5. Həyat da, ölüm də qul olar sana,<br>Səadət və şöhrət düşər payına. | |

**3.** Fikirərdən biri yanlışdır.

A) Şair oğlunu təbiətin varlıqlarına bənzədir.

B) Yaramaz işlərin, hiyləgərlik və riyakarlığın insanı xəcalətli etdiyi söylənilir.

C) Əsərdə "İnsan seçdiyi peşənin ustası olmalıdır" fikri vurğulanır.

D) Şair oğlunu sayılıb-seçilən, kamil bir insan kimi görməyi arzulayır.

E) Gözəl yaşamaq üçün əliboş qalmamağın, mal-dövlət toplamağın vacib olduğu deyilir.

**4.** Müəllifi – ata obrazını səciyyələndirin. Fikirlərinizi əsaslandırın. Cədvəldəki xanaların sayını artıra bilərsiniz.

| Müəllif – ata obrazı üçün səciyyəvi olan cəhətlər | Nə üçün belə düşünürəm |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |
| 4. | |

**5.** Əsərdə obrazlılıq, ahəng yaradan vasitələr hansılardır? Nümunələr göstərməklə fikrinizi əsaslandırın.

______________________________________________

______________________________________________

______________________________________________

**6.** Sizcə, mənalı həyat sürmək üçün insanda hansı keyfiyyətlərin olması vacibdir? Fikrinizi əsaslandıran dəlillər göstərin.

______________________________________________

______________________________________________

______________________________________________

Layihə

**7.** Əsərin əsas ideyasını bir neçə cümlə ilə yazın.

---

---

---

8. N.Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət" əsərini A.Bakıxanovun "Ümidin boşa çıxması" əsəri ilə müqayisə edin. Əvvəlcə müqayisə üçün əsaslar hazırlayın.

| Müqayisə olunan əsərlər | Hansı əsaslara görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| | oxşarlıq | fərq | Oxşarlı q | fərq | oxşarlıq | fərq | oxşarlıq | fər q |
| N.Gəncəvi "Oğlum Məhəmmədə nəsihət" | | | | | | | | |
| A.Bakıxanov "Ümidin boşa çıxması" | | | | | | | | |

9. Əsərdə əks olunan nəsihətlər indiki dövr üçün də əhəmiyyətlidirmi? Fikirlərinizi əsaslandırmağa çalışın.

---

---

---

10. N.Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət " əsəri haqqında yazılacaq "Məhəmmədə nəsihət – hər kəs üçün ibrət güzgüsüdür" adlı yazı üçün sadə plan tərtib edin.

1. .........................................
2. .........................................
3. .........................................
4. .........................................

Layihə

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

**Mövzu:**

**SÜLEYMAN RÜSTƏM.**

**DUZ-ÇÖRƏK –**

**1 saat**

**Təlim məqsədləri**

- Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır (7-1.1.1).
- Şeirdə ahəng yaradan vasitələri (misra, bənd, rədif, misradaxili bölgü, məntiqi fasilə) müəyyənləşdirir (7-1.1.2).
- Şeirin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).
- Şeirdə mətləbləri müəyyən edir (7-1.1.7).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.1.8)
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2.).
- Çıxışında mimika və jestlərdən istifadə edir (7-2.1.3).
- Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən istifadə edir (7-2.1.5).

**Köməkçi vasitələr:** Süleyman Rüstəmin əsərlərindən nümunələr, "Duz-çörək" şeirinə aid illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Şeirin oxusu, ilkin təəssüratın bölüşülməsi. Məzmuna aid sualların və onlara cavabların yazılması.
**2. Öyrəndiklərinizi yoxlayın.** Məzmuna aid sualların və cavablarının müzakirəsi.
**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunun, nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi və tətbiqi üzrə iş.
**4. Müzakirə.** Şeirin mövzu, ideya və bədii xüsusiyyətlərinin dəyərləndirilməsi.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– şeirin oxusu;
– ilkin təəssüratın bölüşülməsi;
– məzmuna aid üçdən az olmayaraq sual və onlara cavabların yazılması;
– öyrənilənlərin yoxlanması;
– məzmun və nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi, tətbiqi üzrə işin təşkili;
– əsərin mövzu, ideya və bədii xüsusiyyətlərinin dəyərləndirilməsi üzrə müzakirənin təşkili.

**Oxu. Anlama**

"Tətbiq. Ümumiləşdirmə" dərsinin məqsədinə uyğun olaraq oxu prosesində şagirdlərin maksimum müstəqilliyi təmin olunur.

Şeir məzmununa görə yeddinciləri cəlb edir. Onlar mətni birnəfəsə oxuyur və elə buna görə də bir çox mətləbləri nəzərdən qaçırırlar. Bütövlükdə məzmunu qavradıqları üçün incəliklərin üzərində dayanmağa ehtiyac duymurlar. Təəssüratların bölüşülməsi üçün digər dərslərdə təklif olunmuş sualları xatırlayan şagirdlər əsərdə maraqlı hesab etdiklərini, xoşlarına gələn misra və bəndləri xatırlatmaqla kifayətlənirlər. Bir çox hallarda isə konkret misralarda ifadə olunmuş mənanı izah etməkdə çətinlik çəkirlər. Məsələn, "Yersiz gülümsəmə, yersiz ağlama, Bir könül də qırma, sinə dağlama" misralarında ifadə olunmuş fikirləri ümumi şəkildə izah etsələr də, "Sirrini ellərdən gizli saxlama" misrasının izahında çətinlik çəkirlər. Eləcə də fikrin daha obrazlı, məcazi deyim və

Layihə

ümumiləşdirmə əsasında ifadə olunduğu misraların izahından yan keçirlər. Bu baxımdan aşağıdakı bənd səciyyəvidir:

Yel qanadlı illər ömürdən gedir,
İnsan zəhmətiylə kamala yetir.
Bağında nərgizlər, lalələr bitir,
Tikanlar, qanqallar bitirmə, oğlum!

Mütaliə təcrübəsinin azlığı, başlıcası isə obrazlı təfəkkürün zəif inkişafı bu misralardakı bədii ümumiləşdirməni qədərincə qavramağa imkan vermir. Şagirdlərə izah olunur ki, mətnə aid suallar məhz belə məqamlar üçün yazılmalıdır. Sualların yazılması tələbi şagirdlərin mətnə yenidən müraciət etmələrini labüd edir. Həm də bu dəfə onlar daha diqqətli olurlar. Şagirdlər yazdıqları suallara cavablar da hazırlamalıdırlar. Bu onları ikiqat diqqətli olmağa sövq edir. Bir sıra hallarda onlar doğru cavab yazacaqlarına ümid bəsləməsələr də, özlərini düşündürən, narahat edən sualları yazmaqdan çəkinmirlər. Bu, növbəti – "Öyrəndiklərinizi yoxlayın" başlıqlı tapşırığın (Yazdığınız sualları və onların cavablarını müzakirə edin) yerinə yetirilməsində şagirdlərin yüksək fəallıq göstərmələrinə səbəb olur. Müzakirədə həm sualların necə tərtib edilməsinə, həm də cavablarına münasibət bildirilir. Əsas məqsəd qüsurların aşkara çıxarılması və aradan qaldırılması olur.

**Möhkəmləndirmə. Zənginləşdirmə.**

Bu başlıq altında verilmiş tapşırıqların kiçik qruplarda yerinə yetirilməsi tövsiyə edilmişdir. Hər qrup üçün müəyyənləşdirilmiş tapşırıqların rəngarəngliyinə diqqət yetirilmişdir. Məsələn, birinci qrup üçün təklif edilmiş tapşırıq iki tələbdən ibarətdir.

a) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.

b) Birinci bənddə ifadə edilmiş fikirlərin və aralarındakı əlaqələrin müəyyən edilməsi, qısaca yazılması.

Bu mərhələyə qədər icra olunmuş işlər tapşırığın yerinə yetirilməsinə əhəmiyyətli təsir etsə də, bənddəki mətləblərin – fikirlərin dəqiq müəyyənləşdirilməsi və aralarındakı əlaqələrin izah olunması gərgin işləməyi, müstəqil nəticə çıxarmağı bir vəzifə kimi qarşıya qoyur. Bənddə ifadə edilmiş mənanı ümumiləşdirilmiş şəkildə ifadə etmək, üstəlik, yazmaq (Gözəl, bahalı parça, paltar insana şərəf, şöhrət gətirə bilməz. İnsan yaxşıların içində ən yaxşısı olmağa çalışmalı, dostluqda sədaqətli olmalıdır) şagirlərdən idrak fəallığı, müstəqil düşüncə tələb edir.

İkinci qrupun tapşırığı həm şeirin məzmunu, həm də nəzəri anlayışlarla əlaqədardır:

a) İkinci bənddə ifadə edilmiş fikirlərin və aralarındakı əlaqələrin müəyyənləşdirilməsi, qısaca yazılması.

b) Şeirdə ahəng yaradan vasitələrin (misra, bənd, rədif, misradaxili bölgü, məntiqi fasilə) müəyyənləşdirilməsi.

Şeirin ikinci bəndində müəllifin bir neçə tövsiyəsi ifadə edilmişdir: insan özünü ağır aparmalı, yersiz gülmək, yaxud kədərli olmaq ona yaraşmaz, başqasının qəlbinə dəymək və ya kiməsə pislik eləmək olmaz... El-oba ilə qaynayıb-qarışmaq vacibdir, dərdini elindən – doğma və yaxınlardan gizlətməməli, yalan danışmaqdan uzaq olmalısan...

Əsərdəki bir neçə bəndin əsasında ahəng yaradan vasitələrin (misra, rədif, misradaxili bölgü, məntiqi fasilə) müəyyənləşdirilməsi, bunların nəzm əsəri üçün əhəmyyəti qeyd olunur.

Üçüncü qrupun tapşırığı məzmunla bağlı məlumatın dərinləşdirilməsi və "qafiyə" anlayışı üzrə biliyin tətbiqini tələb edir.

a) Üçüncü bənddə əksini tapmış başlıca fikirlərin müəyyən edilməsi, qısaca yazılması.

b) İlk iki bənddə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

Bənddə insan ömrünün elə də uzun olmadığı, səmərəli zəhmət çəkməklə kamala çatmağın, faydalı işlərlə məşğul olmağın lazım olduğu diqqətə çatdırılır.

Yüksək sənətkarlıqla yazılan əsər maraqlı qafiyələrlə zəngindir. Birinci bənddə "tirmə", "yetirmə", ikincidə isə ilk üç misrada "ağlama", "dağlama", "saxlama" sözləri həmqafiyə kimi işlənmiş, dördüncü misradakı "gətirmə" sözü isə birinci bəndin dördüncü misrasındakı "yetirmə" kəlməsi ilə həmqafiyədir.

Həmqafiyə sözlər ustalıqla seçilmişdir; onları fərqləndirmək, birini digərindən üstün saymaq doğru olmazdı.

layihə

Dördüncü qrup üçün tapşırıq aşağıdakı məzmunda müəyyənləşdirilmişdir.

a) Dördüncü bənddəki əsas fikrin müəyyən edilməsi və yığcam qeyd olunması.

b) Üçüncü və dördüncü bəndlərdə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

Hünər meydanı olan həyatdan, onun insan üçün açdığı imkandan yararlanmaq tövsiyə olunur. İnsan bacardığı işin ardınca getməli, bilmədiyi, bacarmadığı işdən yapışmamalıdır.

Üçüncü bənddə işlənmiş həmqafiyə sözlər (gedir, yetir, bitir) bənddə xoş bir ahəngin yaranmasına səbəb olmuşdur. Dördüncü misradakı "bitirmə" sözü isə əvvəlki bəndin sonuncu misrası ilə (gətirmə) qafiyələnmişdir.

Həmqafiyə sözlərin hamısı uğurla seçilmişdir.

Beşinci qrupun tapşırığı aşağıdakı formada təqdim edilmişdir:

a) Əsərin sonuncu – beşinci bəndində əksini tapmış əsas fikrin müəyyənləşdirilməsi və qısaca yazılması.

b) Şeirdə bədiiliyin artmasına təsir edən vasitələrin müəyyən olunması, yığcam qeyd edilməsi.

Bütün deyilənlərə beşinci bənddə yekun vurulur. Şairin əsas niyyəti ifadə olunur: Qazancını itir, malını itir, Ancaq duz-çörəyi itirmə, oğlum!

Şeirdə bədiiliyin artmasına təsir edən vasitələr çoxdur. Heca vəzninə məxsus ölçü-biçinin yaratdığı ahəng, həmqafiyə sözlərin ustalıqla seçilməsi, bütövlükdə söz seçimi, onların misra daxilində ustalıqla əlaqələndirilməsi, təkrirlər, rədif... şeirin rəvan oxunmasına, bədii gözəlliyinin artmasına əhəmiyyətli təsir edir.

Cavabların yazılı qeydlər əsasında hazırlanması mükəmməl qrup təqdimatının ərsəyə gəlməsini təmin edir. Təqdimatların dinlənilməsi və müzakirəsi şagirdlərin əsərlə bağlı təhlilə hansı səviyyədə hazır olduqlarını müəyyənləşdirməyə imkan verir. Növbəti addım dərslikdə təklif edilmiş sualların əsasında müzakirənin təşkili olur:

– şeir hansı mövzuda yazılıb?
– əsərin əsas ideyası nədir?
– şeiri maraqlı edən cəhətlər hansılardır?
– əsərdən hansı nəticəni çıxarmaq olar?
– şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı?

Müzakirəyə hazırlaşmaq üçün vaxt ayrılır. Şagirdlər cütlük şəklində, yaxud kiçik qruplarda fikir mübadiləsi aparırlar. Müzakirəyə fərdi təqdimatların dinlənilməsi ilə başlanılır. Yaradılan diskussiya şəraiti faydalı fikirlərin səsləndirilməsinə, əsaslandırılmış nəticənin çıxarılmasına imkan yaradır.

Müzakirənin ikinci tələbi M.Hüseynin "Kərəm əfsanəsi" və S.Rüstəmin "Duz-çörək" şeirinin müqayisəsi ilə bağlıdır. Müqayisənin aparılması üçün əsaslar təklif edilmişdir:

– mövzu;
– milli-mənəvi dəyərlər;
– təlqin olunan insani keyfiyyətlər;
– əsas ideya.

Müəllim məqsədindən asılı olaraq bunların sayını artıra da bilər. Cütlük şəklində işə başlayan şagirdlər fəaliyyətlərini kiçik qruplarda davam etdirir və təqdimatlar hazırlayırlar.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə kontekstə uyğun aydınlaşdırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə ahəng yaradan vasitələri (misra, bənd, rədif, misradaxili bölgü, məntiqi fasilə) mətnə uyğun müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin vəzn xüsusiyyətlərini nümunələrə əsaslanmaqla müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə mətləbləri nümunələr əsasında müəyyən edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| | | |
|---|---|---|
| Şeirin mövzusu ilə bağlı qənaətlərini başlıca mətləblər əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışında mimika və jestlərdən məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ünsiyyətin davamlılığına nail olmaq üçün təqdimatın məzmununa uyğun əyani vasitələrdən ardıcıllıqla istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

# 4

# UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ

**Mövzu:**

**ƏNVƏR MƏMMƏDXANLI. QIZIL QÖNÇƏLƏR –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir (7-1.1.1).
- Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7-1.3.2).
- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayədə hadisələrin obrazlara təsirini izah edir (7-1.3.5).
- Hekayədən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4.).

**Köməkçi vasitələr:** Ənvər Məmmədxanlının əsərlərindən nümunələr. “Qızıl qönçələr” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istifadə olunması.
**2. Oxu. Anlama.** Hekayədən parçanın oxusu, ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.
**3. Öyrəndiklərinizi yoxlayın.** Mənimsənilənlərin test tapşırıqlarının yerinə yetirilməsi ilə yoxlanması.
**4. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmun və nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, tətbiqi.
**5. Nitqin, düşüncənin inkişafı.** Nitq inkişafı üzrə işin təşkili.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayədən bir parçanın oxusu;
– ilkin qavrama səviyyəsinin aşkara çıxarılması;
– dərinləşdirilmiş oxunun təşkili;
– məzmununun öyrənilməsinin yoxlanması;
– məzmun və nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, tətbiqi;
– nitq inkişafı üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlərin maraqla mütaliə* etdikləri *“Qızıl qönçələr” hekayəsi Cənubi Azərbaycanda yaşayan soydaşlarımız, onların taleyi, keçmişi, bu günü haqqında zəruri məlumatın mənimsənilməsinə geniş imkan verir. Bu baxımdan əsərin tədrisində yeni öyrənilmiş “Azad” hekayəsi ilə bağlı mənimsənilənlərə müraciət edilməsi vacibdir. Dərsin maraqoyatma mərhələsində də bu əlaqəyə istinad etmək səmərəli nəticənin əldə edilməsinə səbəb olur.*

Layihə

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlər müəllimin təklifi ilə dərslikdəki “Yadasalma” başlıqlı suallara (Cənubi Azərbaycanla bağlı hansı əsərlərlə tanışsınız? Bu əsərlərin qəhrəmanlarının həyatı, taleyi sizdə hansı hiss və düşüncələr yaradıb?) nəzər salırlar. İlk növbədə yeni öyrənilmiş “Azad” hekayəsi xatırladılır. Suallar əsasında aparılan yığcam müsahibə nəticənin çıxarılması ilə başa çatdırılır: Cənubi Azərbaycan mövzusunda yazılan əsərlərdə müəlliflərin başlıca niyyəti nə olur?

Qeyd edilir ki, əvvəlki bilikləriniz, yeni öyrənəcəyiniz əsər bu suala əsaslandırılmış cavabın hazırlanmasına imkan yaradacaqdır.

**Oxu. Anlama**

Hekayədən dərslikdə verilmiş ilk parçasının oxusu (oxunun formasını müəllim müəyyənləşdirir) həyata keçirilir. Tanış olmayan sözlərin mənasının oxu prosesində aydınlaşdırılmasının vacib olduğu şagirdlərə xatırladılır. Oxu başa çatdırıldıqdan sonra şagirdlərin diqqəti ilkin təəssüratın bölüşülməsi məqsədilə dərsliyə daxil edilmiş suallara yönəldilir.

– Əsərdən hansı təəssüratla ayrıldınız?
– Sürəyya haqqında ilkin təəssüratınız nə oldu?
– Firuz baba obrazı barədə sizdə hansı təsəvvür yarandı?

Suallar əsər haqqında ümumi təəssüratın aşkara çıxarılmasına, eləcə də obrazlar barədə qazanılmış təsəvvürün müəyyənləşdirilməsinə geniş imkan yaradır. Buna fərqli yollarla nail olmaq mümkündür: müsahibə, təqdimat, şagirdlərin bir-biri ilə dialoqa girməsi, yığcam referatlatın hazırlanması və s. Bütün hallarda vaxta maksimum qənaət etmək vacibdir.

Təəssüratlar fərqli olsa da, şagirdlərin əksəriyyəti baba və nəvənin  ehtiyac içində yaşamasının, Sürəyyanın taleyinin onlarda təəssüf hissi doğurduğunu etiraf edirlər. Firuz babanın nəvəsinə istək və məhəbbəti haqqında aydın təsəvvür qazanan şagirdlər onun Sürəyyaya qədərincə qayğı göstərə bilməməsindən necə əzab çəkdiyini sezə bilmirlər. Bu müşahidələr dərinləşdirilmiş oxu üçün sualların hansı məzmunda olmasına istiqamət verir. Dərslikdə təklif edilmiş suallar ilk oxuda sezilməyənlərin başa düşülməsinə, obrazlar haqqında məlumatın dərinləşməsinə, yazıçı niyyətinin dərk olunmasına xidmət edir. Suallar mətnə yenidən müraciət etməyə, düşünməyə, nəticə çıxarmağa sövq edir. Məsələn, “Hekayədə oxuduğunuz “İndi daha ağır bir yük gözləyir...” cümləsində ifadə olunmuş fikri necə izah edərsiniz?” sualı bəxtsiz nəvənin Firuz baba üçün böyük bir dərd olduğunu başa düşməyə imkan yaradır. Lakin bunun üçün mətni daha diqqətlə oxumaq və düşünmək lazım gəir. Yaxud “Nəvəsinin qazancı ilə çörək almağa məcbur olan babanın keçirdiyi hissləri necə izah edərsiniz?” sualı belə günlərdə vicdan əzabı çəkən, gözəl mənəviyyatlı, əzabkeş babanın keçirdiyi hiss-həyəcanın başa düşülməsi və dəyərləndirilməsi üçün nəzərdə tutulmuşdur.

Yazıçı niyyətinin başa düşülməsinə və izahına yönəldən suallar şagirdləri əsərin incəliklərinə istiqamətləndirir. Onlardan biri belədir: “Xalça karxanasında işləyən kiçikyaşlı uşaqların taleyi, ağır əməyi barədə düşündünüzmü? Bu barədə nə danışa bilərsiniz?”

Hekayənin müxtəlif səhifələrindəki fikirləri öyrənən şagirdlər ümumiləşdirmə aparmaqla cavab hazırlayırlar: Bütün günü karxanada aramsız işləyən, əyin-başları tökülən, ayaqyalın uşaqların qazancı bir qarın çörəyə də çatmır. Bu talesiz körpələrin başqa bir həyat haqqında təsəvvürləri belə yoxdur...

Öyrənilənlərin səviyyəsi test tapşırıqlarının yerinə yetirilməsi yolu ilə yoxlanılır. Tapşırıqlar fərdi icra olunsa da, nəticələr bütün siniflə birgə müzakirə olunur. Test tapşırığının ikincisi hadisələrlə obrazların əlaqəsinin aydınlaşdırılması baxımından faydalıdır.

Dərslikdəki növbəti tapşırığın (Möhkəmləndirmə. Zənginləşdirmə) birinci tələbində hekayədəki mühüm mətləblərin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Şagirdlər bunun üçün oxunmuş parçanı bir daha nəzərdən keçirməklə mühüm hesab etdikləri mətləbləri – başlıca fikirləri qısaca qeyd edirlər: əsərdə təsvir olunanlar Cənubi Azərbaycanda baş verir; hadisələr baba və nəvə ilə bağlıdır; onlar soyuq, rütubətli zirzəmidə ehtiyac içində yaşayırlar; kiçikyaşlı, şikəst qızcığaz ağır işdə çalışmağa məcburdur; çox vaxt onlar bu qızcığazın qazandığı qəpik-quruşla aldıqları yavan çörəklə keçinməli olurlar.



Layihə

Cavabların səsləndirilməsində fikir mübadiləsinin aparılmasına yer verilir. Bu, cavabların konkretləşməsinə az təsir etmir.

Tapşırığın ikinci bəndində hekayədə işlənmiş bədii təsvir və ifadə vasitələrinin növlərinin müəyyənləşdirilməsi, onlardan ikisinin cümlələrdə işlədilməsi tələb olunur. Bu, nəzəri anlayışlarla bağlı biliyin möhkəmləndirilməsi və tətbiqi üçün əhəmiyyətli fəaliyyət növüdür. Fərdi yerinə yetirilən tapşırığa hazırlanan cavablardan nümunələrin dinlənilməsi və onlara münasibət bildirilməsinə vaxt ayrılır.

Sonuncu tapşırığın (Nitqin, düşüncənin inkişafı) birinci bəndi əsərin məzmununun başa düşülməsində mənası yeni öyrənilmiş sözlərin rolunun izahı ilə bağlıdır. Bu, həmin sözlərin nitqə daxil olması baxımından da faydalıdır.

Tapşırığın ikinci bəndində əsərdən seçilmiş parçanın yaradıcı nağıl edilməsi tələbi əks olunmuşdur. Şagirdlərə hekayədən seçdikləri parçaya uyğun əlavələr hazırlamaq üçün vaxt ayrılır. İş fərdi icra olunsa da, hazırlıq prosesində şagirdlərə fikir mübadiləsi, əməkdaşlıq etmək imkanı yaradılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə hadisələrin obrazlara təsirini ardıcıllıqla izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərdən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun ardıcıl danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə ardıcıllıqla məqamında işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| | |
|---|---|
| **Mövzu:**<br><br>**ƏNVƏR MƏMMƏXANLI. QIZIL QÖNÇƏLƏR –**<br><br>**3 saat**<br><br>**İkinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Əsərin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3.).<br>• Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).<br>• Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir (7-1.3.7).<br>• Yazı üçün azbəndli plan tərtib edir (7-2.2.2).<br>• Ədəbi mövzu üzrə esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).<br>• Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən istifadə ilə icra edir (7-2.2.3).<br>• Ədəbi mövzu üzrə essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir (7-2.2.5).<br>• Mühakimə xarakterli essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir (7-2.2.5).<br><br>**Köməkçi vasitələr:** Ənvər Məmmədxanlının əsərlərindən nümunələr. “Qızıl qönçələr” hekayəsinə çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Oxu. Anlama.** Hekayənin davamının oxusu, ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.<br>**2. Müzakirə.** Əsərin mövzusunun, janr xüsusiyyətlərinin aydınlaşdırılması.<br>**3. Yaradıcı iş.** Essenin yerinə yetirilməsi.<br>**4. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu:**
– hekayənin davamının oxusu;
– ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun təşkili;
– əsərin mövzu və janr xüsusiyyətlərinin aydınlaşdırılması;
– essenin icrası, nümunələrə münasibət bildirilməsi.

**Müəllim üçün əlavə məlumat.** *Dərsdə icra olunacaq tapşırıqların sayı azdır. Bu, yığcam essenin icrası üçün kifayət qədər vaxt ayırmağa imkan verir. Bu vaxt ərzində essenin yazılması üçün sadə planın tərtibi həyata keçirilir. Eləcə də hazırlanmış yazının oxunması, düzəlişlərin aparılması mümkün olur.*

**Oxu. Anlama**

Hekayənin davamının oxunması üçün ayrılmış vaxt elan olunur. Vaxta qənaət baxımından səssiz oxunun təşkili əlverişlidir. Hekayənin davamı da maraqlı olub şagirdlərin diqqətini cəlb edir. Babanın faciəli ölümü, qarlı qış gecəsində küçədə tək qalan Sürəyyanın əzab-əziyyəti, yoldaşlarının gözü önündə dünyasını dəyişməsi şagirdləri mütəəssir edir. Təəssüratlarını ifadə edəndə bunu özlərindən asılı olmayaraq həm sözlə, həm də səslərində duyulan çalarlarla büruzə verirlər. Təsadüfi deyildir ki, ilkin təəssüratın bölüşülməsi üçün dərslikdə təklif edilmiş suallar birbaşa obrazlarla əlaqəlidir:

– Sürəyya obrazı ilə bağlı sizdə hansı yeni təəssürat yarandı?
– Firuz baba obrazı ilə bağlı təsəvvürünüzü zənginləşdirən nə oldu?

Babanın nəvəsinə dərin məhəbbəti hekayənin davamında daha tutarlı şəkildə ifadə olunub. Gecələr soyuqdan əziyyət çəkən nəvəsinin vəziyyətinə dözməyən baba nəyin hesabına olursa-olsun, “bir şələ



Layihə

odunun pulunu" qazanmaq barədə düşünür. Bunun üçün bütün günü ağır yük daşımaq lazım idi. Baba səhər tezdən "hamını heyrətə salan və yaşına yaraşmayan zirəklik və səylə" işlə başlayır. Günortaya qədər aramsız işləyən Firuz baba günün ikinci yarısında işin ağırlığına dözmür, "gözləri qaranlıq" gətirir, dik pillələrdən üzüaşağı – "anbarın boşluğuna" yuvarlanaraq əzilir və dünyasını dəyişir. Baba istəkli nəvəsinin rahatlığı uğrunda canını fəda edir.

İlkin oxuda bu incəliklərin sezilməməsi dərinləşdirilmiş oxuda həmin obraza yenidən diqqətin yönəldilməsini vacib edir.

Hekayənin davamı Sürəyya obrazı haqqında təsəvvürün zənginləşməsinə əhəmiyyətli təsir edir. Onun yoldaşlarına səmimi münasibəti, utancaqlığı, təvazökarlığı, əməksevərliyi, babasına sonsuz məhəbbəti bu parçada maraqlı detallarla əks olunmuşdur. Bunların hamısının ilkin oxuda əhatə olunduğunu demək çətindir. Məhz buna görə də dərinləşdirilmiş oxu üçün dərsliyə daxil edilmiş suallarda bu obraza diqqət çəkilmişdir.

Suallar Sürəyyanı – bu səmimi, mehriban, təvazökar qızı başa düşməyə, çətin anlardakı yaşantılarını, hiss-həyəcanlarını duymağa yönəldir: "Yodaşlarının Sürəyyanı evlərinə aparmaq təklifinə onun etiraz etməsinin səbəbini necə izah edərsiniz?" , "Qarlı qış gecəsi küçədə tək qalan qızcığazın vəziyyətini necə təsəvvür edirsiniz? Onun keçirdiyi hiss və həyəcanı sözlə ifadə edə bilərsinizmi?).

Dərinləşdirilmiş oxu üçün təklif edilmiş digər bir sual ("Qoca nəqqaşın: "Yox, bu cür davam edə bilməz! O gün gələcəkdir!.. Günəş doğacaq, qönçələr açacaqdır!.." sözlərində hansı fikir ifadə olunmuşdur?") yazıçı niyyətinin başa düşülməsində əhəmiyyətli rol oynayır. Təcrübə göstərir ki, hətta dərinləşdirilmiş oxudan sonra da obrazın – qoca nəqqaşın sözlərinin hansı mənanı ifadə etdiyini aydınlaşdırmaq şagirdlərin çoxu üçün asan olmur. Məhz buna görə də dərinləşdirilmiş oxudan sonra mənimsəmənin səviyyəsinin yoxlanması faydalıdır. Bu prosesdə çatışmazlığın aradan qaldırılmasına şərait yaranır.

**Müzakirə.** Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlər üzrə fikir mübadiləsinin aparılması, bunun müzakirəyə – diskussiyaya çevrilməsi səmərəli nəticələrin əldə edilməsinə imkan yaradır. Əsərdəki mətləblər haqqında dolğun təsəvvür qazanan şagirdlər mövzu ilə bağlı ağlabatan fikirlər söyləməkdə çətinlik çəkmirlər. Sadəcə, onların fikirlərinin faydalı təşkilinə səy göstərmək lazım gəlir.

Əsərin janr xüsusiyyətlərinin müzakirə obyektinə çevrilməsi dərsdə fəallığın artmasına səbəb olur. Müzakirənin maraqlı, məzmunlu olması üçün janrlararası müqayisənin aparılmasına geniş yer vermək olar. Hekayə – novella, hekayə – nağıl, hekayə – mənzum hekayə qoşalıqlarının nümunələr əsasında müzakirə edilməsi işin effektivliyini artırmış olur.

**Yaradıcı iş.** Bu başlıq altında verilmiş iş essenin icrası ilə bağlıdır. Şagirdlərə aşağıdakı mövzulardan birini seçib işləmək təklif olunur:

a) Sürəyyanın taleyi məndə hansı düşüncələr yaratdı.

b) Hekayənin sonluğunu necə görmək istərdim.

İlk növbədə xatırladılır ki, seçilmiş mövzudan asılı olmayaraq yazının həcmi çox az – 0,5 səhifə olmalıdır. Bunun üçün ən mühüm olanların üzərində dayanmalı, ümumiləşdirməyə geniş yer verilməlidir. Ehtiyac duyan şagirdlərə dərslikdəki tövsiyələri nəzərdən keçirmək təklif oluna bilər.

Sadə – azbəndli plan tərtibi faydalıdır.

Şagirdlərə məlumdur ki, esse müvafiq dil xüsusiyyətləri əsasında yazılmalı, yeri gəldikcə obrazlı sözlərdən, təsvir və ifadə vasitələrindən istifadə olunmalıdır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra düzəlişlərin, özünüqiymətləndirmənin aparılmasına vaxt ayrılır. Nümunələrin oxunması, onlara münasibət bildirilməsi məqsədəuyğundur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunun obrazlarla bağlı yaratdığı təəssüratı nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin janr xüsusiyyətlərini nümunələr göstərməklə müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Yazı üçün məzmuna uyğun azbəndli plan tərtib edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ədəbi mövzu üzrə esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən məqamında istifadə ilə icra edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mühakimə xarakterli esseni obrazlı söz və ifadə, təsvir-ifadə vasitələrindən məqamında istifadə ilə icra edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ədəbi mövzu üzrə essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib məntiqli düzəliş edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mühakimə xarakterli essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib məntiqli düzəliş edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**ƏNVƏR MƏMMƏDXANLI. QIZIL QÖNÇƏLƏR –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları talelərinə görə müqayisə edir (7-1.4.1).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Hekayədə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.4.3).
- Hekayənin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir (7-1.4.6).
- Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (7-1.4.7).
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir (7-1.4.8).

**Köməkçi vasitələr:** Ənvər Məmmədxanlının əsərlərindən nümunələr. “Qızıl qönçələr” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, nəzəri anlayışların araşdırılması.
2. **İfadəli oxuya hazırlaşın.** Əsərdən seçilmiş parçanın ifadəli oxusuna hazırlıq.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyası aydınlaşdırılır, obrazlar təhlil edilir, nəzəri anlayışların mənimsənilməsi dərinləşdirilir və tətbiqi üzrə iş həyata keçirilir. Hekayədən seçilmiş parçanın oxusuna hazırlıq və ifadəli oxusu reallaşdırılır.

**Müəllim üçün əlavə məlumat.** *Sinifdə əhatəli araşdırılan "Azad" hekayəsi Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın taleyi barədə əhatəli təsəvvürün qazanılmasına imkan vermişdir. "Azad" və "Qızıl qönçələr" hekayələri ideya məzmunlarına görə yaxından səsləşirlər. Hər iki əsərdə dərin ictimai ziddiyyətlər bütün kəskinliyi ilə diqqət mərkəzində dayanır. Bu həmin əsərlərin bir çox əsaslar üzrə müqayisəsini zəruri edir. Müqayisənin əsasında təkcə əsərlərin mövzusu, ideyası yox, obrazlarının taleyi də dayanmalıdır. Bu məqsədlə müəyyənləşdirilmiş tapşırığa xüsusi qayğı ilə yanaşılması lazım gəlir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın məhrumiyyətlərlə dolu olan həyatı əsərdə təsirli bədii boyalarla oxuculara çatdırılmışdır. Burada hamı binəsibdir, böyüklər də, kiçiklər də... Uşaqların həyatı daha dözülməzdir. Ağır işlərdə çalışan balacalar bir qarın çörəyə möhtacdırlar. Bəs Süreyya kimi yüzlərlə, minlərlə uşağın faciəsinin əsl səbəbini yazıçı nədə görür?

Hekayənin məzmunu haqqında aydın təsəvvürün qazanılması dəyərləndirmə üzrə işin təşkilinə imkan verir. Araşdırma, təhlil, dəyərləndirmə suala cavab tapmağa imkan verəcəkdir.

Dərslikdə "Araşdırma. Təhlil" başlığı altında əks etdirilmiş tapşırıqlar əsərin müxtəlif komponentlərinin araşdırılması üçün nəzərdə tutulmuşdur. Bir qayda olaraq ilk növbədə şagirdlərin əsərin mövzusu ilə bağlı qənaətlərinin dəqiqləşdirilməsi tələb olunur. Həmin tapşırığın əlavəsində – tövsiyələrində şagirdlərin düşüncəsinə, fəaliyyətinə səmərəli istiqamət verilmişdir:

- hadisələrin harada baş verdiyini xatırlayın;
- təsvir və hadisələrdə diqqətin daha çox nəyə cəlb edildiyini yada salın;
- baba və nəvənin acınacaqlı həyatı, kədərli taleləri barədə düşünün.

Tövsiyələrin hər biri təkcə mövzu ilə deyil, ideya ilə də bağlı mühüm mətləblərin dəyərləndirilməsinə imkan verir. Tapşırığın yerinə yetirilməsində şagirdlərin cütlük şəklində, yaxud kiçik qruplarda fikir mübadiləsi aparmaları faydalıdır. Məzmunun əsasında dayanan hadisələrin cəmi mövzu haqqında qənaətlərin dəqiqləşməsinə, yekunlaşmasına səbəb olur.

Hekayədəki obrazların (Firuz baba, Süreyya) təhlili ilə bağlı tapşırıqların əlavələri əvvəlki dərslərdə mənimsənilmiş biliklərin səmərəli tətbiqinə imkan verir. Tapşırıq və tövsiyələr şagirdləri ən xırda detallara diqqət yetirməyə sövq edir. Firuz baba obrazının təhlili üçün dərslikdə əks etdirilmiş cədvəldə "nəvəsinə münasibəti" tələbi, əsasən, 7-1.4.8. altstandartın reallaşdırılması üçün nəzərdə tutulmuşdur. Nəvəsinin gecələr soyuqdan əzab çəkdiyini, yuxuya gedə bilmədiyini hiss edən baba bu hadisədən mütəəssir olur, bunu aradan qaldırmaq cəhdi həyatını itirməsi ilə nəticələnir. Buna standart səviyyəsində diqqətin yetirilməsi vacib hesab edilmişdir.

Hekayənin süjeti haqqında dolğun təsəvvürün qazanılması, baş verən hadisələrin qarşılıqlı əlaqələrinin aydınlaşdırılması növbəti tapşırığın (Süjetin mərhələlərini və onlardakı mühüm məqamları izah edin) uğurla yerinə yetirilməsini təmin edir. Dərslikdə təklif edilmiş cədvəlin tətbiqi cavabların keyfiyyətli olmasında əhəmiyyətli rol oynayır. Cədvəlin tələblərinə əsasən qısa qeydlərin aparılması cavabların dəqiq olmasına və təqdimatların səmərəliliyinə təsir edir.

Tapşırığa müqayisə tələbinin daxil edilməsi (Ə.Məmmədxanlının "Qızıl qönçələr" hekayəsi ilə M.İbrahimovun "Azad" hekayəsini müqayisə etməyə çalışın) təkcə qazanılmış biliklərin tətbiqi baxımından faydalı deyildir; o, müstəqil araşdırma aparmağa, öz sözünü deməyə, ümumiləşdirməyə, nəticə çıxarmağa geniş şərait yaradır. Təklif edilmiş cədvəldəki hər bir tələb bu baxımdan faydalıdır.

| S. | Əsərlər | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | mövzuları | | ideyaları | | obrazlarının taleyi | | müəlliflərin niyyəti | |
| | | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| 1 | Ə.Məmmədxanlı. "Qızıl qönçələr". | | | | | | | | |
| 2 | M. İbrahimov. "Azad". | | | | | | | | |

Layihə

Cədvəldəki “obrazların taleyi”, “müəlliflərin niyyəti” tələbləri şagirdləri daha diqqətli olmağa, araşdırma aparmağa, ümumiləşdirməyə yönəldir. “Obrazların taleyi” tələbi konkret obrazların müqayisəsi anlamına gəlmir. Hər iki hekayənin iştirakçılarının (yaşından, mövqeyindən və s. asılı olmayaraq) taleyi üçün oxşar olanların və bunun səbəblərinin aydınlaşdırılması əsərin ideya məzmununun qavranılmasının göstəricisi kimi dəyərləndirilməlidir.

“Araşdırma. Təhlil” tapşırıqlarının hansı iş formasının tətbiqi ilə yerinə yetirilməsindən asılı olmayaraq nəticənin çıxarılması, yazıçı niyyətinin və əsərin bu gün üçün əhəmiyyətinin üzərində dayanılması vacibdir. Bu, dərsin əvvəlində müəyyənləşdirilmiş sualla bağlı qənaətlərin qətiləşməsinə əsas olur.

**İfadəli oxu.** Dərsdə yerinə yetirilən sonuncu tapşırıqdır. Əsərdən seçilmiş parçanın üzərində şagirdlərin fərdi işləməsi nəzərdə tutulmuşdur. Bu qəbildən işin mahiyyəti, məzmunu ilə tanış olan şagirdlərin dərsdə müstəqil fəaliyyətinə nəzarət edilir. İfaçılıq vəzifəsini, səsin aldığı çalarları, fasilələrin yerini, məntiqi vurğulu sözləri, səsin ucalığını, sürətini, tənəffüs məqamlarını, sait, samit səslərin müxtəlif məqamlarda tələffüz xüsusiyyətlərini müəyyənləşdirib qeyd edən şagirdlər cütlük şəklində, yaxud kiçik qruplarda fikir mübadiləsi aparırlar. İfaların dinlənilib münasibət bildirilməsinə vaxt ayrılır.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları talelərinə görə müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas süjet xəttinin mərhələlərini nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədən bitkin parçanı ünsiyyət yaradaraq ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini nümunələr əsasında dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

**Mövzu:**

**NARINGÜL NADİR.**

**PEŞMANLIQ –**

**2 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını izah edir (7-1.1.4).
- Şeirdə mətləblərin əlaqələrini müəyyənləşdirir (7-1.1.7).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir 7-1.1.8).
- Əsərdən bitkin parçanın məzmununu geniş nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).

**Köməkçi vasitələr:** Narıngül Nadirin əsərlərindən nümunələr. "Peşmanlıq" şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Suallarından mövzu ilə bağlı biliklərin yada salınması, maraqoyatma vasitəsi kimi istifadə olunur.
2. **Oxu. Anlama.** İlkin oxunun, məzmunun qavranılma səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxu üzrə işin təşkili.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin mühüm mətləblərinin aydınlaşdırılması, möhkəmləndirilməsi, janr və vəzn xüsusiyyətlərinin izah edilməsi.
5. **Nitqin, düşüncənin inkişaf etdirilməsi.** Nəsrə çevirmə, məzmunun nağıl edilməsi və şeirlə bağlı müstəqil düşüncənin ifadəsi üzrə işin təşkili.
6. **Müzakirə.** Əsərin mövzusunun müəyyənləşdirilməsi ilə bağlı müzakirə.
7. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin oxusu, məzmunun ilkin qavranılma səviyyəsinin müəyyənləşdirilməsi, mənimsəmənin dərinləşdirilməsi, nəticəsinin yoxlanması, möhkəmləndirilməsi, nitq inkişafı, nəzəri anlayışlarn aydınlaşdırılması üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlər uşaq həyatından, uşaq taleyindən danışılan əsərlərə böyük maraq göstərirlər. Bu baxımdan Narıngül Nadirin "Peşmanlıq" şeiri onları ilk misralarından cəlb edir. Bu imkandan qədərincə istifadə edilməsi məqsədəuyğundur. Başqa sözlə, əsərin tədrisində şagirdlərin müstəqilliyinə geniş yer verilməsi, yaradıcı, düşündürücü xarakterli tapşırıqlardan, diskussiyadan istifadəyə daha çox diqqət yetirilməsi ön plana çəkilməlidir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlər "Yadasalma" başlıqlı suallarla (Qəhrəmanları uşaqlar olan hansı əsərləri xatırlayırsınız? Bu qəhrəmanlar hansı cəhətləri ilə yadınızda qalıb?) tanış olurlar. Həmin sualların əsasında yığcam müsahibə aparılır. Müsahibənin sonunda sual formalaşdırılır: Uşaqların zərərli vərdişlərdən uzaqlaşmalarına səbəb nə ola bilər?

Qeyd edilir ki, şeirin öyrənilməsi bu suala, eləcə də buna bənzər suallara cavab tapmağa imkan verəcəkdir.

**Oxu. Anlama.** Şagirdlər şeiri birnəfəsə oxuyurlar. Elə buna görə də səssiz oxunun təşkilinə üstünlük verilir. Onlar ilkin oxunun təəssüratını da həvəslə bölüşürlər. Bunun üçün dərsliyə daxil edilmiş suallara əlavələr etmək olar.

– Şeirin məzmunu sizə maraqlı gəldimi?
– Elçin obrazı sizdə hansı təəssürat yaratdı?
– Əsərdə sizə daha çox təsir edən nə oldu?

Layihə

Sualların hər birinə nümunələr əsasında cavabların hazırlanması nəzərdə tutulmuşdur. Bu, ümumi sözlərlə kifayətlənməyin qarşısını alır, fikrin əsaslı olmasını təmin edir. Məsələn, şeirin məzmununun maraqlı olduğunu Elçinin davranış və hərəkətlərinin təsviri ilə əlaqələndirənlər bunu nümunələrlə əsaslandırmağa çalışmalıdırlar. Yaxud məktəbdə keçirilən tədbirin təsviri, valideynlərin sevinc hissləri ilə bağlı deyilənlər və s. nümunələr əsasında diqqətə çatdırılmalıdır. Bu, məzmunun ilkin qavranılması mərhələsi üçün qənaətbəxş sayıla bilər.

Elçin obrazı haqqında ilkin təəssüratlar fərqli olur. Onun davranış və hərəkətlərinin nəticələri barədə dərindən düşünməyənlər də tapılır. Maraqlıdır ki, Elçinin anasının məyus olmasını şagirdlərin əksəriyyəti təsirli səhnə kimi qeyd edir.

İlkin təəssürat nə qədər parlaq, əhatəli olsa da, dərinləşdirilmiş oxuya ehtiyac yaranır. Dərslikdə bu məqsədlə əks olunmuş suallara müəllimin əlavələr etməsi ilkin oxunun nəticəsindən asılıdır. Sualların çoxu Elçin obrazı ilə bağlı təəssüratın tamamlanması məqsədini güdür. İlk sualın (O, sinif yoldaşları ilə necə davranırdı?) cavabında nümunələrin göstərilməsi ilə yanaşı, ümumiləşdirmənin aparılması da vacibdir. Digər sual (Elçin bayram günü özünü necə aparır? O nə hiss edir?) bayrama ciddi hazırlaşan, “dillərində nəğmələr səslənən” yoldaşlarını müşahidə edən Elçinin hiss və düşüncələrini anlamaq və izah etmək üçün nəzərdə tutulmuşdur. O, ilk dəfə özünü tənha hiss edir, hamının gözündən düşdüyünü anlayır. Növbəti sual isə (Anasının məyus olması Elçində hansı düşüncələr yaradır?) şagirdləri Elçinin sarsıldığını, peşmançılığını başa düşməyə və aydınlaşdırmağa istiqamətləndirir.

Son iki sual (Onun qəlbindən hansı arzular keçir? Elçinin dərsliklərinə meyil salması, onlardan möhkəm yapışması nədən xəbər verir?) şagirdləri davranış və əməllərindən peşman olan Elçində baş vermiş dəyişikliyi və bunun səbəbini açıqlamağa yönəldir.

**Öyrəndiklərinizi yoxlayın.** Mənimsənilənlərin test tapşırıqlarının yerinə yetirilməsi ilə yoxlanmasına vaxt ayrılır. Tapşırıqlar obrazın xarakter, əməl və davranışlarındakı özəlliklərin, eləcə də əsərdəki səbəb-nəticə əlaqələrinin aydınlaşdırılmasında əhəmiyyətli rol oynayır. Fərdi işləyən şagirdlərin sonda tapşırıqlarla bağlı təqdimatları dinlənilir və müzakirə olunur.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Yalnız bir tapşırığın (“Şeirdəki mətləbləri aydınlaşdırın”) icrası nəzərdə tutulmuşdur. İlkin oxudan sonra şagirdlər şeirdəki başlıca mətləblər barədəki təəssüratlarını bölüşmüşdülər. Sonrakı mərhələlərdə icra olunan işlərin sayəsində mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsinə ehtiyac yaranır. Şagirdlər cütlük şəklində başlıca fikirləri – mətləbləri bəndlər şəklində qeyd edirlər. İşin sonunda şifahi təqdimatlar dinlənilir və çıxışlara münasibət bildirilir.

Çıxışlara münasibət dialoqlar əsasında reallaşdırılır. Təqdimat edənlər bu prosesdə obrazlı söz və ifadələrdən, ritorik suallardan istifadə edərək ünsiyyətin davamlılığına nail olur.

**Nitqin, düşüncənin inkişafı.** Bu, iki bənddən ibarət tapşırığı özünə daxil edir. Birincidə şeirdən seçilmiş iki bəndi nəsrə çevirməyi və məzmununu geniş nağıletmənin tələblərinə uyğun danışmağı nəzərdə tutur. Tapşırıq şagirdlərdən müstəqil düşüncə, şifahi və yazılı nitq üçün vacib olan keyfiyyətlərin olmasını tələb edir. Nəzmi nəsrə çevirmək işinə sadə fəaliyyət kimi baxmaq olmaz. Bu məqamda şeir bəndlərində əksini tapmış başlıca fikirlərin əhatəli dərk olunması, təhrif edilmədən nəsr formasında ifadəsi tələb edilir. Şagirdlərin bu məzmunda tapşırıqlarla bağlı təcrübəsi var və birbaşa işin icrasına başlamaq mümkündür.

İkinci bənd (Şeir məktəb həyatı haqqında düşüncəmə yeni nə əlavə etdi) şagirdlərdən şəxsi hiss və düşüncələrini ifadə etmək vəzifəsini reallaşdırmağa xidmət edir. Şagirdlərin şifahi təqdimatları dinlənilir və onlara münasibət bildirilir.

**Müzakirə.** Dərslikdə təklif edilmiş sonuncu tapşırıqdır. Şagirdlərdən şeirin mövzusu haqqındakı qənaətlərini müzakirə əsasında bölüşmək tələb olunur. Şeirin məzmunu, başlıca mətləbləri, müəllifin niyyəti barədə təsəvvürü olan şagirdlər müzakirədə fəal iştirak edirlər. Səsləndirilmiş fikirlərin dinlənilməsinə, onlara münasibət bildirilməsinə şərait yaradılır, son nəticənin isə araşdırmadan sonra əldə olunacağı xatırladılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunda başlıca mətləblərlə bağlı yaranan təəssüratını nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |

| | | |
|---|---|---|
| Şeirdə mətləblərin əlaqələrini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Əsərdən bitkin parçanın məzmununu geniş nağıletmənin tələblərinə uyğun danışır. | | |
| Dialoji nitq şəraitində obrazlı söz və ifadələrdən istifadə etməklə ünsiyyətin ardıcıl davamlılığına diqqət edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**NARINGÜL NADİR.**

**PEŞMANLIQ –**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu şərh edir (7-1.2.2).
- Şeiri məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur (7-1.2.3).
- Əlaqələndirimiş fikirlərin əks olunduğu təqdimat hazırlayır (7-2.1.2).
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir (7-2.1.4).

**Köməkçi vasitələr:** Narıngül Nadirin əsərlərindən nümunələr. “Peşmanlıq” şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Şeirin mövzusunun dəqiqləşdirilməsi, ideyasının şərhi, dəyərləndirilməsində obrazın rolunun aydınlaşdırılması.
2. **İfadəli oxuya hazırlaşın.** Şeirdən parçanın oxusuna hazırlıq və ifadəli oxusunun gerçəkləşdirilməsi.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Şeirin mövzusu ilə bağlı qənaətlər dəqiqləşdirilir, ideyasının şərhi, ideyanın dəyərləndirilməsində obrazın rolunun aydınlaşdırılması, ifadəli oxu üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Şeirin məzmununun mükəmməl mənimsənilməsi, ideyasının aydınlaşdırılması üçün zəruri olan işlərin yerinə yetirilməsi araşdırma və təhlildə şagirdlərin yüksək fəallıq və müstəqillik göstərmələrinə imkan yaradır. Əsərdə nəsihət ruhu zəifdir, başlıca yeri hadisələrin təsviri tutur. Bu, şeirin təsir gücünü əhəmiyyətli dərəcədə artırır, baş verənlərin inandırıcı, real həyat hadisəsi kimi qavranılmasına səbəb olur. Bu məqamda bədii əsərin sadəlövh gerçəkcəsinə qavranılmasının da rolu az olmur. Unudulmamalıdır ki, əsərdə təsvir olunanların real həyat hadisələri kimi qavranılması yeddinci sinifdə də özünü göstərir. Təsadüfi deyildir ki, şagirdlər bədii əsərdəki obrazların prototiplərini ətraflarında axtarmağa meyilli olurlar. Bütün bunlar nəzərə alınmaqla Elçin obrazının öz səhvini anladığını, dərindən sarsıldığını və davranışlarında dönüş yaradacağına inam hissinin aşılanması faydalıdır.*

**Araşdırma. Təhlil.** Tapşırıqların həcmi azdır, cəmi üç bənddən ibarətdir. Bu, tapşırığı fərdi yerinə yetirilməsinə imkan yaradır. Birinci bəndin (Şeirin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin) yerinə yetirilməsi üçün kifayət qədər məlumat əldə edilmişdir. Bu məlumatın bir daha xatırlanması, ümumiləşdirilərək nəticə çıxarılması mövzu ilə bağlı əsaslandırılmış nəticənin çıxarılmasına səbəb olur. Bəndə əlavə edilmiş tövsiyələr bu fəaliyyətin səmərəliliyinə imkan verir:



Layihə

– şeirdə, əsasən, kimdən, nədən danışıldığını yada salın;
– Elçinin davranış və əməllərinin nəticələri barədə düşünün;
– onun oxuduğu sinif və məktəb barədəki təsəvvürünüzü xatırlayın.

Şeirdə Elçin hadisələrin mərkəzində dayansa da, oxuduğu məktəb, sinif haqqında aydın təsəvvür yaradılır. Şeirin məzmunundakı bu detallara diqqət yetirilməsi mövzu haqqındakı qənaətlərin dəqiqləşməsində az rol oynamır.

Tapşırıqdakı növbəti bəndə (Elçin obrazını necə səciyyələndirərsiniz?) əsasən obrazın əhatəli təhlili yazıçı niyyətinin, əsərin əsas ideyasının başa düşülüb dəyərləndirilməsinə əhəmiyyətli təsir edir. Təhlilin səmərəliliyi tövsiyələrin nəzərə alınmasından xeyli dərəcədə asılıdır:

– dərslərinə, məktəbə, yoldaşlarına münasibətini xatırlayın;
– onun bayram günü keçirdiyi hissləri yada salın;
– anasının məyus olmasından necə təsirləndiyini xəyalınızda canlandırın.

Müəllif əməllərinin acı nəticələri barədə fikirləşməyən Elçin kimi uşaqların həyatlarının müəyyən məqamlarında peşman ola biləcəklərini diqqətə çatdırmışdır. Həmin məqam obraz üçün çox çətin sınaq anı olur. Bunu şagirdlərin başa düşüb dəyərləndirmələrinə nail olmaq vacibdir.

Elçin obrazının hərtərəfli təhlili şeirin ideyasının başa düşülməsi və dəyərləndirilməsində mühüm addımdır. Davranış və əməllərində ölçü-biçi bilməyən Elçinin məktəbdəki tədbirdə utanan, xəcalət çəkən anasını müşahidə etməsi sarsılmasına səbəb olur. Bunu müəllif həyatın Elçinə "ilk böyük dərsi" kimi qiymətləndirir. Həyatın "ilk böyük dərsindən" nəticə çıxaran Elçinin son addımları əsərin əsas ideyasının dəyərləndirilməsi üçün tutarlı vasitə yerində çıxış edir.

Tapşırığın hansı iş formasının tətbiqi ilə yerinə yetirilməsindən asılı olmayaraq nəticələrlə bağlı təqdimatların dinlənilməsi və müzakirəsi həyata keçirilir. Bu prosesdə fikirlərin əlaqəsinə, mənası yeni öyrənilmiş sözlərdən necə istifadə olunmasına diqqət yetirilir.

**İfadəli oxuya hazırlaşın.** Dərslikdə sonuncu tapşırıq olub şeirdən iki bəndin ifadəli oxusuna hazırlıq məqsədini güdür. Şagirdlər ilk növbədə tapşırığın tələbləri ilə tanış olurlar:

– şeirin ilk iki bəndinin ifadəli oxusunu hazırlayın, məntiqi fasilələrin və məntiqi vurğulu sözlərin fərqləndirilməsinə diqqət yetirin;
– digər şərti işarələrdən də istifadə edə bilərsiniz;
– nümunəyə diqqət edin;
– ifalara münasibət bildirin.

Şagirdlərə aydın olur ki, mətnin ifadəli oxusuna hazırlaşarkən məntiqi fasilələrin yerinin və məntiqi vurğulu sözlərin müəyyənləşdirilməsi, oxuda fərqləndirilməsi qaydalarının aydınlaşdırılması başlıca tələblərdəndir. Digər şərti işarələrdən qismən istifadə olunması (nümunədə olduğu kimi) tövsiyə edilir. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra hazırlanmış nümunələrin oxunması və onlara əsaslandırılmış münasibətin bildirilməsi həyata keçirilir.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin əsas ideyasını ondakı mətləblərə əsaslanmaqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasının dəyərləndirilməsində obrazların rolunu nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeiri məntiqi fasilə və məntiqi vurğunu ardıcıllıqla nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Əlaqələndirilmiş fikirlərin ardıcıllıqla əks olunduğu təqdimat hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında ardıcıllıqla diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə V.Hüqonun "Qavroş" əsəri üzrə aparıla bilər.*

Viktor Hüqo
Qavroş
("Səfillər" əsərindən parça)

Soyuq aprel axşamlarından birində Qavroş adamlarla dolu bir küçədə, böyük bir dəllək dükanı qarşısında soyuqdan büzüşərək dayanmışdı. Onun boynunda haradansa əldə etdiyi bir şal yaylıq var idi. Qavroş özündən balaca iki uşağın dəllək dükanına girdiyini gördü. Bunlardan birinin yeddi, o birinin isə beş yaşı olardı. Onların geyimləri çox köhnə idi, nə istədiklərini ayırd etmək olmurdu. İkisi də birdən danışırdı. Kiçik hey ağlayırdı, böyüyünün isə soyuqdan dişləri bir-birinə dəyib şaqqıldayırdı. Dəllək acıqlı-acıqlı onlara tərəf çevrildi, sözlərinə qulaq asmayaraq uşaqları itələyib küçəyə saldı və dallarınca dedi:

– Boş-boş veyillənib, içərini də soyudurlar!

Uşaqlar ağlaya-ağlaya yollarına davam etdilər. Bu vaxt göyün üzünü qara buludlar örtdü və yağış səpələməyə başladı. Qavroş özünü onlara yetirib soruşdu:

– Ay uşaqlar, niyə ağlayırsınız?

– Gecə yatmağa yerimiz yoxdur, – deyə böyük uşaq cavab verdi.

Qavroş dedi:

– Eh, elə bu? Heç adam da belə boş şey üçün ağlar? Ay sizi, səfehlər!

Qavroş onların qayğısına qalan bir adam kimi mehribancasına əlavə etdi:

– Balaca cırtdanlar, dalımca gəlin!

Uşaqlar ağlamaqlarını kəsib inamla Qavroşun arxasınca getdilər.

Gedə-gedə Qavroş dəllək dükanına baxdı: "Daşürəkli heyvan! Zəhər tuluğu!" – deyə mızıldandı və dəlləyi hədələdi.

Bir darvazanın yanından keçəndə soyuqdan titrəyən on üç-on dörd yaşlı dilənçi bir qız gördü.

– Yazıq tamam çılpaqdır. Al, götür! – deyə o, boynundakı yun yaylığı açıb dilənçi qızın arıq çiyinlərinə saldı. Qız təəccüblə ona baxdı və dinməzcə hədiyyəni qəbul etdi. Qavroş isə soyuqdan daha çox büzüşdü. Elə bu zaman yağış yenə də səpələməyə başladı.

– Bu nədir, yenə də yağış yağır, – deyə Qavroş dilləndi.

O, dilənçi qızın yaylığa bərk-bərk büründüyünü görüb əlavə etdi:

– Heç olmasa ona isti olar. Lap elə bil kürk geyinib.

Uşaqlar xırda addımlarla yeyin-yeyin Qavroşun dalınca gedirdilər. Çörək dükanının yanından keçəndə Qavroş üzünü uşaqlara çevirib soruşdu:

– Uşaqlar, bu gün çörək yemisiniz?

– Səhərdən heç nə yeməmişik, – deyə böyük uşaq cavab verdi.

– Görünür, ata-ananız yoxdur, – deyə Qavroş soruşdu.

– Atamız da, anamız da var. Ancaq onların harada olduqlarını bilmirik.

– Deməк, ata-ananızı itirmişsiniz? Bəs bilmirsiniz, hara gediblər? Bu, yaxşı deyil, uşaqlar! Başsız qalmaq axmaqlıqdır. Nə isə, hər halda, bir şey yemək lazımdır.

O artıq heç bir söz soruşmadı. Yurdsuzluq küçə uşağı üçün adi bir hal idi. Qavroş dayandı və səylə şalvarının ciblərini axtarmağa başladı. Nəhayət, sevinclə başını qaldırıb dedi:

– Uşaqlar, sakit olun, bu saat yaxşıca şam edəcəyik.

O, pulu cibindən çıxartdı və uşaqları itələyib çörək dükanına saldı. Pulu dükançıya verib ağır-ağır dedi:

– Çörək ver, üç yerə böl! Axı biz üç nəfərik!

Dükançı uşaqlara nəzər salıb istədi ki, onlara qara çörək versin. Ancaq Qavroş acıqla dedi:

– Ağ çörəkdən, ən yaxşısından kəsin. Mən onları qonaq edirəm!

Dükançı gülümsədi və maraqla uşaqlara baxmağa başladı. Qavroş incimiş halda ona dedi:

– Niyə gözlərinizi bizə zilləmisiniz? Elə bilirsiniz, balacayıq?

Elə ki çörək kəsildi, Qavroş uşaqlara dedi:

– Hə, indi yeyin!

Qavroş uşaqların böyüyünü ürəkləndirmək üçün çörəyin böyük parçasını ona verdi. Özünə isə ən kiçik parçanı götürdü. Hər üçü ac idi, qapının qabağında dayanıb acgözlüklə çörəyi yeyirdilər. Çörəkçi də acıqlı-acıqlı onlara baxırdı, çünki uşaqlar qapının qabağını kəsmişdilər. Qavroş dükançının narazılığını duyaraq dedi:

– Gəlin küçəyə çıxaq!

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Mətndə çərçivəyə alınmış hissənin planını tərtib edin.

_______________________________________________________________

_______________________________________________________________

2. Qavroş obrazını səciyyələndirməyə çalışın. Cədvəldəki tələbləri nəzərə alın.

| Xarakterindəki başlıca cəhətlər | Davranış və əməlləri | Nitqi | Başqalarına münasibəti |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

3. Cümlədə fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirin. Şərti işarələrdən istifadə edin.

*Dükançı uşaqlara nəzər salıb istədi ki, onlara qara çörək versin.*

4. "Yurdsuzluq küçə uşağı üçün adi bir hal idi" cümləsindəki "yurdsuzluq" sözü hansı mənada işlənib? Fikrinizi əsaslandırın.
   1. Ev-eşiyi olmamaq
   2. Vətəndən ayrı düşmək

   Əsaslandırma: ______________________________________________

   ______________________________________________________________

   ______________________________________________________________

   ______________________________________________________________



Layihə

5. Əsərdəki obrazlarla bağlı doğru fikirləri müəyyən edin.
   1. Soyuq havada küçələrdə dolaşan ac, yarıçılpaq uşaqları heç nə ilə ovundurmaq mümkün deyil.
   2. Başqalarına etdiyi yaxşılıq Qavroşun qəlbini isidir, ona güc, qüvvət verir.
   3. Dəllək kobud xarakterinə görə çörəkçidən fərqlənir.
   4. Maraqla uşaqlara baxan dükançı xeyirxahdır.
   5. Kiçik bir qayğı insanlardan laqeydlik görən kimsəsiz uşaqları sevindirir, onlara ümid verir.
   6. Dükançı insanlara fərq qoyan xəsis bir adamdır.

   A) 1, 2, 5  B) 2, 4, 6  C) 2, 3, 5  D) 1, 4, 5  E) 2, 5, 6

6. Hekayədəki dilənçi qız obrazı ilə bağlı fikirlərdən doğru olanı seçib fikrinizi əsaslandırın.
   1. Ağır vəziyyəti və çarəsizliyi üzündən Qavroşun yaylığını götürür.
   2. Fürsəti qaçırmayıb heç düşünmədən Qavroşun yaylığını götürür.

   Əsaslandırma:

7. Əsərlə bağlı yanlış fikir hansıdır?
   A) Uşaqların acınacaqlı həyatı təsvir edilmişdir.
   B) İnsanların mərhəmətsizliyi, laqeydliyi faciələrə səbəb ola bilər.
   C) Qavroş dostlarının köməyinə yetişib onları xilas edir.
   D) Kiçik, yoxsul oğlanın mərdliyi və cəsarəti ətrafdakıların marağına səbəb olur.
   E) Ağır, məşəqqətli həyat yaşayan uşaqlar nəcib hisslərdən məhrum deyillər.

8. Qavroşun uşaqlara mərhəməti hansı cümlələrdə daha qabarıq ifadə olunub?

9. Hadisələrin davamını necə görmək istərdiniz? Bir neçə cümlə ilə yazın.

10. Əsərdəki əsas fikri — ideyanı müəyyənləşdirin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| s. | Fikirlərdən hansı ideya üçün əsas sayıla bilər? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|

Layihə

| | | | |
|---|---|---|---|
| 1 | Çətin məqamlarda kiçik uşaqlar da bir-birinə dayaq ola bilərlər. | | |
| 2. | İnsan başqaları haqqında da düşünməli, gördüklərinə laqeyd qalmamalıdır. | | |
| 3. | Mərhəmət insanlığın tacıdır. | | |

Layihə

**Mövzu:**

**ELÇİN HÜSEYNBƏYLİ. NƏVƏ –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayədə hadisələrin səbəb-nəticə əlaqələrini izah edir (7-1.3.5).
- Hekayədən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).
- Hekayə janrında mətnin yazılması üzrə işi davam etdirir (7-2.2.1).

**Köməkçi vasitələr:** Elçin Hüseynbəylinin əsərlərindən nümunələr. "Nəvə" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1.Yadasalma.** Suallarından biliklərin xatırlanması, maraqoyatma vasitəsi kimi istfadə olunması.
**2. Oxu. Anlama.** Hekayədən parçanın ilkin oxusu, məzmununun qavranılma səviyyəsinin aşkara çıxarılması. Dərinləşdirilmiş oxunun təşkili.
**3. Öyrəndiklərinizi yoxlayın.** Mənimsənilənlərin test tapşırıqları əsasında yoxlanması.
**4. Nitqin, düşüncənin inkişafı.** Hekayədən seçilmiş parçanın yaradıcı nağıletmənin tələblərinə uyğun danışılması.
**5. Yaradıcı iş.** Müstəqil işlənən hekayənin yazılması üzrə işin davamı.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayənin ilk parçasının oxusu;
– ilkin qavramanın səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun suallar əsasında həyata keçirilməsi;
– məzmununun öyrənilməsinin yoxlanması;
– nitq inkişafı üzrə işin təşkili;
– müstəqil yazılan hekayənin üzərində işin davamı.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlər hekayənin maraqlı süjetini diqqətlə izləyir, hələ əsərin tədrisinə qədər onu mütaliə edirlər. Bunun bir səbəbi əsərdə təsvir olunanlarla şagird-oxucuların həyat təcrübələri arasında oxşarlığın olmasıdır. Bu, əsərin tədrisində fərqli, rəngarəng tapşırıqların tətbiqi imkanını artırır. Oxu, məzmunun mənimsənilməsinin dərinləşdirilməsi və s. bağlı dərslikdə təklif edilmiş metodik işləmələrdən fərqli olanların tətbiqinə geniş yer verilməsi arzuolunandır. Məsələn, hələ sinifdə oxusuna qədər hekayənin mütaliə edilməsi birbaşa ikihissəli gündəliyin tətbiqini mümkün edir. Hazırlanmış ikihissəli gündəliklərin ətraflı müzakirəsi ilkin qavrama haqqında məlumatın əldə edilməsinə, eləcə də qavramanın dərinləşdirilməsinə şərait yaradır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Bu məqsədlə fərqli vasitələrdən istifadə etmək olar. Məsələn, dərslikdəki "Yadasalma" başlıqlı suallarla (Baba və nəvə, nənə və nəvə obrazlarının iştirak etdiyi hansı əsərləri xatırlayırsınız? Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?) tanış olan şagirdlərlə yığcam müsahibə aparılır. Müsahibənin sonunda nəticə çıxarılır: Uşaq xoşagəlməz davranış və əməllərindən uzaqlaşa bilərmi?

Qeyd edilir ki, hekayənin dərindən öyrənilməsi, təhlili bu qəbildən suallara əhatəli cavabın tapılmasına imkan verəcəkdir.

Layihə

**Oxu. Anlama.** Hekayədən verilmiş parçanın oxusu həyata keçirilir, ilkin təəssüratın bölüşülməsi üçün təklif edilmiş suallar diqqətə çatdırılır.

– Təsvir və epizodlardan hansını maraqlı hesab edirsiniz? Nə üçün?
– Kamalın sizdə yaratdığı ilkin təəssürat nə oldu?
– Əsərdə gülüş doğuran təsvir və səhnələr varmı?

Suallar oxunmuş parça ilə əlaqədar yaranmış təəssüratın aşkara çıxarılması baxımından məqsədyönlüdür. Onlara əlavələr edilməsinə müəllim qərar verir.

Birinci sual əsərdə şagirdlərin diqqətini cəlb edənlərin nə dərəcədə əhəmiyyətli olduğunu müəyyənləşdirməyə imkan yaradır. Bu suala hazırlanan cavablar bir-birindən fərqlənir. Epizodlarda Kamal obrazının davranış və əməllərinin geniş təsvirinə yer verilmişdir. Onun yanlış düşüncələri, səhv addımları bəzən oxucunun heyrətinə, bəzən də gülüşünə səbəb olur. Öz qəbahətlərini anlamayan Kamal bütün bunlar haqqında həvəslə danışır, sanki haqlı olduğuna özünü inandırmaq istəyir. İlkin oxuda bunların necə qavranıldığının aşkara çıxarılmasının əhəmiyyəti böyükdür.

Şagirdlərin böyük marağına səbəb olan ikinci suala verilən cavablar da fərqli olur. Kamalın qeyri-ciddi mühakimələrinə və yanlış əməllərinə "göz yuman" şagirdlər az olmur. Onların fikrincə, bu, keçici bir şıltaqlıqdır. Digərləri isə, əksinə, bu obrazın davranış və əməllərindəki qüsurların yolverilməz olduğunu israr edirlər.

Üçüncü sual Kamal obrazının fakt və hadisələrə sadəlövh yanaşmasını şagird-oxucunun necə dəyərləndirdiyini aşkara çıxarmaq məqsədini güdür.

Cavablar müsahibənin aparılması ilə dinlənilir və səsləndirilənlərə münasibət bildirilir. İlkin qavrama barədə təsəvvür yaranandan sonra dərinləşdirilmiş oxu həyata keçirilir. Bu məqsədlə şagirdlər ilk növbədə dərsliyə daxil edilmiş suallarla tanış olurlar. Suallar ilkin qavramanın nəticələri nəzərə alınmaqla tərtib edilmişdir. Məsələn, Kamal obrazının obyektiv təhlilinə nail olmaq üçün onunla bağlı suallara geniş yer verilmişdir. Məsələn, bununla bağlı ilk sual (Nənə ilə nəvə arasında münasibətin necə olduğunu duydunuzmu?) şagirdləri onların arasında mehriban münasibətin olduğunu aydınlaşdırmağa yönəldir. Deməli, Kamalda səmimi, munis hisslər var. Növbəti sual (Nənənin xəstələnməsi nəvəyə necə təsir edir? O hansı qayğıları çəkməyə məcbur olur?) ilkin oxuda Kamalla bağlı qədərincə diqqət yetirilməyən cəhətlərin başa düşülməsinə imkan yaradır; o, xəstələnmiş nənəsinin qayğısını çəkməyə, ev işləri görməyə məcbur olur. Nənəsini sevən, onun qulluğunda durmağı özünə borc bilən nəvə birdən-birə onun üçün çətin, həm də ağır işləri yerinə yetirməli olur. Digər bir sual isə (Nəvə kəndə – "sürgünə" göndərilməsinn səbəbini necə izah edir?) ilkin oxudan sonra Kamalın davranış və əməlləri barədə ən qabarıq cəhətləri xatırlatmaqla kifayətlənən şagirdlərin nümunələrə əsaslanmaqla incəlikləri aşkara çıxarmalarına istiqamət verir. Sual obrazın müxtəlif məqamlardakı düşüncələrini, hiss-həyəcanlarını daha dərindən duymağa imkan yaradır.

Sonrakı sual (Öz əməllərində qəbahət görməyən nəvə haqlı idimi?) Kamalda müşahidə olunan nöqsanları ilkin oxudan sonra adi dəcəllik sayan oxucu-şagirdləri ciddi düşünməyə, əsaslandırılmış münasibət bildirməyə yönəldir. Növbəti sual (Nəvənin əməlləri, davranışı sizdə təəssüf hissi doğurur, yoxsa gülüş?) əvvəlkini tamamlayır. İndi artıq şagirdlər bu obrazın nitqinə, öz hərəkətlərinə verdiyi qiymətə daha diqqətli və tənqidi yanaşırlar.

**Öyrəndiklərinizi yoxlayın.** Bu məqsədlə dərsliyə daxil edilmiş test tapşırıqları əhatəli olub şagirdlərdən ciddi düşünməyi, araşdırma aparmağı tələb edir. O, yoxlama məqsədilə təklif olunmuş yeganə tapşırıqdır. Bu səbəbdən də daha çox şagirdin cavabının dinlənilməsi və müzakirə edilməsi vacibdir. Test tapşırıqları obrazlarla, hadisələrin səbəb-nəticə əlaqələri ilə bağlı öyrənilənlərin yoxlanmasına, dərinləşdirilməsinə və zənginləşdirilməsinə əhəmiyyətli təsir edir.

**Nitqin, düşüncənin inkişafı.** Nəzərdə tutulan tapşırıq bir neçə baxımdan faydalıdır: məzmunun qavranılması dərinləşdirilir, mətnə yaradıcı yanaşma, müstəqil düşüncə və şifahi nitqin inkişafı təmin edilir.

Layihə

Əsərdən parçaların seçilməsində şagirdlər sərbəstdirlər. Başlıca mətləb hekayədən seçilmiş parçalara əlavələrin hansı dərəcədə uğurla hazırlanmasıdır. Bununla bağlı şagirdlərdə təcrübə və bacarıqlar olsa da, hələ nümunələrin oxusuna başlamazdan əvvəl işlərə nəzər salınmasına ehtiyac yaranır.

**Yaradıcı iş.** Dərsin sonuncu tapşırığıdır. İlk növbədə müstəqil icra olunan hekayə ilə bağlı işin hansı səviyyədə olduğu müəyyənləşdirilir. Ortaya çıxan suallar müzakirə edilir. Diqqət aşağıdakı məsələlər üzrə işin necə davam etdiriləcəyinin üzərində cəmləşdirilir:

– hekayədə obrazların nitqi;
– obrazların bir-birinə münasibəti;
– obrazların portreti;
– əsas süjet xətti ilə əlavə süjet xətlərinin əlaqəsi.

Daha çox şagirdin öz mövqeyini bildirməsinə imkan yaradılır. İcra edilmiş işlərdə bu məsələlərdən əlavə, əksini tapan nə varsa, səsləndirilir və münasibət bildirilir.

Hekayənin yazılması üzrə işin davam etdirilməsi diqqətə çatdırılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə hadisələrin səbəb-nəticə əlaqələrini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə ardıcıllıqla məqamında işlədir. | Yazı | İş vərəqləri |
| Hekayə janrında mətnin yazılması üzrə işi məntiqi ardıcıllıqla davam etdirir. | Tapşırıq, şifahi sual-cavab, yazı | İş vərəqləri |

Layihə

| | |
|---|---|
| **Mövzu:**<br><br>**ELÇİN HÜSEYNBƏYLİ. NƏVƏ –**<br><br>**3 saat**<br><br>**İkinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir (7-1.3.1).<br>• Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (7-1.3.1).<br>• Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3).<br>• Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).<br>• Hekayədəki əsas konflikti müəyyənləşdirir (7-1.3.6).<br><br>**Köməkçi vasitələr:** Elçin Hüseynbəylinin əsərlərindən nümunələr. "Nəvə" hekayəsinə çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Oxu. Anlama.** Hekayədən parçanın ilkin oxusu, qavranılmasının aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili.<br>**2. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.<br>**3. Nitqin, düşüncənin inkişafı.** Mənası yeni aydınlaşdırılmış sözlərin cümlələrdə işlədilməsi və məzmunun başa düşülməsində rolunun açıqlanması.<br>**4. Müzakirə.** Hekayənin mövzu və konfliktinin müəyyənləşdirilməsi.<br>**5. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu:**
– hekayənin davamının oxusu;
– ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun həyata keçirilməsi;
– öyrənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi;
– nitqin, düşüncənin inkişafı üzrə işin təşkili;
– hekayənin mövzusunun və konfliktin müəyyənləşdirilməsi.

**Oxu. Anlama.** Hekayənin oxusu müəllimin müəyyənləşdirdiyi formada həyata keçirilir. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra ilkin qavrama səviyyəsinin aşkara çıxarılması məqsədilə dərsliyə daxil edilmiş suallara diqqət yetirilir.

– Kamal haqqında təəssüratınıza yeni nə əlavə olundu?

– Həmyaşıdlarının – kənd uşaqlarının Kamala münasibətlərində diqqətinizi daha çox nə çəkdi?

Yeni oxunmuş parça Kamal obrazı haqqında daha geniş təsəvvür yaradır. Bu parçada onun kənd həyatı haqqında fikirləri, kənd uşaqları ilə davranışı, xəstə nənəsinə qulluğu, ev-həyət işlərində çalışması geniş əksini tapmışdır. Uşaqlarla kobud davranan, onlara məxsus əşyaları yarıxoş, yarızor əllərindən alan, oyunda cığallıq edən Kamal hər şeyin onun istədiyi kimi olmasını istəyir. Böyük dəri topa sahib olan Kamal bu üstünlükdən məharətlə istifadə edir və futbol oyununu özü istədiyi səmtə yönəldir. Bütün bunlar onda özündən razılıq hissinin daha da güclənməsinə səbəb olur. Zahirən hiss edilməsə də, əslində, onunla uşaqların arasında bir yadlaşma, soyuqluq yaranır. Şəhərdən gəlmiş həmyaşıdları ilk vaxtlar kənd uşaqlarında böyük maraq oyatsa da, onun ədalətsizliyi, kobudluğu öz nəticəsini göstərir. Nənənin xəstələnməsi, Kamalın onun "yastığının dibini kəsib oturması", ev-həyət işlərində aramsız çalışması hər şeyi dəyişir. Uşaqların bir neçə dəfə Kamalı görmək üçün gəlmələrinə o, özünəməxsus qiymət verir: "Onlar mənim dərdimə şərik olduqlarını bildirmək üçün dəridən-qabıqdan çıxırdılar. Əslində, doğrudan



Ləyihə

da, dilxor olmuşdular. Axı mənsiz onların heç bir işi keçmirdi". Özünə vurulan, özü haqqında çox yüksək fikirdə olan Kamal ürək sözlərini dilə gətirir: "Çox istəyirdim ki, hamı elə həmişə mənimlə maraqlansın və mən daim diqqət mərkəzində olum". Zaman ötür və bu, Kamalın xeyrinə olur. İşləməkdən əlləri codlaşan, gün çıxandan batana kimi çalışan Kamal öz-özünə etiraf edir: "Oynamaq-filan getdikcə yadımdan çıxır, ən maraqlı əyləncələrim vaxt ötdükcə mənə gülünc görünürdü".

Uşaqlar növbəti dəfə onlara gələndə tamamilə başqa Kamal görürlər. Onları meyvələrə qonaq edən Kamal əllərindən aldıqlarını özlərinə qaytarır, onun üçün əziz olan qlobusu Elçin adlı həmyaşıdına bağışlayır. Kamal indi hər şeyi doğru etdiyinə inanır, qəribə hisslər keçirir, nələr baş verdiyini anlamaq istəyir: "Müflisləşsəm də, bir yüngüllük, rahatlıq duyrdum. Elə hisslər keçirirdim ki, mənim üçün tamamilə yeni idi. Deyəsən, bu, əsl xoşbəxtlik idi...".

Bütün bunlar ilkin oxuda necə qavranılır?

Təcrübə göstərir ki, Kamalın nənəsinə qulluq etməsi, kənd uşaqları ilə ədalətsiz, kobud rəftarı, son nəticədə öz əməllərindən peşman olması şagirdlərin diqqətini cəlb edir. Eləcə də kənd uşaqlarının Kamala qibtə ilə baxmaları sezilmiş olur. Lakin sezilməyən cəhətlər daha mühümdür. Əslində, Kamal obrazı üçün daha səciyyəvi olan özünəvurğunluq şagird-oxucuları qədərincə düşündürmür. Kamalın yanlış düşünməsinin və addım atmasının bir, bəlkə də birinci səbəbi məhz budur. Onun doğru olmayan qərarlar verməsinin kökündə də bu dayanır. Təsadüfi deyildir ki, kənd uşaqlarının ona səmimi, mehriban münasibətini bir müddət lazımınca qiymətləndirə bilmir və nəticədə aralarında sədd yaranır.

Dərinləşdirilmiş oxu üçün müəyyənləşdirilmiş suallarda bu cəhət diqqət mərkəzində saxlanmışdır. Suallardan biri ("Çox istəyirdim ki, hamı elə həmişə mənimlə maraqlansın və mən diqqət mərkəzində olum" Kamalın bu istəyinin səbəbini necə izah edərsiniz?) birbaşa mətləbi anlamağa yönəldir. Lakin buna doğru cavabın hazırlanması obrazın keçdiyi "mürəkkəb, dolanbac yolların" diqqətlə nəzərdən keçirilməsi, onunla bağlı bütün mühüm cəhətlərin nəzərə alınması sayəsində mümkün olur.

Diqqət Kamalın hiss və düşüncələrində yaranan dəyişikliyə ("Müflisləşən" Kamalın özünü xoşbəxt saymasının səbəbini necə izah edərsiniz?) yönəldilir. Kamalın onu yoxlamağa gələn uşaqlarla mehriban rəftarı növbəti şıltaqlıq deyil. Bunu şagirdlərin qədərincə dəyərləndirmələri üçün əsərə müraciət etmək lazım gəlir: "Oynamaq-filan getdikcə yadımdan çıxır, ən maraqlı əyləncələrim vaxt ötdükcə mənə gülünc görünürdü". Kamal az bir vaxtda "yaşa dolur", "böyüyür", davranış və əməllərinə tənqidi yanaşır; indi o artıq uşaqların ağ köynəklərinə narın suyunu "pısqırtamaq həvəsində" deyil, bütün olanlara gülünc bir şey kimi baxır...

Dərinləşdirilmiş suallardan biri (Nəvə gözlərinizin qarşısında dəyişir. Bu ona münasibətə sizdə hansı yeni hiss və düşüncə yaratdı?) obraza münasibət bildirilməsini tələb edir. Bu həm də sonrakı – təhlil mərhələsi üçün zəmin hazırlayır. Əlbəttə, cavabların hamısında güclü məntiqin, əsaslandırmanın olacağını düşünmək yanlışdır. Daha çox subyektiv yanaşma müşahidə edilir. Lakin əsərdən bir-birini təsdiq edən nümunələr göstərməklə Kamala rəğbət hissini yaratmaq mümkündür.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Tapşırıq özündə iki tələbi birləşdirir.

– Əsərdə mühüm hesab etdiyiniz mətləblər hansıdır? Fikrinizi nümunələrlə əsaslandırın.
– Nəvə obrazının şıltaq, dəcəl olmasının səbəbini izah edin.

Hekayənin məzmunu ilə ətraflı tanış olan şagirdlərə ümumiləşdirmə aparmaqla mühüm mətləbləri – başlıca fikirləri bəndlər şəklində formalaşdırmaq asan olmur. Səsləndirilən fikirlər yayğın, çox vaxt məzmundan kiçik bir təsvirin danışılması şəklində özünü göstərir. Əsərdə baş verənlərin hamısı Kamalla bağlıdır. Deməli, başlıca mətləblər də onunla əlaqəlidir və bu əsasda da izah olunmalıdır. Başqa sözlə, Kamal ailədə, məktəbdə, kənddə, nənənin xidmətində... bütün bunlar mətləblər şəklində ifadə olunur və əsərin ideya məzmununun mənimsənilməsinin göstəricisi sayılır.

Nəvə obrazının şıltaq, dəcəl olmasının səbəbi barədə nə qədər təəccüblü olsa da, məktəb təcrübəsində ya az danışılır, ya da bu, diqqəti heç cəlb etmir. Halbuki əsərdə bu, müəllifi düşündürən mühüm problemlərdəndir. Kamala ailədə fərqli münasibət var: Onun növbəti yanlış addımı haqqında ata "öz nitqindən vəcdə" gəlməklə danışır və bununla da kifayətlənir, ana ona "güldən ağır söz" demir, nənə isə tərəfini saxlayır... Düşünülmüş cəza tədbiri – onun kəndə göndərilməsi də doğru yol sayıla bilməz.

Şagirdlərin bu tapşırıqla bağlı fikirlərini geniş danışmalarına imkan yaradılması faydalıdır.

**Nitqin, düşüncənin inkişafı.** Tapşırıq üç tələbdən ibarətdir.

– Mənasını yeni aydınlaşdırdığınız sözlərin bir neçəsini cümlələrdə işlədin.
– Mətnin başa düşülməsində həmin sözlərin rolunu izah edin.
– İşlərinizin nəticəsi ilə bağlı fikir mübadiləsi aparın.

Bu qəbildən tapşırıqlarla tanış olan şagirdlər yüksək fəallıq nümayiş etdirirlər. Birinci tələb bir neçə baxımdan faydalıdır: yeni sözlər haqqında təsəvvür dərinləşir, nitqə daxil olur, yazı bacarığına müsbət təsir edir.

İkinci tələb yeni öyrənilmiş sözlərin mətndəki rolunu aydınlaşdırmaqla yanaşı, məzmunun daha dərindən başa düşülməsinə əhəmiyyətli təsir edir.

Tapşırıqları fərdi yerinə yetirən şagirdlər sonda fikir mübadiləsi aparırlar.

**Müzakirə.** İlk növbədə hekayənin mövzusu ilə bağlı müzakirənin təşkilinə vaxt ayrılır. Əsərdəki hadisələri, daha çox nədən danışıldığını, mühüm hesab olunan mətləbləri xatırladan şagirdlər ilkin qənaətlərini səsləndirirlər. Mövzu ilə bağlı ilkin qənaətlərin dəqiqləşdirilməsinə araşdırma, təhlil dərsində əlverişli imkan yaranır.

Əsərdə konfliktin müəyyənləşdirilməsi üçün müəllimin istiqamətləndirici suallarına ehtiyac yaranır. Konfliktin bir qütbündə yanlış davranış və əməlləri ilə Kamal, digər qütbündə isə bu mövqeyi qəbul etməyən dəyərlər dayanır. Şagirdlərin bu münaqişəyə münasibətlərinin aydınlaşdırılması təklif olunur.

Müzakirə o vaxt məhsuldar hesab edilir ki, fikir bildirənlərin, mübahisəyə qoşulanların sayı çox olsun.

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində məqamında istifadə edir. | | |
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı ardıcıl izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədəki əsas konflikti nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Laylə

**Mövzu:**

**ELÇİN HÜSEYNBƏYLİ. NƏVƏ –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, davranış və əməllərinə görə müqayisə edir (7-1.4.1).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Hekayənin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla izah edir (7-1.4.5).
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir (7-1.4.8).

**Köməkçi vasitələr:** Elçin Hüseynbəylinin əsərlərindən nümunələr. "Nəvə" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, nəzəri anlayışların araşdırılması.
2. **Yaradıcı iş.** Ədəbi məktub nümunəsinin yazılması.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzusu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsi, ideyasının aydınlaşdırılması, obrazların təhlili, nəzəri anlayışlarla bağlı biliklərin dərinləşdirilməsi və tətbiqi, ədəbi məktub nümunəsinin yazılması üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Bu məqsədlə əsasında hekayənin məzmunu ilə səsləşən sual – "İnsanın xasiyyətində, davranış və əməllərində dəyişikliyin yaranması nəyin sayəsində mümkün ola bilər?" dayanan yığcam müsahibə aparılır. Deyilmiş fərqli fikirlər ümumiləşdirilərək sual formalaşdırılır: "Kamalın xasiyyət, davranış və əməllərində dəyişikliyin yaranmasının əsl səbəbi, sizcə, nədir?

Dərslikdə "Araşdırma. Təhlil" başlığı altında əks etdirilmiş tapşırığın fərdi yerinə yetirilməsi məqsədəuyğun deyildir. Tapşırığın kiçik qruplarda (hər bənd bir qrupa həvalə edilməklə) yerinə yetirilməsi daha faydalıdır.

Tapşırığın birinci bəndində hekayənin mövzusu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsi tələb edilir. Əvvəlki dərsdə hekayənin mövzusunun müəyyənləşdirilməsi üzrə müzakirənin aparılması, eləcə də bəndə əlavə edilmiş tövsiyələr şagirdlərin səmərəli işləmələrinə səbəb olur. Tövsiyələr aşağıdakı məzmunda təqdim edilmişdir:

– əsərdə, əsasən, nədən və kimin həyatından danışıldığına bir daha diqqət edin;
– hadisələrin baş verdiyi məkanları yada salın;
– əsərdəki mühüm hadisələrin səbəb və nəticələri üzərində düşünün.

Tövsiyələr əsərin məzmununu təşkil edən hadisələrin qəhrəmanla – Kamalla bağlı olduğunu aydınlaşdırmağa imkan verir. Məişət təsvirləri əsərdə geniş yer tutur. Lakin bu, "hekayə məişət mövzusunda yazılmışdır" fikrini deməyə əsas vermir. Əsərin mənası, məzmunu uşaq həyatı, taleyi ilə bağlıdır. Elə buna görə də "əsərin mövzusu uşaq həyatından alınmışdır" fikrinin üzərində dayanmaq doğru olar.

Kamal obrazının səciyyələndirilməsi tapşırığın növbəti bəndinin əsas tələbidir. Tövsiyələr şagirdləri konkret fəaliyyətə istiqamətləndirir: Kamalda ciddi dəyişikliyin baş verməsinə, onun mühüm qərar qəbul etməsinə səbəb olan hadisənin təhlili, nənə xəstələnənə qədər və xəstələnəndən sonrakı davranışlarının dəyərləndirilməsi, evdə, həyətdə çəkdiyi zəhmətə qiymət verilməsi əsaslandırılmış nəticənin çıxarılmasına səbəb olur.

Tapşırıqdakı növbəti bəndə (Kamalı oxuduğunuz hansı əsərin qəhrəmanı ilə müqayisə edə bilərsiniz?) əhatəli cavabın hazırlanması şagirdlərə qabaqlayıcı tapşırığın verilməsindən xeyli dərəcədə asılıdır. Şagirdlərin hekayə ilə müqayisə edəcəkləri əsəri əvvəlcədən müəyyənləşdirmələri, məzmununu

Layihə

yada salmaları faydalıdır. Dərslikdə təklif edilmiş müqayisə cədvəli işin keyfiyyətinə müsbət təsir edəcəkdir.

Sonrakı bəndin tələbi (Hekayədə süjetin mərhələlərini və onlarda maraqlı hesab etdiklərinizi qısaca qeyd edin) şagirdlər üçün yeni deyildir. Lakin mərhələlərin dəqiq müəyyənləşdirilməsi, onların hər biri üçün səciyyəvi olanların aşkara çıxarılaraq yazılması araşdırma, axtarış xarakterli iş, zəhmət tələb edir.

Belə bir zəhmət tapşırığın sonuncu bəndi (əsərdəki mətləbləri, əsas konflikti nəzərə almaqla hekayənin ideyasının şərh edilməsi) üçün də çəkilməlidir. Dərslik üçün müəyyənləşdirilmiş qaydaya uyğun olaraq əsərin ideyası üçün variantlar təklif edilmişdir. Şagirdləri öz variantlarının üzərində düşünməyə ruhlandırmaq, onlara qədərincə vaxt ayırmaq diqqət mərkəzində saxlanmalıdır.

Dərslikdəki "Yaradıcı iş" başlıqlı tapşırıq (ədəbi məktub nümunəsinin hazırlanması tələb olunur) sonuncudur. Əvvəlki dərsdə belə bir işin icra olunacağı barədə şagirdlərə məlumatın verilməsi məqsədəuyğundur. Şagirdlər ilk növbədə yazacaqları məktubda nəzərə almalı olduqları tövsiyələrlə tanış olurlar:

– məktubu yazmaqda məqsədinizin nə olduğunu qısaca qeyd edin;
– əsər haqqındakı təəssüratınızı yığcam yazın;
– hekayədəki baş qəhrəman, təsvir və hadisələr barədəki qənaətlərinizi əsaslandırın;
– müəllifə arzu və təkliflərinizi bildirin.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra mətnin oxunması, düzəlişlərin aparılması üçün vaxt ayrılır. Özünüqiymətləndirmə üçün dərslikdə təklif edilmiş variantdan itifadə etmək olar.

Ədəbi məktublardan nümunələrin oxunması və müzakirəsi həyata keçirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları xarakter, davranış və əməllərinə görə nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas süjet xəttinin mərhələlərini nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin əsas ideyasını ondakı başlıca konflikti nəzərə almaqla nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini nümunələr əsasında dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

**Mövzu:**

**SÜDABƏ SƏRVİ.**

**MƏKTƏB YOLLARI –**

**1 saat**

**Təlim məqsədləri**

- Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır (7-1.1.1).
- Şeirdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) müəyyənləşdirir (7-1.1.2).
- Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7-1.1.3).
- Şeirin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).
- Şeirdə mətləbləri müəyyən edir (7-1.1.7).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.1.8).
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).

**Köməkçi vasitələr:** Südabə Sərvinin əsərlərindən nümunələr, "Məktəb yolları" şeirinə aid illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Şeirin ilkin oxusu, təəssüratın bölüşülməsi, məzmuna aid suallar və onlara cavabların yazılması.
**2. Öyrəndiklərinizi yoxlayın.** Sualların və cavablarının müzakirəsi.
**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunun, nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi və tətbiqi üzrə iş.
**4. Müzakirə.** Şeirin mövzu, ideya və bədii xüsusiyyətlərinin dəyərləndirilməsi, digər bir əsərlə müqayisə edilməsi.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.**

– şeirin oxusu;
– ilkin təəssüratın bölüşülməsi;
– məzmuna aid suallar və onlara cavabların yazılması;
– öyrənilənlərin yoxlanması;
– məzmunun, nəzəri anlayşların mənimsənilmsəinin möhkəmləndirilməsi, tətbiqi;
– şeirin mövzu, ideya, bədii xüsusiyyətlərinin dəyərləndirilməsi, oxşar mövzuda əsərlə müqayisəsi.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" başlığı altında verilmiş tapşırıqlar rəngarəng olub şeirin məzmununun daha dərindən öyrənilməsi, mənimsənilmiş biliklərin tətbiqi məqsədini güdür. Kiçik qruplarda işlərin yerinə yetirilməsi prosesində şagirdlərin maksimum fəallıq və müstəqillyinini təmin edilməsinə diqqət yetirilir. Bu, əsərin təhlili istiqamətində müəyyənləşdirimiş müzakirənin səmərəli keçməsinə əhəmiyyətli dərəcədə təsir edir.*

**Oxu. Anlama.** Şeir mövzu və məzmun baxımından şagirdlərin diqqətini dərhal cəlb edir. Bu, əsərin səssiz oxusunun təşkilinə imkan yaradır. Şeirdə təsvir olunan məktəbli oğlan çalışqanlığı, əməksevərliyi ilə oxucu-şagirdlərin rəğbətini qazanır. Şeirlə ilk tanışlıqla kifayətlənməyib müəllimin təklifini gözləmədən onu ikinci dəfə oxuyan şagirdlər də az olmur. Hətta məktəbli oğlanı siniflərində kiməsə oxşadanlar, kiminləsə müqayisə edənlər də tapılır. Şagirdlər mətnin məzmununa

Layihə

aid sualların yazılmasına, onlara cavabların hazırlanmasına da həvəslə qoşulurlar. Dərslikdəki “Öyrəndiklərinizi yoxlayın” başlıqlı tapşırığın tələbinə uyğun olaraq sualların və onlara yazılmış cavabların müzakirəsi şeirin məzmunu haqqında daha əhatəli məlumatın əldə edilməsi baxımından faydalıdır.

Şeir nə qədər cəlbedici olsa da, şagirdləri onda daha çox fakt, konkret təsvir maraqlandırır. Obrazlı ümumiləşdirmə hələ VII sinifdə oxuyan şagirdlər üçün bütünlüklə müyəssər deyil. Təsadüfi deyildir ki, bənddə qabarıq əks olunmuş təsvir və faktı qavrayan şagirdlərin çoxu bədii ümumiləşdirmələrə, daha obrazlı ifadə olunmuş fikirlərə qədərincə diqqət yetirmirlər. Əslində, bunların üstündə “baş sındırmırlar”. Nəticədə şeirin estetik təsiri yarımçıq, yaratmalı olduğu emosionallıq birtərəfli, üzdən olur. Bunu ilk oxudan sonra asanlıqla yoxlamaq, aşkara çıxarmaq olar. Məsələn, birinci bənddə ifadə olunmuş mənanın izahı soruşulanda şagirdlərin əksəriyyəti “bir şagirdin məktəbə getməsindən danışılır” cavabı ilə kifayətlənir. Məktəbə, dərsə böyük həvəsi ilə seçilən məktəbli oğlanın həyəcanı, sevinci, fərəhi sezilməmiş olur. Eləcə də məktəb yollarının onun üçün doğma olması, bu yolları sevməsi və hər gün böyük həvəslə onlardan keçib-getməsi duyulmamış olur.

Digər bəndlərdə də eyni vəziyyəti müşahidə etmək mümkündür. İlk oxudan sonra həyata keçirilən “Öyrəndiklərinizi yoxlayın” mərhələsində diqqətin bu incəliklərə cəlb edilməsi “Möhkəmləndirmə. Zənginləşdirmə” tapşırıqlarının səmərəli icrasına əhəmiyyətli təsir edir. Bu mərhələdə şagirdlər daha diqqətli və həssas olurlar.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Kiçik qruplarda yerinə yetirilməsi nəzərdə tutulmş tapşırıqlar şagirdlərin mövcud bilik və bacarıqlarının nəzərə alınması ilə hazırlanmışdır. Şeirin ayrı-ayrı bəndlərində ifadə olunmuş fikirlərin şərh edilməsi, başlıca mətləblərin ümumiləşdirilməsi, fərqli nəzəri anlayışların nümunələr əsasında xatırlanması və tətbiq olunması yerinə yetiriləcək işin mahiyyətini təşkil edir. Tapşırıqlara cavabların hazırlandığı mərhələdə yazılı qeydlər aparılması faydalıdır. İşin sonuna doğru qrup üzvlərinin fəal iştirakı, töhfəsi və həmin yazılı qeydlərin əsasında yekun təqdimatlar ərsəyə gətirilir. Təqdimatların sadə plan əsasında hazırlanmasına diqqət yetirilir. Şagirdlərə mənasını yeni aydınlaşdırdıqları sözlərdən istifadənin vacib olması xatırladılır. Təqdimatların fəal dinlənilməsi, fikir mübadiləsinin aparılması qrupların bir-birinin işinin nəticəsi barədə dolğun təsəvvür qazanmasına şərait yaradır.

**Müzakirə.** Bu başlıq altında iki istiqamətdə işin aparılması nəzərdə tutulmuşdur: müzakirə üçün suallar təklif edilmiş, öyrənilmiş şeirin başqa bir əsərlə müqayisə edilməsi təklif olunmuşdur. Müzakirədə aşağıdakı sualların əhatə edilməsi məqsədəuyğun sayılmışdır:

– şeir hansı mövzuda yazılıb?
– onu maraqlı edən cəhətlər hansılardır?
– əsərdə heca vəzninə məxsus hansı cəhətlər əksini tapıb?
– şeirin əsas ideyası nədir?
– əsərdən hansı nəticəni çıxarmaq olar?

Suallara əlavələr edilə bilər. Şagirdlərin fəallığı, müstəqil cavablarının çoxluğu müzakirənin səmərəliliyinin göstəricisi kimi dəyərləndirilir.

S.Sərvinin “Məktəb yolları” şeiri ilə R.Yusifoğlunun “Çalışqan oğlan” əsəri mövzu və məzmunca oxşardır. Lakin istər əsərin qəhrəmanlarının təsvirində, istərsə də nümunələrin bədii



Layihə

xüsusiyyətlərində fərqli cəhətlər də vardır. Bütün bunların aşkara çıxarılması, müqayisə edilməsi, ümumiləşdirmə aparılması, nəticə çıxarılması ciddi araşdırma və təhlilin sayəsində mümkün olur. Tapşırığın bir çətinliyi də müqayisə üçün əsasların müstəqil müəyyənləşdirilməsi tələbidir. Bədii əsərlərin müqayisəsi üzrə müəyyən təcrübə qazanmış şagirdlərə ehtiyac duyulduğu məqamlarda istiqamətləndirilmiş suallarla kömək göstərilir.

Sinfin səviyyəsindən asılı olaraq tapşırıq müxtəlif iş formalarının tətbiqi ilə icra oluna bilər. Bütün hallarda R.Yusifoğlunun "Çalışqan oğlan" şeirinin ilkin oxusundan sonra ortaya çıxan sualların aydınlaşdırılmasına vaxt ayrılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə kontekstə uyğun aydınlaşdırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) mətnə uyğun müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin vəzn xüsusiyyətlərini nümunələrə əsaslanmaqla müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə mətləbləri nümunələr əsasında müəyyən edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin mövzusu ilə bağlı qənaətlərini başlıca mətləblər əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışın məzmununa uyğun azbəndli sadə plan hazırlayır. | Tapşırıq | İş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında məzmuna uyğun işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| | |
|---|---|
| **Mövzu:**<br><br>**ZAHİD XƏLİL.**<br><br>**TORPAĞIN MƏHƏBBƏTİ –**<br><br>**2 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir (7-1.1.1).<br>• Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (7-1.1.1).<br>• Heca vəznli şeirlərdə ahəng yaradan vasitələri (misra, qafiyə, misradaxili bölgü) müəyyənləşdirir (7-1.1.2).<br>• Əsərin ilkin oxusunda yaranan təəssüratını izah edir (7-1.1.4).<br>• Heca vəznli şeirlərin janr xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.5).<br>• Heca vəznli şeirlərin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).<br>• Şeirdə mətləblərin əlaqələrini müəyyənləşdirir (7-1.1.7).<br>• Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir 7-1.1.8).<br>• Ünsiyyətin davamlılığına nail olmaq üçün cədvəl, sxem, qrafik göstəricilərdən istifadə edir (7-2.1.5).<br><br>**Köməkçi vasitələr:** Zahid Xəlilin əsərlərindən nümunələr. "Torpağın məhəbbəti" şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.<br><br>**Dərsin qısa planı**<br>**1. Yadasalma.** Suallarından biliklərin xatırlanması, maraqoyatma vasitəsi kimi istifadə edilir.<br>**2. Oxu. Anlama.** Əsərin oxusu, ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.<br>**3. Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.<br>**4. Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərdəki mühüm mətləblərlə bağlı öyrənilənlərin möhkəmləndirilməsi, nəzəri anlayışlarla bağlı biliklərin dərinləşdirilməsi və tətbiqi.<br>**5. Nitqin, düşüncənin inkişafı.** Mənası yeni aydınlaşdırılmış sözlərin məzmunun başa düşülməsində rolunun açıqlanması, nitq inkişafı üzrə işin təşkili.<br>**6. Müzakirə.** Əsərin mövzusunun müəyyənləşdirilməsi ilə bağlı müzakirə.<br>**7. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.**
– şeirin oxusu;
– ilkin qavrama səviyyəsinin aşkara çıxarılması;
– mənimsəmənin dərinləşdirilməsi və yoxlanması;
– nəzəri anlayışlarla bağlı biliklərin dərinləşdirilməsi və tətbiqi;
– mənası yeni aydınlaşdırılmış sözlərin məzmunun başa düşülməsində rolunun açıqlanması, nitq inkişafı üzrə işin təşkili;
– əsərin mövzusunun nüəyynləşdirilməsi üzrə müzakirə.

**Müəllim üçün məlumat.** *Daha çox uşaq şairi kimi tanınan Zahid Xəlilin "Torpağın məhəbbəti" şeiri təbiət mövzusundadır. Bir az da dəqiq deyilsə, qış fəslində təbiətin aldığı cəlbedici, özünəməxsus mənzərənin təsviri şeirdə xüsusi poetik bacarıq, məharətlə təqdim edilmişdir. Lakin bahar öz gözəlliyi ilə yaddan çıxmır. Qarın altında rahat yatmasına baxmayaraq yer – torpaq hər gecə yuxuda günəşi görür, al-əlvan rəngə boyanmış yaz günlərinin xiffətini çəkir. Qış paltarı geyən təbiət yaz məhəbbətini qəlbindən çıxara bilmir...*



layihə

*Yüksək sənətkarlıqla qələmə alınmış bu əsərin ilkin oxusu şagirdlərdə hansı hiss-həyəcan oyadır? Obyektin – təbiətin müəllif dərki, emosional-obrazlı qavranılması şagird-oxucuya hansı səviyyədə müyəssərdir? Bunun aşkara çıxarılması, sonrakı mərhələlərdə dərinləşdirilməsi, zənginləşdirilməsi təhsilverəndən metodik ustalıq, təhsilalandan idrak fəallığı, emosional-obrazlı mövqe tələb edir. Dərslikdə bütün mərhələlər üçün təklif edilmiş sual və tapşırıqlarda bu niyyət izlənilmişdir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** "Yadasalma" başlığı altında verilmiş suallardan (Qış fəslinə, bu fəsildə təbiətin aldığı mənzərəyə həsr edilmiş hansı əsərləri xatırlayırsınız? Belə əsərlərdə sizi daha çox nə maraqlandırıb?) istifadə etməklə yığcam müsahibə aparılır. Müsahibə aşağıdakı sualın formalaşdırılması ilə başa çatdırılır: Bu mövzuda olan şeirlər oxucuda daha çox hansı hiss və həyəcanın yaranmasına səbəb olur?

Qeyd olunur ki, şeirin öyrənilmsəi suala əsaslandırılmış cavab tapmağa imkan verəcəkdir.

**Oxu. Anlama.** Əsərlə ilkin tanışlığın səssiz oxunun tətbiqi ilə hyata keçirilməsi məqsədəuyğundur. Müəlliflə "üzbəüz" qalan şagird şeirin estetik təsirini, oyatdığı hiss-həyəcanı duymağa köklənir. Bu, əlbəttə, fərqli səviyyələrdə baş verir. Lakin ümumi vəziyyət barədə də təsəvvür qazanmaq mümkün olur. Təəssüratların bölüşülməsi prosesində mənzərə daha da aydınlaşır. Bu məqsədlə dərsliyə daxil edilmiş suallar sınaq dərslərində dəfələrlə yoxlansa da, müəllim öz məqsədinə uyğun olaraq onları əvəz edə bilər.

– Şeirdə diqqətinizi daha çox çəkən nə oldu?
– Qışda təbiətin aldığı mənzərə sizdə necə təəssürat yaratdı?
– Şeirdən hansı təəssüratla ayrıldınız?

Bədii sözə həssas münasibət, onun yaratdığı emosional durum sualların cavablarında özünü büruzə verməlidir. Müsahibəyə daha çox şagird cəlb etməklə bu barədə dolğun təsəvvürün əldə edilməsinə nail olmaq mümkündür. Təcrübə göstərir ki, bu qəbildən əsərlərdəki bir çox misraların doğurmalı olduqları emosionallıq şagirdlərdə ya zəif olur, ya da ümumiyyətlə olmur. Bunun başlıca səbəbi həmin misralarda ifadə olunanların obrazlı təsəvvür edilməsindəki çətinlikdir. Məsələn, şeirin ilk iki misrasında (Qışın ağ saçından utandı dağlar, Üzünə dumandan bir örpək çəkdi) əksini tapmış fikir ilk növbədə şagirdi ciddi düşündürməlidir. Fikrin başa düşülməsi təsəvvürü fəal işə qoşmalı, nəticədə emosionallıq yaranmalıdır. Estetik zövqün formalaşması məhz belə məqamlardan qaynaqlanır.

Bu deyilənlər dərinləşdirilmiş oxu üçün müəyyənləşdirilmiş suallarda nəzərə alınmışdır. Məsələn, həmin suallardan birincisi belədir: Şeirin ilk iki misrasında ifadə olunmuş fikri necə başa düşdünüz, onlarda əks olunmuş mənzərəni təsəvvür edə bildinizmi?

Məlumdur ki, belə məqamlarda təsəvvür mətndəki sözlərin əsasında yaranır. Deməli, mətnə yenidən, həm də fərqli məqsədlə müraciət edən şagird daha diqqətli olur. Məntiqi təfəkkür və təxəyyülün fəal işi idrak fəaliyyətinin səmərəli işini təmin edir. İlk oxudan fərqli yanaşma reallaşmış olur. Eyni proses digər suala cavabın hazırlanmasında da özünü göstərir: "Yollar da, çöllər də geydi ağappaq, Dünya ağcaqayın meşəsi oldu" misralarında ifadə olunmuş fikri necə başa düşdünüz, bəs təsəvvürünüzdə hansı mənzərə canlandı?

**Öyrəndiklərinizi yoxlayın.** Əsərin məzmunu ilə bağlı öyrənilənlər test tapşırıqların tətbiqi ilə yoxlanılır. Tapşırıqlardan birincisi bütövlükdə məzmunla bağlı olub bütün cavab variantlarının təhlilini tələb edir. İkinci tapşırıqda əsərdəki səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi diqqət mərkəzinə çəkilmişdir.

Tapşırıqların fərdi yerinə yetirilməsi, nəticə ilə bağlı fikir mübadiləsinin aparılması faydalıdır.

Növbəti tapşırığın **(Möhkəmləndirmə. Zənginləşdirmə)** birinci bəndi (Şeirdə mühüm hesab etdiyiniz mətləbləri izah edin) ümumiləşdirmə xarakterli olub öyrənilənlərə münasibətin bildirilməsi baxımından əhəmiyyətlidir.

İkinci bənd (Şeirin janr və xəzn xüsusiyyətlərini şərh edin) nəzəri anlayışlarla bağlı biliklərin təkrarı və tətbiqi üzrə işin təşkili üçün nəzərdə tutulmuşdur. Fərdi olaraq hazırlanan cavablar dinlənilərkən nəzəri anlayışlarla bağlı məlumatların səsləndirilməsi və deyilənləri təsdiq edən mümunələrin göstərilməsi ön plana çəkilir.

Tapşırığın sonuncu bəndi (Misra, qafiyə, misradaxili bölgülərin ahəngin yaranmasına təsirini izah edin) üzərində müstəqil işləyən şagirdlərin gəldikləri nəticələr yığcam müsahibə ilə dinlənilir və



Layihə

müzakirə olunur. Tapşırıqla bağlı qazanılmış bacarıqlar növbəti dərsdə – ifadəli oxunun təşkilində tətbiq edilir.

Bütövlükdə tapşırığın icrasında fəal dinləmənin təmin olunmasına diqqət yetirilir. Bunun üçün çıxış edənlərlə dinləyicilərin arasında həqiqi ünsiyyətin yaranması vacibdir. Belə bir ünsiyyətin yaranması və davamlı olması üçün müsbət dil ifadələrindən, əyani vasitələrdən istifadəyə diqqət yetirilir. Tapşırığın ikinci və üçüncü bəndləri üçün cədvəl, sxem, eləcə də qrafik göstəricilərin əvvəlcədən hazırlanması, təqdimat zamanı nümayiş etdirilərək onlara istinad olunması ünsiyyətin yaranmasına və davamlı olmasına ciddi təsir edir.

**Nitqin, düşüncənin inkişafı.** İki bənddən ibarət tapşırığı əhatə edir. Birinci bənd (Mənasını yeni aydınlaşdırdığınız sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edin) müvafiq standartın yüksək səviyyədə reallaşmasına imkan yaradır. Tapşırıq əsərin məzmununun dərindən qavranılması ilə yanaşı, mənası yeni aydınlaşdırılmış sözlərin nitqə daxil olması baxımından da faydalıdır. İkinci tapşırıq (Sözlərdən bir neçəsini cümlələrdə işlədin) bir növ bunun davamı kimi nəzərdə tutulmuşdur. Tapşırıq yeni öyrənilmiş sözlərin müxtəlif cümlələrdə fərqli fikirlərin ifadəsi məqsədilə işlədilməsini tələb edir. Bu, yazılı nitqin inkişafına da öz töhfəsini verir.

**Müzakirə.** Əsərin mövzusu ilə bağlı müzakirənin başlıca məqsədi ilkin qənaətlərin müəyyənləşdirilməsidir. Şeirin məzmununun mənimsənilməsi, ondakı mühüm mətləblərin aydınlaşdırılması bu mövzuda müzakirənin aparılmasına imkan verir. Lakin son, dəqiqləşdirilmiş nəticənin çıxarılması araşdırma, təhlil mərhələsində mümkün olur.

Müzakirədə şagirdlərin fəal iştirakına, daha çox fikrin səsləndirilməsinə diqqət yetirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərin əsərin məzmununun başa düşülməsində rolunu izah edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Heca vəznli şeirlərdə ahəng yaradan vasitələri (misra, qafiyə, misradaxili bölgü) müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunda yaranan təəssüratını izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Heca vəznli şeirlərin janr xüsusiyyətlərini müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Heca vəznli şeirlərin vəzn xüsusiyyətlərini müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə mətləblərin əlaqələrini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Ünsiyyətin davamlılığına nail olmaq üçün cədvəl, sxem, qrafik göstəricilərdən istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |

Layihə

**Mövzu:**

**ZAHİD XƏLİL.**

**TORPAĞIN MƏHƏBBƏTİ–**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edir (7-1.2.1).
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Şeiri məntiqi fasilə və məntiqi vurğunu nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur (7-1.2.3).
- Əlaqələndirilmiş fikirlərin əks olunduğu təqdimat hazırlayır (7-2.1.2).
- Ədəbi mövzuda məktub icra edir (7-2.2.1).

**Köməkçi vasitələr:** Zahid Xəlilin əsərlərindən nümunələr. “Torpağın məhəbbəti” şeiri ilə bağlı illüstrasiyalar. Şeirin bədii oxusunu əks etdirən vasitələr.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Şeirin mövzusunun dəqiqləşdirilməsi, bədii xüsusiyyətlərinin dəyərləndirilməsi, ideyasının şərhi.
2. **İfadəli oxuya hazırlaşın.** Şeirdən parçanın oxusuna hazırlıq və ifadəli oxusu.
3. **Yaradıcı iş.** Ədəbi mövzuda məktubun yazılması üzrə işin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Şeirin mövzusu ilə bağlı qənaətlər dəqiqləşdirilir, bədiiliyin artmasına töhfə verən vasitələrin rolu izah olunur, ideyası şərh edilir, ifadəli oxu üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Yığcam müsahibyə başlamaq məqsədilə qeyd olunur ki, qış fəsli, bu fəsildə təbiətin aldığı mənzərə bədii əsərlərdə fərqli şəkildə təsvir edilir. Bu qəbildən əsərlər də oxucuda fərqli hiss-həyəcanın yaranmasına səbəb olur. Bəzən şeirdə təsvir olunan tutqun bir qış günündə təbiətə məxsus elə bir mənzərə canlandırılır ki, oxucu baharın ılıq nəfəsini duyur, qəlbi sevinc, fərəh hissi ilə dolur... Müsahibənin sonunda sual formalaşdırılır: “Torpağın məhəbbəti” şeirində müəllifin başlıca niyyəti, sizcə, nə olmuşdur?

Qeyd edilir ki, şeirin ətraflı təhlili suala əsaslandırılmış cavabın tapılmasına imkan yaradacaqdır.

**Araşdırma. Təhlil.** Tapşırıq fərqli iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Yaxud tapşırığın bəndlərindən bəzilərinin (məsələn, “Şeirdə bədiiliyin artmasına töhfə verən vasitələrin rolunu izah edin”) fərdi yerinə yetirilməsi mümkündür. Əməkdaşlığa üstünlük verən müəllimin işi cütlük şəklində təşkil etməsi mümkündür, cütlüklər əldə etdikləri nəticələri kiçik qruplarda birləşib müzakirə edə bilərlər. Tapşırığın hər bir bəndini ayrıca qruplara həvalə etmək də olar. İşin hansı formada təşkilindən asılı olmayaraq sonda təqdimat əsasında geniş müzakirənin aparılması vacibdir.

Tapşırıqlara tövsiyələrin əlavə edilməsi cavabların keyfiyyətinə əhəmiyyətli təsir edir.

Şeirin mövzusunun müəyyənləşdirilməsi üzrə müzakirədə deyilənlər və tapşırığa (Şeirin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin) əlavə edilən tövsiyələr ətraflı düşünməyə. araşdırma aparmağa imkan verir:

– şeirdə nədən danışıldığını yada salın;
– əsərdəki mətləblərin bir-biri ilə əlaqəsi üzərində düşünün;

Laylinə

– müəllifin gəldiyi nəticəni yada salın.

Şeirdə qış fəslinin özəlliklərinə geniş yer verilsə də, baharın yaddançıxmaz mənzərələri də əksini tapıb. Beləliklə, fəsillərin fonunda təbiət haqqında əhatəli danışılmış olur. Şeirin sonunda şairin gəldiyi nəticə də bunu təsdiq edir. Bütün bunlar şeirin mövzusu haqqındakı qənaətlərin dəqiqləşməsinə səbəb olur.

Tapşırığın növbəti bəndi (Qış fəslinin özünəməxsusluğu şeirdə uğurla ifadə olunubmu?) şeirdəki təsvirləri ən incə detallarına qədər görmək və dəyərləndirmək məqsədini güdür. Suala əlavə edilmiş tövsiyələrin oxucu-şagirdin təsəvvürünün konkretləşməsində ciddi rolu var:

– dağların, çöllərin, meşələrin, bağ-bağçanın aldığı qış görkəminin necə təsvir edildiyini yada salın;
– qışın heyvanlar aləminə təsiri barədə şeirdə deyilənləri xatırlayın;
– təbiətin qış fəslində aldığı mənzərənin əsərdəki təsvirinin oxucuda hansı hiss-düşüncə yaratdığını müəyyənləşdirməyə çalışın.

Tövsiyələrin hər biri şeirdən nümunələrin seçilməsini və onlara istinad edilməsini ön plana çəkir. Dağların "dumandan üzünə örpək" çəkməsi, "yayın həsrətinə dözməyən" söyüdün "yarpaq-yarpaq göz" yaşı tökməsi, yağan qarın ağacları "dəyəyə", "meşələri ağ obaya" çevirməsi mahir sənətkar qələminin yaratdığı bənzərsiz lövhələrdir.

Şeirin hər bəndində, demək olar, hər misrasında yüksək emosionallıq doğuran, oxucu düşüncəsini fəal işə qoşan bir bədii detal, təsirli lövhə var. Bunları duymaq, dərk etmək bu dərsdə şagirdlər üçün əlyetəndir.

Şeirin ideyası ilə bağlı tapşırıqda dərsliyin konsepsiyasına uyğun olaraq fərqli variantlar təklif edilmişdir. Şeirlə bağlı yerinə yetirilmiş işlər bu variantlara tənqidi yanaşmağa, eləcə də fərqli variantların müəyyənləşdirilməsinə imkan verir.

Hazırlanmış təqdimatlarda fikirlərin ardıcıllığına və əlaqələndirilməsinə xüsusi diqqət yetirilir.

**İfadəli oxuya hazırlaşın.** Şeirin ilk üç bəndinin ifadəli oxusu üzrə işin təşkili nəzərdə tutulmuşdur. Tapşırığın tələbləri çox deyildir.

– Şeirin ilk üç bəndinin ifadəli oxusuna hazırlaşın.
– Şərti işarələrdən istifadə edin.
– İfa zamanı məntiqi fasilələrin və məntiqi vurğulu sözlərin nəzərə çarpmasına diqqət yetirin.
– Oxuda misradaxili bölgü və qafiyələri fərqləndirməyə çalışın.

Tələblərlə tanış olan şagirdlər iş vərəqlərində yazdıqları mətnin üzərində şərti işarələri (məntiqi fasilə, məntiqi vurğu, misradaxili bölgü, qafiyə) qeyd edirlər. Şagirdlərin fikir mübadiləsi aparmaları, bir-birinin oxusunu dinləmələri üçün vaxt ayrılır. Yalnız bundan sonra ayrı-ayrı ifaların dinlənilməsi və müzakirə edilməsi həyata keçirilir.

**Yaradıcı iş.** Yaxşı düşünülərək planlaşdırılmış dərsdə ədəbi məktubun yazılması tələbini özünə daxil edən tapşırığın icrasına vaxt ayırmaq olur. Ədəbi məktubun yazılması üçün konkret tövsiyələrin nəzərə alınması təklif edilmişdir:

– məktubu hansı niyyətlə yazdığınızı qısaca qeyd edin;
– şeirlə bağlı təəssüratınızı yığcam yazın;
– əsərin uğurlu və zəif hesab etdiyiniz cəhətləri ilə bağlı fikirlərinizi əsaslandırın;
– şeirlə və şairin yaradıcılığı ilə bağlı arzu və təkliflərinizi bildirin.

Bu qəbildən yazı işi ilə bağlı müəyyən təcrübə qazanmış şagirdlərə əlavə izah vermək olar. Məktubun həcminin yığcam olması, fikirlərin şeirdən seçilmiş nümunələrlə müşayiət edilməsi, etik normaların gözlənilməsi və s. vacibliyi bir daha xatırladılır.

Məktubdan nümunələrin müzakirəsində şagirdlərin fəallığına diqqət yetirilir. Ədəbi məktublardan nümunələrin çapına nail olmaq, şagirdlərdə buna maraq və həvəs oyatmaq vacibdir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını nümunələrə əsaslanmaqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeiri məntiqi fasilə və məntiqi vurğunu ardıcıllıqla nəzərə almaqla ideyasına uyğun ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Əlaqələndirilmiş fikirlərin ardıcıllıqla əks olunduğu təqdimat hazırlayır. | Tapşırıq, yazı | İş vərəqləri |
| Faktlara əsaslanmaqla ədəbi mövzuda məktub icra edir. | Tapşırıq, yazı | İş vərəqləri |

Layihə

**Mövzu:**

**BAYRAM HƏSƏNOV.**

**İKİ BALA –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7-1.3.2).
- Əsərin ilkin oxusunun yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı izah edir (7-1.3.3.).
- Hekayədə hadisələrin obrazlara təsirini izah edir (7-1.3.5).
- Hekayədən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).

**Köməkçi vasitələr:** Bayram Həsənovun əsərlərindən nümunələr. “İki bala” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istifadə olunması.
**2. Oxu. Anlama.** Hekayədən parçanın oxusu, ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.
**3. Öyrəndiklərinizi yoxlayın.** Öyrənilənlərin test tapşırıqlarının yerinə yetirilməsi ilə yoxlanması.
**4. Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərdəki mühüm mətləblərin, aralarındakı əlaqələrin izah edilməsi, nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, tətbiqi.
**5. Nitqin, düşüncənin inkişafı.** Nitq inkişafı üzrə işin təşkili.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayədən bir parçanın oxusu;
– ilkin qavrama səviyyəsinin aşkara çıxarılması;
– dərinləşdirilmiş oxunun təşkili;
– məzmununun öyrənilməsinin yoxlanması;
– məzmun və nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, tətbiqi.
– nitq inkişafı üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Yazıçı Bayram Həsənovun təbiətə həsr olunmuş əsərlərinin oxucuları çoxdur. Həm uşaq və gənclər, həm də yaşlılar bu əsərləri maraqla mütaliə edirlər. Bir-birindən maraqlı mövzular, cəlbedici məzmun, bədii dilin imkanlarından yüksək sənətkarlıqla istifadə yazıçıya rəğbət qazandırmış, əsərlərini oxunaqlı etmişdir. Onun təbiət mövzusunda qələmə aldığı“İki bala”hekayəsi xeyli vaxtdır ki, məktəbdə uğurla tədris olunur. Bir meşəbəyinin xatirələrini əks etdirən əsər insan və təbiət, insan və heyvanlar aləmi barədə yazılmış ən maraqlı bədii nümunələrdən hesab olunur. Hekayənin zəngin məzmunu təbiəti sevməyi, ona qayğı ilə yanaşmağı təlqin edir. Dərslikdə təklif edilmiş rəngarəng tapşırıqlardan səmərəli istifadə əsərin yaratdığı çoxcəhətli imkandan maksimum yararlanmağa imkan verir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərslikdəki “Yadasalma” başlıqlı suallar (Heyvanların, quşların həyatından danışılan hansı əsərləri xatırlayırsınız? Onların öz balalarına necə qayğı göstərməsinin şahidi olmusunuzmu?) əsasında yığcam müsahibə aparılır. Müsahibə sualla başa çatdırılır: Balalarına münasibətdə heyvanlarda və quşlarda insana məxsus hansı cəhətləri müşahidə etmək olar?

Layihə

Qeyd edilir ki, öyrəniləcək hekayə bu qəbildən suallara ətraflı cavab verməyə imkan yaradacaqdır.

**Oxu. Anlama.** Hekayənin ilk parçasının oxusu müəllimin müəyyənləşdirdiyi növün tətbiqi ilə həyata keçirilir. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasının, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinin vacib olduğu şagirdlərə xatırladılır. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlər ilkin təəssüratın bölüşülməsi üçün nəzərdə tutulmuş suallarla tanış olurlar.

– Hansı təsviri, epizodu daha maraqla oxudunuz? Nə üçün?
– Murad haqqında ilkin təəssüratınız nə oldu?
– Təsvir olunan yerlərlə bağlı sizdə necə təsəvvür yarandı?

Əsərdə şagirdləri cəlb edən təsvir və epizodlar çoxdur. Meşə, dağ çayı, çay sahilinə enən ayı və s. bağlı təsvirlər şagirdlərin diqqətini ilk oxuda cəlb edir. Biologiya müəllimi haqqında hekayədə əks olunmuş epizod da şagirdlərin nəzərindən qaçmır. Lakin bu təsvir və epizoddakı bir sıra incəliklər, Murad obrazının hiss və düşüncələrindəki özünəməxsusluq, Sabir müəllimin Murad üçün doğma adam qədər əziz olması və bunun səbəbi ilkin oxuda qədərincə mənimsənilmir. Bütün bunlar müvafiq sualların əsasında dərinləşdirilmiş oxunun təşkilini zəruri edir. Məsələn, suallardan biri (Muradın meşəyə ürəkdən bağlanmasının, sevgisinin səbəbini necə izah edərsiniz?) obraz haqqındakı ilkin təsəvvürün dərinləşdirilməsi məqsədini güdür. Yaxud ilkin oxuda Sabir müəllimlə bağlı diqqəti qədərincə cəlb etməyənlərin əhatə edilməsi üçün ayrıca sual ( Muradın müəllimi haqqındakı xatirəsi sizdə hansı hisslər yaratdı?) üzərində düşünmək məqsədəuyğun hesab edilmişdir.

Dərinləşdirilmiş oxudan sonra test tapşırıqlarının yerinə yetirilməsi öyrənilənlərin yoxlanılması baxımından səmərəli iş kimi dəyərləndirilməlidir. Test tapşırıqları obrazla yanaşı, əsərin bütövlükdə məzmunu üzrə mənimsənilənlərin aşkara çıxarılmasına və zənginləşdirilməsinə imkan yaradır. Bu tapşırıqlar fərdi yerinə yetirilsə də, nəticənin müzakirəsi bütün siniflə birgə iş formasının tətbiqi ilə həyata keçirilir.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Tapşırığın cütlük şəklində iş formasının tətbiqi ilə icra edilməsi mümkündür. Şagirdlər ilk növbədə əsərdə mühüm hesab etdikləri mətləbləri, onların bir-biri ilə əlaqəsini müəyyənləşdirirlər. Bununla kifayətlənilmir; mətləblərin nümunələr əsasında izahı, onlara ilkin münasibətin bildirilməsi də reallaşdırılır.

Sonrakı mərhələdə mətnin ilkin oxusunda müəyyənləşdirilmiş bədii təsvir və ifadə vasitələri ilə bağlı dərinləşdirilmiş işin təşkili həyata keçirilir. Bədii təsvir və ifadə vasitələrinin növləri izah olunur, müəllimin göstərişinə əsasən onlar fərqli məzmunda cümlələrdə işlədilir.

Sonrakı tapşırıq əsərdən seçilmiş parçanın yaradıcı nağıletmənin tələblərinə əsasən danışılmasıdır. Şagirdlər ilk növbədə mətnə edəcəkləri əlavələrin hazırlanması üzərində işləyirlər. Əlavələr hekayənin məzmunu ilə səsləşməli, dil-üslubca üst-üstə düşməli, ya da çox oxşar olmalıdır. Buna sadə, "tətbiqi iş" kimi baxanlar yanılırlar. Bu, əsl yaradıcı iş olub şagirdlərdə məntiqi təfəkkürün inkişafına əhəmiyyətli təsir edir.

Çıxışların fəal dinlənilməsinə və onlara münasibət bildirilməsinə diqqət yetirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, şifahi sual-cavab |

Layihə

| | | |
|---|---|---|
| Əsərin ilkin oxusunun yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, şifahi sual-cavab |
| Əsərin ilkin oxusunun başlıca mətləblərlə bağlı yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, şifahi sual-cavab |
| Hekayədə hadisələrin obrazlara təsirini nümunələr əsasında ardıcıllıqla izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, şifahi sual-cavab |
| Hekayədən bitkin parçanın məzmununu yaradıcı nağıletmənin tələblərinə uyğun ardıcıl danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, şifahi sual-cavab |

**Mövzu:**

**BAYRAM HƏSƏNOV. İKİ BALA –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əsərin ilkin oxusunun yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).
- Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir (7.1.3.7).
- Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə məqamında işlədir (7-2.1.4).
- Dialoji nitq şəraitində ritorik suallardan istifadə etməklə ünsiyyətin davamlılığına diqqət edir (7-2.1.6).

**Köməkçi vasitələr:** Bayram Həsənovun əsərlərindən nümunələr. "İki bala" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Hekayənin davamının oxusu, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili.
**2. Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərdəki başlıca mətləblərin və onların əhəmiyyətinin müəyyənləşdirilməsi.
**3. Nitqin, düşüncənin inkişafı.** Mənası yeni öyrənilmiş sözlərin nitqə daxil edilməsi, möhkəmləndirilməsi üzrə işin təşkili.
**4. Müzakirə.** Əsərin mövzusunun, janr xüsusiyyətlərinin aydınlaşdırılması.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayənin davamının oxusu;
– ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun təşkili;
– əsərdəki başlıca mətləblərin, onların əhəmiyyətinin aydınlaşdırılması;
– nitq inkişafı üzrə işin təşkili;
– əsərin mövzu və janr xüsusiyyətlərinin aydınlaşdırılması.

**Oxu. Anlama**

Hekayənin davamı səssiz oxunun (müəllim fərqli yol seçə bilər) tətbiqi ilə reallaşdırılır. Şagirdlər tanış olmayan sözlərin, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə oxu prosesində diqqət yetirirlər. Əsərin davamı da maraqla oxunur. Bu parçada qəhrəman – Murad haqqında təsəvvür daha da genişlənir, bir-birini tamamlayan təsvir və epizodlar təbiət və heyvanlar haqqında təəssüratın zənginləşməsinə səbəb olur. Balalarını ölümün ağuşuna atan ana ayının təlaşı, inadkarlığı, nəhayət, özünü həyatdan məhrum etməsi, faciənin insanla vəhşi heyvanı yaxınlaşdırması və s. şirin bir dillə, nağılvari tərzdə təhkiyə olunur.

Bütün bunlar ilkin oxuda necə qavranılır?



Layihə

İlkin təəssüratın aydınlaşdırılması üçün dərslikdə təklif edilmiş suallarda bu niyyət nəzərə alınmışdır:

– Murad obrazı ilə bağlı sizdə hansı yeni təəssürat yarandı?
– Hansı təsvir və epizod sizin üçün daha maraqlı oldu? Nə üçün?
– Oxuduğunuz parçadan hansı ovqatla ayrıldınız?

Meşəbəyinin həssas, xeyirxah bir insan olduğunu, təbiətə, heyvanlar aləminə böyük qayğı və məhəbbətlə yanaşdığını üzə çıxarmağa imkan verən detallar hekayənin ikinci parçasında daha çoxdur. İlkin qavramada bunların böyük bir qismi diqqəti cəlb etmir. Elə buna görə də birinci sualda diqqət buna yönləndirilmişdir.

İkinci parçada həmçinin şagird-oxucu üçün gözlənilməz, qeyri-adi təsvir və epizodlara yer verilmişdir. Xüsusən ana ayının davranışları, insana münasibəti, özünü ölümə məhkum etməsi və s. bu qəbildəndir. Bunların necə qavranıldığını aşkara çıxarmaq üçün ikinci sual əlverişlidir.

Əsərin sonunda oxucu təsirli səhnə ilə qarşılaşır: könüllü olaraq ovdan imtina edən ayının ölməsi, ümumiyyətlə, oxucuların heyrətinə səbəb olur... Üçüncü sual müəyyənləşdirilərkən bu cəhətin də necə qavranıldığı nəzərə alınmışdır.

İlkin təəssüratın aşkara çıxarılması və səviyyəsinin müəyyənləşdirilməsi dərinləşdirilmiş oxuya bu və ya digər səviyyədə müraciət olunmasını zəruri edir. Onun səmərəliliyi ilkin qavramanın nəticələrinin nəzərə alınması zəminində hazırlanmış suallardan az asılı deyildir. Bu məqsədlə dərsliyə daxil edilmiş suallar şagirdlərdə əsərin məzmunu, obraz və yazıçı niyyəti haqqında təsəvvürün dərinləşməsinə ciddi təsir edir. Suallarda ən kiçik detallara belə diqqətin cəlb edilməsi (Balalarının təhlükə ilə üz-üzə qaldığını görən ayının həyəcanı əsərdə necə təsvir olunub? “Balalarını xilas etməyə çalışan ana ayı əsl fədakarlıq göstərir” fikrini əsərdən misallar göstərməklə əsaslandıra bilərsinizmi? və s.) təsadüfi deyildir. Bu, səbəb-nəticə əlaqələrinin, müəllifin təbiətə, heyvanlar aləminə münasibətindəki incəliklərin başa düşülməsinə və dəyərləndirilməsinə əhəmiyyətli təsir edir.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Öyrənilənlərin ümumiləşdirilməsi həyata keçirilir. Bu məqsədlə aşağıdakı tapşırığın yerinə yetirilməsinə vaxt ayrılır.

1. Əsərdən oxuduğunuz parçada mühüm hesab etdiyiniz mətləbləri müəyyənləşdirin.
2. Onların əhəmiyyətini izah etməyə çalışın.

Oxunmuş parçanın məzmunu haqqında dolğun təsəvvürü olan şagirdlər daha mühüm hesab etdikləri mətləbləri (bunlar birbaşa yazıçının mövqeyini əks etdirir) ümumiləşdirilmiş şəkildə ifadə etməkdə çətinlik çəkmirlər. Növbəti addım isə həmin mətləblərin (heyvanlarda bala məhəbbəti güclü olur; onlar balalarının qayğısını çəkməkdən usanmırlar; balalarının təhlükəsizliyi onlar üçün önəmlidir və s.) əsərin ideya məzmunu üçün nə dərəcədə əhəmiyyətli oduğunun izah edilməsidir.

**Nitqin, düşüncənin inkişafı.** Tapşırığın əsasında nitq inkişafı üzrə işin təşkili dayanır. Mənası yeni öyrənilmiş sözlərin təkrar olaraq nəzərdən keçirilməsi, onlardan bir neçəsinin cümlələrdə işlədilməsi, nəticənin müzakirə olunması bu təlimi fəaliyyətinin səmərəliliyini təsdiq edir. Yazılan cümlələrin öyrənilən əsərlə bağlı olması tələbini də xatırlatsaq, tapşırığın əhəmiyyəti özünü bir daha qabarıq göstərir. Çıxışların fəal dinlənilməsi və onlara münasibət bildirilməsi təmin olunur.

**Müzakirə.** Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərin müzakirəsinə daha çox şagirdin cəlb olunması məqsədəuyğundur. Süjet xəttinin əsasında dayanan əhvalat və hadisələrin, mühüm hesab edilən mətləblərin xatırlanması mövzu haqqında maraqlı fikirlərin səsləndirilməsinə səbəb olur.

Müzakirə üçün müəyyənləşdirilmiş ikinci mövzu əsərin janr xüsusiyyətləri ilə bağlıdır. Şagirdlər hekayənin həcmcə yığcam, obrazlarının sayının məhdud, süjet xəttinin sadə olduğunu qeyd edir, fikirlərini təsdiq edən nümunələr səsləndirirlər. Qeyd edilir ki, hekayə həm nəzm, həm də nəsr şəklində yazılır, fərqli mövzularda olur.

Müzakirənin diskussiya, dialoq şəklində təşkilinə, ünsiyyətin yaradılması və davamlı olması üçün dil vasitələrindən yerində istifadəyə önəm verilir.

Ləyihə

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərin ilkin oxusunun yaratdığı təəssüratı nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin janr xüsusiyyətlərini nümunələr göstərməklə müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözləri cümlələrdə ardıcıl olaraq məqamında işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dialoji nitq şəraitində ritorik suallardan istifadə etməklə ünsiyyətin davamlılığına ardıcıl diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

**Mövzu:**

**BAYRAM HƏSƏNOV. İKİ BALA –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, nitq, əməl və davranışlarına görə müqayisə edir (7-1.4.1).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Nağıl və hekayə nümunələrini məzmunlarına görə müqayisə edir (7-1.4.4).
- Hekayənin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir (7-1.4.6).
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir (7-1.4.8).
- Essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib düzəliş edir (7-2.2.5).
- Essedə şəxsi hiss və düşüncələrinin əhatəli ifadəsinə diqqət edir (7-2.2.7).

**Köməkçi vasitələr:** Bayram Həsənovun əsərlərindən nümunələr. “İki bala” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, nəzəri biliklərin dərinləşdirilməsi, tətbiqi.
2. **Yaradıcı iş.** Yığcam essenin yazılması, müzakirəsi.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyası aydınlaşdırılır, obrazlar təhlil edilir, nəzəri biliklər dərinləşdirilir və tətbiqi üzrə iş həyata keçirilir. Yığcam essenin yazılması, müzakirəsi reallaşdırılır.

**Müəllim üçün əlavə məlumat.** *Hekayənin maraqlı süjeti şagirdləri cəlb etdiyindən onunla bağlı bütün işlərə həvəslə qoşulurlar. Bu, araşdırma, təhlil, dəyərləndirmə üzrə işin geniş və səmərəli aparılmasına imkan yaradır. Müəllim məqsədindən və sinfin səviyyəsindən asılı olaraq dərslikdəki tapşırığa, tövsiyələrə yaradıcı yanaşa bilər. Əlavələrin edilməsi, ixtisarların aparılması bu qəbildəndir. Müxtəlif məktəblərdə təşkil edilən yoxlama-sınaq dərslərində aydın olmuşdur ki, dərslikdə təklif edilmiş sonuncu tapşırığa (yığcam essenin yazılması) kifayət qədər vaxt ayırmaq mümkün olur. Bu tapşırığın yerinə yetirilməsinə sinfində kifayət qədər vaxtın qalmadığını müşahidə edən müəllim olarsa, onu şagirdlərinə müstəqil iş kimi təklif edə bilər. Nəticənin yığcam müzakirəsinə sonrakı dərslərdə – oxşar tapşırıqların icrasında vaxt ayırmaq mümkündür.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Hekayənin məzmunu ilə bağlı dolğun təsəvvür əldə edən şagirdlərlə “Vəhşi heyvanların öz balaları, hətta bəzən insanlarla rəhmdil davranmalarının səbəbini necə izah etmək olar?” sualı əsasında müsahibə təşkil etmək olar. Müsahibənin sonunda sual formalaşdırılır: Hekayəni yazmaqda müəllifin başlıca niyyəti, sizcə, nə olmuşdur?

Qeyd edilir ki, əsərlə bağlı araşdırma, dəyərləndirmə işlərinin aparılması suala əsaslandırılmş cavabın tapılmasına imkan verəcəkdir.

**Araşdırma. Təhlil.** Bu başlıq altında əks etdirilmiş tapşırıq çoxcəhətlidir. Deməli, tətbiq olunacaq iş formalarının da müxtəlifliyinə, çevik əvəzlənməsinə ehtiyac yaranacaqdır. Məsələn, birinci tapşırığın (Əsərin mövzusu ilə bağlı qənaətlərinizi dəqiqləşdirin) fərdi yerinə yetirilməsi mümkündür. Əvvəlki dərsdə mövzunun müəyyənləşdirilməsi üzrə aparılmış müzakirə şagirdlərin indi müstəqil işləmələrinə, araşdırma aparmalarına imkan verir.

Obrazların təhlili ilə bağlı bacarıqlara yiyələnmiş şagirdlərin ikinci sual üzrə də (Murad obrazını səciyyələndirin) müstəqil işinin təşkili mümkün və faydalıdır. Daha çox axtarış, araşdırma tələb edən

Lavinə

üçüncü sualın (Murad obrazını oxuduğunuz hansı əsərin qəhrəmanı ilə müqayisə edə bilərsiniz?) kiçik qruplara həvalə edilməsi daha faydalıdır.

Dördüncü sualın (Süjetin mərhələlərini və onlardakı mühüm məqamları izah edin) cütlük şəklində, beşinci (Hekayənin məzmunu öyrəndiyiniz hansı əfsanə, yaxud nağılı xatırladır? Onların məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirin) və altıncı sualın (Hekayənin əsas ideyasını şərh etməyə çalışın) kiçik qruplarda araşdırılması məqsədəuyğundur.

Tapşırıqlardan bəziləri əvvəlki dərslərdən başlayaraq hazırlıq işlərinin aparılmasını tələb edir. Məsələn, üçüncü tapşırığa (Murad obrazını oxuduğunuz hansı əsərin qəhrəmanı ilə müqayisə edə bilərsiniz?) şagirdlərin öncədən hazırlaşması faydalıdır. Daha dəqiq deyilsə, şagirdlər artıq dərsə qədər müqayisə üşün obrazı müəyyənləşdirməli, onun iştirakçısı olduğu əsəri gözdən keçirməlidirlər. Eləcə də beşinci sualla (Hekayənin məzmunu öyrəndiyiniz hansı əfsanə, yaxud nağılı xatırladır? Onların məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirin) bağlı qabaqlayıcı tapşırığın verilməsi faydalıdır. Müqayisə üçün yeni əsərin müəyyənləşdirilməsi də mümkündür. Deməli, onun əvvəlcədən mütaliə edilməsi qayğısına da qalınmalıdır.

Hansı iş formasının tətbiqindən, işin necə təşkilindən asılı olmayaraq tapşırığın bütün bəndləri üzrə cavabların ciddi müzakirəsi, nəticələrinin dəyərləndirilməsi vacibdir.

**Yaradıcı iş.** Yerinə yetirilməsi nəzərdə tutulan esse üçün iki mövzu təklif edilmişdir:

a) Ayının ana qayğısı, inadkarlığı və fədakarlığı;

b) Təbiətə qayğı lazımdırmı?

Mövzulardan birincisini "ədəbi mövzuda esse", ikincisini "mühakimə xarakterli esse" kimi dəyərləndirmək mümkündür. Hər ikisində şəxsi mövqeyin, hiss və düşüncələrin önəmli olacağı barədə şagirdlərdə təsəvvür olur. Ehtiyac duyan şagirdlər essenin yazılması ilə bağlı dərslikdə əks etdirilmiş tövsiyələrə nəzər sala bilərlər. İcra prosesində şagirdlərə istiqamət verilir, zəruri yardımlar edilir. Yazıya ayrılmış vaxtın sonunda mətnin oxunması, düzəlişlərin aparılması üçün şagirdlərə imkan yaradılır. Özünüqiymətləndirmə meyarlarından istifadə məqsədəuyğundur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları xarakter, nitq, əməl və davranışlarına görə nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas süjet xəttinin mərhələlərini nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə nağılın məzmununu nümunələrə əsaslanmaqla müqayisə edir | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin ideyasını ondakı mühüm mətləblərə əsaslanmaqla məntiqi ardıcıllıqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini nümunələr əsasında dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Essenin müvafiq dil xüsusiyyətləri əsasında yazıldığını nəzərdən keçirib məntiqli düzəlişlər edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Essedə şəxsi hiss və düşüncələrinin əhatəli, ardıcıl ifadəsinə diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

Layihə

## BEŞİNCİ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə “Meşəbəyinin söhbəti” hekayəsi üzrə aparıla bilər.*

### Tofiq Mahmud
### MEŞƏBƏYİNİN SÖHBƏTİ

Səhər bərk yağış yağmışdı. Günorta, hava açılan kimi meşəyə çıxdım. Yağışdan sonra meşəni gəzməyi çox sevirdim. Çünki hər şey təzələnirdi. Yağış meşənin tozunu çırpır, yuyur, onu gözəlləşdirirdi. Bütün ağaclar təzəcə çiçəklənmiş kimi təravətli, rayihəli, şəffaf olurdu. Adama elə gəlirdi ki, meşənin gəncliyi özünə qayıdıb...

Qarşımda uzanan təptəzə bir cığırla yavaş-yavaş irəliləyirdim. Dərədə çoxalan sel-suyun səsi aydınca eşidilirdi. Əməlli-başlı çay axırdı. Asta-asta qalxırdım. Bəzən budaqlara toxunanda üstümə damcılar tökülürdü. Elə xoş olurdu ki! Yaşıllıq içində saysız-hesabsız damcılar bərq vururdu. Meşə çimmiş, hələ qurulanmamışdı.

Birdən dərənin yuxarı tərəfindən böyürtü eşidib ayağımı saxladım. Bu nə səsdir? Qulaq asdım, bir şey anlaya bilmədim. Bir az keçməmiş dərənin yuxarı başından nəyinsə qaraldığını gördüm. Diqqətlə baxdım, bir ayı dərə ilə sürətlə axan dağ çayında gah batır, gah da suyun üzünə çıxırdı. Çıxan kimi də bar-bar bağırırdı. Hər tərəfə göz gəzdirdim. Möhkəm, uzun bir ağac gördüm, dərhal götürdüm və dərə boyu azca aşağıya endim. Hərlənə-hərlənə, böyürə-böyürə qalan ayını su üzüaşağı aparırdı. Çayın ensiz yerində budağı suyun üstü ilə dərənin o biri tərəfinə uzatdım. Ayı budağa çatan kimi ondan möhkəm tutdu. Sıçrayıb özünü kənara verdi və sudan çıxdı. Can necə şirin şeymiş! Ayı ləhləyirdi. Taqəti qalmadığı, yer sürüşkən olduğu üçün birdən-birə dərədən çıxa bilmədi. Elə ki dərədən yuxarı dırmaşdı, gördüm, qəhvəyi rəngli, qəşəng, balaca bir ayıdır. İslandığı üçün işım-işım işıldayırdı. Başını irəli uzadıb mənə tərəf baxdı. Ehtiyat edib ağac gövdəsinin arxasına keçdim, qorxdum ki, qəzəbli olar, birdən üstümə cumar. Qəribə o idi ki, ayı yerindən tərpənmir, elə hey mənə baxırdı. Bəlkə, nəsə demək, təşəkkür etmək istəyirdi?

Bu hadisədən çox keçmişdi. Hərdən o ayını uzaqdan görürdüm. Bir dəfə bərk yorulduğum üçün talada yatmışdım. İsti nəfəs duyub dərhal yuxudan oyandım. Gözlərimə inana bilmədim. Başımın üstündə həmin ayı dayanmışdı. Yoxsa mənim keşiyimi çəkirdi? Ayağa qalxdığımı görən kimi yavaş-yavaş uzaqlaşıb meşənin dərinliklərində gözdən itdi.

Payızın əvvəllərində isə daha maraqlı hadisə baş verdi. Dərə tərəfdə yenə həmin ayıya rast gəldim. Cığırın düz ortasında dayanmışdı. Demək, yolum bağlı idi. Elə qorxdum ki, nə edəcəyimi bilmədim. Tərs kimi, tüfəngimi də götürməmişdim. Ayı başını tərpədib sağ tərəfi göstərdi. Orada heç nə yox idi. Ayının həmin tərəfə keçdiyini gördüm. Qorxumu təsəvvür edirsinizmi? Ayı birdən dayandı, yenə mənə tərəf baxdı. Mənsə donmuş kimi yerimdən tərpənə bilmirdim. Onun nə fikirdə olduğunu başa düşmək çətin idi. Ayı yenə başını tərpədib sanki məni getdiyi istiqamətə çağırdı. Bu, möcüzə idi.

Nəhayət, tərəddüdə son qoyub onun dalınca getdim. Ayı sıx cəngəlliyə girdi. Burda nə cığır, nə də yol vardı. Cəngəllik elə sıx idi ki, bəzən dayanır, keçmək üçün yol axtarırdım. Böyürtkən kolları ilə başqa kolların qarışığından divar yaranmışdı. Ayı elə yerdən keçirdi ki, onun dalınca gedəndə üst-başımı tikanlar cızırdı. Bəzən hasar kimi sarmaşıqlar qabağımı kəsirdi, onları aralaya-aralaya gedir, ayıdan dala qalmamağa çalışırdım.

Üç cavan cökə ağacının yanına çatdıq. Cökələri top kimi kollar bürümüşdü. Burdan keçəndən sonra qarşıda yamyaşıl, balaca, gözəl bir tala göründü. Bu talanı dörd tərəfdən ağaclar, üstdən isə budaqlar tutmuşdu. Onların budaqları ucalıb bir-birinə sarmaşaraq talanın üstünü də örtmüşdü. Bu sərin yerdə sısqa axan bulaq da mirvari kimi parıldayırdı. Talanı birinci dəfə gördüyümdən heyrətlə baxırdım... Meşəbəyi olasan, öz meşənin içindəki bu gözəlliyi görməyəsən!..

Ayı talanın ortasında dayandı. Burda bir neçə armud ağacı vardı. Üstü sapsarı, yetişmiş sulu armudlarla dolu idi. İtburnu, əzgil kolları, bir az aralıda yeganə tək zoğal ağacı qızarırdı. Ağacın üstündə balaca alovlar kimi saysız-hesabsız zoğallar zümrüd sırğalara bənzəyirdi. Ayı gör məni hara gətirib çıxartmışdı?!.. Özü də necə yer!..

Başqa bir tərəfdə irigövdəli, qurumuş bir ağac vardı. Ayı gedib onun yanında dayanmışdı. Ağacın koğuşunda bal görüb sevindim. Bu ağacdan iki vedrə bal yığdım.

Ayı mənim yaxşılığımın əvəzini belə verdi.

Layihə

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsərlə bağlı təəssüratınızı bir neçə cümlə ilə yazın.

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

2. Əsərdə işlənmiş "rayihə", "tala", "sısqa", "tərəddüd", "ləhləmək", "bərq vurmaq" sözlərinin mənasını aydınlaşdırıb qısaca yazın.

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

3. Fikirlərdən biri doğrudur.

A) Meşəbəyi meşənin hər qarışına yaxşı bələd idi.
B) Əsərdə baş verən bütün hadisələr payızın əvvəlinə təsadüf edir.
C) Xilas edilmiş ayı qəzəblə nərildədiyi üçün meşəbəyi ağacın arxasında gizləndi.
D) Ayını xilas etdikdən sonra meşəbəyi onu cəmi bir dəfə gördü.
E) Ayı meşəbəyinin yaxşılığını unutmadığını öz hərəkəti ilə göstərdi.

4. Fikirlərdən biri yanlışdır.

A) Əhvalat hekayədəki obrazın dilindən nağıl edilir.
B) Əsərdə könüloxşayan təbiət lövhələrinə yer verilib.
C) Belə bir gözəl talanın varlığından xəbərsiz olan meşəbəyi heyrətlənir.
D) Meşəbəyi heç çəkinmədən ayının ardınca düşüb talaya gedir.
E) Ayını boğulmaqdan xilas etməklə meşəbəyi heyvanın rəğbətini qazanır.

5. Cədvəlin boş xanalarını uyğun fikirlərlə tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Yağışdan sonra meşədə hər şey təzələnirdi. | |
| 2. | Ayı dərə aşağı axan çayda boğulmağa başlamışdı. |

Layihə

| | |
|---|---|
| | |
| 3. Ayı başı ilə meşəbəyiyə sağ tərəfə getməli olduqlarını anladırdı. | |
| 4. | Meşəbəyini heyrət bürüdü. |
| | Ayi gedib irigövdəli, qurumuş bir ağacın yanında dayanmışdı. |

6. Sözlərdən hansılarını meşəbəyi obrazına aid etmək olmaz?

1. mərhəmətli 2. qorxaq 3. təbiətsevər 4. cəsarətli 5. tamahkar 6. tənbəl

7. Hansı fikri hekayə üçün daha səciyyəvi nəticə hesab etmək olar? Seçiminizi əsaslandırın.

| Əsərdən çıxan nəticə | Nə üçün belə düşünürəm |
|---|---|
| 1. Meşənin dərinliyində, heç kimin görmədiyi talalarda meyvə dolu ağaclar, çoxlu bal olur. | |
| 2. Bəzən heyvanlar insanların yaxşılığını unutmur və əvəzini verməyə çalışırlar. | |
| 3. Meşəbəyi vəzifəsində çalışanlar çətinliyə düşən vəhşi heyvanlara tərəddüd etmədən yardım edirlər. | |
| 4. İnsanların təbiətə, heyvanlar aləminə xeyirxah münasibət bəsləmələri vacibdir. | |

8. Aşağıdakı parçaya bədii təsvir və ifadə vasitələri əlavə etməklə yazın.

*"Ayı ağaca çatan kimi ondan möhkəm tutdu. Sıçrayıb özünü kənara verdi və sudan çıxdı. Can necə şirin şeymiş! Ayı ləhləyirdi. Taqəti qalmadığı, yer sürüşkən olduğu üçün birdən-birə dərədən çıxa bilmədi. Elə ki dərədən yuxarı dırmaşdı, gördüm, qəhvəyi rəngli qəşəng balaca bir ayıdır. İslandığı üçün işım-işım işıldayırdı".*

Layihə

9. “Meşəbəyi çaya düşmüş ayını görəndə mərhəmətli davranmasaydı...........” cümləni tamamlayın.

10. Hekayədə ifadə olunmuş başlıca fikri — ideyanı müəyyən edib qısaca yazın.

Layihə

**Mövzu:**

**ƏLİ SƏBRİ.**

**SƏDAQƏT –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (7-1.3.1).
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (7-1.3.2).
- Əsərin ilkin oxusunun yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayədən bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun danışır (7-1.3.9).
- Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəyərləndirir (7-1.4.8).
- Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında diqqət edir (7-2.1.4).

**Köməkçi vasitələr:** Əli Səbrinin əsərlərindən nümunələr. "Sədaqət" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Yadasalma.** Suallarından maraqoyatma vasitəsi kimi istfadə olunması.
**2. Oxu. Anlama.** Hekayədən parçanın oxusu, ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.
**3. Öyrəndiklərinizi yoxlayın.** Öyrənilənlərin test tapşırıqlarının yerinə yetirilməsi ilə yoxlanması.
**4. Möhkəmləndirmə. Zənginləşdirmə.** Nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, tətbiqi.
**5. Nitqin, düşüncənin inkişafı.** Nitq inkişafı üzrə işin təşkili.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayədən bir parçanın oxusu;
– ilkin qavrama səviyyəsinin aşkara çıxarılması;
– dərinləşdirilmiş oxunun təşkili;
– məzmununun öyrənilməsinin yoxlanması;
– nəzəri anlayışlarla bağlı biliklərin möhkəmləndirilməsi, tətbiqi;
– nitq inkişafı üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Çoxcəhətli yaradıcılığı ilə diqqəti çəkən Əli Səbri (Qasımov) təbiət, heyvanlar aləminə həsr etdiyi nəsr əsərləri ilə oxucuların rəğbətini qazanıb. Onun bu mövzuda yazdığı "Sədaqət"(və ya "Gonbul ayı balası") adlı hekayəsi çox oxunan əsərlərindəndir. Hekayə ilk növbədə cəlbedici süjeti ilə oxucuların marağına səbəb olur. Təbiət, heyvanlar aləminə yaxından bələdliyi ilə seçilən yazıçı orijinal təsvirlərin, xarakter və davranışları ilə bir-birini təkrar etməyən obrazların yer aldığı hekayədə insanla təbiətin sıx əlaqəsini, bunun gözlə görünməyən incəliklərini yaddaqalan bədii lövhələrlə əks etdirə bilmişdir. Hekaydə belə bir mövqe özünü qabarıq göstərir ki, insanla təbiət bir-birini tamamlayır. Təbiətin insan qayğısına ehtiyacı olduğu kimi, insanın da təbiətdən gözləntisi çoxdur. Təbiət özünə insanın laqeydliyini bağışlamır, təbiətin şıltaqlığı, çərçivəyə sığmayan hadisələri də insanı məmnun etmir...*

*Hatəm və Elxan obrazlarının təbiətə, vəhşi heyvanlara münasibətlərində müşahidə edilən fərq diqqəti dərhal çəkir və oxucunu düşündürür. Elxanın vəhşi heyvanla – ayı ilə sərt, hətta amansız rəftarı cavabsız qalmır. Hatəmin bu heyvana mərhəməti sədaqətlə qarşılanır...*

*Dərsliyə daxil edilmiş tapşırıq və tövsiyələr bu incəliklərin mənimsənilməsinə istiqamət verir, lakin müəllimin yaradıcı, müstəqil yanaşmasının önəmli olduğu unudulmamalıdır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** "Yadasalma" başlıqlı sualların (İnsanın vəhşi heyvanlarla dostluğu barədə eşitmisinizmi? Bu barədə oxuduğunuz bədii əsər varmı? Belə əsərlərdə sizi daha çox

layihə

maraqlandıran nə olub?) əsasında yığcam müsahibə aparılır. Sonda sual formalaşdırılır: "İnsan istənilən vəhşi heyvanın sahibi ola bilər" fikrini doğru saymaq olarmı?

Qeyd olunur ki, hekayənin öyrənilməsində suala cavab axtarılacaqdır.

**Oxu. Anlama.** Hekayənin tədrisinə qədər onun müstəqil oxusuna nail olunması vacibdir. Belə olanda şagirdlər dərsdə mətnə yadasalma məqsədilə baxmaqla kifayətlənirlər. Ardınca isə təəssüratların bölüşülməsi məqsədilə dərsliyə daxil edilmiş suallarla tanışlıq həyata keçirilir.

– Sizdə əsərə maraq oyandımı? Nə üçün?
– Ovçuluq və ovçu həyatı haqqında sizdə hansı təəssürat yarandı?
– Tufanlı gecəni necə təsəvvür etdiniz?

Suallar əsərdəki mühüm mətləblərin necə qavranıldığını müəyyənləşdirməyə imkan verir. Məsələn, birinci sual əsərdə təsvir olunanlardan hansıların şagirdlərin diqqətini çəkdiyini və bunun səbəbini aydınlaşdırmağa şərait yaradır. İkinci sual isə təhlükəli peşə – ovçuluq haqqında təsəvvür yaradan epizodların necə başa düşüldüyünü, ovçu həyatının maraqlı, eyni zamanda çətin olduğunu müşahidə etməyə imkan yaradan səhnələrin nə cür qavranıldığını aydınlaşdırmaq üçün nəzərdə tutulmuşdur.

Tufanlı gecənin təsvirini şagirdlər necə təsəvvür edirlər?

Bu təsvir hekayənin ən maraqlı yerlərindən olub yüksək sənətkarlıqla işlənmişdir. Lakin şagirdlər təsvirdəki incəliklərin çoxunu nəzərdən qaçırır, müəllifin tutarlı söz və ifadələrindən istifadə etmir, gecənin dəhşətini qeyri-emosional tərzdə ifadə etməklə kifayətlənirlər.

İlkin qavramanın nəticələri dərinləşdirilmiş oxu üçün sualların müəyyənləşdirilməsinə istiqamət verir. Başqa sözlə, ilkin oxuda sezilməyən, dayaz qavranılanların əhatə edilməsinə bu sualların hazırlanmasında xüsusi diqqət yetirilir. Məsələn, tufanlı gecə ilə bağlı sual (Tufanın başlanmasını, fəsadlarını necə təsvir edərsiniz?) daha da konkretləşdirilir, diqqət gecənin vahiməli olmasına ("Bizə elə gəlirdi ki, dağlar yerindən qopub aranı altına alacaq" cümləsindəki fikri necə başa düşdünüz?) yönəldilir. Eləcə də ovçuluq peşəsinin çətinliyi barədə təsəvvürün zənginləşməsi məqsədilə fərqli məzmunda sualdan (Ovçu Muxtarla bağlı əhvalatda diqqətinizi daha çox çəkən nə oldu?) istifadə edilir.

Suallarda həmçinin obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin dəyərləndirilməsi (Kəndi "zinhara gətirən" ayı necə zərərsizləşdirildi?) tələbləri də nəzərə alınmışdır.

Dərinləşdirilmiş oxunun nəticələri test tapşırıqlarının tətbiqi ilə yoxlanılır. Bu tapşırıqları fərdi yerinə yetirən şagirdlərin cavabları müzakirə olunur.

İlkin oxu prosesində müəyyənləşdirilmiş bədii təsvir və ifadə vasitələrindən ikisinin cümlələrdə işlədilməsi möhkəmləndirmə, zənginləşdirmə məqsədini güdən tapşırığın tələbidir. Təsvir və ifadə vasitələrinin cümlələrdə işlədilməsi şagirdlərdə yazı bacarığının inkişafına müsbət təsir etməklə yanaşı, nəzəri anlayışla bağlı biliyin dərinləşməsində də əhəmiyyətli rol oynayır.

Şagirdlərin fərdi olaraq yerinə yetirdikləri tapşırığın nəticəsinin müzakirəsinə vaxt ayrılır.

Dərslikdəki növbəti tapşırıqda nitq inkişafı üzrə işin təşkili nəzərdə tutulmuşdur. Mənası yeni öyrənilmiş sözlərin cümlələrdə işlədilməsi bir neçə baxımdan faydalıdır. İlk növbədə həmin sözlərin nitqə daxil olması üçün şərait yaranır. Eləcə də fərqli məzmunda cümlələrin yazılmasına səy göstərilməsi yazı bacarığının inkişafına müsbət təsir edir.

Tapşırığın ikinci tələbi də yalnız şifahi nitqin inkişafına xidmət etməsi ilə məhdudlaşmır. O, mətndən seçilmiş bitkin parçanın yığcam nağıletmənin tələblərinə uyğun danışılmasını, həm də mətnə yaradıcı yanaşmanı, təfəkkürün fəal işini tələb edir.

Çıxışların məzmununa münasibətin bildirilməsi diqqət mərkəzində saxlanılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

| | | |
|---|---|---|
| Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədən bitkin parçanın məzmununu yığcam nağıletmənin tələblərinə uyğun ardıcıl danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazların mühüm qərar qəbul etmələrinə səbəb olan hadisələrin əhəmiyyətini dəlillərlə dəyərləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərin cümlədəki məntiqli əlaqəsinə çıxışında ardıcıl diqqət edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**ƏLİ SƏBRİ. SƏDAQƏT–**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir (7-1.3.1).
- Əsərin ilkin oxusunun yaratdığı təəssüratı izah edir (7-1.3.3).
- Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.3.4).
- Hekayədə hadisələrin əlaqələrini müəyyənləşdirir (7-1.3.5).
- Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir (7-1.3.7).
- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).
- Hekayə janrında mətnin yazılması üzrə işi davam etdirir (7-2.2.1).

**Köməkçi vasitələr:** Əli Səbrinin əsərlərindən nümunələr. "Sədaqət" hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Hekayənin davamının oxusu, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili.
**2. Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərdəki mühüm mətləblərin müəyyənləşdirilməsi, onlara münasibət bildirilməsi.
**3. Nitqin, düşüncənin inkişafı.** Fərqli mövzularda təqdimatların hazırlanması, mənası yeni öyrənilmiş sözlərdən onlarda istifadə üzrə işin təşkili.
**4. Müzakirə.** Əsərin mövzusunun, janr xüsusiyyətlərinin aydınlaşdırılması.
**5. Yaradıcı iş.** Müstəqil hazırlanan hekayə üzrə müzakirə.
**5. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu:**
– hekayənin davamının oxusu;
– ilkin qavrama səviyyəsinin müəyyənləşdirilməsi;
– dərinləşdirilmiş oxunun təşkili;
– əsərdəki mühüm mətləblərin müəyyənləşdirilməsi, onlara münasibət bildirilməsi;
– nitq inkişafı üzrə işin təşkili;
– əsərin mövzu və janr xüsusiyyətlərinin aydınlaşdırılması;
– müstəqil işlənən hekayə üzrə müzakirənin təşkili.

**Oxu. Anlama**

Hekayənin davamının müstəqil oxunması birbaşa təəssüratların bölüşülməsi üzrə işin təşkilinə keçməyə imkan verir. Suallarla tanış olan şagirdlərin mətn üzərində düşünmələrinə vaxt ayrılır. Yalnız bundan sonra müsahibəyə, yaxud da təqdimatların dinlənilməsinə başlamaq olar.

– Ovçularla bağlı sizdə hansı yeni təəssürat yarandı?
– Oxuduğunuz parçada sizi daha çox maraqlandıran nə oldu?
– Təbiət, heyvanlar aləmi barədə təsəvvürünüzə yeni nə əlavə olundu?

Hekayənin davamında Hatəmin "Gonbul" adlandırdığı ayı balasının evə, həyətə isinişməsi, Elxanla aralarında düşmənçiliyin yaranmasına xeyli yer verilmişdir. Lakin bu vəhşi heyvanla Hatəmin arasında isti münasibətin yaranması, təbiətin, meşənin onu öz qoynuna çəkib aparması diqqət mərkəzində saxlanmışdır. Gonbul ovçu Hatəmə nə qədər öyrəşsə də, ona sədaqətli olsa da, təbiət ona daha doğma görünür. Seçim qarşısında qalan bu vəhşi tərəddüd və əziyyət çəkir, qəti qərara gəlmək onun üçün çətin olur. Nəhayət, meşəyə üz tutan ayının ovçu ilə çox sonralar da görüşü olur, insanı unutmadığını büruzə verir. Ovçunu suda boğulmaqdan xilas etməsi isə onun insana sədaqətini nümayiş etdirən ən tutarlı əməl olur.

Bu incəliklər ilkin oxudan sonra hansı səviyyədə qavranılmış olur?

Hekayənin davamını oxuyan şagirdlərdə hər iki ovçu haqqında təsəvvür dərinləşir. Onların diqqətini daha çox Hatəm obrazı cəlb edir. Onun təmkinli, yumşaqtəbiətli olması, xüsusən Gonbula mərhəmət, qayğı göstərməsi şagird-oxucuda böyük rəğbət hissi oyadır. Lakin Gonbula bağlılığını, onu itirməkdən daim qorxmasını, ömrünün ixtiyar çağlarında belə bu vəhşinin xiffətini çəkməsini və bütün bunların səbəbini izah etməkdə çətinlik çəkirlər.

Hatəmlə yoldaşlıq etməsi Elxanı xeyli dəyişdirsə də, xarakter və davranışlarında qüsurlar müşahidə olunur. Gonbulla amansız rəftarını şagirdlər ona bağışlamırlar.

Oxuduqları yeni parçada şagirdləri daha çox maraqlandıran ov səhnələri olur. Hatəmlə ayının hər dəfə qarşılaşandan sonra çətinliklə ayrılmaları şagirdlərin heç də hamısında dərin təəssürat oyatmır.

Təəssüratların bölüşülməsi üçün təklif edilmiş üçüncü sual hekayədə təbiət və heyvanlar aləmi barədə səsləndirilmiş fikir və təsvirlərdən çıxarılmış nəticələrin ifadə olunmasını tələb edir. Lakin şagirdlər bu mərhələdə əsaslandırılmış fikir bildirməkdə çətinlik çəkirlər. Bunun üçün sualların əsasında dərinləşdirilmiş oxunun təşkili vacib olur.

Dərinləşdirilmiş oxu üçün müəyyənləşdirilən və dərsliyə daxil edilən suallar ilkin qavramanın nəticələrində müşahidə edilən kəsirlərin ortadan qaldırılmasında əhəmiyyətli rol oynayır. Məsələn, Elxan obrazı haqqında əsaslandırılmış fikir söyləməkdə çətinlik çəkən şagirdlərə yeni sualın (Sizcə, Elxanın Gonbulla sərt davranmasına səbəb nə idi?) üzərində düşünmək təklif olunur. Hər iki obraz haqqında daha əhatəli məlumat əldə etməyə, onların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə imkan yaradan sual (Hatəmin Elxanla yoldaşlıq etmək fikrinə düşməsinə səbəb nə olmuşdu?) şagirdləri əsəri daha diqqətlə nəzərdən keçirməyə, ən xırda incəliklərə diqqət yetirməyə yönəldir.

İnsan vəhşi heyvanı özünə həmişəlik ram edə bilərmi? Vəhşi heyvanın sahibi kimi davranmaq, onu həmişəlik özünə bağlamaq insana müyəssər ola bilərmi?

Bu qəbildən suallar hekayənin oxusu boyu oxucu-şagirdi düşündürür. Lakin ilkin oxudan sonra onlara cavab hazırlamaq şagirdlər üçün çətin olur. Təsadüfi deyildir ki, dərinləşdirilmiş oxu üçün təklif edilən suallardan biri belədir: "Ovçuları tərk edərək meşəyə üz tutan Gonbulun hərəkətini necə izah etmək olar?"

Sual şagirdləri düşünməyə, araşdırmaya, mətni daha diqqətlə nəzərdən keçirməyə sövq edir.

Dərinləşdirilmiş oxunun nəticəsini yığcam müsahibə, yaxud suallar üzrə təqdimatların dinlənilməsi ilə müzakirə etmək mümkündür.

Növbəti tapşırıq məzmunla bağlı mənimsənilənlərin konkretləşməsinə əhəmiyyətli təsir edir. Şagirdlərə hekayədə heyvanlar aləmi ilə bağlı mühüm mətləbləri müəyyənləşdirmək və onları ilkin dəyərləndirmək təklif olunur. Bununla bağlı təbiətin bir parçası olan heyvanların insan qayğısına, insan

mərhəmətinə ehtiyacı olduğu, onlara qarşı amansızlığın yolverilməzliyi, nəsli kəsilməkdə olanların artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinin zəruriliyi ön plana çəkilir.

Şagirdlərdə nitqin, düşüncənin inkişaf etdirilməsi məqsədilə dərsliyə daxil edilmiş tapşırıqda mənası yeni öyrənilmiş sözlərdən də istifadə etməklə təqdimatların hazırlanması tələb olunur. Tapşırığın birinci bəndi (Ovçu Hatəmin davranış və əməlləri onu mənə necə tanıtdı) obraz haqqında müstəqil düşüncənin ifadə edilməsini diqqət mərkəzinə çəkir. Bu işin icrası ədəbi qəhrəmanın səciyyələndirilməsi yolunda mühüm addımdır. Yazıçı ovçu Hatəm haqqında birbaşa məlumat vermir, onun barəsində digər obrazlar da xəsisliklə danışırlar. Üstəlik, əsərdə təhkiyəçi bu obrazın özüdür. Lakin əsərdə həcmindən asılı olmayaraq, bütün təsvirlər ovçu Hatəmin zəngin mənəvi aləmindən, həssas, kövrək qəlb sahibi olmasından xəbər verir. Dostu Elxanla, qısa müddətdə bir yerdə olduğu insanlarla, ailə üzvləri, eləcə də Gonbulla davranışları Hatəmi tanımağa, ona dəyər verməyə kifayət edir.

Hekayə üzrə mənimsənilmiş məlumat və biliklər tapşırığın ikinci bəndinə (İnsan və təbiət bir-birindən ayrılmazdır) cavabın hazırlanması üçün kifayət etmir. Əsaslandırılmış cavabın hazırlanması əvvəlki dərslərdə və siniflərdə oxşar mövzularda öyrənilmiş əsərlərə geniş müraciət əsasında mümkündür. İlk növbədə ona görə ki, sual inandırıcı nümunələrin göstərilməsini tələb edir. Bu məqamda müəllimin istiqamətləndirici sualları mühüm rol oynayır.

Bu tapşırığın geniş əməkdaşlıq şəraitində icra edilməsi məqsədəuyğundur.

Cavabların təqdimatların dinlənilməsi yolu ilə müzakirə edilməsi faydalıdır. Təqdimatların əhatəli, məntiqli olması onların plan əsasında hazırlanmasını tələb edir.

Növbəti tapşırıq hekayənin mövzu və janr xüsusiyyətlərinin aydınlaşdırılması məqsədilə müzakirənin təşkili ilə bağlıdır. Hekayənin mövzusu barədə müəyyən təsəvvür qazanan şagirdlər ilkin qənaətlərini bildirməkdə çətinlik çəkmirlər. Eləcə də hekayə janrına məxsus cəhətlərin nümunələr əsasında izah edilməsi çox vaxt aparmır. Müzakirədə müqayisələrə (hekayə ilə nağıl və s.) müraciət olunmasına diqqət yetirilir.

Dərslikdə sonuncu tapşırıqda müstəqil hazırlanan hekayə ilə bağlı fikir mübadiləsinin aparılması nəzərdə tutulmuşdur. Şagirdlər hazırladıqları mətndə uğurlu, yaxud zəif hesab etdikləri təsvirləri, epizodları oxumaqla sinfin təəssüratını öyrənirlər. Qarşılıqlı hörmət və etimad şəraitində həyata keçirilən oxuma və dinləmə müzakirə, fikir mübadiləsi ilə müşayiət olunur.

Hekayənin hazırlanması başa çatdırıldığından onun necə və harada çap olunması ilə bağlı məsləhətləşmələrə vaxt ayrılır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin ilkin oxusunun yaratdığı təəssüratı nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusu ilə bağlı ilkin qənaətlərini nümunələr əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə hadisələrin əlaqələrini ardıcıllıqla müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin janr xüsusiyyətlərini nümunələr göstərməklə müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışın məzmununa uyğun sadə azbəndli plan hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə janrında mətnin yazılması üzrə işi məntiqi ardıcıllıqla davam etdirir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |



Layihə

**Mövzu:**

**ƏLİ SƏBRİ. SƏDAQƏT –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Obrazları davranış və əməllərinə görə səciyyələndirir (7-1.4.1).
- Obrazları xarakter, həyata baxış, davranış, əməl və xarici görünüşlərinə görə müqayisə edir (7-1.4.1).
- Əsas süjet xəttinin mərhələlərini izah edir (7-1.4.2).
- Əsas və əlavə süjet xətlərinin əlaqələrini izah edir (7-1.4.2).
- Nağıl və hekayə nümunələrini məzmunlarına görə müqayisə edir (7-1.4.4).
- Hekayənin ideyasını ondakı mühüm mətləblər əsasında şərh edir (7-1.4.6).

**Köməkçi vasitələr:** Əli Səbrinin əsərlərindən nümunələr. “Sədaqət” hekayəsinə çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, nəzəri biliklərin dərinləşdirilməsi, tətbiqi.
2. **Müzakirə.** Təbiətin, heyvanlar aləminin qorunması ilə bağlı debatın təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyası aydınlaşdırılır, obrazlar təhlil edilir, nəzəri biliklər dərinləşdirilir və tətbiqi üzrə iş həyata keçirilir. Təbiət və heyvanlar aləminin qorunması mövzusunda müzakirə aparılır.

**Mövzuya yönəltmə (maraqoyatma).** Məzmunca zəngin olan hekayə əlavə süjet xətlərinin çoxluğu ilə də diqqəti cəlb edir. Bu, müəllifin əsas niyyətinin aydınlaşdırılması üçün ciddi düşünməyi, araşdırma aparmağı zəruri edir. Sizcə, hekayə müəllifini daha çox düşündürən nədir? O, təsvirlərində daha çox hansı məsələlərə diqqət ayırır və nə üçün? Sualların əsasında aparılan yığcam müsahibənin sonunda sual formalaşdırılır: Hekayədə yazıçının başlıca niyyəti nədir?

Qeyd edilir ki, araşdırma, təhlil üzrə aparılan iş suala əsaslandırılmış cavab verməyə imkan yaradacaqdır.

**Araşdırma. Təhlil.** Bu başlıq altında əks etdirilmiş tapşırıq hekayənin ətraflı təhlilinə, əsaslandırılmış nəticələrin çıxarılmasına imkan verir. Mövzu ilə bağlı qənaətlərin dəqiqləşdirilməsinə suala əlavə edilmiş tövsiyələr əhəmiyyətli təsir edir:

– hadisələrin, əsasən, harada baş verdiyini xatırlayın;
– əsərdə daha çox nədən danışıldığını yada salın;
– əhvalat və hadisələrin əlaqələri üzərində düşünün.

Tövsiyələr məzmunla bağlı mənimsənilənlərin bir daha nəzərdən keçirilməsini, təsəvvürdə canlandırılmasını, müəllifin daha çox əhəmiyyət verdiklərinin üzərində dayanılmasını diqqət mərkəzinə çəkir. Əhvalat və hadisələrin əlaqələrinin müəyyənləşdirilməsi əsas və əlavə süjet xətlərinin izahına əlverişli imkan yaradır. Beləliklə, əsərin məzmunu ilə bağlı təsəvvürün aydın, mükəmməl olması mövzu haqqında dəqiq fikirlərin söylənməsini təmin edir.

Tövsiyələr obrazların təhlilinin də səmərəli aparılmasına rəvac verir. Ovçu Hatəm barədə oxu, məzmunun dərinləşdirilməsi mərhələlərində xeyli təsəvvür qazanan şagirdlər tövsiyələrə əsaslanmaqla obrazı ətraflı səciyyələndirməkdə çətinlik çəkmirlər. Tövsiyələr aşağıdakı məzmundadır:

– müxtəlif vəziyyətlərdəki hiss və düşüncələrini yada salın;
– fərqli məqamlarda davranış və əməllərini xatırlayın;
– mühüm qərarlar qəbul etməsinə səbəb olan hadisələr barədə düşünün.

Layihə

Ovçu Hatəmin müxtəlif vəziyyətlərdə keçirdiyi hiss-həyəcan onun zəngin mənəvi aləmi barədə aydın təsəvvür yaradır. O, fərqli məqamlarda – ən çətin anlarda belə humanist, xeyirxah bir insan olduğunu davranış və əməlləri ilə təsdiq edir. Köməksiz ayı balalarını taleyin ümidinə buraxmayan, insanlara ziyan vuran vəhşi heyvanları zərərsizləşdirən, qadağan edilmiş müddətlərdə ov edənlərə qarşı çıxan Hatəmin qəbul etdiyi mühüm qərarlar da onun haqlı olduğunu sübut edir.

Hatəm və Elxan obrazlarının müqayisəli səciyyələndirilməsi üzrə tapşırığın yerinə yetirilməsi müstəqil yanaşmanı zəruri edir. Dərslikdə əks etdirilmiş cədvəldə müqayisə üçün əsasların verilməsinə baxmayaraq tapşırıq şagirdlərdən yaradıcı düşünməyi, yazıçının "unutduğu", "yan keçdiyi" incəlikləri görməyi, diqqətə çatdırmağı tələb edir. Müəllim məqsədindən, sinfin səviyyəsindən asılı olaraq cədvələ müqayisə üçün yeni əsaslar əlavə edə bilər.

| S. | Obrazlar | Hansı cəhətlərə görə müqayisə olunurlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | xarakterlərindəki başlıca cəhətlər | | davranış və əməlləri | | təbiətə və heyvanlar aləminə münasibətləri | | xarici görünüşləri | |
| | | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq | oxşarlıq | fərq |
| 1 | Hatəm | | | | | | | | |
| 2 | Elxan | | | | | | | | |

Növbəti tapşırığın (Süjetin mərhələlərini və onlardakı mühüm məqamları izah edin. Əsas və əlavə süjet xətlərinin əlaqələrini aydınlaşdırın) əməkdaşlıq şəraitində (cütlük şəklində, yaxud kiçik qruplarda) icra edilməsi məqsədəuyğundur. Süjetin hər mərhələsi üçün daha səciyyəvi olanların qısaca qeyd edilməsi, əsas və əlavə süjet xətlərinin əlaqələrinin aydınlaşdırılması nümunələr əsasında həyata keçirilir. Əsas və əlavə süjet xətlərinin qarşılıqlı əlaqələrinin aydın təsəvvür edilməsi əsərin bütövlükdə qavranılmasına əhəmiyyətli təsir edir.

Digər tapşırığın (Hekayənin məzmunu oxuduğunuz hansı nağılı  xatırladır? Onların məzmunları arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirin) uğurla yerinə yetirilməsi üçün dərsə qədər müəyyən hazırlıq işlərinin aparılması faydalıdır. Başqa sözlə, hekayə ilə müqayisə olunacaq və artıq tədris edilmiş nağılı müəyyənləşdirmək, yaxud yeni nağılın oxusunu təşkil etmək vacibdir. Hekayənin məzmunu ilə nağılın məzmunu arasındakı oxşarlıq və fərqdən danışarkən, təbiidir ki, iştirakçıların – obrazların müqayisəsi də ön plana çəkilir. Müqayisə üçün əsasların müəyyənləşdirilməsi vacibdir.

Sonuncu tapşırıq (Hekayənin əsas ideyasını şərh etməyə çalışın) şagirdlərin əməkdaşlığı əsasında yerinə yetirilir. Dərslikdə ideya üçün təklif edilmiş variantlardan birinin seçilməsi, yaxud yeni variantın müəyyənləşdirilməsi xeyli vaxt və gərgin iş tələb edir. Əvvəlki dərslərdə müəyyənləşdirilmiş mühüm mətləblərin yada salınması ideya ilə bağlı doğru nəticənin çıxarılamasına təsir edir. Şagirdlərə xatırladılır ki, təklif etdikləri variantı nümunələrlə əsaslandırmalıdırlar.

**Müzakirə.** Təklif olunan mövzu şagirdlərdə ciddi maraq doğurur. Debat formasının seçilməsi isəşagirdləri daha fəal olmağa sövq edir. Şagirdlər müzakirənin şərtləri ilə tanış olurlar.

1."Təbiətin və heyvanlar aləminin etibarlı qorunması üçün ən sərt qərar qəbul edilməlidir" mövzusunda debata hazırlaşın.

2. Lehinə, yaxud əleyhinə olmaqla əsaslandırılmış dəlillər hazırlayın.

3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.

4. Fərqli fikirlərə hörmətlə yanaşın.

Müzakirənin səmərəli keçməsi üçün təbiətin qorunmasına aid mühüm sənədlərdən bir neçəsi ilə şagirdləri tanış etmək faydalıdır. Təbiətin qorunmasının problem kimi  dünyanın mütərəqqi qüvvələrini düşündürdüyünü, daim gündəlikdə olduğunu, bununla bağlı bir sıra sənədlərin hazırlandığını və rəsmiləşdirildiyini şagirdlərin bilməsi faydalıdır. Lakin təəssüf ki, bu, bəşəriyyət üçün problem olaraq qalır, onun həllinə laqeyd münasibət hələ də az deyil.

Bütün bunlar barədə məlumatlı olan şagirdlərin daha əsaslı fikir bildirmələrinə imkan yaranır.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Obrazları davranış və əməllərinə görə nümunələr əsasında səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Obrazları xarakter, həyata baxış, davranış, əməl və xarici görünüşlərinə görə nümunələr göstərməklə müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas süjet xəttinin mərhələlərini nümunələr göstərməklə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsas və əlavə süjet xətlərinin əlaqələrini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə nağılın məzmununu nümunələrə əsaslanmaqla müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin ideyasını ondakı mühüm mətləblərə əsaslanmaqla məntiqi ardıcıllıqla şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

**Mövzu:**

**TOFİQ NURƏLİ.**

**PAYIZ NAĞILI –**

**1 saat**

**Təlim məqsədləri**

- Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırır (7-1.1.1).
- Şeirdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) müəyyənləşdirir (7-1.1.2).
- Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (7-1.1.3).
- Şeirin vəzn xüsusiyyətlərini müəyyənləşdirir (7-1.1.6).
- Şeirin mövzusu ilə bağlı ilkin qənaətlərini izah edir (7-1.1.8).
- Əsərin əsas ideyasını şərh edir (7-1.2.2).
- Çıxışın məzmununa uyğun sadə plan hazırlayır (7-2.1.1).
- Çıxışında mimika və jestlərdən istifadə edir (7-2.1.3).

**Köməkçi vasitələr:** Tofiq Nurəlinin əsərlərindən nümunələr, “Payız nağılı” şeirinə aid illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Şeirin oxusu, ilkin təəssüratın bölüşülməsi, məzmuna aid sualların və onlara cavabların yazılması.
**2. Öyrəndiklərinizi yoxlayın.** Sualların və cavablarının müzakirəsi.
**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunun, nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi və tətbiqi üzrə iş.
**4. Müzakirə.** Şeirin mövzu, ideya, vəzn və bədii xüsusiyyətlərinin dəyərləndirilməsi.
**6. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə şeirin oxusu, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, mətnə aid sualların yazılması və onlara cavabların hazırlanması, öyrənilənlərin dərinləşdirilməsi, məzmunun, nəzəri anlayışların mənimsənilməsinin möhkəmləndirilməsi, mövzu, ideya, vəzn və bədii xüsusiyyətlərin dəyərləndirilməsi.

**Müəllim üçün əlavə məlumat.** *Bu qəbildən dərslər üçün müəyyənləşdirilmiş standartlar, adətən, çox olur. Belə dərslər üçün standartların seçilməsi müəllimin məqsədindən asılıdır. Şagirdlərində bacarıqların səviyyəsi barədə aydın təsəvvürü olan müəllim bu dərslərdə vacib hesab etdiklərinin üzərində dayanır.*

**Oxu. Anlama**

Şeiri səssiz oxuyan şagirdlərin gözlərinin önündə bir-birini tamamlayan gözəl təbiət mənzərələri canlanır: payız fəslinin özü ilə gətirdiyi göy gurultusu, şimşəyin gözqamaşdırıcı işığı, şiddətli yağış, sərçələrin təşvişə düşməsi, isti yerlərə köçənlərin yır-yığışı... Bütün bu mənzərənin qavranılmasına ilkin oxudan sonra hansı səviyyədə nail olunur? Təəssüratların bölüşülməsi, şagirdlərin əsərin məzmuna aid yazdıqları suallar və onlara hazırlanmış cavabların müzakirəsi bu barədə aydın təsəvvürün qazanılmasına səbəb olur. Əhatəli sualların hazırlanması mətnə yenidən, həm də daha

Layihə

diqqətlə nəzər salınmasını tələb edir. Müzakirədə sualların cavabları ilə yanaşı, onların necə hazırlandığı da diqqət mərkəzində saxlanır.

Müzakirə ayrı-ayrı şagirdlərin təqdimatlarının dinlənilməsi əsasında aparılır. Şagirdlərin fəal dinləmələri, çıxış edənlərə sualların verilməsi təmin olunur.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Bu başlıq altında təqdim olunan tapşırıqların kiçik qruplarda yerinə yetirilməsi məqsədəuyğun sayılmışdır. Tapşırıqlar əsərin məzmunu ilə bağlı mənimsənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi ilə məhdudlaşmır. Şagirdlər bu dərsə qədər mənimsənilmiş bilik və bacarıqların (tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin və onların növlərinin müəyyənləşdirilməsi, ahəng yaradan vasitələrin, heca vəzninə məxsus cəhətlərin aşkara çıxarılması və s.) tətbiqinə geniş imkan qazanırlar.

Başlıca diqqət isə əsərdəki mühüm mətləblərin aydınlaşdırılmasına yönəldilmişdir. Bu, şeirin ideya məzmununun qavranılmasında və dəyərləndirilməsində əhəmiyyətli rol oynayır. Tapşırıqda diqqət yetirilən digər məsələ oxucu təsəvvürü ilə bağlıdır. Şeirdə əksini tapmış payız lövhələri elə ustalıqla yaradılmışdır ki, elə ilk oxuda şagirdlərdə güclü hisslərin baş qaldırmasına səbəb olur. Bu mənzərələrin təsəvvür edilməsi şeirin bədii-estetik təsirini birə-beş artırır və müəllifin niyyətinin başa düşülməsinə təsir edir. Elə buna görə də ayrı-ayrı bəndlərdə əksini tapmış mənzərənin sözlə təsvir edilməsi tələb kimi tapşırığa daxil edilmişdir.

Tapşırığa həmqafiyə sözlərin müəyyənləşdirilməsi tələbinin daxil edilməsinin əhəmiyyətini də unutmaq olmaz. Ahəngin yaranmasında, əsərdə bədiiliyinin artmasında qafiyənin rolunu şagirdlər aydın təsəvvür etməlidirlər. Eləcə də hansı qafiyələrin daha uğurlu sayılmasının səbəbi barədə məlumatlı olmalıdırlar. Bu, istər yeddinci, istərsə də sonrakı siniflərdə bədii sənətkarlıq barədə fikrin formalaşmasında yeri olan məsələlərdəndir.

Kiçik qruplar iş prosesində apardıqları yazılı qeydlər əsasında əhatəli təqdimat hazırlayırlar. Təqdimatların sadə plan əsasında işlənməsi faydalıdır. Bu, məzmunun konkret olmasına, fikirlərin ardıcıllığına və asan başa düşülməsinə səbəb olur.

Təqdimatların fəal dinlənilməsi çıxış edənlərlə dialoqa girməyə, geniş fikir mübadiləsi aparmağa imkan yaradır. Şagirdlərin təhlil və ümumiləşdirmə xarakterli işə hazır olduğunu müəyyənləşdirən müəllim dərslikdə təklif edilmiş sualların əsasında müzakirənin aparılmasını həyata keçirir. Şagirdlər suallarla tanış olurlar.

a) Şeir hansı mövzuda yazılıb?

b) Şeiri maraqlı edən cəhətlər hansılardır?

c) Əsərdə heca vəzninə məxsus hansı cəhətlər əksini tapıb.

d) Əsərin əsas ideyası nədir?

e) Əsərdən hansı nəticəni çıxarmaq olar?

Müəllimin suallara yaradıcı yanaşması faydalı olar. Başqa sözlə, o, sinfin səviyyəsindən, qarşıya qoyduğu məqsəddən asılı olaraq suallarda (əlavələr etmək, ixtisarlar aparmaq baxımından) dəyişiklik edə bilər. Müzakirəyə hazırlıq prosesində hansı iş formasının tətbiqi də müəllimin istəyindən asılıdır. Vaxta qənaət baxımından cütlük şəklində, yaxud kiçik qruplarda işin təşkili daha sərfəlidir.

Tapşırığın ikinci tələbində T.Nurəlinin "Payız nağılı" əsəri ilə M.Abduyevin "Payız" şeirinin müqayisə edilməsi nəzərdə tutulmuşdur. Dərslikdə təklif edilmiş cədvəl şagirdlərin fəaliyyətinin

Layihə

səmərəli olmasını təmin edəcəkdir. Əsərlərin hansı əsaslara (cəhətlərə) görə müqayisə ediləcəyi cədvəldə qeyd edilməmişdir. Bu, şagirdləri bilik və bacarıqlarını yada salmağa, tətbiq etməyə sövq edir. Bununla bağlı ehtiyac yaranarsa, müəllim istiqamətləndirici suallardan istifadə edə bilər. Həm də şagirdlərə məlumdur ki, əsərlər mövzularına, ideyalarına, bədii xüsusiyyətlərinə və s. görə müqayisə edilir. Bu iki şeirin müqayisəsi üçün geniş imkan vardır; onlarda oxşar cəhətlərlə yanaşı, fərqli cəhətlər də az deyildir. Birinci şeirin müəllifində – Tofiq Nurəlidə payız fəslinə sevgi, rəğbət açıq-aşkar duyulmaqdadır. Hətta şimşəyin çaxması, köçhaköçün başlanması, aramsız yağış şairdə qəm-qüssə oyatmır, bütün bunları o, təbii qəbul edir... Payızın hər lövhəsində bir gözəllik, xoş ovqat yaradan nə isə görür və göstərir:

Sərçələr yığılır damın altına –
Düzülüb cərgəylə bir sətir kimi.
Ana quş havada açar qanadın
Yuvanın üstündə bir çətir kimi.

Bəlkə də, kiməsə qəmli, darıxdıdırçı görünən payız günü fərəh, xoş ovqat yaradan mənzərə ilə diqqətə çatdırılır:

Sonra yavaş-yavaş kəsilər yağış,
Sonra yavaş-yavaş duman sürünər,
Sonra buludlardan boylanar günəş,
Sonra bütün dünya təzə görünər.

Şagird-oxucu Muxtar Abduyevin "Payız" şeirində fərqli mənzərə ilə qarşılaşır. Oxucu şeirin elə ilk misralarından payız fəslinun xoş təəssürat yaratmayan təsviri ilə qarşılaşır:

Payızdır, yenə də göyün üzünü
Bozarıb qaralmış bulud alıbdır.
Ağsaçlı dağlara, günəşli düzə
Kədərli yorğanın duman salıbdır.

Misradan-misraya, bənddən-bəndə bu kədərli ovqat daha da güclənir. Payızın gəlməsi ilə dağlar, bulaqlar qəmə batıb, çəmənləri, çiçəkləri solan şən oylaqlardan əsər qalmayıb... Günəşin də hərarəti azalıb, indi torpağı isindirməyə onun qüdrəti çatmır, çiçək açmış dibçək gülləri isə insana bahar sevincini yaşada bilmir...

Bu iki əsərdə yaradılmış təbiət mənzərələrinin müqayisə edilməsi şagirdlərdə fərqli emosional durumun yaranmasına, müəlliflərin mövqeyinin, niyyətinin aydınlaşdırılmasına səbəb olur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə kontekstə uyğun aydınlaşdırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə ahəng yaradan vasitələri (bənd, ritmik fasilə, məntiqi fasilə) mətnə uyğun müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin vəzn xüsusiyyətlərini nümunələrə əsaslanmaqla müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | | |
|---|---|---|
| Şeirin mövzusu ilə bağlı qənaətlərini başlıca mətləblər əsasında izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin əsas ideyasını nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışın məzmununa uyğun sadə azbəndli plan hazırlayır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə mətləbləri nümunələr əsasında müəyyən edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Çıxışında mimika və jestlərdən məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

Layihə

# BEŞİNCİ BÖLMƏ ÜZRƏ
# İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə İ.Əfəndiyevin “Şəhərdən gələn ovçu” hekayəsi üzrə aparıla bilər.*

İ.Əfəndiyev
ŞƏHƏRDƏN GƏLƏN OVÇU
(ixtisarla)

Ovçu Piri oylağa çatanda dan yerindən soyuq külək əsirdi. Düzənliyə çökən boz duman tərpənib qərbə doğru çəkilməyə başladı. Üfüqdən uzanmış şüalar altında parlayan körpə payız otları üşüyürmüş kimi titrəşirdilər. Ovçu Piri lap ayağının ucuna qalxdı, yaxındakı şehli yovşan koluna qonan çobanaldadan quşundan gözünü çəkib başını qaldırdı. Bu zaman aralanmaqda olan duman içindən başqa bir ovçunun çıxdığını gördü. Onun əynində içi xəz gödəkçə, ayaqlarında iri əsgər çəkmələri var idi. Azca yana əyilmiş gümüşü papağının yanlarından vaxtından tez ağarmış qıvrım saçları görünürdü. Sol əlini belinə boş bağlanan qatara keçirmiş, sağ əli ilə çiynindən asılan təzə qoşalülənin qayışından tutmuşdu. İri çal bığları onun qarabuğdayı üzünə yetkin, ağır bir görkəm verirdi.

– Sabahın xeyir, ovçu qardaş, – deyə o, bərkdən səsləndi. – Papirosun yoxdur?

– Sabahın xeyir... – deyə ovçu Piri ayaq saxlayıb qədim, taxta qutusunu çıxartdı və dedi, – tütünüm var…

– Bəri ver görüm, – deyə dumandan çıxan ovçu ona yaxınlaşdı. – Papirosum yadımdan çıxıb, qalıb maşında… nəfəsim lap qaralıb.

– Görünür, şəhərdənsən?

Yeni ovçu:

– Bəli, – dedi, – şəhərdənəm.

Ovçu Piri şəhərdən gələn ovçunun tüfəngini alıb diqqətlə nəzərdən keçirdi. Günəşdən, ayazdan yanıb qaralmış arıq, sağlam üzü birdən-birə canlandı. Gözləri parladı.

– Bunlar yaxşı tüfənglərdir. Mən də bir adamda bunun birinin yerini eləmişəm, gərək nə cür olsa, pul düzəldib onu alam.

Ovçu Piri çat-çat olmuş qabarlı əlini ehtiyatla tüfəngin lüləsinə çəkərək sahibinə qaytardı. İndi duman tamam çəkilib getmişdi. Yeni göyərmiş otların, yayda qurumuş tikanlı qanqalların arasında tək-tük sarı, firuzəyi çiçəklər görünürdü.

– Eh, – deyə ovçu Piri yanıqlı bir səslə dilləndi, – biz gəldi-gedərik, sən yaşa, dünya!

– Bu haradan yadında qalıb, ay ovçu qardaş? – deyə şəhərli soruşdu.

– Heç bilmirəm, haradan yadımda qalıb... Ancaq yaxşı deyib.

Şəhərdən gələn ovçu xeyli uzaqda, düzənlə göyün birləşən yerində bir dəstə ceyran gördü. Onlar dayanıb nəyi isə dinləyirdilər.

– Aşağı yat… – deyə Piri yerə çökərək şəhərlinin ətəyini dartdı. Lakin birdən elə bil ki sürü nədən isə hürkdü, ildırım kimi qaçıb gözdən itdi.

– Bay... – deyə Piri təəssüflə səsləndi.

Ancaq çox çəkmədi ki, sürü yenidən göründü. Ceyranlar bir an dayanıb bir-birinə sığındılar. Sonra tərpənib o yandan bəri qaçmağa başladılar.

– Düz üstümüzə gəlirlər, – deyə ovçu Piri sevinclə səsləndi. – Ancaq balaca qımıldandın, heç nə... Əlli-altmış addım qalmış atacağıq…

Ovçu Piri yoldaşını dümsüklədi. Bu, “hazır ol!” demək idi. Lakin şəhərli ovçu bunu hiss etmədi. Onun sevinc və heyrətlə baxan gözləri kolların, uca qanqalların üzərindən atıla-atıla gələn sürüdə idi. Onların şəvə kimi qara dırnaqları tez-tez havada parlayırdı. İndi şəhərdən gələn ovçu onların balaca, qəşəng ağızlarını, iri, qara gözlərindəki mehriban və ürkək ifadəni aydınca seçirdi. Ovçu Piri ceyranları nişan alanda şəhərli ovçu gözlərini ceyrandan çəkmədən onun tüfəngindən yapışdı:

Layihə

– Dayan! – deyə həyəcanla əmr etdi. Ceyran sürüsü ürküb bir göz qırpımında uzaqlaşdı. Ovçu Piri əvvəlcə şəhərliyə, sonra da əldən çıxmış ceyranların dalınca baxdı. Sonra yenə şəhərdən gələn ovçuya sarı dönərək:

– Əşi, necə yəni dayan! – deyə təəccüblə soruşdu.

Sürünü nəzərləri ilə izləyən şəhərli ovçu cavab vermədi. Ovçu Piri dikəlib oturaraq yanıqlı-yanıqlı deyindi:

– Vay, səni! Heyif, heyif!..

Sürü tamam gözdən itəndən sonra şəhərli ovçu dərindən nəfəs alaraq üzünü ovçu Piriyə döndərib soruşdu:

– Nə buyurdun?

– Nə buyuracağam? – deyə ovçu Piri yenə təəccüblə ona baxdı. Sonra yuxudan təzə ayılan adamla danışırmış kimi, bərkdən əlavə etdi:

– Bir sürü ceyranı əldən çıxartdın!

Şəhərli ovçu tüfəngini çiyninə salıb qabaqda, ovçu Piri isə ürəyində deyinə-deyinə onun ardınca gedirdi. Birdən şəhərli ovçu papağını gözünün üstünə çəkib fitlə "Çobanı" çalmağa başladı. Ovçu Piri "Çobanı" havasına qulaq asdıqca sanki əsəbləri yavaş-yavaş yumşalır, otuz-qırx il qabaq həmin bu yerlərdə qoyun yaylıma çıxardığı aydınlıq gecələr yadına düşürdü…

Axşamayaxın bərk yağışa düşdükləri üçün şəhərli maşının yanına qayıda bilməyib ovçu Pirinin təklifi ilə onlara getdi. Evə daxil olduqda ovçu Piri arvadı Gülgəzi səsləyib dedi:

– Tez ol, çay-çörək hazırla. Qonaq da səhərdən acdır...

– Yaman yorulmuşam, ovçu qardaş, – deyə şəhərli ovçu tüfəngini divara söykəyib arvadın saldığı döşəkçənin üstündə əyləşdi.

– Mütəkkə-yastıq da qoy, – deyə ovçu Piri arvadını səslədi. Sonra özü də gəlib qonağın yanında oturaraq dedi:

– Ayağını soyun, rahatlan, bu saat bir yaxşı çay içərik, yorğunluğumuz çıxar.

– Bir de görüm, acığın yatdı, ya yox? – deyə şəhərli ovçu gözəl, yorğun gözləri ilə gülümsədi.

– Canın sağ olsun, əşi! – deyə ovçu Piri mərdanə cavab verdi.

…Səhər ovçu Piri oyandığı zaman şəhərli çıxıb getmişdi.

– Nə qədər elədim, çaya qalmadı, – deyə Gülgəz xəbər verdi. – Öz tüfəngini qoyub səninkini götürdü, dedi ki, kişi ilə dəyişmişik.

– Necə? – deyə ovçu Piri qulaqlarına inanmırmış kimi, tələsik qalxıb şəhərlinin divara söykənib qalmış qoşalüləsini əlinə götürdü... Ovçu Piri əlində tutduğu qoşalüləyə xeyli baxdı. Sonra ağır-ağır dedi:

– Kişinin adını da soruşmadım.

Bu hadisədən xeyli keçmişdi. Sərin bir yay axşamı ovçu Piri öz zağlı qoşalüləsini onun otuz ildən qalma köhnə tüfəngi ilə dəyişib xəbərsiz gedən o qəribə ovçunun əhvalatını klubun qabağına toplaşmış kəndlilərə yenicə nağıl edib qurtarmışdı ki, radioda böyük Azərbaycan şairi Səməd Vurğunun "Ceyran" şeirini oxudular. Xeyli müddət kimsə dinmədi. Hərənin nəzəri bir nöqtəyə dikilmişdi.

– Bah! – deyə xəyala getmiş ovçu Piri birdən səsləndi, – elə bil kişi hamısını öz gözü ilə görüb yazıb...

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsər haqqında təəssüratınızı qısaca qeyd edin.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

2. Fikirlərdən biri yanlışdır.

A) Hekayədə təbiət təsvirlərinə yer verilmişdir.
B) Hər iki ovçu ov məqsədilə oylağa çıxmışdı.
C) Şəhərli ovçunun gözlənilməz hərəkəti ceyran ovunun baş tutmamasına səbəb oldu.
D) Əsərdə təbiətə qayğı, nadir heyvanların tükənmək təhlükəsi əks olunub.
E) Şəhərli ovçunun öz tüfəngini qoyub getməsi ovçu Piri üçün gözlənilməz olmur.

3. Cədvəlin boş xanalarını uyğun fikirlərlə tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| 1. | Şəhərli ovçu ceyranları nişan alan Pirinin tüfəngindən yapışıb güllə açmasına imkan vermir. |
| 2. Ovçular yağışa düşürlər. | |
| 3. | Şəhərli ovçu öz qoşalüləsini ovçu Pirinin tüfəngi ilə dəyişir. |
| 4. Radioda S.Vurğunun “Ceyran” şeirini oxuyurlar. | |

4. Ovçu Piri və şəhərli ovçu obrazlarını səciyyələndirin. Cədvəldən istifadə edin.

| Obrazlar | | | |
|---|---|---|---|
| ovçu Piri | | şəhərli ovçu | |
| Xarakterindəki başlıca cəhətlər | Hiss, düşüncə və davranışları | Xarakterindəki başlıca cəhətlər | Hiss, düşüncə və davranışları |
| | | | |

Layihə

5. Əsərdə işlənmiş və daha maraqlı hesab etdiyiniz bədii təsvir və ifadə vasitələri əsasında cədvəli tamamlayın.

| Bədii təsvir və ifadə vasitəsi işlənmiş cümlə | Bədii təsvir və ifadə vasitəsinin növü | Bədii təsir gücünün artmasında rolu |
|---|---|---|
| | | |
| | | |
| | | |

6. Yazıçının ovçu Piriyə və şəhərdən gələn ovçuya münasibətini aydınlaşdırıb qısaca qeyd edin.

| Obrazların adı | Yazıçının münasibətini əks etdirən söz və ifadələr |
|---|---|
| Ovçu Piri | |
| Şəhərli ovçu | |

7. Sizcə, şəhərli ovçunun ceyran sürüsünü ürkütməsi təsadüfi idimi? Fikrinizi əsaslandıran dəlillər göstərin.

8. Hekayənin süjetinin mərhələlərini müəyyən edib ardıcıllıqla yazın.




9. Hekayədəki əsas fikri — ideyanı müəyyənləşdirin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

Layihə

| s. | Fikirlərdən hansı ideya üçün əsas sayıla bilər? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1. | Qonaq sevənin süfrəsi boş olmaz. | | |
| 2. | Səxavət insanın zinətidir. | | |
| 3. | Təbiətə qayğı, heyvanları qorumaq vacibdir. | | |
| 4. | Xoş söz, xoş ünsiyyət insan ruhunun qidasıdır. | | |

10. Əsər təbiət, onun nadir canlılarının qorunması barədə sizdə hansı hiss və düşüncələr yaratdı? Təəssüratınızı qısaca qeyd edin.

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Layihə

BURAXILIŞ MƏLUMATI

ƏDƏBİYYAT – 7
Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün ədəbiyyat fənni üzrə
METODİK VƏSAİT

Tərtibçi heyət:

| | |
|---|---|
| Müəlliflər | Aynur Cəfər qızı Mustafayeva<br>Soltan Hüseyn oğlu Əliyev |
| Redaktor | Kəmalə Cəfərli |
| Bədii redaktor | Taleh Məlikov |
| Texniki redaktor | Zeynal İsayev |
| Dizayner | Taleh Məlikov |
| Rəssamlar | Elmir Məmmədov |
| Korrektor | Aqşin Məsimov |

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2026-035

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək,
surətini çıxarmaq, elektron informasiya vasitələri ilə
yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 20,5. Fiziki həcmi: 26 çap vərəqi.
Formatı: $57\times82^{1}/_{8}$. Kəsimdən sonrakı ölçüsü: 195×275. Səhifə sayı: 208.
Şriftin adı və ölçüsü Times New Roman qarnituru 9-11 pt. Ofset kağızı. Ofset çapı.
Pulsuz. Bakı – 2026.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 11.05.2026

Çap məhsulunu hazırlayan:
"Bakı" nəşriyyatı (Bakı, H.Seyidbəyli küç., 30)

Layihə